*Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu*
*Elmi Şurasının 29 sentyabr 2023-cü il tarixli*
*qərarı ilə (protokol № 5) nəşr olunur.*

# ŞƏRUR FOLKLOR ÖRNƏKLƏRİ

# II KİTAB

## (Havuş kənd sakinindən toplanmış nümunələr)

**BAKI – 2023**

**LAYİHƏ RƏHBƏRİ:** **Akademik Muxtar KAZIMOĞLU (İMANOV)**

**TOPLAYIB TƏRTİB EDƏN:** **fil.ü.f.d., dos. Ləman VAQİFQIZI (SÜLEYMANOVA)**

**ELMİ REDAKTOR:** **f.e.d., prof. Əfzələddin ƏSGƏR**

**NƏŞRİNƏ MƏSUL:** **Mahir CAVADOV**

**Şərur folklor örnəkləri, II kitab (Havuş kənd sakinindən toplanmış nümunələr). Bakı, "Elm və təhsil", 2023, 304 səh.**

ISBN 9 7 8 - 9 9 5 2 - 5 6 8 - 5 5 - 4

4702000000 / N-98-2023 Qrifli nəşr

© Folklor İnstitutu, 2023

# ÖN SÖZ

Biz, adətən, Azərbaycanın rayonlarını, kəndlərini qarış-qarış gəzərək xalqın folklorunu, adət-ənənəsini, etnoqrafiyasını yaxşı bilən şəxsləri axtarır, onlarla söhbətləşməyə çalışırıq. Onlardan min bir əziyyətlə topladığımız materialları saf-çürük edir, folklor toplularını tərtib edirik. Amma heç ağlımıza da gəlmir ki, lap yanımızda – iş yoldaşlarımızın arasında bəzən şifahi xalq ədəbiyyatını, xalqının məişətini yaxşı bilənlər var. İş yoldaşımız, "Türk xalqları folkloru" şöbəsinin elmi işçisi Südabə Əkbər qızı Həsənovanın eyni zamanda yaxşı söyləyici olduğunu eşidib, hərəkətə keçdik. Onu da qeyd edək ki, elmi müəssisənin əməkdaşının da tədqiqata cəlb edilməsi halına indiyədək rast gəlməmişdik. Bu, bizim tərəfimizdən ilk dəfə təcrübə edildi və düşünürük ki, səmərəli nəticə verdi.

Südabə Əkbər qızı Həsənova 12 oktyabr 1958-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Havuş kəndində anadan olmuşdur. 1965-ci ildə Havuş kənd orta məktəbinin birinci sinfinə daxil olmuş, 1975-ci ildə Axura kənd orta məktəbini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra İliç (Şərur) rayonunun Rabitə qovşağında əmək fəaliyyətinə başlamışdır. 1977-1979-cu illərdə Frunze adına kolxozda, 1980-1987-ci illərdə isə Frunze adına sovxozda işləmişdir. 1984-cü ildə Y.H.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutuna Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə qəbul olunmuş, 1989-cu ildə oranı bitirmişdir. 14 yanvar 1988-ci il tarixindən Havuş kənd 8 illik məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib. 1990-1993-cü illərdə Axura kənd orta məktəbində təsərrüfat müdiri, 1993-1999-cu illərdə həmin məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi çalışıb. 1999-2006-cı illərdə Şərur

rayon Texniki Yaradıcılıq Mərkəzində dərnək rəhbəri işləyib. O, hal-hazırda AMEA Folklor İnstitutunun “Türk xalqları folkloru” şöbəsinin elmi işçisidir.

Südabə xanımdan folklor toplamağa 19 noyabr 2021-ci ildən başladıq, 24 fevral 2022-ci ilədək nə az, nə çox, düz 15 dəfə elə iş otağındaca söhbətləşdik, xeyli folklor materialı və etnoqrafik bilgi qeydə aldıq. Südabə xanımla hər söhbətimiz zamanı yanılmadığımıza bir daha əmin olduq.

Söyləyicimiz bizə danışanadək dediyi mətnlərin bir qismini özü dəftərlərə yazmağa çalışmışdı. Amma bu çox sönük çıxmış, mətnlərin quru xronikasından ibarət bir şey alınmışdı. İlk söhbətimizdə həmin dəftərləri bizə təqdim etdi. Onları nəzərdən keçirdik və çap üçün yararlı hesab etmədik. Qərara aldıq ki, dəftərləri kənara qoyaq və o, yaddaşında olanları şifahi şəkildə danışsın. Şifahi ifa zamanı çoxlu yeni informasiya yada düşür, təhkiyə daha canlı alınır, söyləyici özü də bu işin necə yaxşı olduğuna heyrət edir, sevinir, bizə dua edirdi.

Südabə Əkbər qızı Həsənova təbiətən utancaq adam olduğu üçün otaqda bizdən başqa adam olarsa, danışmır, otağa hansısa əməkdaş girirdisə, nitqi dərhal qırılırdı. Yenidən tək qaldığımızda isə söhbətə qaldığı yerdən davam etməyə istər-istəməz çətinlik çəkirdi. Onu yenidən söhbətə sövq etmək bizim üçün də asan olmurdu. Danışarkən ailə üzvlərinə – baba, nənə, anasına və s. istinad etməyi xoşlayır, demək olar ki, bütün mətnlərdə “Fatma nənəm nağıllıyardı ki”, “Heydar babamnan eşitmişəm”, “anam belə edərdi”, “bibimdə görmüşəm ki” kimi ifadələr işlədirdi. Beləliklə, Südabə xanımın bütün danışdıqları uşaq vaxtı öz ailəsinin yaşlı üzvlərindən eşitdikləri, Şərurun tarixi kəndlərindən biri olan Havuşda gördükləri idi. İndiyədək Azərbaycan folklorunda bir kəndin folklor və etnoqrafiyasından bəhs edən

ayrıca akademik elmi nəşrlə qarşılaşmamışıq (Ayrı-ayrı folklor həvəskarlarının qeyri-professional səviyyədə toplayıb nəşr etdirdikləri məcmuələri nəzərdə tutmuruq). Kitabı bu sahədə də ilk təcrübə hesab etmək olar.

Söyləyicimizin maraqlı tərəflərindən biri də budur ki, mətnləri iç-içə danışır, sanki toxuyurdu. Bu, şifahi nitqdə yaxşı görünür, amma tərtibçiyə xeyli çətinlik yaradır. Əslində mövzular fərqli olsa da, söyləyicimiz onları bir-birinə calaq etməyə çalışmışdı deyə mövzuları ayırmaq üçün əməlli-başlı əziyyət çəkməli olduq. Südabə Həsənova mətnləri danışarkən bəzən hədsiz təfərrüata varır, bir məsələni qoyub o birisinə keçməli olur, sonra yenidən əvvəlki mövzuya qayıdırdı. Bu, xüsusilə, etnoqrafik mətnləri danışanda baş verirdi. Biz mətnlərin tərtibi zamanı dolaşıqlıqdan qaçmaq üçün eyni mövzulu olanları bir yerə yığmağa çalışdıq. O, mətnlərin arasında tez-tez haşiyələr çıxırdı ki, bunların bir qismi ya onun uşaqlığı ilə bağlı olurdu, ya da mətnin içərisinə müxtəlif etnoqrafik detallar əlavə edirdi. Bunların yersiz görünənlərini mətnləri çapa hazırlayarkən pozduq, lazımlı hesab etdiklərimizi isə mötərizənin arasında verdik.

S.Həsənova özü də bilmədən bizə bəzi məsələləri dəqiqləşdirməyə kömək etdi. Son dövr tədqiqatlarımızda daha çox bayatıya kökləndiyimiz üçün həmin janrın söyləyicinin yaddaşında hansı şəkildə mövcud olduğunu, onun deyilmə texnikasını araşdırmağa çalışırdıq. Bütün bölgələrimizdən olan söyləyicilərə bu məsələ ilə bağlı dəfələrlə suallar ünvanlasaq da, bu janrın ifa edildiyi müxtəlif məclislərdə (məhərrəmlik, yas və s.) şəxsən iştirak edib, məclis iştirakçılarını canlı şəkildə (Prosesin canlı, diri olduğunu nəzərdə tuturuq.) müşahidə etsək də, məsələni əslində tam anlaya bilmədiyimizi düşünürdük. Əslində bu məclislər bizə bayatıların hansı şəkildə söyləyici hafizəsində varlığını, ifa za-

manı onun necə dəyişikliyə uğradığını, məclisin əhval-ruhiyyəsinə necə uyğunlaşdırıldığını, söyləyici və auditoriya münasibətlərinin hansı formada qurulduğunu, bunların bir-birinə necə təsir etdiyini və s. məsələləri başa düşməyimizə kömək etmişdi. Söhbət zamanı o, əvvəldən yazdığı dəftərə baxıb oradan oxuduğu bayatıların gülümey, yaxud haxışta avazına uyğun gəlib gəlməməsini müəyyənləşdirməyə çalışırdı. Bu zaman bizə aydın oldu ki, hansı bayatının gülümey, haxışta kimi deyilməsini yalnız məzmun deyil, eyni zamanda bayatı mətninin hansı avaza yatımlı olması, hətta incə, yaxud qalın saitlər əsasında qurulması da təyin edirmiş. Onu da deməyimiz yerinə düşər ki, haxışta və gülümeylərdə oxunan mətnlərin böyük əksəriyyəti universal olub hər ikisində, eləcə də halay, hayla, qavallama, hodagül, vəsfi-hallarda və s. də oxuna bilir.

Südabə xanım zamanla bizə tam alışmış, yanımızda sərbəst danışmağa, davranmağa başlamışdı. Olduqca utancaq, həyalı qadın olan Südabə xanım söyləyicilik məqamında artıq dəyişilir, daha canlı xarakterli birinə çevrilirdi. Əvvəlcə utana-utana danışan, danışdıqca rəng alıb-verən söyləyicimiz artıq bizə avazla, çırtıq, çəpik çala-çala, gözlərini süzə-süzə haxışta, gülümey, yallıbaşı (O, yallıbaşı mahnılarını həm də nananay adlandırırdı.) oxumağa başlamışdı. Yallılardan bəhs edərkən onları ağzında zümzümə edir, onların necə oynanıldığını bizə hərəkətləri ilə göstərməyə çalışırdı.

O, nəsrlə olan mətnləri asanlıqla danışa bilirdi, amma nəzmlə olan janrları danışanda çaşmamaq üçün onları əvvəlcədən dəftərə, yaxud vərəqə yazıb gətirirdi. Bu işə elə aludə olmuşdu ki, bəzən işdən çıxıb evə getdiyimiz zaman bir və ya bir neçə bayatını xatırlayır, onları bizə elə yoldaca deyirdi. Yolda diktafonumuz işlək vəziyyətdə olmadığı üçün onları ya telefona

yazır, ya da xahiş edirdik ki, gedib evdə qeyd etsin, unutmasın, növbəti söhbətlərimizdə bunları da yazaq. Bəzən növbəti söhbətə qədər səbr etmir, evə çatan kimi həmin bayatıları səsli formada vatsap üzərindən göndərir, "bura atıram ki, qalsın", – deyirdi. Bununla belə, söhbətlərimiz yekunlaşandan sonra bayatıların bir qismini və atalar sözlərini yazılı şəkildə bizə təqdim etdi.

Təpədən-dırnağa qədər milli ruhlu insan olan Südabə Həsənovanın elə danışdıqları da millidir. Südabə xanım Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun ucqar kəndlərindən birində – Havuşda dünyaya göz açıb. Havuş Naxçıvanın ən qədim kəndlərindən biridir. Sanki hündür dağların ovcunda yerləşdiyindən kənd "ovuc", "avuc", "Havuş" adlandırılmışdır. Professor Akif İmanlının "Onomastika məsələləri" kitabında "Havuş" sözünün mənşəyi barədə yazılır: "Kəndin adının mənşəyi yerləşdiyi coğrafi mövqe ilə sıx bağlıdır. Bir zamanlar "ovuş", "avuş" adlanıb, sonralar Havuş şəklinə düşüb. İraq-Kərkük bayatılarında da bu sözə rast gəlinir: "İnci səpdim havuşa; Sərxoşam, yerim döşə; Yastığımdan gül qoxar; Döşəgimdən bənövşə".[1]

Havuş kəndi "Şərur şəhərindən təxminən 30-35 kilometr aralı məsafədə, dəniz səviyyəsindən 2 min metr hündürlükdə yerləşir".[2] Kənd sakinləri heyvandarlıqla, əkin-biçinlə məşğul olur, halal zəhmətlə dolanırlar.

Kənddəki yurd yerləri tarixən burada yaşamış türk tayfalarının və onun başçılarının adını saxlamaqdadır: Qazan xan, Mayılxan, Pişgəhli, Xanın qoruğu və s.

---

[1] İmanlı A., Onomastika məsələləri, Naxçıvan, "Məktəb", 2011, səh. 150-151

[2] O dağda bir kənd var Havuş adında... "Şərurun səsi" qəzeti. https://naxcivantv.az/index.php/news/17422-o-da%C4%9Fda-bir-k%C9%99nd-var-havu%C5%9F-ad%C4%B1nda%E2%80%A6.html

1929-cu ildə Şərura aid doqquz kənd Ermənistana verilmişdir. Nəticədə vaxtilə Azərbaycana aid olan Xaçik kəndi ilə böyür-böyürə qalan Havuş ən ucqar sərhəd kəndi kimi nəinki xalqımıza məxsus milli dəyərlərimizin, adət-ənənələrimizin, eyni zamanda dövlət sərhədinin qorunmasında da ön mövqedə dayanmış, müxtəlif dövrlərdə erməni yaraqlılarının hücumlarının qarşısını almışdır.

Uşaqlıqdan nənə-baba yanında böyüyən Südabə xanım yaşadığı bölgəni, elini, obasını yaxşı tanıyır, folklorunu və etnoqrafiyasını yaxşı bilir. Söyləyicimiz kitab ərsəyə gələndən sonra onun ailə üzvləri, iş yoldaşları, tanışları tərəfindən oxunacağı ehtimalını nəzərə aldığı üçün mətnləri bəzən ehtiyat edə-edə danışır, onlardakı qeyri-etik sözləri, ifadələri işlətmirdi. Nağılları danışanda "Çölməyin nağılı", "Xanımın oynacı"[3] adlı mətnlərdən də bəhs etdi, amma onların ədəbsiz olduğunu əsas gətirərək danışmaq istəmədi. Doğumla bağlı olan xalq biliklərini ondan xəbərsiz yazmışdıq. Kitabın ilk variantını nəzərdən keçirməsi üçün ona verəndə həmin mətni gördü və utandı. Xahiş etdi ki, onu kitabdan çıxaraq. Ancaq biz bunun xalq ənənəsini araşdırmaq baxımından əhəmiyyətini nəzərə alaraq, həmin mətni saxlamağı lazım bildik. Ümid edirik ki, buna görə Südabə xanım bizdən inciməz.

Südabə Həsənovadan elə materiallar qeydə ala bildik ki, onları ilin-günün bu vaxtında toplaya bilməyimiz, sözün düzü, bizim özümüzü də təəccübləndirdi. Duzun insanlar tərəfindən kəşfi ilə bağlı danışılan mətn belələrindəndir. Onun danışdığı bu rəvayəti istər obraz adları, istərsə də süjet baxımından son Oğuznamə mətnlərindən hesab etmək olar. Maraqlı burasıdır ki, o, mətndə işlətdiyi xan sözünü kaan/haan kimi tələffüz edirdi. Mətni dinlə-

---

[3] oynac – oynaş

yərkən elə düşündük ki, yəqin ki, ali təhsilli olması, türk tarixi, ədəbiyyatı ilə bağlı olan kitabları oxuması onun nitqinə təsir edib. Amma sonra verdiyimiz sual bu məsələdə yanıldığımızı göstərdi. Südabə xanımın verdiyi cavabdan aydın oldu ki, onun nənəsi Fatma arvad da bu mətni danışanda sözü belə tələffüz edibmiş. Söyləyicimiz bu barədə belə deyir: "Fatma nənəmin çox qəribə danışığı vardı. Havışda, Axurada mən elə ləhcə ilə danışan görməmişdim. Evimizdə də heç kim belə ləhcə ilə danışmırdı. Nənəm heş vax xan deməzdi, xanı qəribə ləhcəylə haan kimi uzadardı. Bizim kəntdə bir İbrahimxannı tayfası vardı. Nənəm İbrahimxannı deyə bilmirdi, həməşə İbraamhaannı deyirdi. Əv damımızda bacanı bağlamağ lazım olurdu. Heydar babam deyirdi: "Qaçın bacanı bağlayın, içəri yağış dolar". Amma Fatma nənəm elə demirdi. Deyirdi: "Ay bala, başııza dolanım, bacayı bağlayın". Hamı deyərdi ki, "anan ölsün", "nənən ölsün". Nənəm deyərdi ki, "anay ölsün, bala", "nənəy saa qurban olsun, bala". Söyləyicinin dediyinə görə, Fatma arvad əslən Havuşdan olub, kəndin Cıyrıxçı[4] tayfasının qızıdır.

Onu da qeyd edək ki, bu mətn Oğuznamə ilə bağlı yeganə mətn deyil, ondan qeydə aldığımız inancların birində də həmin mətnlərlə səsləşmə olduğunu gördük. Arvadı tez-tez ölən kişilərin kəbininin bar gətirən ağaca oxunması istər-istəməz Oğuz Kağanın ağacın koğuşundan tapıb evləndiyi qızı, həmçinin ağacın döşlərindən süd əmərək böyüyən türk bahadırlarını yada salır. Bundan başqa Südabə xanımın söylədiyi inanc "Dədə Qorqud" dastanının qəhrəmanlarından biri olan Basatın məşhur "Atam adın sorar olsan – Qaba Ağac! Anam adın deyərsən – Qağan Aslan! Mənim adım sorarsan, – Aruz oğlu Basatdır" frazasını da xatırladır. Bü-

---

[4] Cıyrıxçı – Söyləyicinin dediyinə görə pambıq əyirən, pambıq toxuyan adamlara cıyrıxçı deyirlər.

tün bunlar çox əski tariximizlə bağlı olan mətnlərin yaxın dövrədək xalq arasında yaşadığını göstərir və belə çıxır ki, hələ də bu tip mətnlərlə xalq arasında rastlaşmaq ehtimalımız vardır.

"Dil tarixin açarıdır", – deyirlər. Südabə xanımla söhbətimiz zamanı bu fikri tez-tez xatırlamalı olurduq. Onun nitqində rast gəldiyimiz söz və ifadələr uzaq keçmişimizə işıq tutur. O, heyvanın kəsilməsindən danışarkən "heyvan kəsdilər" yox, "heyvan öldürdülər" ifadəsini işlədirdi. Naxçıvanın müxtəlif bölgələrində folklor ezamiyyələrində olduğumuz zaman bu ifadənin yalnız Südabə xanımın dilindən deyil, onun mənsub olduğu bölgə əhalisinin dilindən də tez-tez eşidirdik. "Heyvan öldürmək" ifadəsi "Kitabi-Dədə Qorqud" dastanının birinci boyunda Dirsə xanın xatunu tərəfindən işlədilən "Atdan ayğır, dəvədən buğra, qoyundan qoç öldürgil" cümləsini yada salır. Deməli, əski türk təfəkküründə "heyvan kəsmək" ifadəsi ilə paralel "heyvanı öldürmək" də işlədilib. Eləcə də, onun dilindən eşitdiyimiz "qızılbaş köhnəsi" ifadəsi (Bu ifadəni Salyan-Neftçala ərazisində də müşahidə etmişdik) də tariximizin qatlarına işıq tutur.

Onun özünəməxsus danışıq tərzi vardır. Naxçıvandan çıxmasından uzun zaman keçməsinə baxmayaraq hələ də xalq danışıq dilində danışır, yeri gəldikcə nitqini xalq arasında işlənən ifadələrlə "bəzəyir": "Çörəyi yapanda da üzü üsdə olan tərəfini üzə salardılar. Bunu pəsəndə[5] qadınnar edər, ərdəmsiz[6] arvatdar bunun fərqini bilməzdər. Onnar üçün al da birdi, şal da birdi".

Biz onun danışdığı etnoqrafik mətnlərin bir qismini – həcmcə böyük olanları, daha ətraflı danışılanları seçərək sistemləşdirməyə çalışdıq. "Havışın toy adətləri", "Havış kəndinin etnoqrafik həyatında təndir" adlı yazılar digər etnoqrafik mətnlərə nisbətən sis-

---

[5] pəsəndə – işini bilən, səliqəli, evdar

[6] ərdəmsiz – evdarlığı olmayan, bacarıqsız

temli verilmişdir. Bu işin görülməsində əslində Südabə xanımın da köməyi olmuşdur. O, hansı etnoqrafik mətni daha geniş və əhatəli danışdısa, biz də onları sistemləşdirdik. Onu da qeyd edək ki, etnoqrafik materialın çapa hazırlanması folklor materiallarının nəşrə hazırlanmasından daha zəhmətli işdir. Çünki əgər bu mətnlər sistemli verilirsə, danışıq dilindən çıxarılır (amma burada da mümkün qədər milli koloriti qorumağa çalışdıq), ədəbi dil normalarına əməl edilməyə çalışılır, terminlər kursivlə verilir, dialekt sözlərin izahı verilir və s. Biz materialı toplayarkən onu diqqətlə dinləyir, nitqini bölməmək üçün (Folklor toplayarkən söyləyici nitqinin bölünməməsi önəmli dərəcədə əhəmiyyət daşıyır. Çünki söyləyici bu zaman nə deyəcəyini bir sıra hallarda unuda və mətn yararsız hala düşə bilər.) mənasını anlamadığımız söz və ifadələri əlimizdəki dəftərə qeyd edir, onunla söhbətimiz tamamlandıqdan sonra bunların izahını soruşurduq. Bununla belə, mətnləri çapa hazırlayarkən yenə mənasını yaxşı anlamadığımız sözlər oldu və biz dəfələrlə Südabə xanımı narahat etməli olduq. Toplama və tərtib kitablarını akademik şəkildə nəşrə hazırlamaq hədsiz zəhmət tələb edən işdir, mətnlərin ərsəyə gəlməsində söyləyici qədər mətnləri toplayıb çapa hazırlayan şəxsin də rolu olur. Etnoqrafik mətnlərin həcmcə az olanlarını isə sistemləşdirməyə ehtiyac duymadıq, onları söyləyicinin danışdığı kimi verməyi məqsədəuyğun hesab etdik.

Söyləyici deyimlərin bir qismini söhbətimiz zamanı izahlı şəkildə danışmışdı, amma atalar sözləri hesab edərək yazdığı deyimlərin mənası anlaşılmadığından onları ayırdıq və izahını biz verməli olduq. Odur ki, deyimlərin bir qismində söyləyicinin danışıq üslubu olsa da, bir qisminin izahı ədəbi dilə uyğun alındı.

Südabə Həsənova ilə söhbətlərimiz zamanı müşahidə etdik ki, onun repertuarında folklor materialından çox etnoqrafik bilgilər vardır. Görünür, evin tək qızı olması, bu səbəbdən evin

məişət qayğılarının önəmli bir hissəsinin onun üzərinə düşməsi, evdə nənə-baba, valideynlər və bibilər əhatəsində böyüməsi də ona xalq həyatını yaxşı öyrənməyə kömək etmişdir. Bütün bunlarla yanaşı, onun şəxsi müşahidə qabiliyyəti və gördüklərini yaxşı çatdırmaq bacarığı, gözəl yaddaşı da bu bilgilərin belə detallı şəkildə üzə çıxmasına səbəb olmuşdur. Nəzərə alaq ki, etnoqrafiya ilə folklor qoşa qanaddır, bunların birinin varlığı digərini də şərtləndirir. Odur ki, biz ondan etnoqrafik məlumatları da toplamağa qərar verdik.

Söyləyici bəzən mətni danışarkən özü də fərqində olmadan adları dəyişik salır. Çünki onun diqqəti hadisəni nəql etməyə yönəlib. Nəzərə alsaq ki, o, bu mətnləri vaxtilə evdəki yaşlılardan eşitsə də, heç kimə danışmayıb, odur ki, nitqi də bəzən dolaşırdı. İsmayıl qurbanı ilə bağlı rəvayəti danışarkən belə bir dolaşıqlığa yol verildi. Söyləyici əvvəlcə peyğəmbərin Həcərdən övladı olmadığını dedi, sonra isə Saranın adını çəkdi. Biz mətni çapa hazırlayarkən həmin mətnə "əl gəzdirmədən", eşitdiyimiz kimi verdik: "Peyğəmbərin Həcər xanımnan evladı olmur. Yetmiş yaşındadı Sara xanım. Təzədən bı gedir, Həcəri alır gətirir, İbrahim peyğəmbər. Babam belə nağıl eliyirdi". Düşündük ki, bu cür söyləyici yanlışları mətnin şifahi ifadan necə yazıya alınması haqqında müəyyən təsəvvür oyadır.

Bəzən söyləyici eyni obrazı müxtəlif formalarda təqdim edir: "Dilaf çox yüksəy boylu, uca boylu, əmcəhləri oqqədər uzun olur ki, sağı sağ çiyninə atır, solu sol çiyninə. Hal anası həmişə insannarın, ən çox zahı olan, doğan qadınların ruhunu, ürəyini oğurruyub aparır", "Dilap da Cinin bir növüdü". Mətnin birində Dilafın Hal anasının digər adı olduğu deyilir. Digər mətndə isə o, Dilapı Cin mifoloji obrazı ilə eyniləşdirdi. Bundan başqa, obrazın adı gah Dilaf, gah da Dilap kimi tələffüz edilib. Biz

onun təqdimatlarına toxunmadıq, olduğu kimi verdik. Düşündük ki, bu, tədqiqatçıların işinə yarayar.

Hərdən elə olurdu ki, Südabə Həsənova bir mətni danışır, aradan bir müddət keçəndən sonra eyni mətni yenə danışırdı. İkinci dəfə o, eyni mətni danışanda biz üstünü vurmur, bir söyləyicinin repertuarında dəfələrlə danışılarsa, mətnin necə dəyişiləcəyini izləyirdik. Bunun digər tədqiqatçılar tərəfindən də maraqlı olacağını düşündüyümüzdən belə mətnlərin hər iki variantını çapa verməyi məqsədəuyğun hesab etdik. "Namazım qəza qaldı" və "Allahın işinə qarışmaq olmaz" (I və II mətnlər) ayrı-ayrı vaxtlarda iki dəfə danışılıb.

Sonda günlərlə bizimlə zamanını paylaşan Südabə Əkbər qızı Həsənovaya, kitaba salınmış materialları oxuduğu üçün "Dədə Qorqud" şöbəsinin aparıcı elmi işçisi, fil.ü.f.d., dos. Aynurə Sadıq qızı Səfərovaya, səsli faylların üzünü köçürməkdə göstərdikləri köməyə görə "Folklorun toplanması və sistemləşdirilməsi" şöbəsinin əməkdaşları – Məhsəti Vaqif qızı Süleymanovaya, Ağanənə Firudin qızı Məmmədovaya, Nərgiz Fazil qızı Hüseynzadəyə, eləcə də 2020-ci ildə Bakı Slayvan Universitetindən Tərcümə (Ukrayna dili) ixtisası üzrə məzun olmuş Nurad Tofiq oğlu Hüseynova təşəkkürümüzü bildiririk.

**Ləman VAQİFQIZI (SÜLEYMANOVA)**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

# I. MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## ALLAHIN ÖMÜR PAYLAMASI

İrəhmətdiy babam hər sözə bir məsəl çəkərdi, rəvayətdər danışardı. İnsannarın oturuşuna, duruşuna, danışığına, iş görməsinə, bir söznən, hər şeyə. Deyərdi ki, bı insan ki var, çox nəfiskardı. Nə gözü dünyadan doyur, nə də dünya malınnan əl çəhməz. Ömrü də heyvannarın ömrüdü.

Bir gün Allah-taala ömür paylıyırmış. Bütün cannınar yığılıbmış, Allahdan səda gəlir: İnsana iyirmi beş il, ata otuz beş il, inəyə otuz səkgiz il, itə qırx il, eşşəyə qırx beş il ömür verdim.

Allah soruşdu:

– Razısız?

Birinci insan danışdı:

– Ya Allah, məəm ömrüm azdı, at-eşşəyin ömrü mənnən çoxdu.

At dedi:

– Ya Allah, saa qurban olum, məəm ömrümnən kəs, insana ver. Mən neynirəm? Ömrüm boyu insannar məni minəcəy, işdədəcəy, yühlüyəcəhlər, neynirəm belə nökər ömrü. Qışdarımı nallıyacaxlar, ürəyimi göynədəcəhlər, axırda ya mühərbədə öləcəm, ya qurt-quş daşıyacax.

İnəy dedi:

– Qurban olduğum, məəm də ömrümnən kəs, insana ver. Mən də ömrü boyu insannara qulluğ eliyəcəm. Məni sağacaxlar, südümnən yağ, pənir eliyəcəylər, balalarımı öldürəcəylər, satacaxlar, bağrıma şiş basacaxlar, axırda özümü də öldürüp ətimi yeyəcəylər.

İt dedi ki, mən neynirəm belə ömrü? Bütün günü hürüyəcəm. Ömrümü kəs, insana ver. Bütün günü zincir boynumda sabımın əvin qoruyacam, görüm yaddarına nə vax düşürəm, yeyib-içənnən sora sırfaan qırın-qırşığın, sür-sümüyün maa verəcəylər. Qışın sooğunda əsirəm, yayın isdisində dilim bir qarış qalır çöldə, neynirəm belə həyatı.

Eşşəy dedi:

– Dərd məəm dərdimdi. Qurban olduğum, maa az ömür yaz, ver insana. Ömür booy bəni-insan qarşısında çalışacam, hələ ağaş əllərində o ki var döyəcəylər. Dağın-daşın odunun, suyun daşıyacam. Palanı qoyacaxlar belimə, özdəri də minəcəy. Qocalanda da ya daşdan düşəcəm, ya qayadan hellənəcəm,[7] ya da canavar yeyəcəy.

Babam deyirdi ki, Allah-taala heyvanın diləyin eşidib onnara yazığı gəldi, hərəsiin ömrünnən kəsip insana verdi. Yüz il, yüz otuz-yüz qırx il yaşıya bilər. Sora babam deyirdi ki, insan naşükürdü, Allahdan atın, eşşəyin, inəyin, itin ömrün aldı. Gə görəy bı heyvannara nətəri baxır? Döyür, söyür, yemliyir. Allahın heyvanıdı, yazıxdı, o da dincəlməlidi. İnsaflı adamnar var, Allah bəndəsi var, bir də şeytan əhli var. Dad axırkıın əlinnən. Bax, insan nə aparır o dünyaa, iki metir ağ qismət ola, ya olmaya. Heyvannarın ömrüün aldığına görə eşşəy kimi işdiyir, it kimi hürüyür... Arvadı bəd olannar minir boynuna, cilovun da alır əlinə, at-eşşəy kimi minir. İnsana yaxşılıx, əməli-saleh işdər qalacax.

Babam bir də deyərdi ki (bı məsələynən bağlı), kişi qocaldı, əvə eşşəy lazım dəyil, arvad qocaldı, əvə it lazım dəyil. Axı eşşəyin, itin ömrün yaşıyır.

[7] hellənmək – yumalanmaq, dığırlanmaq

# ALLAHIN İŞ BÖLGÜSÜ

Bunu anam danışardı həmişə. Allah tərəfinnən vəzifə bölgüsüydü. Üş qardaş varıydı: Əzrayıl, (Biz Azreel deyirih), Mikayıl, Cəbrayıl. Qardaşdar gəldi əvə, analarına dedilər ki, Allah-taala vəzifə bölgüsü bölür, bizi də çağırıbdı. Ana bunnara xeyir-dua verdi, dedi:

– Gedin, bala, Allah qismət eləsin, sizə yaxşı işdər versin.

Getdilər, Allah bölgüsünü verdi, gəldilər evə. Ananın gözü qaldı bunnarın üzündə ki, ay bala, nə vəzifə verdi? Mikayıl öz vəzifəsini dedi. Cəbrayıl öz vəzifəsini dedi. Azreel də dedi ki, ana, maa Allah-taala insannarın canını almağı verdi. Ana iki əlli başına vurdu, ayağına vurdu, dizinə döydü:

– Ay bala, sən nə bais iş görübsən. Ömrü boyu saa camaat qarğıyacax, qarğış tökəcəh, söyəcəh. Niyə onu götürdün?

Deer:

– Əstəfurullah, ay ana, Allahın verdiyi bir işdi. Narahat olma, ana, mən elə eliyəcəm ki, heş kəs mənnən görmüyəcəhdi, elə hamı fələydən görəcəhdi. Elə hər kimin adamı öldükcə deyəcəh, fələk, balan yansın, ciyərin yansın.

Deyir:

– İndi bu dəyqə, ana, gördüm bulax başında bir dəsdə arvat paltar yuyur, uşaxlar oynaşır analarının yanında. Mozalan oldum, girdim dananın burnuna. Çayın qırağında da hamilə arvad, (Yəni yüklü, bizdə hamilə arvatdara həm yüklü deyəriy, həm həmli deyəriy, həm iki cannı deyəriy, bir də boylu deyəriy). Girdim bir dananın burnuna, mozalan oldum. Dana yaz danasıdı da, götürüldü getdi, başıynan bir gillan,[8] bu hamilə arvada vırdı. Bu hamilə arvad aşdı düşdü çayın içinə. Yuduğu o tasın, ləyənin içi-

[8] gillan – heyvanın buynuzu ilə vurduğu təkan

nə. Elə orda keçindi, qarnında uşax da öldü. Aləm qarışdı bir-birinə, bir vay-nəfsə düşdü, gəl görəsən. Əv saabına xəbər getdi ki, gəlnin düşüb çaya. Hamsı gəldi, gəlin bu il ölübsən, keçən il ölübsən, dünənnən keçinib. Dana saabını çağırdılar qırğın, qiyamat, bu dəyqə müharibədi ha. Bir adam deмədi ki, Azreel, balan yansın. Elə o dana saabına söydülər, dana saabını apardılar. Bir də fələyə söydülər.

Ana deyir ki, bala, yaxşı vəzifə dəyil.

Hə, nə isə. Deyir, mən indi insannarın hərəsini bir minvalnan öldürəcəm.

(İndi cavan, qoca, kimsə da, ömrünü başa vırıb o dünyaya gedəndə hamı ağlıyır. Əzizini itiribdi. Yəni yarası təzədi, itgisi təzədi. Bayatı deyər, ağı deyər, ağlıyar. Deyərdilər ki, ay bala, insaf eylə, onnan da dərin çaylar var. Bir adam Azreelə söyüş-zad söyməz. Ancax "Fələyin balası yansın", "Allahdan qismət belədi").

## YERİN, GÖYÜN TABAXLARI[9]

Babam diyərdi, yer-göy arası beş tabaxdan ibarətdi. Beş tabağın ən böyüyü, yüksəyi Allahın yerləşdiyi səmadı. Bura behiştin, cənnətin qapısı, məleykələrin, əsabələrin yeridi.

Birinci yuxarı qatda Allah, onun məleykələri, cənnətidi.

Əvvəl babam danışardı ki, yer üzü, torpax yoxuydu. Hamı yuxardaydı, orda yaşıyırdı. Cənnət də ordaydı, insannar da. Allah-taala Əzrayılnan Cəbrayılı göndərdi yer üzünə, dedi:

– Gedin insan qayırın, torpaxdan nəsə bir şey qayırın, dünyanı artırağ.

---

[9] tabax – təbəqə

Əzrayıl, Cəbrayıl yendi yer üzünə, torpaxdan abidə kimi, heykəl kimi bir şey qurdular, dedilər:

– Canım sənə qurban, biz hazırladığ.

Allah-taala onnara nəfəs verdi. Birini Adəm peyğəmər, birini Həvva eylədi, qaldırdı cənnətə. Cənnətin qapılarında kimnər dururdu? Qızıl qanatdı əjdaha, ilan – məleykə cildində, inkirminkir. Cənnətdə hansı meyvələr vardı? Ancağ xurmalar, qırmızı gözəl ətirli almalar... bunnarı yeməh olmaz, ancağ qoxsulamağ olar. Qoxsulamağnan onnar yaşıyırdı.

Günnərin bir günü şeytan ilanın beynin doldurdu ki, sən maa icazə ver, mən keçim cənnətə. Qızıl ilan dedi:

– Yox, olmaz, Allah-taalanın əmri var, keçib oraları qarışdırarsan.

Dedi:

– Elə mənim məqsədim odu ki, Havvaynan Adəmi tulluyam burdan – cənnətdən.

Yenə o, qızıl ilaan girdi burnuna, ordan axdı girdi cənnətə. Orda getdi buğdaan yanına. Buğda onda böyüh bir ağac imiş. O ağac başını yerə qoyurmuş, o sünbüllər ağacın ucunnan dəyirmiş yerə. Onu ancağ iyləməh lazımmış, yəni loru dildə, qoxulamağ lazım imış. Girdi cənnətə, Adəm peyğəmbərnən Havvıya dedi ki, bəs siz bunnan yemirsiz, buğdadan?

Bunnarın ağlını əlinnən aldı. Birinci Həvva... (İndi deyim də var ki, arvaddarın ağlı olsaydı, cənnətdə qalardı). Həvvanın nəsli hamısı torpağa atıldı. (Arvad bir səhv iş görəndə, deyillər ki, Həvvanın törəməsidi də). Həvva birinci buğdadan yedi, ikinci Adəm peyğəmbərə yedirtdi, mundarradılar cənnəti. Allaha xəbər getdi. Həvvaynan, Adəmi tulladı yer üzünə. Qızıl mələy ilanın qanaddarını yoldu, tulladı yer üzünə, dedi:

– Mən sənə bu boyda cənnətin qapısını həvalə eyləmişdim. İndi get. Ömrü boyu sənin nəslin sürünəcəh torpağ üsdündə, sənə heç bir yeməy vermirəm, ancağ torpağ yeyib, torpağda yaşıyassan.

Onda yeriyirdi məleykə.

Sora şeytanı tulladı. Şeytan yenə də Allahın başına dolandı ki, Allah, qurban olum, sən mənə bı şərtdərnən torpağ üzünə, yer üzünə endir.

– Şərtdərin nədi?

– Məni insannarın ruhuna sal, çünki insanlar mənsiz heş cür yaşıya bilməz. Dünya rahat olar, müharibələr olmaz, döyüş olmaz, insannar biri-birini qanına qəltan eyləməz.

Allah-taala dedi:

– Get, Allahın lənəti olsun sənə. Pisi də sənin olsun, ged insannarın ruhuna.

Bunnarın hamısın töhdü torpağa, yer üzünə.

Torpağda Adəm, Həvva evləndilər, nəsil artdı, yarı şeytan nəsli, yarı Allahın bəndəsi, əməli saleh. Pis-yaxşı, gecə-gündüz, hamısı Allahın qoyduğu qanunnardı.

O günnən ilan bütün bəndələrə – insana, insan oğluna qənim kəsildi. Harda insannarı gördü çaldı, vurdu, öldürdü, yarımcan elədi ki, onnarın ucbatınnan, yanı Həvvanın ucbatınnan məni atıblar yer üzünə.

Şeytan da biznən bərabər gəldi torpağa, bu dünya quruldu. Bu oldu Allahın yuxarı təbəqəsi, qaldı yuxarda.

İkinci dedih günəşdi. Təhcə günəş ikinci tabaxda yaşıyır. Çünki oqqədər isdiliyi, odu, atəşi var ki, ora heş kəs yaxın düşəmməz. İkinci qatda günəş yerləşir.

Üçüncü tabaxda ulduzdardı. Hər bir insanın bir ulduzu var.

İkincı qatda günəş, üçüncü qatda ay, ulduzdar yaşıyır, dördüncü qatda insannar. Beşinci qatda cinnər (Bizdən aşağı, biz-

dən yeylər, yanı gözə görünməz cinnər, fərişdələr, dilaflar, hal anaları – bunnar cinnərin növləridi.) onnar aşağı təbəqədədilər. Cinnər balaca olur, ovuc boyda, ovucun içinə yerrəşir. Dilaf çox yüksəy boylu, uca boylu, əmcəhləri oqqədər uzun olur ki, sağı sağ çiyninə atır, solu sol çiyninə. Hal anası həmişə insannarın, ən çox zahı olan, doğan qadınların ruhunu, ürəyini oğurruyub aparır. Fərişdələr cin nəslinin balaca-balaca törəmələridi. Bunnar bizdən aşağıda, qarannıx bir qatda yaşıyıllar, ancağ biznən bərabərdilər.

Beşınci tabaxda cinnər, sonra cəhənnəmdi. Babam diyərdi, insan ölər, cismi qalar torpaxda. Yaxşı insanın ruhu gedər cənnətə, Allahın dərgahına, pisdərin cismi qalar, ruhu da, cismi də qalar cəhənnəmdə.

## CƏHƏNNƏM

Cəhənnəmdə qır qazannarı yanır. Orda qıl körpü deyilən bir körpü var. Birinci, insannar qıl körpüdən keçir. Əməli-saleh bəndə o qıl körpüsü üsdə sakitcə keçir, elə bil ki, böyüh bir taxda körpüdən keşdi. Pis adamnar qıl körpüdən bir-bir düşür qır qazanına, qır qazanında yanıllar.

Həmişə qışda ava gedəllər bizimkilər. Yayda qadınnar şum eliyəndə, buğda biçəndə, ot biçəndə gecə mağaralara, yanı zağalara yerrəşərdilər, orda yatardılar. Deyirdilər ki, zağalarda elə bil cəhənnəmin səsin biz eşidirdih. Orda ufulduyullar, ağlıyıllar, inildəşillər. Zağaan da səsi böyühdü axı. Bizim zonada zağalar çoxdu.

## HƏRƏNİN BİR ULDUZU

Həmişə babam-nənəm belə danışırdı ki, hər insannan bir doğulan ulduz var. Hər bir kəsin göydə ulduzu var. (Bizim əvdə, yadıma gəlir, eyvanda axşamçağı, yay-yaz aylarında bunu görərdilər. Oturublar kürsüün üsdündə. Təndirin üsdə kürsü qoyardılar, baba-nənə yığışardı. Böyüh bir taxdın üsdünə nənəmgil kilim salardı, keçə salardılar. Hamı döşənərdi, dik yastığlar üsdündə. Ortalıxda da qavırğa, məkəni popqorun kimi pırtdadıb, cəviz-filan, yanı bütün çərəzdər, rəhli çaylar... Ocağ da orda yanır və yaxud samavar çayı). Onda qəfildən bir ulduz uşdu, nəsə, göydən bir işığ getdi. Bu da mənim yadımdadı ki, babam çox məyus olardı, diyərdi, hər bir kəs doğulanda Allah-taala onun ulduzunu göydə saxlıyır. O insana nə qədər ömür veribsə, o ulduz da o boyda yaşıyır. Ulduz axırsa, diməh, həmin o adam öldü. Həmin gecə bizim evdə çox məyus olardılar ki, kimsə dünyasını itirdi, axirət dünyasına, o dünyaya köşdü.

## ÜLKƏR ULDUZU

Ulduzdarın eləsi var ki mənfi, eləsi var müsbət. O ulduzdardan dan ulduzu, çox xeyirri ulduzdu. Ülkər ulduzu ən ziyannı ulduzdı. Ülkər cannınarı vıran ulduzdu. Uşax vaxı elə bilirdim ki, ulduz göydən insanı ya yumruğnan, ya çomağnan vurur. Deməh, Ülkər ulduzunun, mənfi cəhətdərinnən biri odu ki, çox güclü şüası var. O şüa kimi vurursa, iflic olur. Hansı qız, gəlin, uşağ belə qırışıb oturursa, sakitcə oturur, dünya-aləm əhlinnən işi yox, heç kəsi eşitmir. Onda nənəm diyərdi ki, bıyy... başıma xeyir, aaz, bunu Ülkər vurub eee. Aaz, Ülkər vurmuş adam kimi noolub, ay balam, saa?

İndi elatdar, tərəkəmə bilir ki, yaylaxda mal-heyvan saxlıyannar, ağ tüklü davar saxlıyan (biz qoyuna ağ tühlü davar diyəriy) bilir ki, arxacı düzgün təyin eləmək lazımdı. Yəni hər adam çoban işdiyə bilməz. Çoban gedər, böyüh bir sürünü qırğına aparar. Gecələr Ülkərdən qorunmax lazımdı, bunu da hər çoban bilmir. Peşəkar çobannar bilir ki, arxac, yatağ (Bunnar qoyunnaın yatdığı yerdi, döşəndiyi yerrərdi. Oraların həmişə otu-zadı təmizdənər. Analarımızın sözüdü, diir: "Keçi keçiliyinən dırnağıynan qaşıyıb özünə yer eliyir. Qız-gəlinə deyillər, ərdəmin tökülsün yerə, bir altıı-üsdüü, evii təmiz saxla. Arxacda, deməh, ancağ torpağ olar, heyvannar o qədər yeri qaşıyar ki, ot olmaz.) doğru seçilməlidi. Heyvanı elə yerdə yatırtmağ lazımdı ki, Ülkər ulduzunun şüası heyvanı vurmasın. Vurursa, sürünün səhər durursan ki, hamısı ölübdü. Ülkər ancağ heyvanı vurmur, insanı da vurur. Gecələr cütə gedərdih, gecələr ay işığında babalar, nənələr cüt sürərdilər, taxıl döyərdilər. Taxılı kombayınnan yox, hamısı əldə toxacnan döyərdilər. Nə bilim, noxud döyərdilər, məkə yığardılar. Onnarın hamısını gecələr edərdilər. Gecə işdiyəndə, sübh vaxdına yaxın yaşdılar diyərmiş ki, özüzü qoruyun, Ülkər ulduzunun şua vaxdıdı. Onda şüa dimirdilər, diyillər ki, Ülkər ulduzunun təsiri səni vırar, xəsdələnərsən, beynin pozular. Ülkər vurmuş adamnar muşda olar.[10] Muşda, yanı ki, heş bu adam ayılmır, elə öz aləmindədi.

Ülkər vuran adamnar, bir də cin dəyişən adamnar həmişə muşda olur. Yanı dinmir, danışmır, səssizcə oturur. Çağırıllar, ay filankəs, ay bala, bir din, danış. Bala danışmır. Onda deyillər, bunu ya cin dəyişib, ya Ülkər vurubdı. Ülkərin işığı, həmişə insanı muşda saxlıyır. Bu adam ətraf aləmnən təcrid olur, kim gəlir, kim gedir, yeməynən-zadnan işi olmur, muşa girməy budu.

---

[10] muşda olmaq – ətraf aləmdən təcrid olunmaq

## NİYƏ ÜZÜ ÜSTƏ YATMAZLAR?

Deməh, babam nağıllıyardı ki, cuhutdar həmişə üzü üsdə yatar. Biz, müsəlman üzü üsdə yatmamalıdı, Allaha acıx gedər Allaha arxa çevirməy. Arxa üsdündə yatmağ daha yaxşıdı ki, üzün Allaha tərəf olur. Allahın qarşısında, Haqqın dərgahında olursan. Yuxu dediyin bir kiçiy ölümdü, yəni bizdə deyərdilər, anam, nənəm deyir ki, bir ölümdü. Yəni sabah dura da bilərsən, durmuya da bilərsən. Hər bir müsəlman da yatmamışdan gecə əşşədəni[11] deməlidi. Allah qarşısında, Allahın dərgahında sorğu-sual eləməlidi ki, mən bu gün nə iş gördüm, nə bais iş gördüm, nə xeyir iş gördüm, kiməsə əl tutdum. Bax, belə şeylər də var. Sora, sağ tərəfi üsdündə də yatmax yaxşıdı, orqanizm cəhətdən, tibbi cəhətdən. Sol tərəfdə yatıb ürəyə yük salmağ olmaz. Biz də təzə iməhliyən uşaxları olan ana yatmaz, gecələr səhərə qədər onu qoruyar ki, üzü üsdə düşməsin. Həm boğula bilər, həm də arxasın arxaya çevirməsin.

Ailədə on iki-on üç uşağıymış, nənə, baba… hardasa on beş-on yeddi qədər nəfər varıymış. Böyüy, bir ağır külfətiymiş. Bunnar gecə yarısı yatıllar. Gecə yarısı hamsı üzü üsdə çəvrilər. Allah-taala bunu görür. Allah-taalaya acıx gəlir. Deyir ki, gecəynən bu damı çökdürəcəm, bu ailənin hamsı qalsın altında. Yəni bunun biri də məni sevmir, üzü bəri, maa tərəf yatmır? Elə Allah-taala isdiyir ki, bunnarı yernən yeksan eləsin, bu dəmdə əvin ən axırıncı iki yaşında uşağı çevrilir arxası üsdündə, Allaha tərəf üzünü çevirir. Allah-taala deyir ki, sənin nənən, baban, böyühlü-kiçihli, hamsı, bala, saa qurban. Qurban eliyirəm, körpüyə qıymıram, körpənin ruzusudu, yaşıyın, yeyin.

---

[11] əşşədən – kəlmeyi-şəhadət

## AYLA GÜNƏŞ

Babam, ən çox nənəm bunu nağıllıyardı ki, Aynan Günəş sevgili imiş. Deyirdi ki, onnar bir-birinə söydalıymış, bir-birini çox isdiyərdi. Ay Günəşi çox isdiyirdi, heş biri bir-birini tutammırdı. Deyirdi, gün batdı, ay çıxdı. Ay, deyirdi, o Günəşin dalıcan gedir, tuta bilmir. Günəşin odunnan, alovunnan Ay ona çata bilmir.

Ayın üzündə həmişə ləkə olur. Nənəm deyərdi ki, bir gün Ay Günəşin dalıca gedəndə Günəş hirsdənir. Deyir:

– Maa yaxın gəlmə, mənim odum, alovum səni yandırar. Nəyinki sən mənnən evlənə bilərsən, sən mənim odumnan, alovumnan yanıb töküləssən.

Baxır, əl çəhmir, əlin atır yerə, bir belə qara torpağı götürür, tulluyur Aya. Bu da Ayın üzünün bir tərəfinə düşür. Ay həmişə bədirrənmir. Bəzən on beş günnüy olur, bəzən görürsən ki, bir tərəfi qara ləkələdi.

Bir variyant da var ki, Ayın anası çörəh yapırmış. Aya deyir ki, get un gətir, unum az oldu. Ay bir az yubanır, ana hirsdənir:

– Ay bala, tez ol.Tez ol.

(Bunnar rəvayətdərdi). Yenə əlin atır yerə, bir belə külü atır Ayın üzünə. Ayın üzündəki həmin qara, həm Günəşin atdığı palçıxdan, həm də ananın atdığı küldən qalıbdı.

## CİN

### I mətn

Dilap da Cinin bir növüdü. Bir Hal anası var. Hal ancax arvatdarnan, doğan gəlinnərnən olur. Ən çox onnarın boynuna girir, onnarı oğurruyub aparır, bir də uşaxları. Əcinnələr onnarın

(söyləyici Cini nəzərdə tutur – top.) lap balaca qur-qüçüyləridi,[12] belə çağa vaxlarıdı, Cinnərin balalarıdı. Dilap bir az onnardan böyühdü, sora Cin. Cin, ümumiyətnən, onnara verilən addı, ümumi addarıdı. Heyvərə Cinnər deyərdilər, bunnarı bibilərim yaxşı nağıllıyardı. Heyvərə Cinnər Div boyda olullar, onnar onnarın (Cinlərin – top.) kişiləridi, buynuzdarı da olur, əcaz bir şeylərdi. Hal anası bunnarın anasıdı.

### II mətn

Zahı qadının başının altına bıçağ, qəyçi, duz, çörəy, dua, Quran qoyardılar ki, cinnər ona yaxın düşməsin.

Cinnər, Hal anası ən çox zahı qadınnarı aparır. Ürəyi gedir, ta bir daha qayıtmır da, ölür. O, Hal anasının işidi. Əmcəyin sağır, təzə doğulan uşağa içirdir. Hal anası ancağ zahı arvaddarnan, bir də təzə doğulmuş uşağlarnan işdiyir, ancağ onnarı aparır. Ona görə də zahı arvadı qarannığ yerdə yatırmazdar. Həmişə başının üsdə çırağ yanmalıdı.

### III mətn

Sırfaan başında oturub üç əvnəən[13] üçündə də səhər, günorta, axşam, ara vaxlarda əpbəy yeyəndə də həmişə "Bismillahi-rəhmani-rəhim" deməlisən. Əks təqdirdə bizdən yeylər, cinnər düzülür biznən barabar sırfaan başına. Rəhmətdiy babam, nənəm, anam həmişə diyərdi ki, "Bismillah" deməyin. Bı yarımçığ sözdü. Cinnər bu sözü saymıllar. Siz "Bismillahi-rəhmani-rəhim" deyin. Əvvəldən dönə-dönə üzür isdəyirəm, "Bismillah" diyəndə cinnər deyir ki, pıstığıma kimin. Dönə-dönə üzür isdəyirəm. Yanı bı deyilib, dədə-babadan deyilən sözlərdi. Babam

[12] qur-qüçüy – kür-küçük

[13] əvnəən – öynənin

bu sözü demirdi, nənəm bizə xırdalıyırdı. Anam deyirdi ki, bu sözü bütöy deyin. Elə ki, "Bismillahi-rəhmani-rəhim" deyillər, cinnər eşidən kimi sıfraan başınnan qaçıb durullar künşdə-bucağda, başdıyırlar adama barmax silkələməyə, ağızdarın əyməyə, bizə boğma çıxartmağa. Nə bilim, əlin qasığında tutub nəsə pis hərəkətdər eliyillər ki, yanı niyə bizi didərgin saldız, oturaydıx, yiyərdih. Deyir, əlini belə gətirir, deyir, al dərdimi yeyin, ağrım ürəyəə, başaa daş düşsün. Rəhmətdiy həmişə diyərdi ki, bala, birinci "Bismillahi-rəhmani-rəhim"deyin. (Uşax vaxınnan beləcə öyrətmişdilər ki, şükrannığ eliyin. Allahım, çox şükür! Verdiyin ruziyə min şükür! Biz yediy, əsgiltdiy, sən artır! Acın, susuzun qarnın doyur, kasıbların ehtiyacını ödə, Allahım! Borcu, xərci olanın borc yerini, çörəyini ver, ruzisini ver, borcunu verə bilsin! Sıxıntıda olannarı sıxıntıdan qutar! Qapısı bağlı olan, türmədə olannarın qapısını aç, yollarını açığ elə! Uşaxların, körpələrin ruzi-bərəkətini ver! Qocaların ruzi-bərəkətini ver! Öz bəndəən, yolunda olan, şeytana uymuyan bəndələriin ruzi-bərəkətin ver, canını sağlam elə! Millətə, dövlətimizə Allah həmişə köməy olsun! Yanı babamgil bınnarı bizə uşax vaxınnan öyrədərdilər).

## IV mətn

Deyir, yeylər sırfa açılanda bizdən qabax düzülür sırfanın başına, onnarı görmürük. Biz əlimizi bir aparanda onnar on yerdən yeyir. Biz də deyirih, booy, bu ruzi-bərəkətimiz hara gedir? Buna görə şər vaxdı düşməmiş ləmpələri yandırardılar. (O dövürrər işıx yoxuydu, yanı mənim uşaxlıx vaxdımda eləydi. Aran kəntdərində ola bilsin ki, varıydı, ancax Havışda işıx-zad çəkilməmişdi. Ləmpələr erkən yanardı. Özü də hər akuşkuya, hər taxçıya, hər puxçuya ləmpə düzərdilər. Hər gün bibilərim, anam külnən onun şüşələriin üsdünü yuyardılar, qurudardılar. Axşama

hazır neft tökərdilər. Kimin də nefdi yoxdu, elə buxarıda (əv damında buxarı olurdu) ocax yanır. İşıx həm evə düşür, həm yeməyin bişirir, çayın orda qaynıyır, həm də evə işıx verir. (Yəni bizim də əv damında varıydı).

## V mətn

Deməh, bu əhvalatı da babam danışardı. Bu əhvalat İtqıranda baş verir. (Qərbi Azərbaycanda, İrəvan tərəfdə kəntdər var. Maraxlı addarı var: Çanaxçı, İtqıran, Gülüsdan... Bu kəntdər məəm yadımdadı. Çünki atam, babam həmişə ora alverə gedərdilər. Heyvan-zad satardılar, buğda, arpa dəyişərdilər). Babam deyərdi, İtqıranda bir kişi olur. Yaxşı, sanballı aylə başçısıdı. Ancağ bu özü xörəy də bişirir, aşpazdığ eliyir. Hamı gəlib onu aparır, xörəyi-zadı bişirir məclislərdə.

Bir gün kişi yatır. Gecənin bir vaxdı görür ki, gəldilər, bunu yerdən qaldırdılar dik, sürüyə-sürüyə apardılar. Getdi gözü bağlı. Getdi bir məkana qarannıx. Paa... Poxluxana, qarışıx bir yer. Kişi barmağını dişdiyib ki, bunu Cinnər gətiribdi. Cinnər, Əcinnələr, Dilap... hammısı yığışıb burda. Əcaz-əcaz[14] əyinnərində pal-paltar oynuyullar, hopbanıb düşüllər, qəribə səsdər çıxardıllar. Bunu gətirən adam dedi ki, biz toy eliyiriy, biz Cinnərin toyudu, oğlumuzun toyudu. Bu əvin xörəyni sən bişirəssən, ancax nə “Bismillah” demiyəssən, nə də dəmiri oda atmıyassan. Səssiz-ünsüz xörəyni bişir. Kişi də deyir, yaxşı. Kişini marağ aparır ki, qoy görüm bu işin axırı nətər olcaxdı? Başdıyır bu, yeməyini-zadı pişirməyə. Bunnar da elə ortada Hoynarı yallısı gedillər[15] bu başa, o başa. Uzun sözün qısası, bunnar yallı gedir.

---

[14] əcaz-əcaz – əcayib-əcayib

[15] Hoynarı yallısı gedillər – Boş-boş atılıb düşənlərə qarşı kinayə ilə işlədilən ifadədir.

Kişi birdən başını qaldırır ki, baay... Cinin biri bunun arvadının tuman-qofdasını geyinib. Gözün silir, bir də baxır. Ay Allah, mən nətəər eliyim? Mənim arvadımın paltarı bunun əynində nə qayırır? Deer, ədə, buna (çox ağıllı kişiymiş, uzax görənmiş) deer, buna dej qoyacam.[16] Cin belə firranır, Hoynarı yallısı gedir. Bunun qabağını kəsir, əlin basır tez aşın üsdündəki yağa. Əlin beş barmağıynan bunun arvadının tumanına belə vurur, deer, əgər yuxu dəyilsə, əllərimin yağı qalacağ orda. Ayılsam ki, yuxudu, deməh, yuxu görürmüşəm. Uzun sözün qısası, oynuyullar əcaz-əcaz, hay-huy. Qab çalan, danqıldadan, neyniyən, hurra təpillər da. Özləri də, hamsı da fırranır ortalıxda. Kişi barmağını basdı. Bunnar oynamaxdadılar. Yeməh vaxı gəlir. Bunnara yeməh bölünəndə kişi deyir, ta mən aldığımı aldım bunnan. Mən bu işin axırna tez çatmalıyam, görüm mənim arvadımın tuman-köynəyi bunun əynində nə qayırır? Yuxudusa, mən tez ayılım. Elə aşı çəkəndə deyir, "Bismillah Rəhmani-Rəhim". Hərə bir qapaz, Cinnərin hərəsi bunun başına bir qapaz vurur. Kişi ayılır ki, qazan başındadı, başı yağın içindədi, heş kim yoxdu. Deyir, həə, bu yuxu dəyilmiş. Məni Cinnərin toyuna gətiriblər aşbaz kimi. Durur, qazanı aşdızaddı vurur qoltuğuna, birbaşa əvə. Gəlir ki, əvdə vay-şivəndi. Hamı durub ki, kişi yoxdu də. Əv saabı yoxdu. Qorxullar. Ay Allah, nolub, filan. Görüllər, kişi qoltuğunda qazan, qab gəldi.

– A kişi, sən hardasan? Filan-beşməkan?

Deer:

– Yığışın. Ağsakqallar da yığışsın məəm əvimə.

Arvadına deyir:

– Keç əvə, sandığını gətir, qoy ortuya. Hal-qəziyə, başıma nə gəlib, bunnarı nağıl eliyəcəm.

---

[16] dej qoymaq – iz qoymaq anlamında işlədilib.

Oturub nağılladığımız bu söhbəti hamsın nağıllıyır. Vayağa[17] dəyil, yatmışdım. Məni apardılar, belə oldu, belə oldu.

Deer:

– Filan tuman-qofdanı gətir ortuya.

Arvat deyir:

– A kişi, nolub saa? Doğrudan, sənə nəsə olub e. Bir gecənin içində cinnər neynib saa?

Deyib:

– Gətir da, saa deyirəm, gətir.

Sandığı sürüyə-sürüyə gətirillər ortuya, kənt ağsakqalı, camahat da yığışıb ortuya.

Deer:

– Filan tuman-qofdanı çıxart sandıxdan.

Arvat əlini atır, sandıxdan tuman-qofdanı çıxardır. (O dövürdə tuman-köynəydi, yanı indiki bazarrığa baxma, qadınnar gedir özü ürəyi isdiyəni seçib alır. O dövür elə dəyildi, kişi nə aldı, nə bilim, baftası, koftası, sətini, palatnoyu, qirbeşini, qribşotu... Hər bir parçanı kişilər seçib alıb gətirərdi. Kim nə isdiyir tikərdi əyninə).

Deer:

– Dik tut.

Koftanı biri tutur, tumanı da biri tutur. Kişi baxır ki, elə əliin beş barmağının yağı.

Deyir:

– Baxın, mən orda əlimi yağladım, üsdünə vurdum, deji də üsdündədi.

Babam deyirdi ki, paltarınızın üsdə həmişə dəmir sancax saxlıyın. Sancax taxın üsdünə. Çünki cinnər Bismillahdan, bir də dəmirdən qorxar, oddan, alovdan qorxar. Qarannıx düşməmiş bizim əvdə ləmpələr yanardı. Deyərdilər ki, ləmpəni tez yandı-

[17] vayağa – vaqiə, yuxu

rın, evdə körpə uşax var. Küncü var, bucağı var, bin-bərəkətimizi cinnər daşıyıb gedir.

## VI mətn

Bizim əvimizin aşağı tərəfində Bayram məəlim (Soralar Bayram məəlim beşinci bibimin əri oldu. Onda uşağıymış Bayram. Ata nənəmin də tayfasıdı. Ata nənəmgil pambığ işiynən məşğul olduğuna görə onnara Cıyrıxçı adı vermişdilər. Tayfanın adı Cıyrıxçıydı. Pambıx əyirən, pambıx toxuyan, nəsə o işnən məşğul olan adamnarın adına cıyrıxçı deyərmişdər. Bu Cıyrıxçı tayfasınnanmış).

Babam deyirdi, gecənin bir aləmi səs-küy düşdü. Deməh, Bayram yatır, körpə uşaxdı. Gəlir gecəynən cinnər bunu aparır. Elə həqiqətən aparıllar ha, yuxulu-yuxulu aparıllar. Gəlir, bizim, deməh, həyətin qabağınnan keçir. Hüseyin kişinin bağçasının qabağına çatanda itdər hürüşür. Adam görüb itdər hürüşür. İtdər hürüşəndə Bayram ayılır, ayağ üsdündə yatıb.

– Vay nənəm, vay dədəm, atam...

Qışqırır uşax, ora-bura. Kənt də qalxır əyağa bir dəyqənin içində, gecənin yuxulu vaxdında. Biri var insanın yuxulu vaxdı, biri var kəndin yuxulu vaxdı. Kəndin yuxulu vaxdı, gecənin bir aləmində, itdən, pişiydən, atdan, eşşəydən, öküzdən, qoyunnan, quzudan, Allahın sərçəsinnən... bir səs olmur. O gecənin bir vaxı, səssiz bir aləmində Bayramı cinnər aparırmış. İt hürüşəndə bütün kənd qalxır ayağa. Hamı qaçır çölə, o nədi, bu nədi? Babam deyir, adam vardı tumanpaça[18] çıxmışdı. Ağ tumanda qaçır, papax yox başında. Kim nətəər qaçır... Qaçdıx deer çölə, Ay Allah, nolub? Gələk ki, Bayram çölün ortasında durub. Qışın günüdü, ayaxyalın, qarın, filanın içində.

---

[18] tumanpaça – çıl-çılpaq

– Ay bala, burda neynirsən?

Deyir:

– Talıb Baba, (Talıb baba da sora mənim böyüh bibimin qaynatası olacaxdı). Talıb Baba məni çağırdı, o götürüb aparırdı.

Həə... Onu götürüb aparıllar evlərinə. Bunnar olan işdərdi. Babam həmişə deyərdi ki, analar, gecələr yatanda uşaxlarızın başının altına Bəyaz qoyun. (Qurana bizdə Bəyaz deyilərdi). Bəyaz qoyun uşaxlarıızın yeniyetmə vaxdına qədər. Cinnər elə uşaxları dəyişə bilər, apara bilər. Dər-dəmir, pıçax, çörəh qoyun, duz qoyun, qorxmağın qabağını almağ üçün. Bir də, analar, gecə yatanda əlləriniz həmişə uşaxlarınızın əlində olsun. (İndiki kimin dəyli e, uşağı ayrı yatırasan. Üş yaşında uşağı ayrıb aparıb ayrı otağa qoyullar. Mən bunu qəbul eliyəmmərəm. Anam deyərdi ki, uşax ana qoxusuynan böyüməlidi. Uşax, hər doğduxca iki-üç yaşdan bir, ana o sıranı böyüdür, döşəhləri uzadır yan-yana. Səhərə qədər ana yatmaz. O uşaxların başına fırranar ki, gecədi, hellənər, üsdünü açar).

## BƏROOT DÜZÜ[19]

Babam bir də diyərdi ki, cənnət-cəhənnəm, bir də Bəroot düzü var. Bəroot düzü nə cəhənnəmdi, nə cənnətdi. Ən pis adamnar Bəroot düzündə olar. (Ağır bir düzdü, tikannı, daşdı, qayalı). Bəroot düzünə düşən insannar orda ancağ qaçallar, özü də uluya-uluya. Heyvannarın səsin çıxarda-çıxarda, mal kimi böyürə-böyürə. İt kimi uluyur, uzunqulax kimi anqıra-anqıra. Yanı pis əməllərinə görə, bu dünyada kimnər pisdiy eliyibsə, o, Bəroot düzündə qalır.

[19] Bəroot düzü – Bərat çölü nəzərdə tutulur.

# İTİN URZASI

Fatma nənəm deyərdi, bala, biz itin urzasını yeyiriy. Məlun arvad xamırı mundarrıyanda Allah əppəyi göyə çəhdi. Ajdıx-susama başdadı. İnsannar qırıldı, körpələr, qocalar kalafalarda can verdi. İt-pişiyin ulartısı, məvultusu, ajdarın sızıltısı aləmi aldı başına. Bir vay-nəvsə tüştü ki, gəl görəsən. Allahın günahsızlara yazığı gəldi. Gecənin birində bir it ağzını yuxarı tutub uladı, sinsidi,[20] dil açıb Allaha yalvardı. Yerin göyün saabı Allahımızın itə yazığı gəldi, göydən bir sünbül saldı və dedi:

– Ay günahsız heyvan, bı da səən urzan olsun!

İt sünbülü qoxladı, əmə yemədi, nəfsinə təp dedi.[21] Sünbülü çəkib qabağına qoydu ki, saabı gəlib görsün. Obaşdan hürməyə başdadı, zingildədi. Əv saabı itin susuz olduğunu güman eliyib ona su gətirdi, gördü, suyu var. Öz-özünə söyləndi, yazıx heyvan nə yeyib ki, su da içə. İt zingildədi, elə bil, dil aşdı. Kişi geri dönüb baxanda itin qabağında bir sünbül gördü. Başını yuxarı qaldırıb əl açdı:

– Ya Allah, şükür cəlalına! Urzuya zamin Allah! Çox şükür Allahım! Heyvanın, itin urzusun göndərdin.

Kişi tez sünbülü götürüp avdı, əhdi. İlbəil sünbül artdı, çoxaldı, dünyanın hər tərəfinə yayıldı.

(Bala, çörəyə hörmət qoyax, aca-susuza köməy eliyəy. İti-pişiyi aj saxlamıyax ki, Allaha xoş gessin. Birinci çörəyi itə atallar, bı, əvimizin qanunu idi. Babam tez-tez nənəmi çağırıb: “Ay arvad, ilk əppəyi atın itə, yazıxdı, gözü yoldadı”, – deyərdi.)

---

[20] sinsimək – ağlayıb-sızıldamaq

[21] nəfsinə təp demək – nəfsinə hakim olmaq, iradəli olmaq

## İTLƏ PİŞİYİN DUASI

İt həmişə əlin qaldırır, Allaha deyir ki, ya Rəbbim, Allah, bu evin saabına yeddi oğul ver. Oğlan uşaxları itə meyillidi axı. Yeddi oğul ver ki, bu uşaxlar hər eşiyə çıxanda maa bir sümüy, bir çörəh gətirsin. İtin duası budu.

Pişiy deyir, ya Rəbbim, bu evə yeddi qız ver. Yeddisini də kor elə, oturum, elə bu qızdar kordu da, əllərini aparsın çörəyini yeməyə, tez çırmaxlıyım, əllərinnən alım.

İndi ona görə Fatma anam deyirdi, it ruzuludu, bu çörəy itin ruzusudu. İt bu ocaxda oğlannarı, kişiləri sevəndi. Pişiy mərdiməzardı, pişiy baisdi. Pişiy deer, bu evdə oğul olmasın. Oğul nəsilinnən nəsil artır. Mənim nənəmin altı qızı var. Derdi, onnar mənnən dəyil. Onnarın uşaxlarına qaynıyıb qarışammırdı, ancax oğul balalarını isdiyərdi. Ona görə nənəm deyirdi, pişiy bədğurdu,[22] bu əvə bəddua eliyir ki, qoy yeddi dənə qız olsun, hamsının da gözü kor olsun. Bir qarnınnan ötrü bu, əvi oğulsuz qoyur.

## İNSANLARIN BƏXTİ

Nənəm deyərdi ki, insannarın bəxdi heyvannarın üsdündə tarazlanıb. Deyirdi, kimin ki bəxdi at üsdündədi, bəxdi gözəl olur, işləri bütöv gedir, sürətlə işi gedir, ailə qurmağı da, ərə getməyi də, doğub törəməyi də, yəni heç bir problem olmur. (Problem bizim sözümüzdü, yəni neyləyim, necə eləyim olmur). Qoyun üsdü binli-bərəkətdi olur, çox ruzili olur. Ən çox qadınnarı deyirdi. Qadınnarın hansıın qoyun üsdündə bəxdi yazılıbsa, onun ruzi, bərəkəti tükənmir, dolu olur əvi-eşiyi. Deyirdi, ilan üsdündə taleyi olan qızdarın bəxdi bir az ağır gedir, ləng gedir, ancax binli-bərə-

---

[22] bədğur – bəd uğur

kətdi olur. Ən çox tısbağa üsdündə bəxdi gedən qadın-qızdarın işi daşdan çıxır, ləng gedir, gec ailə qurur, gec ərə gedir, daha doğrusu, balaları gec olur. Ləngiyə-ləngiyə, ömrü qurtarınca hər şeyi bərqərar olur, ancax ömür qurtarır, qocalınca elə çapır-çabalayır, işləri gec gedir, ləng gedir. Elə bunnar yadımdadı.

## QIZILGÜLÜN YARANMASI

İnanca görə, qızılgül İmam Hüseynin tərinnən əmələ gəlibdi. İmam Hüseyn döyüşdə tərriyib, təri tökülüb torpağa, ordan qızılgül göyəribdi. Mən gözümü açannan, uşax vaxtınnan ətir vıranda diyərdilər ki, İmam Hüseyn ağaya canım fəda olsun, onun bədənin, canıın ətridi, gör nə gözəl ətri var. Həm də qızılgülün suyunu, qızılgülün ləçəylərini qoyardılar canamazın içinə. Qış aylarında da qızılgülün suyu çəkilmiş ətirrəri qoyardılar canamazdarıın içinə. Bütün qadınnarın sandığında qızılgül ətri vardı. Elə açıb vıranda da həmişə diyərdilər ki, canım fəda olsun, İmam Hüseynin ətridi. Babam rəhmətdiy diyərdi ki, İmam Hüseyn atası Əli kimin çox döyüşkən olubdu, başaratdı adam olubdu. Hara gedibdi, orduun üsdünə qalib olubdu. İmam Həsən yox döyüşkən olmuyubdu. Ancax İmam Hüseyn daha döyüşkən olubdu. İmam Hüseyn qalib olduğu bir müharibədə tərinnən tökülüb yerə, o tərdən də qızılgül cücərib, sora da bınnar çoxalıb bütün dünyaya yayılıbdı. Bu İmam Hüseynin təriynən bağlıdı. Biz də gözümüz açıb elə belə eşitmişiy.

## DUZDAĞ NECƏ YARANIB?

Fatma nənəm rəhmətdiy nağıllardı ki, Nuh peyqənbərin nəvəsi, Türhaan,[23] Türkhaanın oğlu Düdəyhaan[24] başının cah-cəla-

[23] Türhaan – Türkxan
[24] Düdəyhaan – Tütəkxan

lıynan Duzdağa gəlir. Duzdağa av avlamağa, nə bilim, quş vurmağa. Bir söznən, ava gəlillər. Onnar av vurullar, quş vurullar. Vurannan sora Duzdağda dincəlməy isdiyillər. Avın ətinnən də doğruyub töküllər, sırfa açıllar, başdıyıllar yeməyə. Düdəyhaan əlində yediyi ət tikəsinin biri düşür yerə. Yerə düşən kimi əlin uzadıb yerə düşən əti götürür, əliin arxasıynan sürtüb başdıyır yeməyə. Görür ki, çox fərqli oldu, bayaxkı ətdən bu çox daddı oldu. Bayaxkı şit idi, bu çox daddıdı. Yemədiyi tikələrdən də bir-ikisin sürtür yerə. Başdıyır yeməyə ki, nə daddı oldu, ağzı dada gəlir. Oon başındakılar, yoldaşdarı, dosdarı deyir ki, neynirsən? O nədi elə? Düdəyhaan yoldaşdarına məsləhət bilir ki, əti sürtün yerə, dadına baxın. Bu nədi? Bu, bir sirdi, möcüzədi. O dostdarı da, oon başınca gələnnər də əti sürtür. Görüllər, çox daddıdı. Sora Düdəyhaan ətrafa nəzər salır, sağa-sola, geriyə-arxıya baxır ki, hər yer topa-topa ağapbaxdı. Nuh peyqənbərin nəvəsinin ağlına belə bir fikir gəlir ki, elə bu duzdu. Həmən vaxtdan, həmən günnən daha doğrusu, Nuh peyqənbərin nəvəsi Düdəyhaan özü başının cəlalı – gəldiyi dəsdəynən duzdan xeyləy yığıllar. Kimin nəyə gücü çatır. Bizim məsəlimiz var, duz yükü, qız yükü. Duz ağır olur. Ağır qoyullar, yüngül götürüllər. Yüngül qoyub ağır götürüllər. Nəysə, duzdan xeyləy götürüb aparıllar. Ayaxları dəyən yerə, əlləri çatan yerə paylıyıllar. Fatma nənəm deyərdi ki, duzu, yəni Naxçıvanın Duzdağının duzunu Nuh peyqənbərin nəvəsi Düdəyhan el-aləmə yayıbdı.

## DUZ EHSANI

Duznan bağlı Heydər babam rəhmətdiy deyərdi ki, Duzdağın dünya aləminə bilinməsi, duzun icad olması, paylanması, tapılması İbrahim peyqəmbərnən bağlı idi. Allah-taala ona əziz

bəxşiş elədi İsmayılı. Bunnan sora Allah-taala İbrahim peyqənbərə deyir ki, bu Duzdağı da saa ehsan verdim. Oğlun olmağı münasibətilə payla dünyaya.

## GƏLİN QAYASI[25]

Deməli, bir qızı oğlan isdiyir. Bınnar bir-birin isdiyir. Gəlini öz isdədiyinə vermiyiblər. Qız xan qızı imiş. Qızı oğlana vermirmişdər ki, oğlan kasıb adamın oğludu. Götürüb başqa bir bəy oğluna verillər qızı. Qız da atanın sözünnən çıxmır, gedir, ancağ nisgilli qalır. Bütün günü oğlanın eşqiynən, əli heş bir iş tutmur, getdiyi yerdə qaynanıya, qaynatıya qulluğ eliyə bilmir. Yəni dört-beş ayın gəlini olur. Bir gün çıxır o uca qayıya, o qayadan özünü atır. Heç tikəsi ələ gəlmir. Hər parası bir tərəfə dağılır. Çünki o qaya o qədər sərtdi ki, qayadan düşdühcə, o qayalardan bir-birinə dəyə-dəyə parça-parça olur, paralanır. O vaxdan da o qayanın adı qalır Gəlin qayası.

## MURAD QUŞU

Murad quşunun əfsanəsi buyudu ki, əfsaniyə görə bir qız, bir oğlan olur bir mahalda, bir-birin çox sevillər. Qızın sevgilisinin adı Murad olur. Oğlanın atası-anası qızı almağ isdəmir. Ancağ qız dəli kimi oğlanı sevir, bu Muradı sevir. Oğlana ata-ana təsir eliyir, bu qızı almır, oğlan gedir başqa bir qız alır.

Qız bunun eşqinnən, məhəbbətinnən yanır, hara gedir mahnı oxuyur, deyir, ağlıyır, elə "Murad" deyib, "Murad" ağlıyır.

Bir gün əlin qaldırır yuxarı, deyir:

---

[25] Havuş kəndində yerləşir.

– Ya Rəbbim, mən ki Murada yetmədim, məni quş elə, uçum göyə.

O vaxdan bu qız quş olur, uçur göyə. Adı da qalır Murad quşu. Gözəl də quşdu, başının da burasında bir belə pipiyi olur.

## DÜNYA DAŞQINI

Fatma nənəm deyərdi ki, Allaha qurban olum, dünyanın bir düz vaxdıymış. İnsannar qudurdu, insannar harınnıx elədi, neməti tapdaladılar. Çox pis işdər etdilər, halal-haram qarışdı biri-birinə. Allah bunları cəzalandırdı. Leysan yağdı, küləy əsdi, yellər əsdi. Sum yeli deyərih. (Sum yeli xəsdəlihlər gətirən bir yeldi. Elmdə də var səmum yeli.) Bunnar əsdi, dünyanın üzünü su aldı, xəsdəlihlər törəndi, aləm qarışdı bir-birnə. Ən axırda dünyanın üzünü su aldı, əhali qırıldı getdi. Harınnıyannar, quduran-nar, haramxorrar bir-birnə qarışıb məhv oldular. Nuh peyğəmbərə vəh gəldi bu vax ki, sən tez bir gəmi düzəlt. Nuh peyğəmbər dedi ki, Allahım, saa qurban olum, əl açdı göyə, mənim gözüm üsdə. Getdi taxdadan, dəmirdən bir gəmi qayırdı. Sora əlin qaldırdı yuxarı, dedi:

– Ya Rəbbim, ya yeri göyü xəlq eliyən, dedihlərini hazırramışam, qulluğunda müntəzirəm.

Dedi:

– Hər heyvannan cüt-cüt götür, ilannan, qurbağadan, hamsınnan, bütün heyvannardan cüt-cüt yığ gəmiyə. Özün də əhli-əyalın, aylə, uşağını yığ içinə, sür gəmini, get suyun içinnən üzü günəşə tərəf, gün çıxan tərəfə. Getdiyin yerdə görəssən ki, dağ-daş, quru bir məmləkətdi. Get orda əhli-əyalını da töh, heyvannarı da cüt-cüt meşiyə, dağa-daşa səp.

Nuh peyğəmbər dedi:

– Baş üsdə, gözəl Allahım.

Yenə əlin qaldırır, dualar eliyir. Minir gəmiyə, heyvannarı da cüt-cüt yığır. Fatma nənəm deyərdi ki, ilan elə ziyannı heyvanıdı, elə orda ilan heyvannarı bir-bir dişdiyirdi. Nuh peyğəmbər də, Süleyman peyğəmbər də heyvannarın dilini bilərdi. Tez-tez ilanın dilində deyir ki, dinc dur, sakit dur. O da elə yandırıb öldürməy məqsədiynən yox, elə sancırmış, tişdiyirmiş.

(Elə ümumiyətnən, bizim eldə şuluxçu uşaxlara, bir-birini dümsüylüyüb çimdihliyən, cırmaxlıyannara deyirdilər ki, ilan kimi niyə durmursan, ə, onu-bunu sancırsan. Elə bir sözdər var el deyimində).

Nəsə, xeyləy yol gəlillər, günnərnən, aylarnan. Sora gəlib çıxıb elə Allahın buyurduğu kimi bir gözəl yerə. Daşdı, qayalı, yaşıllıx, sakit bir yerə, işıxlı yerə. Çox işıxlı, günəşdi bir yerə. Gəlib çıxdı, gəmini saxladı, burda heyvannarın hamsını ötürdü dağa, daşa. Əhli-əyalını çıxartdı. Taxdadan, daşdan özdərinə bir koma qurdular. Onnan sora deyir, çıxıb bir buraları gəzim dolanım görüm, nə var, nə yox. Elə çıxdı, bir az belə başın yuxarı qaldırdı ki, baay, Fatma qarı hana uzadıb, Fatma nənənin hanasının bir ucu bulutdarın içindədi, bir ucu da torpağın içindədi. Rəhli-rəhli, salxım-salxım, yumax-yumax yumaxlar gəbədən ipləri sallanır. Gəbə toxuyur Fatma anamız. Gəldi çıxdı:

– Salam əleyküm. Hal, kef, Fatma qarı? Nə var, nə yox?

O dedi:

– Xoş gəlibsən, ay peyğəmbər. Sən necəsən? Xeyir ola, ayağın nə yaxşı buralara düşüb? O tərəflərdə nə var, nə yox?

Deer:

– Həə. Fatma qarı, heş soruşma, o tərəflərdə vəziyyət çox pisdi. Dünyanın üzünü su aldı, əhali bir-birini gəmirdi, qırdı, asiliy elədilər. Allaha xoş getmədi, Allah cəzalandırdı. Allahın

buyruğuynan məni də göndərdi bu məmləkətə. Deyir, bə buraları su basmadı, Fatma qarı?

Deyir:

– Yox, ya peyğəmbər, su-zad yoxdu. Ancax mən səhər durdum təndiri qaladım, təndirin külünü alanda gördüm kü, təndirin dibiin külü bir az nəmliyibdi. Deməh, dünyanın üzün su alıb, bizim təndir su çəkibdi.

Gör Naxçıvan nə qədər yüksəhliydədi ki, o təndirin dibi su çəkib. Fatma ana peyğəmbərə də xeyir-dua verir. Deyir, ta biz bu məmləkətdə yaşıyacıyıx. Nuh Peyğəmbər həmin günnən Naxçıvanda qalır. İndi də yeri var, Gəmiqaya deyilən qaya var. Elə gəmi gəlir, ora dəyir. Gəmi də qırılır, o qaya da parçalanır.

Məhəmməd peyğəmbər islamiyyəti gətirdi, halallığı, haqqı, ədaləti gətirdi. Nuh Peyğəmbər də bizim əcdadımız kimi, nəslimizin başçısı kimidi. Onnan sonra biz uşax vaxı elə bilirdih ki, Fatma nənə bizim öz anamızdı.

## İSMAYIL QURBANI

İsmayıl qurbanının yaranma tarixini babam danışardı. Əvvəllər insannarı öldürərdilər. Allah tərəfinnən vəh gəlmişdi ki, hər il bu gündə (İsmayıl qurbanı yoxuydu onda) bir evin bir oğlu kəsilməlidi Allah yolunda. Analar-atalar ağlıyardı, sıtqıyardı, ancağ heş nə, Allaha asi düşməməyçün, Allaha yenə şükrannığ eliyərdilər. Oğlan uşağlarının gözdərinin qabağında başın kəsirdilər. Bir gün növbə gəldi peyğəmbərin oğlu körpə İsmayıla.

Peyğəmbərin Həcər xanımnan evladı olmur. Yetmiş yaşındadı Sara xanım. Təzədən bı gedir, Həcəri alır gətirir, İbrahim peyğəmbər. Babam belə nağıl eliyirdi.

Həcəri alannan sora İsmayıl olur, yüz tikənin başında, yüz qurbanın başında İsmayıl anadan olur.

Sora yetmiş yaşında Sara xatunnan da bir oğul olur, onun adına İsaq peyğəmbər deyərdi babam.

Sora uşağ anadan olur, əzabnan-əziyyətnən, nazı-neymətnən. İsmayıl anadan olur, bunun kəsilmə vaxdında ana-ata ağlıyır. Peyğəmbər heş nə eliyə bilmir, elə dua eliyir: "Allahım, sənə qurban olum, sənə şükürlər olsun, növbə bu il mənim balamındı". Kəsilməyi də tapşırılıb atıya, İbrahim peyğəmbərə.

Kənd, əhali yığışır, hamısı pəjmürdə. İsmayıl da gözəl-göyçəy, yeniyetmə bir oğlandı. Gətirillər bunu qəssab yerinə, kəsilməh yerinə. Çala qazılır, qan tökülsün çalıya. (Babam nağıllıyanda gözümün qabağına gəlirdi ki, elə bilirdim, mən də orda olmuşam, heylə bilirdim özümü). Ləngidir, çox ləngidir, elə hey plövə xərtə çəkir,[26] sağa itidir, sola itidir.[27] Yanı vax keçirtsin, vax qazansın, balasın görsün. Bu Allaha ayan olur, Allah göydən görür, peyqəmbərimizin ürəyinnən nələr keçir. Allah-taala baxır ki, əli gəlmir, qaldırır kəsməyə, qaldırır İsmayılı yuxarı. Çarmıxa çəkilən xüsusi taxdalar olurdu. Qoyulurdu, qoyurdular üş taxda mərtəbə üsdündə, babam belə nağıl eliyirdi. O taxdanın üsdünə uzadırdılar, başını elə taxdaların üsdə kəsirmişdər.

Elə bıçağı qoyub, İsmayılı qaldırıllar o taxdanın üsdə. Elə kəsmə ərəfəsində, bir də baxır, bir mələrti gəldi. Allah tərəfinnən vəhiy gəldi ki, ya peyğəmbər, dayan, sən oğlunu kəsmə. Kəsilməyə bi dənə qoç qurban göndərdim.

Qoç məliyə-məliyə gəlir, hamı sevincərəh, yarı təcübnən... Deer, İbrahim peyqəmbər əlini qaldırır, əlində qəmə deer: "Çox şükür, ay Allahım, sənin dərgəhaa min şükür. Sənin dərgahınnan nələr süzülür. Milyon, minlərlə sənin sirri-xudan var". Hamı

---

[26] plövə xərtə çəkir – bıçağı daşa çəkir anlamında işlədib.

[27] sağa itidir, sola itidir – sağa itiləyir, sola itiləyir

şükrannığ eliyir. Hamsı bir-birini qucaxlıyır, öpür ki, ta oğul qurbannığınnan qutardığ.

Qoç gəlir, buynuzun dayıyır İbrahim peyqəmbərin qəməsinə. İsmayılı götürüllər, qoçu qoyullar onun yerinə. Qoçu kəsillər, onun ətin paylıyıllar. Qurban bayramı da həmin günnən qalıbdı. Onu dərisinə qədər kasıba-kusuba paylayıllar, ta qutarır. Qurban bayramının yaranma tarixi bax, bunnan ibarətdi.

## KƏKLİYİN AYAQLARI NİYƏ QIRMIZIDIR?

Kəhliy Kərbəla müsibətinnən yanmış bir quşumuzdu. Kərbəla müsibətində qana batıb. Kəhliyin dırnaxlarınnan, o üş barmağınnan, tühlüy yerinə qədər qıpqırmızıdı.

Bunu anam nağıllıyırdı kı, Yezid yolu kəsdi, bütün əhlibeyti, bütün peyqəmbərin nəslini, hamsını qırdı-dağıtdı, xeymələrə od vurdu, yer-göy qavışdı, od tutdu, yandı. Bir-iki qadın qalıb. Cənabi Səkinə oturub xeymənin qabağında, ağlıyır. Hamsı yas tutublar.

Bir də baxır ki, göydə bir quş uşdu, pırıltıyla düşdü düz qanın ortasına. Əyağları oldu qan, başını sürtdü o qanın içinə. (Tühlərin ucunda da qırmızılıx var, başının ortasında da. Mən əlimdə o qədər kəhliy yolmuşam ki). Anam deyirdi ki, başını əydi, dimdiyini qannan, özünü qanaislənd elədi, uşdu getdi. Bu getdi, imam Hüseynin sevənnərinə xəbər apardı. Bu kəhliyi qannı görənnər gəldi düşdü Məkkə-Mədinəyə. Məhəmməd peyğəmbərin nəvələrinin şahadətə yetdiyini bildirməyçün gedib, onun əhli-havadarlarına xəbər aparıb kəhliy. Ona görə onun əli-əyağı, qanaddarının ucu, başının teli dimdiyinə qədər qırmızıdı. Bu İmam Hüseynin o şəhadətə çatan qanına batıbdı, onun carçısıdı. Ona görə də həm əti yeyilir, həm də çox sevillər.

## QURBAĞANIN OVURDU NİYƏ ŞİŞKİNDİR?

Kərbəla müsibətinnən anam bir şeyi də nağıllıyırdı. Deyirdi, yenə heylə xiymələr yandı, yer-göy qavışdı, körpə uşağların hamısını şəhid elədi Yezidin tayfası, Allah lənət eləsin, biz həmişə lənət eliyərik. Su içənnən sora "Allah Yezidə lənət eləsin!", – deyirik.

Yenə cənabi Səkinə oturub xeyməən qabağında, heç hara çarə çıxmır, ölən dəfn olunmur, tökülüb-qalıblar. Bixoş[28] halda baxır. Bir qurbağa gəlir, ağzında suyu gətirir, qur-qur eliyir, tökür odun üsdə, qaçır gedir. Bu, cənabi Səkinənin diqqətin cəlb eliyir ki, bu qurbağa nə qayırır belə? Bir də baxır tez-tez hardansa gedir suyu doldurur, qur-qur..., qayıdır. Cənabi Səkinə deyir:

– Dayan, ay Allahın heyvanı, sən damcı-damcı suyu gətirib çiləməynən, bizim odumuz, atəşimiz dayanacağmı? Sən bu xiymələrin odunu söndürəssənmi?

Qurbağa dilə gəlir, deer:

– Ya Cənabi Səkinə, mən qəlbimin məhəbbətin, isdəyini sizə bildirirəm. Mən sizə düşmən deyiləm, isdəyirəm odu söndürəm. Mənim gücüm buna çatır.

Anam deerdi ki, qurbağaan avırddarı niyə şiş qalıbdı? O gəlib Kərbəlaan yerinə çatana qədər, su çiliyənə qədər onun avırddarı suynan dolu qalıbdı. Ona görə də qurbağanın avırddarı şiş qalıb.

Bizdə bir el deyimi var ki, yerdən bir daş götürənə rəhmət, lənət o günə ki, sənin xeyrində, sağlığında işdəriin üsdünə daş qoyur.

---

[28] bixoş – kefsiz

## GƏLİNƏ NİYƏ CEHİZ VERİLİR?

Babamın bir sözü var idi. Deyirdi, toyda gəlinə paltar almax da, qıza cehiz verməh də Məhəmməd peyğəmbərdən, Əlidən qalıb. Məhəmməd peyğəmbər cənabi Fatiməni ərə verəndə bir dənə qara aftafa, bir dənə kilim, bir dənə keçə qızına cehiz verir. Əli də, ikisi də kasıb adamlardı. Əli Fatiməyə nələri ərmağan elədi toyunda? Döyüşlərdə ələ keçirdiyi bir dənə üzüh, gümüş üzüh gətirdi Fatiməyə. Bir də parçalar gətirdi. Harda döyüşürdülər, qalib gəlirdilər, qarşı tərəfin varidatı qalırdı bunnara. Bunnarı götürürdülər, bölüşürdülər döyüşçülər arasında. Əli də bunnarı gətirirdi toy qabağı Fatiməyə. Bu oldu adət. O vaxdan qaldı ki, oğlan qıza toy qabağı paltar alar, qızıl alar. Cehiz də peyğəmbərdən qalıb. Qızına nəyə gücü çatıb, elə əvvəlcə verəllərmiş. Bir kilim, bir tabax, bir dənə yorğan, bir dənə aftafa. Aftafa mütləq olmalı idi.

## ƏR MURROV

Lap qədim dövürrərdə adətiydi, kənt qızdarı çıxa damın üsdünə, orda deyə: "Ər murrov, ər murrov". Həmin günü kəndin sanballı adamnarı, kişiləri həmin qıza elçi gəlirdi. Hansı qız ki, demir, səsi çıxmır, o qızın adın çəkən olmur. Yaxşı bir ailənin, yaxşı kişinin, yaxşı ata-ananın dört-beş qızı varmış. Bunnan böyüh bacı qalır. Deyir:

– Ayıbdı, adət qoyan, sənə lənət olsun. Ayıbdı, mən necə çıxım deyim, mən ərə getməh isdəyirəm? Mən ər murrov demiyəcəm.

Ana deer, bala deer. Deyir, yox. Bunnan sorakı üş bacıları çıxır, elə "ər murrov", "ər murrov" deer, deyən kimi axşama elçilər gəlir. Toyların eliyillər, yola varıllar, gedir.

Axır qız təh qalır. El də başdıyır bunun sözün-söhbətin danışmağa, bu qız niyə özünə güvənmir? Özünə arxayın dəyil.

Ana gəlir, başın yolur, əl qoyur üzün cırır:

– Ay qızım, insaf elə. Ay bala, adətdi də. Sən adətdən kənara çıxmırsan, ayıb iş görmürsən. Sənin bu adətdən çıxmağın ayıb iş olur.

Həmişə də atası anasın danlayırmış kı, bir qızın öhdəsinnən gələmmirsən. Bir gün ana ağlayır, deyir:

– Mən bulağ başına, təndirxanalara, eyvannara, arvatdarnan çörəh başına çıxammıram. Mən xeyrə-şərə çıxammıram ki, hamı mənə pis baxır. Elə bil eldə naməhrəm işdər görmüşəm.

Qız deer:

– Ana, sənin xatirinə çıxacam. Ama Allah lənət eləsin bu adəti qoyana.

Çıxır bu da. Üzünə örpəy atır ki, heş kim görməsin. Çıxır damın üsdünə:

– Ər murrov, ər murrov.

Hamı təəcüblənir ki, filankəsin damın üsdündə bircə qızı qalıbdı. Hamı sevinir, bunu alqışlayır ki, Allahım, şükür, qızın yolu açıldı. Qız düşür damnan ağlıya-ağlıya, adət qoyana söyə-söyə. Axşama bir yerdən, samballı bir yerdən buna elçi gəlir, toyun eliyirlər. Yaxşı gün-güzəran saabı olur.

Adətən, pişiy dam üsdündə olanda murrov deyər. Allah yaratdığı günnən hər bir heyvana, hər bir insana bir xislət verir. Bir xasiyət verir, bir dərakkə verir, bir ailə qurmağ üçün, cütdəşməy üçün bir məqam veribdi.

## GÖY DAŞ

Deməy, Havuşda bizim həyətimizdə, aşağı baxçamızda bulağımızın başında böyüh göy daşı var. Yanı ona daş deməy olmaz da, qayaan bir parçası kimin, o boydadı. Babam gözün açıb, atam gözün açıb, bibilərim – hamısı onu orda görüblər. Kəntdə kimin uşağı gec olurdu, uşaxları vaxdınnan qabax olub ölürdüsə, ya bir az canı xəsdədi, nasazdı, sısqa uşaxdısa, gətirib göy daşın başına fırrıyırdılar üş dəfə. O daşın başına fırrıyardılar, o uşağa dualar eliyərdilər. O uşağın qulağına it, pişiy tükü keçirdərdilər. Deşərdilər uşağın qulağını iynəynən. Oğlan uşaxlarının da qulağını deşərdilər. Qızdarın qulağını deşib sırğa asan kimin. O deşilən yerə də it tükü, pişiy tükünü keçirdəllər. Yeddi gün, nə bilim, qırx gün o pişiy tükü, it tükü qalardı uşağın qulağında. Yanı ki, onu bütün pis şeylərdən, cinnərin şərinnən, pis gözdərdən, bədnəzərdən qoruyurdu. Sora uşax bir az popullanır, bir az yekəlir. O cansızdığı, sısqası yavaş-yavaş keçir. Görüllər uşaxda irəlləyiş var, tükü qulağınnan çıxardıllar. Bizim uşaxlığımız o daşın başında keçib, üsdündə oynamışıx, söykənmişiy. Yanı belə bir hikməti var idi bu daşın.

## QAZAN XANIN YURDU

Havışın yuxarısında bir yer var. Ora Qazan xan yurdu deyillər. Keçəl Baba deyilən pirimiz var o yaylaxlarda. Qazan xanın yurdu o dağlardan yuxarıdı. Nənəm-babam nağıllıyardı ki, (onnarın da ata-babaları nağıllıya-nağıllıya gəlib bu günə çatıb) Qazan xan öz başının cah-cəlalı ilə gəlib tökülərdi bura. Qazan xan haynan-küynən, at ilxısıynan, arvad-uşağ tökülərdilər. Kimi silah çəkərdi, kim xənçərini düzəldərdi, kimi ot toplıyardı atdara, kimi ocağ asardı. (Ocağlar da bilirsiniz necə asılardı? İki dəmir ağac-

darı çalardılar yerə, ortasında bir belə, ya dəmir, ya yoğun ağaj-dar. Onu qoyardılar qara qazannarı, simli qazannarı salardılar, əti töküb içinə pörtdədərdilər). Diir, Qazan xanın dəsdəsi gələndə cəh-cəlalnan, hay-küynən gələrdi, tökülərdi. Çadırrar qurardılar, yarısı ova çıxardılar, ovlağa çıxardı. Atdarı yendirib həmin qoruxda, xanın qoruğunda bağlıyardılar.

## İKİ BACI

İki bacı olur. Biri ağıllı, yaraşıxlı, əl qabiliyyəti olan, əlin-nən bütün işdər gələn qız olur. Toxuyur, tikir, evin işi, qabı, qa-şığı, biş-düş, ev süpürür, yığışdırır. Anıya iş buraxmır da. Bacın biri də dırtanın[29] biri, bütün günü kıflanda[30] yellənir sağa-sola, heş bir işnən məşğul olmur. Gün gəlir ki, Allah-taala bunnara qismət yazır. Böyüh qıza kasıb bir ər, çoxlu uşağ, qaynata, qay-nana, ağır əv dolandrmax, bu qızın qismətidi. Hələ ərə getməyi qabaxdadı. Bu bambılı qıza, bu dırtan qıza da Allah-taala bir gö-zəl ər yazıb, ağıllı, qazaşdı, tacir ər. Əvi, eşiyi hara gedir. Allah-taalanın qurban olduğum əsabələrinnən biri:

– Ya Allah, sən iki bacıya niyə belə tale yazdın? Bu ağıllı qıza tacir əri yazaydın. Qazanır, gətirir tökür, bu dırtana da hey-lə həyatı yazardın, necə yaşıyardı yaşıyardı.

Deyir:

– Yox, heylə şey yoxdu. O böyüh qıza ağıl vermişəm, mə-harət vermişəm, toxumax, tikməy, tərbiyə, biş-düş... Hər şey ba-carır. O qızın əri pis olacağ, qaynana, qaynata hökmündə olacağ. Ona çoxlu – on, on iki uşağ vermişəm, züryəti çox olacağ. An-cax onnarın hamısının altınnan çıxacax. Amma bu dırtan dediyi-

---

[29] dırtan – tənbəl

[30] kıflan – yelləncək

miz qız bunnarın heş birini bacara bilməyəcəh. Ona görə ona ər çörəyi vermişəm, halal yer vermişəm. Yaxşı qaynana, qaynata... yesin, işsin.

Bu, bacıların bölgüsüdü. Allaha qurban olum, Allah-taalada bu bölgü, bu qismət həmişə var. Ağıllı gedər özünnən aşağı. Bizim eldə bir məsəl var. Deyir: "Bir it bir dərini sürüyə bilməyəcəh?" Bir dərini sürüyəcəh qədər ər qismət eliyir ağıllı qıza. Bu dırtan qıza da ağıl dəryası ər qismət eliyir. Allah yaxşı yerdən qismətini, taleyini versin, bala.

## ƏHMƏD VƏ GÜLGƏZ[31]

Anam deyirdi, bir mahalda, İsfaanda[32] bir kişi yaşayırdı. Bunun Gülgəz addı göyçəy bir qızı varıydı. Bunnar böyüh bir ayləymiş. Gülgəz çox göyçəy qızıymış. Anası ağıllı, atası ağıllı... yaxşı bir aylənin qızıydı. Bu mahalda yaşayan Əhməd addı oğlan da bu Gülgəzi isdəyirdi. Deyir, bu Əhmədlə Gülgəz bir-birin çox isdəyir. Bulağ başında, toyda – harda görürdü, bu qıza söz göndərirdi, yaylığ göndərirdi, hədiyyə alırdı nəsə bir şey. Ta bunnar əhdi-peyman bağlayıblar. O dövürdə əhdi-peymanı bağlayanda oğlan qıza bir şey verər, qız ona yaylığ verər. Yəni mən səni özüm özümə adaxladım.

Kişinin bir gün qulağı çalır ki, Gülgəz çox bulağ başında gəzir, bütün günü səhəng çiynində su daşıyır. Nədi, Əhmədə görə. Qulağı çalır kı, belə bir oğlan var, bunu isdəyir. Gəlir, arvada de-

[31] Söyləyici bu rəvayətin adının belə olduğunu dedi və qeyd etdi ki, mətni anası ocaq başında danışırmış. Xüsusilə, günü ağır keçən qızlardan, gəlinlərdən söhbət düşəndə bu nağıl danışılarmış.
[32] İsfaanda – İsfahanda

yir ki, bu nə məsələdi? Deyir ki, yox, xəbərim yoxdu, ərinin qorxusunnan səsini çıxardammır.

Deyir:

– Köpəy qızı, tünbətinin qızı, bunun axırı pis olacağ. O arvad saxlıyan köpəyoğlu dəyil.

Deyir:

– Ay kişi, mən neyniyirəm ki?

Deyir:

– Qızındı, qoyma.

Qızı əvdən eşiyə qoymullar. Əhmədə bir qızla sifariş verir ki, bəs dədəm məni eşiyə qoymur, elçini göndər. Əhməd dədəsin, anasın göndərir, başbilənnərin bunnarın yanına. Dədə yenə vermir, qızın dədəsi.

Deyir:

– Yox, o oğlannan, gədədən arvad saxlıyan çıxmaz.

Hamı yığışır ağsakqal, ağbirçəy:

– A kişi, qızı isdəyən oğlan niyə arvad saxlıya bilməz, nəyinnən bilirsən? Bu mahalda tərbiyəli, ədəbli, ərkannı... axı sən bunnan niyə səf axdarırsan?

Deyir ki, yox ki yox. Bir gün Əhmədnən Gülgəzin arasında işdəyən adam xəbər gətirir ki, qoşulağ gedəy.

Deyir:

– Saat filanda, məsələn, sübh vaxdı, sübh namazınnan da qabağ hamı yataxda olanda mən səni bağçanızda, filan ağacın altında gözləyəcəm.

Ta axşamnan da Gülgəz çimir, saçın darayır, paltarların yığır boxçaya. Bir boxça da yemək götürür. Boxçanı kürəyinə şələliyir, yavaşca evdən çıxır, qoşulur Əhmədə, gedir. Az gedillər, çox gedillər, dərə-təpə düz gedillər, gəlib çıxıllar bir çinar ağacının altına. Artığ daa gün doğubdu. Açır boxçasın, çörəh yeyillər.

Deyir:

– Bir az dincələy, yatax, sora gedəh.

Hara gedəy, hələ bilinmir. Uzanıllar orda. Yatanda Gülgəz hiss eliyir ki, bunun ayaxlarında isdiliy var. Ha ayaxların dartır, ayaxların darta bilmir. Bir də ayılır kı, qurşaxdan aşağı əjdahanın ağzındadı.

Çağırır:

– Əhməd, Əhməd.

Əhməd gedib illər yuxusuna, xor-xor xoruldayır. Tez bunu silkələyir, durur.

Deyir:

– Dur, əjdaha məni udur.

Əhməd əjdahanı görən kimi qaçır dırmaşır qabaxdakı çınar ağacına. Gülgəz ha çağırır:

– Əhməd, Əhməd, kömək elə. Əhməd, öldüm. Əhməd gətir xəncəri ver mənim əlimə, mən keçirdim əjdahanın ağzına. O məni udduxca mən onu cırım, çıxım eşiyə.

Əhməd deyir:

– Yox ee, mən qorxuram, mən yaxına gələ bilmərəm.

Əhməd qalır çinarda, qız qalır əjdahanın ağzında. Gülgəz çırpınır, çırpınır... Əhməd, Əhməd...

Axırı deyir:

– Atam düz eliyirmiş, Əhməd. Sən ehdibarsızıymışsan. Heş səni çağırmayacam. Sənin qoynunda yatdığıma qoy əjdahanın qolunda yatım.

Deyir, qolların salır, bu dəfə çağırır:

– Ay dədə, gəl.

Əjdaha qızı udannan sora fırranır, sarılır çinar ağacına. Sarıldıxca Əhməd onun içəridə çığırtısın eşidir. Sora əjdahanın qarnında səsi kəsilir.

## NAMAZIM QƏZA QALDI

### I mətn

Bir gün bir kişi namaz qılırmış ağacın altında. Yolçuymuş. İsdi olur, düşür, ağacın altında heybəsini çıxardır. Azdan-çoxdan yeyir. Durur dəstamazını alır, başdıyır namazını qılmağa. Ancağ elə namazını qılmamış görür kü, yaxında bir sürü qaz otduyur. Elə bu ağaca yaxın yerdədi. Nə isə, başdıyır namazını qılmağa. Namazını qılanda bir də baxır ki, səsə gözünün ucunnan baxır ki, qazdar çığırışır. Tülkü girib içinə, onu orda boğur, bunu burda boğur. Namazın üsdə deyir, ya Rəbb, ay Allah, mən neyniyim, gedim qazdarı qutarım, günahdı namazı pozmax. Bə qazdarı qutarmıyım, Allaha xoş getmiyəcəh, gözüm görə-görə o boyda heyvanı tülkü dağıdır. Elə fikirrəşə-fikirrəşə nə namazını qıla bilir, nə qazdarı gedib xilas edə bilir. Axırı elə ürəyi dözmür, durur namazın üsdən götürülür. Qaça-qaça gedir ki, nə? Artıx yubanıbdı, tülkü elə bu gələnə kimi onu orda boğub, bunu burda boğub, yaralı, hamsı yerdə can verir. Qayıdır gəlir namazın başında durur, əlin tutur Allaha, deyir:

– Allahım, keş günahımnan, nə qaza çatdım, nə də namazı qıla bildim. Namazım qəza qaldı, qazdar orda boğuldu.

Orda bir şeyir deyir. Deer:

Namazım qəza qaldı,
Qılmadım qəza qaldı.
Bu dünya nə qaza,
Nə də namaza qaldı.

Hər ikisinə yubandım.

– Allahım, günahımnan keç. Namaz burda qəza qaldı, qazdar da orda boğuldu.

Orda bir yox, beş yox, on beş, iyirmi qaz olardı. Bunnarı da babam namaznan bağlı nağıllıyırdı. Babam belə şeylərdən nağıllıyırdı ki, namaz oyuncax dəyil, qılma, qılırsansa, ədəbnən qıl. Bir də deyirdi:

Namaz qılan bəndədi,
Qılmıyan şər bəndədi.
Gah qılıb, gah qılmıyanın
Yeri cəhənnəmdədi.

**II mətn**

Bir kişi yol gedirdi, hava çox isdiydi, bərk yorulmuşdu. Fikirləşdi ki, bir ağacın gölgəsində həm dincələr, həm namazın vaxdıdı. O vaxlar kasıblığmış, hamıda sahat-filan yoxuydu ki, günorta namazın vaxdını günnən hesablayarmışdar. Durallar günün altında, özüün gölgəsi sağa-sola düşərmişsə, deməy günorta dəyil, yox əyər gölgə yoxsa, düz günortadı. Kişi də yol gedə-gedə vaxdı belə ölçdü ki, gölgəsi sağa-sola düşmür. Deməy, namaz vaxtıdı, xeyləy yol gedib bir ağacın gölgəsində oturdu. Heybəsini çiyninnən aşırıb yerə saldı, qumqumasını, çörəyini çıxardıb, əl-üzünü yudu. Su işdi, yeməyini yedi, Allaha şükür elədi. Qalan suynan da dəstəmazını aldı, başladı namazını qılmağa. Yaxınnıxda bir sürü qaz otduyurdu. Kişi çörəy yeyə-yeyə qazdara tamaşa eliyirdi. Qəfildən səs gəldi, çığır-bağır düsdü. Kişi diysindi, qazdar qağıldaşa-qağıldaşa ora-bura qaçıllar. Kişi gözünün qırağıynan baxıb nə görsə yaxşıdı, bir tülkü qazdarın içinə girib, ora qaçır, bıra qaçır, boğduğunu da boğur. Kişi firirrəşdi ki, neyniyim, namazı pozum, ya yox? Hər ikisi günahdı. Ay Allahım, maa yol görsət. Kişi daa dözmür, namazın üsdən durub qazdara tərəf qaçır. Gedib nə görsə yaxşıdı? Qazdarın hamısı qırılıb, ölən ölüb, ölmiyən də yaralı, can verir. Kişi böyüy daşı götürüb tülkünün tə-

pəsinə vırdı, tülkü səndiriyyə-səndiriyyə qaşdı getdi. Kişi çox pərişan oldu, özünü qınadı ki, niyə vaxtında köməyə gəlmədim, namazım da qaldı. Kişi kor-peşman qayıdıb gəldi ağacın altına, oturub fikirrəşdi ki, bu gün mənim nə qədər günahım oldu. Yazıx qazdar belə öldü, namaz belə pozuldu. Əlin göyə tutub yalvardı: "Ya Allah, günahımnan keş". Dedi:

Namazım qəza qaldı,
Qılmadım, qəza qaldı.
Allahım, nə namaz maa,
Nə dünya qaza qaldı.

## TƏBİBİN NAĞILI

Babam nağıllıyardı ki, o dövür loğman, təbib dövrüydü. Deyir, bir mahalda bir təbib yaşıyarmış. Onun da şagirdi varıymış da, yəni şəyirdi. Çox savatdı bir təbibiymiş. Səsi bütün mahala yayılıb. Uzaxdan, yaxınnan, başqa ölkələrdən də yanına gələrmişdər. Bir gün təbib şagirdiynən söhpət eliyirmiş. Birdən durur akuşkanın qabağına, əlini qoyur arxasına. (Babam belə nağıllıyardı). Əlin qoyur arxasına, akuşkadan çölə baxır. Şagirdini çağırar, deyər, bala, gəl bura. Şagirdi durar gələr akuşkanın qabağına.

Deyir:

– Akuşkadan çölə bax, bala. Bı gələnnərə fikir ver.

Qabaxdan üç nəfər adam gəlir dalbadal. Deyir, qabaxdan bir kişi gəlir əl-ayağını sallıya-sallıya. Təbib deyir ki, bax, oğlum, bu yəhudidi (Biz cuhut deyərih). Bu millət özünə o qədər baxandı. O qədər sağlamlığına, yeməyinə, içməyinə, rahatdığına fikir verən millətdi. Bax bu gəlir yoxlanmağa.

Deyir:

– Bu gəlir burda yoxlanmağa. Bunun heç bir xəsdəliyi yoxdu, elə-belə yoxlanmağ üçün gəlib. İkinci gələnin qoluna giriblər, o da urusdu.

Deyir, o urusdu, onun qoluna giriblər, bir az soyuxlaması var. Bir az qızdırması var, ona görə qoluna giriblər. Onu malicə eliyəciyih. Onun da ciddi bir xəstəliyi yoxdu. O da özünə baxan millətdi. O daldan gələn xərəhdə gəlir. O cənazədə gətirilən bizim millətdi. Bax, bala, özünə baxmaz bu millət. İşdiyər cavan vaxtı. Qocalınca işdiyər, bunu eyliyim, onu eyliyim, oğul böyüdüm, qız ərə verim, cehiz yığım, cehiz tutum, tavlanı belə tikim... (Yəni bunu təbibin dilinnən nağıllıyır). Ağrıyar orası, burası, amma getməz. Onda görür kü, tıpbıltıynan yıxıldı. İndi qoyup cənazəyə gətirillər.

Bunu babam həmişə nağıllıyardı. Bizə deyərdi ki, bala, can sağlamlığı hər şeydən irəlidi. Düzdü, Allahın qisməti deyilən bir şey var, ancağ özün də öz əzana, canına zülm eləmiyəsən.

## ON ÇERTLİK AĞLI OLAN KİŞİ

Babam deyirdi, bir kətdə iki kişi yaşayarmış. Biri çox ağıllı, ağlı on certdiy,[33] baş bilən, yer bilən, sözün sahibi olan, yaxşı varı-karı olan, kasıba-kusuba əl tutan. Elə bu kasıblara çörəh payladıxca nəzir-niyaz ehsan verdihcə Allah bunun xaralın evin, puşqağın,[34] təndirin, ocağın bollaşdırırdı. İkinci kişi də, o da varrı idi, ancağ o bir az cırtqoz idi, yetənə yetirdi, yetmiyənə bir daş atanıydı, ayaq qazıyanıydı. Bu iki kişinin sözləri tutmurdu. Bu, onu Allahın yoluna dəvət eliyirdi, o birisi bunun əksinə idi, həm də paxıllığın çəkərdi. Yenə də bu onu öz yoluna dəvət eliyirdi ki, Allahın yoluna gəl, bunnarı elə. O, bunun yoluna gəlmədiyinə görə

[33] çert – ölçü vahidi

[34] puşqağ – künc-bucaq

bunnarın arasında nifaq düşmüşdü. Ancağ bu qanan adam bunnarı elə qəbul eləmiridi. Deyirdi, Allahın yoludu, Allahın min dənə yolu var, hərənin də bir yolçuluğu var, o yolun üsdündə gedir. Kimi Allahın yolunda, kimi şeytanın yolunda. Deer, gün gəlir ağıldan səkqət[35] biri vardı kəntdə, qaçaqaçnan gəlir bu kişinin yanına.

Deer:

– Baa... Filankəs baba, gözün aydın olsun, filankəs öldü.

Kişi öldü sözün eşidəndə elə bil bir annıx duruxur, bir də soruşur:

– Ay bala, noldu? Qaçaqaçnan gəlibsən.

Deer:

– Bə sənin düşmanın olan o kişi öldü, çatdadı, getdi.

Əlini atdı, ağacını qaldırdı, dedi:

– Nə danışırsan, ay bala? Filankəs öldü, rəhmətə gedib, dünyasın dəyişib?

Dedi:

– Hə.

Dedi:

– Allah rəhmət eləsin. Dedi, bə bunu niyə qaça-qaça gəlib mənə deyirsən?

Deyir:

– Muşduluğu ver.

Deer:

– Niyə, ölümə muşdulux var, bala? Deyir, bala, gör sən nə qədər əzazil adamsan, o adamın əvəzinə cəhənnəmə də sən gedəcəysən. Bax, birinci ölümə müşdulux yoxdu. İkinci, ölümə sevinməzdər. Üçüncü, mən o adamın düşmanı deyiləm. O, məni düşman bilirsə, Allah bilən məsləhətdi. Allahın bəndəsidi, hərənin də öz yolu var.

---

[35] ağıldan səkqət – ağıldan zay

# II. İNANCLAR

Təndirdən çıxan ilk əpbəyi itə verməh lazımdı. İnanca görə, təndirin ilk əpbəyini subay qız, oğlan yeməməlidi. Yoxsa baş yoldaşları[36] cavankən ölər. Təndirin ilk əpbəyini əl suyuna batırıb verəllər böyüh adama ki, at itə. Əl suyuna batırmağın da səbəbi var. İnanca görə, it nankor olur, o dünyada saabının – çörəy yapan arvadın, qız, gəlinin üzünə durur ki, əpbəy yapdın, maa vermədin, qoxu-iyə dözəmmədim, uladım, sinsidim, gözüm qaldı yolda. Əpbəy yapan ağlıyır, sızlıyir ki, insafsız, suya batırdım, filankəs gətirib saaa verdi. İt nahaxlığınnan dömmür. Əl suyu şahıddıx eliyir ki, ay nankor it, o əpbəyi maa batırıb, saa verdilər. Bu əhvalatı Fatma nənəm danışardı.

***

Su Cənabi Fatimənindi. Ona görə biz uşağı suya salanda, çimizdirəndə, birinci dua eliyərih, suyu Cənabi Fatimənin adıyla bağlıyırığ. Hər bir xəsdəni suda çimizdirəndə deyərih, "Cənabi Fatimənin suyu şəfa versin xəsdiyə, uşağa". Hər bir kəs çiməndə Cənabi Fatiməni yad eləməlidi. Biz belə eşitmişiy anamnan, nənəmnən. Suyu işlətdihcə anam da, nənəm də "Ya Cənabi Fatimənin suyu, yuxarıda Allah, aşağıda Cənabi Fatimənin müqəddəsdiyi kömək ol" deyərdi.

***

Yuxunu həmişə suya danışallar. Kimsəyə yox. Əvvəl suya danışallar, sora başqalarına diyəllər. Yuxunu görüb suya danışılmasını anam rəhmətdih, (Allah hamıın əzizdərinə rəhmət eləsin. Rəhmətdih anam bını bulağımızın başında danışardı. Bizim həyətimizdə bulax var). Mən də yuxular görürdüm uşax vaxdınnan. Anam deyirdi, dur gedəh bulağa. Özü də həmişə ağzı

---

[36] baş yoldaşı – həyat yoldaşı

yaşmaxlı olurdu. Yaşmağı bir balaca yendirirdi aşağı, əlin tuturdu bulağa. Əvvəl Allaha dua eliyirdi, deyirdi: “Allahım, bir yuxu görmüşəm, sən səbəb sal. Bulağın suyu, təmizdiyi, paklığı o yuxunu təmizdəsin, xeyirə calasın”. Əlin tuturdu, bulağa deyirdi:

Salam əlöyküm, sucığaz,
Əleyki salam, sucığaz.
Bir yuxu görmüşəm, ay sucığaz,
Xeyirə cala, ay sucığaz.

Başdıyırdı yuxunu nağıllamağa. Mən də əlimi heylə anam kimin tuturdum. Dualar eliyirdih ki, məsələn, bu yuxuları görmüşüh, bu müşgülə düşən işdərimizi, sıxıntıya düşən iş-dərimizi, yuxularımızı axar su kimin özün elə. O pislihlərini özünnən bərabər yu apar, yuxumuzu xeyrə cala. Çox şeylər de-yirdi e, yadımda elə bınnar qalıbdı. Birinci salam verirdi: “Sa-lam əlöyküm, sucığaz”. Sucığazın salamın da alırdı. “Əleykimə salam, ay sucığaz. Bir yuxu görmüşəm, ay sucığaz, xeyrə cala”. Başdıyırdı hamısını nağıllamağa: “Yuxuun ağırrığını suyunan axıt gessin, xeyrini bizə ver, ay sucığaz”. Ağır yuxuları görəndə gərəh birinci suya nağıllıyasan. Harada olsan da, suya nağıllamax lazımdı. Bu yüngüllühdü.

***

O vaxlar göy öskürəy diyərdilər, xəsdəlihdi, ciyarında nəsə problem var. Dayim, ardıcıl öskürən uşaxları, deməy, yeddi gün dalbadal süph vaxdı bulax üsdünə aparardılar. Tezdənnən götü-rərdilər uşağı namaz vaxtı, yəni sübh vaxtı. Yeddi gün dalbadal eyni vaxda uşağın yapışallar əlinnən, aparallar bulağın başına, suyun başına. O suya yenə “Salaməlöyküm, sucığaz”. “Əleykü-məsalam, ay sucığaz”. “Bu uşağın dərdi var, xəsdəliyi var. Bu uşağın dərdini, xəsdəliyini qat qabağaa, götür apar tök dağlara, daşdara, ermənilərə. Cannarına gessin” diyərdilər, dua eliyərdilər

əl açıb Allaha. “Allah, Məhəmməd, Əli, Fatimə”, – deyib bu uşağa dua eliyərdilər, sudan içirdərdilər. Sudan başına, kürəyinə çəkərdilər, əl-üzün yuyardılar, bir bardax da doldurub gətirərdilər. Axşama qədər o suyu içərdi. Yəni yeddi gün davam eliyəllər. Həqiqətən də, yeddi günnən sora o uşax tamam yaxşı olurdu.

***

Bayramlarda – Böyük Çilə, Kiçik Çilə... fərqi yoxdu, bu bir neçə ay ərzində nə yuxu görürühsə, həmişə dururdux səhərrər yuxunu anama nağıllıyanda, derdi:

– Bala, nağıllamıyın, durun gedəh suya nağıllıyax. Gördühləriz çilə yuxusudu, inşallah, xeyir olar.

Yuxunu görməhnən yozumun arasında çox böyüy fərq var. Elə adam var ki, yuxunu elə yozar ki, adamın qol-qanadı yanına düşər. Ancağ elə adam var ki, yuxunu gözəl yozar, həm də ki, çin olar. Anam Çilə yuxusunu görəndə bizi aparardı bulağa. Bulax da bizim elə bil pilləkənin əyağındaydı, həyətimizdə – baxçamızın içindəydi. Anam deyərdi ki, bu Çilələrdə nə yuxu görürsənsə, Çilə yuxusudu, xeyirridi. Bala, narahat olmuyun, Allah xeyir versin. Suya nağıllıyanda belə deyərdi, biz də onu təkrar eliyərdih. Deyərdi:

– Ay Çiləciy, bu yuxunu xeyirə yoz, xeyirə yaz. Ay Çiləciy, xeyrini sən ver. Uğura yoz, ay Çiləciy.

Yuxunu nağıllıyannan sora anam deyərdi ki, bala, gəə gedəy. Yuxu diyənnən sora adam irahatdıyır.

Yuxunu görənnən sora anam deyərdi, ağzınızı bağlayın, sıx tutun, yuxunu heş kəsə deməzdər. Yuxunu birinci suya nağıllıyallar. Anam, nənəm, elimdə yaşdı qadınnar deyərdi ki, yuxu dediyin ismarışdı, Allah tərəfdən ismarışdı.

***

Əgər bir kişinin iki arvatdan artıx arvadı ölürsə dalbadal, (boşanan yox ha, ölürsə) deməh, buna kəbin düşmür. Bu kişiyə qadın kəbini düşmür. Bunun kəbinni ağaca, məsələn, əriy ağacı, alça ağacı, tut ağacı, gilas ağacı, alma ağacı, armut... Bu ağaşdar bəhrəli-barrı ağaşdardı. Molla gələr, o kişini aparallar ağacın altına, kəbnini bax o ağaca kəsəllər, aldığı qıza yox. Onun kəbinni arvadı ağaşdı. Molla bu kəbini, kişinin kəbinini ağaca kəsir. Deer, sənin kəbinini bu ağaca bağladım. Gəlinin orda adını çəkmir ki, düşmür də buna evlənməy, arvad almağ. Arvad başı yeyir bu. Ona arvat başı yeyən deyillər. Onnan sora arvadı ölmürdü ha. O ağacın əyağı o qədər uğurru olur ki, üçüncü ölübsə, dördüncü doğur, törüyür, qabaxdan qalan yetimnərini yığır başına, xoş minvalnan, xoş xürrəmnən yaşıyıllar.

***

Bar gətirmiyən ağacı qorxutmax lazımdı. Bir neçə il bar gətirmir, halbuki, böyüy ağaşdı. Onda nacağı, yəni baltanı ələ alıb yavaş-yavaş meyvəsi olmuyan ağacın kökünnən bir-iki dəfə yalannan vırırsan. Deyirsən ki, bax budu, səni bu dəyqə nacaxlıyıb tökəcəm yerə, sən meyvə vermirsən. Onu bir-iki yerdən çərtirsən, tay əl vırmırsan, heyləcə qalır. Gələn il görəssən, çərtdiyin yerdən ağac pöhrələdi, başdadı bəhrə verməyə. Yəni bınnarın hamısı haqdı, inanılmış şeylərdi. Quru tərəflərin də doğruyursan, töküllər təndirə, ocağa, yandırıllar. Bu ağaş yaralamağın uzun bir söhbəti də var. Uşax da olsax, yadımızdadı. O nacağı ağaca vırıb yaralıya-yaralıya belə diyəllər: "Neyirəm səən belə qupquru quruyub qalıbsan baxçada. Məəm balalarıma meyvə lazımdı, bar lazımdı. Bax səə xəbərdarrıx eliyirəm. Quruyub burda oturubsan, səən doğruyub tökəcəm, təndirdə, ocaxda yanasan". O baltaan bir-iki dəfə vırıllar ağacın bir neçə yerinə, kökünə, onda ağaş dihsinir. Yəni ağaş yatıb da, uzun müddətli yuxuya keçib. Ağac dih-

sinir, oyanır. Oyanannan sora başdıyır o çapılan yeri, əzaları ağrıyır. Ağrıyanda deyir, ağac əlini qaldırır Allaha. Deyir ki, Allah, saa qurban olum, maa möhlət ver, səhvliy eləmişəm, toba eliyirəm. Mən özümə gəldim, ta bəhrə verəcəm, meyvə gətirəcəm. Gələn il həmin vaxdı o ağacın üsdü meyvə dolu olur. Bına da bizdə ağacı yaralamax diyəllər, dihsindirməy diyəllər, oyandırmax diyəllər.

***

Bizdə ətinnən ehsan verilən heyvanın, bir də İsmayıl qurbanın sümüyləri atılmaz, sümüyləri torpağı qazıb basdırıllar.

***

Qurban əti iki saatdan artığ qalsa, o məliyir, Allaha xoş getmir. İsmayıl qurbanın həmən dəqiqə bişirməy lazımdı. Əyər əti tez bişirə bilmiriysə, yekə qəməltini təndirdə qızdırarıx. Qızan kimi götürüb ətin üsdünə neçə yerdən çəkip dağlıyarıx. Dağlıyanda deyərih ki, Allah, Məhəmməd, Əli, Fatimə. Qurban əti evə çatan kimin oon üsdü od görməlidi. Qurban ətini saxlamağ olmaz. Əgər saxlıyırıxsa, onu dağlıyırıx.

***

Qurbanın ətini anam toxmaxda döyürdü. Sübh tezdən, gün çıxmamış İsmayıl qurbanı kəsilməlidi. Onnan qabax hamı çiməlidi. Hamının boynunun dalında bir tük var. İldə bir dəfə İsmayıl qurbanında çiməndə o tük isdanır. O qurban tüküdü. Biz həmin qurban tükünə and içəriy. And içəndə deyərih ki, o qurban tükü hakqı.

***

Uşağı olmuyan qadınnara İsmayıl qurbanının qanınnan sürtərdilər. Onu orta yaşdı arvatdar eliyər. Uşağı olmuyan gəlinin alnına, boynuun dalına qurbanın qanınnan sürtə-sürtə dua eliyəllər. Deyəllər, Allahım, gələn İsmayıl qurbanına kimin

bu gəlinin uşağı olsun, oğlan olsa, adını İsmayıl qoyacıyıx, qız da olsa, adını Həcər qoyacıyıx.

***

Bizdə dişi heyvan öləndə dişi heyvanın yelnini kəsib bassırardılar. Eyni zamanda çöl heyvannarının da, qabandı, çöl keçisidi, əgər bunnar dişidisə, onnarın da həmişə əmcəyin kəsib basdırardılar. Onu yeməy də günahdı, itə-pişiyə atmağ da günahdı.

***

Əgər kəntdə hamilə qadın varsa, qurbanın çənəsini ayranda niyyət tutallar. Heyvanın aşağı çənəsin ayranda saçaxlı olursa, bunun qızı olacağ. Çənə keçəl olursa, oğlan olacağ. Adi heyvan da kəsəndə bunu eliyirih, qavırmalıxda da.

***

Bizim kəndimiz dağ kəndi olduğuna, bizim yuxarı bağçamız elə kəhliynən dolu olardı. İsdənilən vaxdı atam, babam, qardaşım silahı götürürdü, əlin qoyurdu ağzına ki, susun. Kəhliyin də başın-əyağların qazıb basdırırdığ. Hökümdü, hökmən basdırılmalıdı, itə atılmırdı. Xörəhlərimizdə kəhliydən çox istifadə olunur.

***

Uşağın göbəyini qoyarmışdar kürsünün başına. Asarmışdar qapının başınnan, qıymazmışdar atmağa.

***

Əvvəllər qadınnarı zahı olan dəyqə salardılar cızığa. “Meymuna ev tikirəm”, “meymuna ev tikirəm”, “meymuna ev tikirəm”, – deyib üş dəfə başına dolanar, sora qayıdıb şişi gətirib qoyardı başıın altına. Zahıya tez zəfər toxunar[37] da. Şişə soğan, sarımsax taxır, yanında kömür, duz, çörəh qoyullar.

***

---

[37] zəfər toxunar – zərər görər

Zahı gəlin qırxdan sora hər yerə gedə, hər işi görə bilər. Bircə uşağı gecə qarannıxda çölə çıxartmamalıdı ki, cin dəyişər, başına cin don atar.

***

Körpə uşağın, nəyinki qırxı çıxana qədər, bir yaşına qədər paltarını gün batınca yığışdırmalısan ipdən. Çünki cin üsdünə şey atır, gətirib geyindirəndə pis duvalar, səslər keçir uşağa.

***

Duz yerə töküləndə savaş olar, gərəy duzun üsdünə qənd qoyasan.

***

Qırxı çıxmamış körpənin və ya yuxuda dihsinib qorxan adamın yasdığıın altına duz-çörəy qoyallar.

***

Həmişə babam deyərdi, körpə uşağı çölə çıxartdın, onun qoynuna duz-çörəh qoy. Ümumiyətnən, gecə vaxdı çağa, körpə vaxdı, qundax vaxdı çölə çıxartmayın. Bir yaşına qədər uşaxları qorumax lazımdı. Özü də o dövürrər Cinnər daha çoxuydu. İsdi suyu deerdi, çölə atanda "Bismillah Rəhmani Rəhim" deyin, yarımçıx demiyin. Bismillah deyəndə deer, Cin onu saymır. Elə ki, Rəhmani Rəhimi qoşursan onun dalına, Cin onda dik atılır, çəkilir. Ruzi-bərəkəti də aparammır.

***

Körpə uşağın üzünü güzgüyə tutmazdar ki, onun ağzı-burnu əyilər. Uşağı aynıya tutmazdar, qorxar.

***

O vaxı da ləmpə dövrüydü, ləmpə yanana qədər uşağı tək qarannığ əvdə saxlamazdar, qapını bərk çırpmazdar.

***

Babam deyirdi ki, şər vaxı Cinnərin hamısı yığışır, cəvizin budaxlarında oturur. Cəviz ağacının altınnan keçəndə o Cinnər bu adamı vururdu, şilləynən vururdu. Bu da vırılanda buna deyirdilər, onu vırğın vırdı, ağzı, burnu, əyildi. Gündüz də gördün uşaxlar bizdə cəviz altında oynuyanda babam çağrırdı eyvannan ki, bala, onun altınnan gəlin keçin işıxda, günəşdə oynuyun.

***

Pişih əl-üzünü yuyanda qonax gəlirdi. Pişih oturub əvdə, əlini elə qəşəy, səliqəli ağzında yaşdıyır, sürtür başına, qulağına, bura gedir, burdan qaytarır. Pişih əl-üzün yuyarsa, əvə qonax gələcəh deməhdi.

***

Qaşıx yerə düşərsə, əvə qonax gələr.

***

Qəcələ[38] ağaca düşüb oxuyursa, qırıldıyırsa, deməh, evə qonax gələcəhdi. Onda anam, nənəm diyərdilər ki, qəcələ, qəcələ xeyir söylə, qoy balam gəlsin əsgərrihdən, məytəbdən, (uzax şəhərrərdə oxuyurdular) saa yağlı bağırsağ atacam, sən xeyir söylə, kəsdiyim heyvanın yağlı bağırsağın atacam, sən dartışdırarsan.

***

Qarğa qırıldıyanda, deməh, qardan üşüyür. Üşüdüyü üçün də başdıyır qırıldamağa suların başında.

***

Tooxlar qəfildən çığırışıb qaçanda, küllüyün üsdünə yığışanda, deməh, ya yağış yağacax, leysan olacax, ya da zəlzələ olacaxdı. Yanı bınnarın hamısını insannardan çox birinci heyvannar dərk eliyir.

***

[38] qəcələ – sağsağan

Pişih arxasın əv sahıbına tərəf çəvirib oturanda tez arvaddar başmaxlarıın dalıynan pişiyi vırardılar, qavalıyardılar, diyərdilər: “Cəhənnəm ol get bırdan, ay pişiy. Qiybətimi kim qırır? Sən də öləsən, qiybətimi qıraan da başına daş düşsün”.

***

Çox qədim dövürrərdən xörəyə duz salanda “Dünyadan köçənnərin ehsanı olsun!”, – deyəllər.

***

Şirniyat bişirəndə də halallıx üçün o xəmirə bir çimdih duz əlavə edəllər.

***

Uşağ narahat olanda, çox ağlayanda oon başına duz hərriyib ocağa atallar.

***

Novruz bayramında axır çərşənbə gecəsi subay qızdar duzdu cöçə yeyib su işmədən yatallar. Onnarın qismətinə yazılan oğlan yuxuda onnara su verər.

***

Əvdən qonşuya duz verəndə həmən qonşudan kiçiy bir pay alallar. Duz əvin bərəkətidi.

***

İnəyin bılamasınnan qonşulara pay verəndə həmin bılama olan kasanı yuyub, içinə bir çimdih duz qoyullar ki, heyvanın südü bərəkətdi olsun.

***

Qarannıxdan qorxan adamnara balıncıın altına duz-çörəy qoymağ məsləhət görülərdi.

***

Bəyquş gəlib həyətə qonub uluyanda aparıb çörəylə duzu qoyullar qabağına. Çəkillər kənara ki, bəyquş ziyan verməsin.

Yaşdı adamnar uşağa deyərmişdər ki, səən əlin pakdı, duz-çörəyi sən apar qoy.

***

İlannan raslaşanda, ya da əvdə, həyət-bacada ilan olanda deyərdilər: "Ay Allahın ilanı! Səən ant verəm duz-çörəyə, bir də Süleyman peyğəmbərin üzüyüün qaşına... Maa ziyan vırma, mənnən saa xətər gəlməz".

***

Axşamüsdü, günün dalıyca bannıyan xoruzun başını həmin dəyqə kəsəllər, yoxsa ocağa zaval gələr.

***

Üzərriyi elə yerdən yığmağ lazımdı ki, üzərrih xoruz səsi eşitməsin. Bir də qəbirsannıxdan yığmağ olmaz.

***

Başmaxlar üz üsdə düşərsə, deməh ki, sözüü danışıllar.

***

Bizim kəntdə də nəzərçi adamnar var idi. Pis adamlar gəlirsə, tez nənəm deyirdi, aaz, uşağın, gədən üzün tez çevir, aaz, qaçırt. Verirdi birinə, qaçırdırdı otağa. Nəyinki uşağa, bütün mala-heyvana, əvə-eşiyə də nəzər dəyər. Ona görə bizdə həmişə üzərrihləri toxuyurdular, itin kəlləsin asardılar bağçadan. Üzərriyin yaşılını yaş vaxdı, yığıllar dənə-dənə, kökünnən yox, başın yumru muncuğlarnan. Onnan gül-çiçəy eliyir qızdarımız, qoyur evə forma kimi, həm də gözdən qoruyur.

***

Baxçada, bağda bəd nəzərdən qorunmağ üçün adam qurusu qurallar. Bizdə ona adam qurusu diyəllər. Başına papax qoyallar, qol qoyallar, köhnə kostumları, pencəyləri geydirəllər başına. Həm qurtdan, quşdardan qoruyar, pis göz dəyməsin deyə qoruyar.

***

İt kəlləsini həyətdərə, əvlərin damına da vırardılar. Pis gözdərdən qoruyurdu.

***

Uşağı pis gözdən, bəd adamnardan qorumağ üçün başına, yaxasına, üsdünə göz muncuğu asallar, dağdağan asallar, sancaxlı bir şey asallar. Həm də cinnən, əcinnədən, dilabdan qorumağ üçün. Nəinki uşağın, böyühlərin də cibinə üzərrih, dağdağan, göz muncuğu atarıx. Bını eləməy lazımdı. Bınnarın hamısı – göz muncuğudu, dağdağandı, üzərrihdi, bınnar göz qaytarır. Əvin görünən yerinnən bir topa üzərrih asallar, qara tikan asallar.

***

Sağ ayağ qaşınanda qonax gedərsən.

***

Sağ əl qaşınanda pul gələr. Sol əl qaşınanda pul gedər.

***

Sağ göz səyriyəndə xeyir olar. Gözün üsdünə mütləq qırmızı sap, nə bilim nəsə qoyallar ki, gözüm sevinsin. O qırmızıın qoyanda deyəllər ki, ay gözüm, mən səən səvindirdim, sən də məən səvindir.

***

Yazda yağış yağanda, ilk dəfə göy gurulduyanda tez tabağı, mis qabı, seyini[39] atarıx havıya. Lap yüksəyə, yuxarı atarıx. Qabın, deməli, üzü aşağı, arxası yuxarı düşdüsə, həmin ili qıtdıx olacaxdı. Qab arxası üsdə, ağzı açıx düşürsə, deməh, həmin ili bollux olacaxdı, çörəy, bərəkət bol olacaxdı.

***

Yazda göy guruldamıyınca pencər, yaşıllıx, yəni göy-göyərti yeməy olmaz. Günahdı.

***

[39] seyin – qab

Gecə əvi süpürməzdər. Ocağın xeyir, bərəkətini tökürsən elə bil eşiyə.

***

Gecə baş daramazdar.

***

Baş tükünü yerə atmazdar. Baş arğılı olar.

***

Gecə dırnax tutmazdar.

***

Qırxlı uşağı aynıya, günəşə, aya tutmazdar. Gözü əyilər, çəp olar. Ağzı əyilər.

***

Axır çərşənbədə yandırılan tonqalı, ocağı keçirtməzdər. Özü sönənə qədər yanmalıdı. Bizdə deyərdilər ki, bayram ocağını söndürməzdər. Hər yerdə tonqal yanmalıdı. Həm bizdən yeylər, yəni cinnər qaçar, həm də gələn il bayrama qədər ocax işıxlı olar, ruzili, bərəkətdi olar. Bayram günündə yanan tonqallara həmişə bizim böyühlərimiz nəzarət eliyər ki, o, sönənə qədər qoy yansın, közərsin. Tamam sönənnən sora əvə girərdilər. Çünki oon söndürməh günahdı. Elə bil, öz ocağıı söndürürsən. Uzağ olsun.

***

Axşamüsdü ocaxdan od, çaxmax verməzdər. Odun azalar. Əv saabıın odu azalar.

***

Axşamçağı, axşam əvdən çörəh verməzdər. Ruzun göyə çəkilər.

***

Axşamçağı qonşuya pul, para verməzdər. Bin-bərəkətin qaçar.

***

Şər vaxdı başıaçıx eşiyə çıxmazdar. Cinnər başaa don atar.

***

Şər vaxdı bar ağacın altınnan keşməzdər, vırqın vırar.

***

Körpə uşağı şər vaxdı eşiyə çıxartmazdar, zəfər toxunar.

***

Körpə, qırxlı uşağın paltarlarını, əsgilərini şər vaxdı ipdə saxlamazdar. Axşam üsdünə kimin yığılmalıdı. Cinnər onnarı avsınnıyar, uşax çığırtmıya düşər. Zahı qadın özü də, balası da şər vaxdı eşiyə çıxmamalıdı. Cinnər, fəriştələr balasın oğurruyallar, özünə də zəfər toxunar. Təzə gəlin də şər vaxdı çölə çıxmamalıdı, zəfər toxunar. Bu cinnərin işi ancax arvaddarnan, bir də uşaxlarnandı.

***

Günün dalınca yatmazdar.

***

Axşamçağı qəbir üsdə getməzdər.

***

Kəndimizdə qəfil leysan olanda, yağış yağanda "göbələh çıxdı, sabah gedirih yığmağa", – diyərdilər.

***

Yazın gözəl gününün ortasında qəfildən yağış tökərdi. Onda diyərdih ki, tülkü balaladı.

***

Şər vaxdı asdanada su işməzdər. Bizdə yeylər, yanı cinnər vırar. Su da düşər nəfəs boraa, çəçiyərsən, ölə də bilərsən.

***

Ayax üsdə su işməzdər. Onda qarın, yanı mədə uzanar. Su içəndə həmişə oturub içməy lazımdı.

***

Üzü üsdə su işməzdər bulaxdan.

***

Kimin boğazı ağrıyırdısa, Arazdan keçən adam (o dövürdə körpü vardı, Araz körpüsünnən kim keçirdisə) oon boğazın avan kimi "xırp", elə yerində kəsirdi.

***

Yola çıxarkən qabağaa nəzərçi, şeytan, mərdiməzar çıxarsa, yoluu dəyiş. Yoxsa oon nəfsi saa zərər verər.

***

Yolaa pişih çıxarsa, geri qayıt. Ələlxüsus, qara pişih. Oon qarası səən basar.

***

Tək səbir gələndə yola, işə bir az ara ver. Denən ki, Allahım, saa qurban olum, səbir sənin səbrindi, inşallah xeyir olsun. Bir balaca gözdə, evdən çıxma, bir ayağı basda.

***

Südəmər uşax süd əmərkən çəçiyərsə, tez oon alnını yavaş-yavaş basmax lazımdı, avmax lazımdı. Onda da deməy lazımdı: "Balası, hamısı səən, hamısı səən. Tələsmə, hamısın sən yiyəssən". Yeməh, əpbəh yiyərkən çəçiyəndə oon kürəyin yavaşca döyəcliyərlər. "Hamısı səən, hamısı səən. Halalın olsun, halalın olsun", – deməy lazımdı.

***

Payızda sərçə başın suya basırsa, deməh, həmin qış güjdü olacaxdı.

***

Rəhmətdiy babam diyərdi ki, ilan ilanlığıynan adamı su içəndə vırmır ki, qoy suyun işsin qutarsın, sora vırım, yəni çalım. Həm də Allaha xoş getmir, günahdı. İlan deyir ki, mən yezid dəyiləm ki.

Allah yezidə ləhnət eləsin. Qoy su işsin qutarsın sora. Su içən adama, yeməh yiyən adama qəfildən gəlib ağır söz deməy, ağır xəbər verməy, dava eləməy olmaz. Bınnar günahdı.

***

Rəhmətdih Fatma nənəm diyərdi ki, qara əxrab[40] adamı vırır, gedib qəbirsannıxda oturub gözdüyür. Deyir, mən öz gücümə o qədər inanıram ki, məəm vırdığım adam hökmən ölməlidi. İndi gətirəcəhlər basdırmağa. Lənətə gəlmiş.

***

Yüklü gəlin, yəni hamilə qadın ayağa duranda birinci sağ ayağını atanda oğlu, sol ayağını atanda qızı olar. Yəni o vaxlar uzi-muzi yoxuydu, hamısın inanclarnan yoxluyurdular.

***

Boylu gəlin, hamilə qadın yəni tez-tez əlini tellərinə aparıb sığallıyarsa, qızı olacaxdı. Əlini ağzı, burnu üsdə aparırsa, oğlu olacax. Yəni bığlı, sakqallı olacax.

***

Kim sırfa üsdə gəlib çıxırsa, əv saabı diyər, a bala, gəl, qaynanan səən çox isdiyir. Gəl, bir tikə çörəh ye.

***

Qayçının ağzı açıx, aralı qoymax olmaz. Kip bağlamax lazımdı. Bının rusumu[41] pis olar. Ağzı açıx qalanda, uzax olsun, ölü kəfəni kəsməy isdiyir. Mənası belədi. Ona görə də qəçini harda işdətdin, həmin dəyqə ağzını kip bağlıyıb, yerinə qoymax lazımdı. Nənəm hələ bir nağıl kimin deyirdi ki, qəçin ağzın bərk bağlıyın, yoxsa onun köylü[42] kəfən biçməy isdər. Fatma nənəm həmişə belə diyərdi.

---

[40] əxrab – əqrəb

[41] rusumu – nəticəsi

[42] köylü – könlü

***

Süpürgəni başı üsdə qoymazdar, əl tutan yerini aşağı qoymazdar. Divardan asmazdar. Onda diyəllər ki, əvdən ölü çıxar.

***

Əvi, həyəti iki yerdən süpürməzdər. Yanı iki nəfər eyni vaxda süpürməməlidi. Elə bil, əvin xeyir, bərəkətin aparıllar. Bir də iki yerdən süpürməy yas əlamətidi.

***

Ölü düşən əvi birinci günnən kim süpürürsə, üçü, yeddisi çıxınca da o süpürməlidi. Yoxsa ölüün dalı açığ olar. Yəni dal-badal ölən olar. Uzax olsun.

***

Camahat ölünü dəfn edib qəbir üstən dönərkən, ölü qalxır ki, o da getsin, başı əhlət daşına dəyir. Deyir: "Pahoo, elə ölən məniymişəm ki". Bı adətdən də "Başım əhlət daşına dəydi" el deyimi yaranıp.

***

Cavan ölüsü ölən ana, bacısı, qızı gecə-gündüz, vax-bevax yanıxlı-yanıxlı bayatı deyip ağlıyallar. Süb[43] deməzdər, şər qovuşan vax deməzdər, eləcə məliyəllər. Ağlar qalannarın səsi göydəki məleykələrə xoş gələr, dönə-dönə qulax asallar, həzz alallar. Soora yeri-göyü yaradana əl açallar: "Ya Rəbbi, o ağlar qalan zənənə genə cavan dağı ver. Oon avazı bizə xoş gəlir, qoy ağlasın". Bına görə deyəllər ki, üsyan eləmiyin, Allaha xoş getməz, səbirri olun. Səsiiz mələylərə xoş gələr, ağlar qalarsız. Allah uzax eləsin. Havışda axşamçağı, günün dalıca ağlamazdar deyərdilər.

***

[43] süb – sübh

Qəbirsannıxdan çıxıp əvə gələndə geri dönüp qəbirsannığa baxmazdar.

***

Qəbiri əlnən, barmaxnan gösdərməzlər. Əyər eliyipsənsə, həmin əli, barmağı diştiyip başmağıın altına qoyup möykəm ayaxlamalısan.

***

Çörəy yiyəndə tələsmədən ye. Səfsələy-səfsələy[44] yemə. Görməmiş kimi yemə. Tikələri normal çeynə. Normal çeyniyib yemiyəndə gedib mədədə qalır, bına da tikəsi qalmax diyəllər. Sonra da bıın tikəsin aparmax lazımdı, sıyırmax lazımdı.

***

İnanca görə, əv heyvannarını, yəni qoyun, toyux, hinduşka, mal, dana... bınnarın hamısının başını kəsən adamın ürəyinin necə olmağı o heyvanın ürəyiynən müqayisə olunur. Heyvanın ürəyində qan varsa, deməh, oon başını kəsən adamın ürəyində qan var. Əgər heyvanın ürəyində qan yoxdusa, deyillər, bax ey... yazıx kişiin, (Başıın kəsəən adını deyillər) ürəyində bi damcı qan yoxdu. Can diyəllər, özü də belə deyəllər. Anan ölsün, bala, ürəyində bi damcı nə yağ var, nə qan var. Heyvanın içalatın çıxardıllar, yerbəyər eliyəndə təmizləyib doğrayıllar. Doğruyan kimi ürəyi tən ortasınnan böləllər, ürəyin içi topa-topa qannan doludusa, çöl tərəfi bir az yağlıdısa, deməh, hər şey normaldı. Onda diyəllər ki, maşallah, ürəyi həm yağlı, həm də qannıdı. Heyvanı kim öldürübsə, ona diyəllər ki, maşallah, ay bala, gözə gəlmiyəsən, ürəyin yağlı, həm də qannıdı.

***

Subay adamın oturduğu yer küncə düşürsə, tez onun yerini dəyişdirəllər. Diyəllər: "Dur, dur, bala, tez keş sırfa başına, düz

---

[44] səfsələy-səfsələy – tələsik-tələsik

yerə. Aman günüdü, qalarsan əvdə. Un çuvalına tay olarsan, duz dibəyinə dönərsən”.

***

İnanca görə, subay oğlannar, qızdar qazan dibi yeməməlidi. El diliylə, qazaan dibini qaşıyıb, yalıyıb yeməy olmaz. Yoxsa toyunda qar yağar. Toyda qar, yağış yağanda da toy sahıbları zulum çəkillər. Buna görə də “Vay-vay, köpəy uşaxları qazan dibi yeyiblər”, – deyə qınıyallar həmişə.

***

Subaylar yeməh yeyəndə qabını təmiz sıyırmalıdı. Yoxsa nişannıları çirkin olar.

***

Qan tutan adam diyərih. Yəni əlində bir xəta olur, toyuğu vırır, hinduşkadı, ev heyvanıdı. Yaxud da bir adam çöldə, bayırda yerdən götürüb təsadüfən bir daş atdı. Getdi bir uşağa dəydi, bir heyvaan başına, gözünə dəydi, qəfildən yıxıldı, öldü, yaralandı. Ona qan tutmax diyərih. Tez həmin adamın yaxasın, köynəyin cırallar arvatdar. Yaxasını dartıb cırallar, açallar. Tez üzünə bir-iki şillə vırallar və yaxud əldə su varsa, suyu verib diyərlər ki, ədə, aradan çıxarın, götürün aparın. Elə olub ki, ölüm də olub. İndi hadisədi də, olubdu. Ağac ağaca döyüş gedib, müharibə kimin düşüb də, bir kəndin ortasında iki tayfa arasında. Böyüh bir qırğın, müharibə, qan düşüb. Hə, bına biz qan tutan adam diyərih. Qan tutaan da tez aradan çıxarıb götürüb aparallar. Yaralanan heyvandısa, öldürəllər. Oon ətinə ziyannıx diyərih. Oon ətini kəntdə hamı tez alar ki, qoy əv saabına zərər olmasın. Bəzən də heyvanı zədələyən adam diyər: “Ölən heyvanı ver maa, saa diri mal verim”. İndi insan ölürsə, insanı dəyişməy olmur axı. Onda da, nə bilim, axırı gedir çıxır türmüyə. Bir də qan tutan adamın yaxasın cırallar diyərlər ki, tüpür ələə,

tüpür ələə,tez-tez, zornan. O adam da quruyur qalır, çünki öldürməh mənasında eləmiyib, əlinnən xəta çıxıbdı. Oon zornan əlinə tüpürtdürəllər ki, özü özün əlinə tüpürməlidi ki, heç olmasa, özünə gələ bilsin. O adam uşaxdısa tez sidiyə aparallar, işədəllər, su içirdəllər, şilləliyəllər ki, özünə gəlsin.

***

Ah çəkən adama deyəllər: "Ahın dağlara, daşdara".

***

Hər iki əlini çarpazdıyıb qoynuna qoyan adama diyərih: "Əlii qoynunnan çək. Oon rusumu pis olar." Şükür, nolub ki, həylə eləmə. Elə şeyləri sınıyallar və diyəllər ki, belə olmaz, Allaha xoş getməz.

***

Bir düyü yeddi qulfallahdı.

***

Ehsan verilən düyü qırx gün qarında zikr eliyir.

# III. TÜRKƏÇARƏLƏR

İki cür qadın var: qısır qadınnar, doğar qadınnar. Qısır qadınnara (Allaha acığ getməsin) həm də sonsuz deyillər bizdə. Qısır qadınnarın işi bir az müşgüldü. O vaxlar da belə həkimzad dövri dəyil, tibbi cəhətdən orqanında nə çatır, nə çatmır, bunnarı biləmmirdiy. Toyunnan sora beş-altı ay hamilə qalmıyan gəlinnərə görə hər iki tərəf narahat olur. Ola bilər, bir ildən sonra ola. İlin gözdiyillər, onnan sora salıllar həylə ota-ələfə. Otdarı qaynadıllar, bu gəlini çimizdirillər, qarnına məlhəmnər qoyullar. Otdar – yarpız, çobanyastığı, baldırğan – ot vannasıdı. Heyva çiçəyi, heyvanın özü, gülburnu[45] çiçəyi... bunnarın hamsın qarışdırıllar, qaynadıllar, təmiz bir vannıya töküllər. İlığ vəziyyətdə qadın oturur onun içində. Yarım saat oturdannan sora gəlnin yorğan-döşəyin hazır eliyillər, qurulanır, paltarın geynir. Üç gün dalbadal bunu ota salıllar. Onnan sora qadın isdi geyinməlidi, soyuğ yerrərə getməməlidi, ayağı isdi olmalıdı, qarına şal bağlamalıdı.

Elə qadınnarı qoynun dərisinə salıllar. Əgər təzə heyvan öldürüblərsə (ancağ qoyun dərisi olmalıdı), filankəsin uşağı olmursa, qarnında, diməh, problem var, havı[46] var, soyuxlaması var. Tez qoyunun dərisin isdi-isdi gətirir, gəlini qurşaxdan aşağı, beldən aşağı, dizə qədər, dəriyə bürəliyillər, onun üsdünü basdırıllar. Bir saat, iki saat qadın qalır dəriin içində.

O qadın dəriyə düşdüsə, üç dəfə də onu dalbadal eliyillər, üş günnən bir, beş günnən bir. Məsələn, belə uzdaşdırıllar[47] ki, payız vaxtıdı, hamı dalbadal qavırma eliyəcəhdi.

---

[45] gülburnu – itburnu

[46] hav – irin, çirk

[47] uzdaşdırmaq – planlaşdırmaq

Gəlinin saabı dərini verən adama deyir:

– Sən duva elə, mənim nəvəm olsun. Səən ağzıın şirin eliyəcəm. Gəlnimi dəriyə salırığ.

O, həmin adamnarı da çağırır ora, orda aş da bişirillər. Çay sırfası açılır, samavar salıllar. Bunnar xeyirri olsun deyə, xeyir-dua müstəcəb olsun deyə, hamı yığışır ora. Yanı yaxın adamnar.

O gəlini qırx gün isdi-soyuğa qoymazdar. Elə vax olur qaynana qızın anasına deyir ki, apar evində qızaa yaxşı bax. Onnan sora elə olur ki, gəlin gəlib hamilə olur, bu hamiləliyə səbəb, dərisi olan, ot salan, əbəçə arvada – hamıya xələt verillər. Əl-üz sabunu, xurma, Şərildən[48] gələn bir şeylər. İrəvannan, Tiflisdən alınan bir cüt corab, yaxşı oymalığ parça kimi şeylər verərdilər.

Boşamağ yoxuydu onda, üsdünə arvad alırdılar. Bi evində içində saxlıyırdılar. Uşağı olmıyan olan uşağları götürürdü köynəyinnən keçirdirdi, deyirdi, məən balamdı. Heç öz balasına elə baxmazdılar, elə baxırdı. O da dalbadal doğurdu, elə bı saxlıyırdı.

O devirdə gəlin bir uşağnan kifayətdənmirdi ki, on iki-on üç uşağ doğurdu. O devirdə xəsdəliylər çox idi: çiçəy, göy öskürəydən-zaddan uşağ ölürdü. Yanı vəba-taunnan soranı deyirəm, altımış, yetmişinci illəri, evdə eşitdiylərimi.

Onda gəlin doqquz ay hamiləliy dövrünü ağır keçirirdisə, (abır dövriydi də) ana aparırdı, qızına baxırdı. Hamiləliy dövründə hay yatım, iş görmiyim, bizdə həylə şeylər yoxuydu. Nənəm deyirdi ki, biz uşağın birin çalırdığ ala çadraynan dalımıza, gedirdiy ot biçirdiy. Evin də işii görürdüy, nehrə də çalxıyırdığ, çörəy də yapırdığ. Həylə şeylər yoxdu, uşağ düşməy olardı yüzdən bir. Dokquz ay ərzində qaynanalar gəlinə tövsiyə eliyərdi:

– Bala, əyil-qalx.

---

48 Şəril – Şərur

Düyü tökərdilər yerə, məsələn, yarım xışma düyünü səpərdilər yerə, həyətə, toyuğ dəni kimin. Gəlinə diyərdilər:

– Əyil, bunnarı yığ. Üç-dörd aydan sora hərəkət eləməlisən ki, uşağ inkişaf eləsin, sən yatdığcan uşağ da yatır.

Hamilə dövrü qaynana diyərdi ki, bala, aya çox bax, qırmızı alma çox ye. Çirkin adamların üzünə baxma, söyüş-qarğış olan yerdən qaç. Xoş yerrərdə, gözəl adamnarın, Allah kəlamıynan danışan, namaz qılan, oruc tutan adamnarın yanında ol. Dokquz ay gəlinin işi bu idi, qarnı qalxana qədər, qarnı burnunda olana qədər. Əvvəllər qarınnarının üsdünə yekə yaylığlar salırdılar ki, qarın bilinməsin. Sora keşmə xalat deyilirdi, burdan salırdı, burdan çıxardı, düz ayağın üzünnən ki, qarın bilinməsin. Abırrı qadınnar həmişə daldalanırdı. Qaynata gələndə tez çəkilirdi, kişilər olan məclisə girmirdi. Kişini görəndə daldalanmalısan, yaşmaxlanmalısan. Hamiləsənsə, özünü bir az yığışdırmalısan, onu eləmirsə, day bı qadın dəyil, bizdən dəyil, bu şeytan əhlidi.

Gəlinin dokquz ayında sancısı tutar. Əbəçə arvad gələr doğuzdırar.

Uşağ doğuş vaxdı bəzən qalxır gəlinin ürəyinə, indi həmin vax əməliyat eliyillər. O devirdə əməliyat-zad yoxudu. Burdan sinəsinin üsdünnən basıllar aşağı, o da qışqırır. Əbəçə deyir ki, tez elə, basın-basın, uşağ gedir ürəyinə. Üç qadın düşübdü qadının sağ-soluna, bir də baş tərəfinnən, iki əllərinən basıllar aşağı, yumruxlarıynan ki, yanı uşağ sivrilsin aşağı, meyillənsin. Uşağ oldu, uşağı çala deyilən bir yer var, torpağı qazıllar, çalıya düşür. Ora bir vanna, ləyən qoyullar, içinə bir dənə döşəhçə qoyullar, birdən uşağ əbəçənin əlinnən düşərsə, vannaan dərdəmirinə dəyməsin, başı zədələnməsin. Vannanı da uşağ olan kimi ordan götürüllər, yerinə köhnə bir həsir basıllar, qalan qanı-qoxu axsın o çalıya – torpağa. Əbəçə arvaddarın özünün

xüsusi məlhəmləri olurdu. Onnar əllərini yağlıyır ki, sürüşgənniy yaransın, cırığ filan olmasın. Olarsa, əbəçə elə ordaca iynəynən, sapnan tikir, sarı yağnan da yerini bərkidir.

Birinin uşağı tərs gəldi, əbəçə çıxardammadı, öldü. Belə şeylər olubdu. Çəkib uşağın göbəyini qırıb ananın bağırsağıynan bərabər. Ana uşağ üsdündə ölür. Deyillər, ölən arvad deyib ki, məən əzamı atıblar külliyə, it-pişiy yeyib, tapa bilmirəm.

Uşağ yoldaşını[49] basdırallar torpağa. Dərinə basdırallar ki, itdər yeri eşib çıxartmasın.

Doğan kimi quymağ bişirəllər, xəşil eliyəllər, xəmir xörəyləri ki, südü çoxalsın. On günnən sora anıya başdıyallar qavırğa, cəviz, çərəz çox yedirdəllər ki, qavırğanı çox ye, çayı çox iç, südün çoxalsın.

Bir həfdiyə kimi göbəyi düşərmiş. Əbəçə gəlib (Oon göbəyin də, düşməyin də xüsusi qonaxlığı olardı.) pay-pülüşün yığarmış, gedərmiş. Qırx gün o qadına əbəçə gəlib baxarmış.

O qadını götürüb, yerinə qoyan kimin uşağın çox vaxdı nəfəsi təngiyirmiş, uşağı üzüsdə tutub, yançağlarına vurardı. O yadımdadı, əbəçənin şillə vurmağı yadımdadı:

– Balam, balam, tez elə oyan, oyan. Nənən, baban saa qurban deyib. Saa aşdar asacıyığ, mənım sözümü yerə salma. Ya Allah.

Uşağın səsi gələn kimi hamı da sevinərdi ki, çox şükür Allaha. İndi həkimnər var, uşağı üzü üsdə çevirillər. Uşağı dik tutub şilləməzdər. Uşağ ağlıyan kimi büküb-bəliyib qoyardılar anaan yana.

Məən babam hər dəfə əbəçəyə bir dənə heyvan pay verərmiş ki, məən nəvəm olubdu. Yanı yaxşı qazanarmışdar əbəçələr. Tumannığ, qoftalığ, sortıx[50] diyərih, kastum tihdirərmişdər. Əbəçələrdən Əzət nənə, Xanım dosdu, Qumru dosdu yadımdadı.

---

[49] uşaq yoldaşı – son

[50] sortıx – pencək

***

Dişi ağrıyanda yerinə duz basallar.

***

İnsanın bədənində əzilən, əmə qan çıxmıyan yerə duzdu su ilə məlhəm qoyallar.

***

Ağaşdar təzə çiçəydən töküləndə yerində qalan meyvəyə təzə çakqala diyərih. Bu çakqalanı yeməy olmaz. Babalarımız diyər ki, o sərfədi. Yanı sərfədi də, xəsdəlihdi. Gözdəyin, qoy bir balaca möhkəmlənsin, sora yeyin.

# IV. ETNOQRAFİK MƏTNLƏR

## HAVUŞUN TOY ADƏTLƏRİ

*Qız bəyənmə.* Oğul evləndirən ata-ana qız bəyənmə işinə başlayırdılar. Aldıqları qız əsilli-nəsilli, soylu-köklü yerdən olmalıdır. Qızı bəyəndikdən sonra onu yoxlamağa başlayardılar. Bulaq başında, hana (gəbə-kilim) toxuyarkən qızı yoxlayardılar. Fatma nənəm deyərdi ki, qızın sağlamlığını, gözünü, qulağını belə yoxlayardılar. Yaxalarından iynəni çıxardıb deyərdilər ki, ay bala, düymə qırılıb, al bunu tik və yaxud gözümə it dirsəyi çıxıb, nəsə düşüb tüpür, getsin. Qız yaxınlaşıb düyməni tikərkən, gözünə baxarkən ağzından qoxu gəlib-gəlmədiyini yoxlayar, gözünün görməyini, qulağının eşidib-eşitmədiyini öyrənər, bundan sonra bir qərar verilərdi. Əgər ağzı iylənərdisə, deməmk, qız xəstədi, ondan sağlam uşaq gözləmək olmaz. Qız bütün yoxlanışdan keçirsə, qız evininin ağzı aranardı. Bunun üçün oğlanın bacısı, xalası, bibisi qız evinə fikir öyrənməyə gedərdi. Və yaxud da al dillə başqa bir şeyi bəhanə edib evlərinin səliqə-səhmanına, davranışlarına baxmağa, qızın biş-düşünü, bacarığını yoxlamağa gedərdilər. Tam razılığa gələndən sonra qadınlar gedərdilər. Razılaşardılar ki, bu məsələni məsləhətləşsinlər, üç gündən sonra xəbərləşərlər. Vədə tamam olanda bir-iki qadın yenə qız qapısına gedərdi. Əgər razıdırlarsa, yenə vaxt ayrılardı. Bir-iki günə oğlan evi böyükləri götürüb qız evinə gedərdi. Bu adətin adı *elçilikdir*. Elçiliyə gələnlər hal-əhvaldan sonra məqsədlərini bildirərdilər. Atalar sözləri ilə deyərdilər: "Qız əvi – naz əvi", "Qız ağacı – qoz ağacı, hər gələn bir daş atar", "Əl bizdən – ətək sizdən", "Otax bizdən – çıraq sizdən", "Allahın əmri ilə, peyğəmbərin diləyi ilə qızınızı oğlumuza istəyirik". İndi si-

zin son sözünüzü eşidək. Adətdəndir ki, qız evi elçiləri qaytarar, təkrar gedərlər. Sonda "hə" alınar, şirinliyin vaxtı təyin olunardı. *Şirinlik* deyilən mərasimin xərci Havuşda *xərci-xörəy* adlanırdı. Bu xərci oğlan evi çəkirdi. Aparacağı adamın sayına görə xərcini verirdi. Soğan aparmaq olmazdı (soğan acılıq hesab edilir). Qızın barmağının ölçüsünü götürüb hazırlığa başlayardılar. Qıza təpədən dırnağadək pal-paltar, üzük, qızmızı yaylıq alınardı. Kimlər şirinliyə gedəcəksə, çağırardılar. Qız evi də öz növbəsində hazırlığa başlayardı. Ev-eşik təmizlənər, gəbə-kilim çırpılar, döşənərdi. Dəstərxanlar hazır qoyulardı. Yastıqlar, döşəkçələr əl altına yığılar, qab-qaşıq, stəkan, zir[51] hazırlanardı. Eyvanda xörək bişirmək üçün tabaq, ləyən, qazan qoyulardı. Xərci-xörəyi oğlan evi bir gün qabaqdan gətirib verərdi ki, qız evi biş-düşünü vaxtında eləsin. Şirinliyə ya dana, ya da ağ tüklü heyvan (qoç) gətirərdilər. "Verdik bir dana, aldıq bir sona" atalar sözü burdan qaynaqlanır. Gətirəcəkləri heyvanı yuyub-təmizləyərlər, boynuna qırmızı kəlağayı bağlayardılar. Bütün ərzaqlar qablaşdırılardı. Qohum-əqrəbadan olan cavan oğlanlar, qızlar "xərci-xörəyi" götürüb qız evinə gedərdilər. Qız evi gələnləri hörmətlə qarşılayar, "xərci-xörəyi" gətirənlərə nəmər verər, yola salardı. Sabah nahara xonçalar bəzənər, hamı təzə pal-paltarını geyinər, deyəgülə qız evinə gedərdilər. Yenə qız evi onları xoş qarşılayar, xonça gətirənlərə nəmər verib, xonçaları alardılar.

Qonaqları süfrə başına keçirərdilər. Kişilər ayrı, qadınlar ayrı otarardılar. Qız evi xələt verəndən sonra qazanın ağzı açılar, birinci yeməyi oğlana çəkərdilər. Qız evi xonça tutar, yemək, şirniyyat, naz-neməti məcməyiyə yığar, üstünə qızmızı yaylıq örtər, iki cavan oğlanla nişanlı oğlana göndərərdilər. Oğlan və yanındakı dostları xonça gətirənlərə nəmər verib yola salardılar.

---

[51] zir – nəlbəki

Qız evində yemək-içmək başlardılar. İkinci qab xörəyi qıza gətirər, onun anası, bacısı aşbaza nəmər verərdi. Süfrələr yığışdırılandan sonra xeyir-dua verərdilər. Qızı ortada, yastıq üstündə oturdardılar. Oğlan evi gətirdiyi xonçaları qızın ətrafına düzərdi. Qız nişan günü oğlan evinin aldığı qırmızı paltarı geyinməli idi. Qıza məxsus olan nişan xonçasını oğlanın bacısı və yaxud gəlinləri açar, üzüyü götürüb qızın barmağına salar və deyərdi: "Üzük dar gəlir". Qız anası nəmər verər, "İnşallah dar gəlməz", – deyərdi. Hamı xeyir-dua verər, üzük qızın sol əlinin adsız barmağına taxılar, başına qırmızı kəlağayı-yaylıq örtülər, hamı əl çalardı. Xonçadan qızın başına şirniyyat səpilər, subay qızlar əl çalıb oynayar, haxışda deyərdilər. Üzüyün taxılması, yaylığın başa örtülməsi həm də *bəlgə* adlanırdı. Süfrələrə iki rəngli şirin çay verilərdi. Hamı şirin çayı içər, nəmərini zirə qoyar, "Allah mübarək etsin!", "Xeyirli olsun!", – deyərdi. Qız evi xonçaları boşaldıb, məcməyilərə xələt qoyduqdan sonra oğlanın bacısına verərdi. Hamı şad-xürrəm halda evinə qayıdardı. Həmin gündən toya qədər qız nişanlı qız, oğlan nisanlı oğlan adlanardı. Qıza alınan qızıl əşyalar bunlar idi:

*Heydəri sırğa* – Üç ətəklilərə[52] heydəri sırğa deyirdilər. Üç ətəkli sırğa özü yumuru olub, ondan üç dənə yarpaq formasında salxım sallanırdı.

O dövrün əksər sırğalarının qaşı zümrüddən olurdu.

Dörd yarpaq sırğalar qatar-qatar sallanırdı.

*Yarpaq sırğa və yarpaq üzüklər* – Üstündə yarpağa bənzər silsilə kimi sallanma olurdu.

*Qarabatdax* – Boyunbağıya qarabatdax deyirdilər. Qarabatdax boğaza yapışıb dururdu. Qarabatdax *çəçik*dir, heç nəyi yoxdur. Qara muncuq düzülür, ortasına da qızıl parçalar salınar-

---

[52] üç ətəkli – üç salxımlı

dı. Çəçik ay-ulduz formasında olan, hər biri iki qramdan artıq qızıldır. Bir çəçik düzümündə on iki dənə bundan olurdu. Bunlar qızılın üstündə dayanırdı. Çəçiyi çərçilər gətirib satarmışlar. Onlar əşyaları ancaq pulla satmır, həm də arpa, buğda, düyü və sairlə dəyişirdilər.

*Silsilə* bütün yaxanı tuturdu. O, arxadan düymə ilə bağlanırdı. Düymələr qızıl olmurdu. Silsilənin qızıldan sallama gülləri olurdu. Ay-ulduz, üstündə firuzə qaş, altında bir dənə yarpaq taxılırdı. O, üzüyün qaşında olan yarpaq sallamaya bənzəyirdi. Arvadlar silkələndikcə silsilə də yaxalarında silkələnirdi.

*Sinəbənd* silsilədən uzun olurdu. Sinəbənd iki döşün arasına qədər gəlirdi. Sinədəki duruşu üçkünc idi.

Kimin nəyə gücü çatırdı, onu alırdılar. Qarabatdax bir cərgə olur, o da muncuğun içinə düzülürdü. Silsilə və sinəbənddə isə muncuqdan istifadə edilmir, xalis qızıldan hazırlandıqları üçün bunlar qarabatdaxdan baha olurdu.

Gəlinə *bilərzik* də alardılar. Bilərzik ya qızıldan, ya da gümüşdən hazırlanır, üstündə işləmələr olurdu. Bəzən üstündə zümrüd qaşlar da olurdu.

Sonralar, yetmişinci illərdə gəlinlərə qızıl saat da alınmağa başlanmışdı. Bəzi saatların qapağı var idi. Saata baxmaq istəyəndə qapağı qaldırmaq lazım gəlirdi. Qızıl qapağın üstündə, üç-dörd yerdə firuzə qaşlar olurdu.

O dövrdə gəlinin pal-paltarı İrəvan bazarlarından alınardı. Gəlini təpədən-dırnağa kimi geyindirərdilər. Məsələn, mənim qardaşımın toyunda atamla anam İrəvan bazarından səkkiz dəst paltar, jaket, yaylıq, iri yaylıq, gülü yaylıq, krepdeşin yaylıq, kəlağayı almışdılar. Gəlinə hər fəslə uyğun paltar alınardı. Qış üçün yun yaylıqlar, yay üçün isə gülü yaylıq,[53] pambıq yaylıqlar

[53] gülü yaylıq – iri, saçaqsız yaylıq

olurdu. Yun jaketlər, (Nənəm, anam çəket deyərdi.) jiletlər alardılar. Yetmişinci illərdə gəlinə alt paltarı kimi kombinasiya köynək alardılar. Bunlar indi dəbdən çıxıbdır. Ancaq ondan qabaq gəlin üçün pambıq parçalardan can köynəyi tikərmişlər. Oğlan evi pambıq parça alıb verər, can köynəyini toy qabağı gəlin özü tikib hazırlayarmış. O dövrdə demək olar ki, bütün qızlar, gəlinlər tikməyi bacarardılar, dərzi lazım deyildi.

Toyda başmaq geyinməzmişlər, ancaq ayaqqabı alınarmış. Yadıma gəlir, böyük qardaşımın arvadına atamgil *şirvanı çarıq* almışdılar. Bu çarıqların burnu arxaya doğru qatlanar, arxası açıq olar, üstü gözəl işləmələrlə işlənərdi. Qiyməti isə baha olardı.

*Parça biçdi.* Qız evində parça xonçaları, çamadanlar açılar, oğlan bacısı qayçı ilə parçanın qırağını kəsəndə deyərdi: “Qayçı kəsmir”. Qız anası və oturanlar da kimin qolundan nə qopursa, nəmər verərdi. Parça ilə bərabər xınanı da aparardılar. Qız evi xına xonçası tutub, axşam oğlan evinə gətirərdi. Qızın sağdış-soldışı xına xonçasını bəyin oturduğu otağa aparardı. Bəy sağdış-soldışı ilə barmaqlarını xınaya batırıb nəmər verərdi. Sonra oğlanı qız evi oynadar, başına şabaş tökərdi.

*Xınayaxdı.* Xına gəlin köçməmişdən bir gün qabaq keçirilirdi. Əvvəlcədən kəndi xınaya çağırardılar. Qazanlar asılar, xına isladardılar. Qız evi gələnlərə yemək verirdi. Xına səhərdən axşamadək davam edirdi. Axşam gəlinin əlinə xına yaxardılar. Gündüz oğlan evi xonçada qız evinə quru xınanı gətirirdi. Xınanın xonçasına qız evi nəmər verərdi. Bu xınadan bəy üçün də pay gedərdi. Buna *bəy xınası* deyərdilər. Xınaya gələcək adamları bir gün öncədən dəvət edərdilər. Onlar xınaya gələndə adətən, qıza cehizlik hədiyyə gətirərdilər. Cehizlik əşya gətirməyənlər isə nəmər verərdilər. Xınada haxıştalar, gülümeylər deyilərdi. Amma üstünlüyü daha çox haxıştaya verərdilər. Çalğı olma-

dığı üçün qız-gəlin əlinə vanna, vedrə götürər, onları döyərdilər. Xına gecəsində heç kəs yata bilməzdi. Yuxu aparan yaşlı qadınları, yorğun gəlinləri iynə-sapla oturduqları döşəyə, söykəndikləri yastığa tikərdilər. Yuxudan ayılandan sonra həmin adam görərdi ki, yerindən qalxa bilmir, işi başa düşərdi: "Ay it süd əmmişlər, ay sizi gəlin ölmüyəsiz, aaz, utanmırsız məni tikibsiz yorğan-döşəyə?" Bundan sonra qayçı gətirər, tikilənlərin sapları kəsilərdi. Gecə bəyə xına aparardılar. Məcmeyiyə islanmış xına, yanına şirniyyat yığar, xonça düzəldərdilər. Xına aparan dəstənin qabağına cavan oğlanları salardılar. Bəy xınası gətirən dəstənin qarşısına bəyin bacısı çıxar, onları içəri aparadı. Bəy, sağdışı və soldışı barmaqlarını xınaya basar, xonçaya nəmər qoyardılar. Bəyin anası xonçaya dəsmal, corab, yaylıq qoyub onları toya göndərərdi. Qız evindən gələnlər burada yeyib-içər, qayıdardılar.

Toyda qızın ata-anası utancaq olar, geri çəkilərdilər. Qız evinin ağsaqqalları, ağbirçəkləri toy başlayan gün toy evinə gələr, sıradan kənd camaatı kimi toya nəmər salıb qayıdardılar.

Şirinlikdə toyun vaxtı təyin edilərdi. Hərə öz hazırlığına başlardı.

*Ev bəzəmə.* Toydan qabaq gəlinin cehizi yığılıb oğlan evinə göndərilərdi. Cehizin üstündə cavan oğlan və qızlar gedər, gəlinə ayrılan otağı bəzəyərdilər. Oğlan anası ev bəzəyənlərə nəmər verər, onları yola salardı.

*Toy mərasimi.* Qədim inanclara görə, qız anadan olanda üzünü çevirər yuxarı – Allaha tərəf və deyər: "Bura haradır? Mənim evim deyil". Həmin gündən ana qızına cehız yığar, ya da sandığında saxladığı cehizlərini qızına qoşardı. Ana qızın nişanladığı günün səhəri yığdığı şeyləri ortalığa tökər, çatışmayan əşyaları müəyyənləşdirərdi. Qohumları başına yığar, yun yuyular, çırpılardı. Yorğan-döşək, döşəkçələr salınar, qızın qaynana, qay-

natasına iki böyük döşəkçə salınar, fərmaşdan, yükdən gəbə, kilim ayırardı. Havuş kəndində toyu olan qıza mütləq sandıq alınardı. Sandığın içinə əl-üz dəsmalları, qətfə, yorğan-döşək üzləri, tikmələr və s. yığılardı. Oğlan evi üçün bir neçə corab, dəsmal, namaz qılmaq üçün bir neçə canamaz, möhür, təsbeh qoyulardı. Bunlar oğlan evində sandıq açılanda oğlanın anasına verilər, o da məsləhət bildiyi ağsaqqala, ağbirçəyə pay verərdi.

Adətən, toyu payızda edərdilər. El dağdan enəndən sonra toy danışığına gedərdilər. Oğlan evi *başlıq* deyilən süd pulunu qız anasına verər, onu da məclisə dəvət edərdilər. Qız anası-atası xeyir-dua, halallıq verərdi. Toy adətən, cümə gününə, yaxud cümə axşamına salınardı. Danışıq kəsilər, hərə öz evində toya hazırlaşardı.

Havuş kəndinin maraqlı bir toy adəti olmuşdur, təəssüf ki, indi bu adət unudulub. Kim oğluna kiçik, yaxud böyük toy edərmişsə, bir yaxın qohumunu çağırıb toya adam çağırmağı tapşırarmış. Kimləri çağıracaqsa, adlarını deyər və adamların sayı qədər qırmızı almanı heybənin hər iki gözünə yığardılar. Həmin heybəni toya adam çağırmağı tapşırdıqları şəxsin çiyninə atar, o da qapılara düşərmiş. Hansı qapıya getsə, onları toya dəvət edər, sonra heybəsindən çıxarıb bir alma verərmiş.

Söyləyicinin dediyinə görə, bu adət İrəvanın bəzi kəndlərində də var imiş.

Nisbətən yaxın dövrlərə qədər isə kənddə bir adama xələt, pay-pülüş verərdilər ki, toya adam çağırsın. Nəmər toya çağıran adama çatırdı. Müasir dövrdə toya dəvətnamə yazırlar. Ancaq əvvəllər toya qədər bütün mərasimlərə dil ilə dəvət edər, adamları toya dəvət etmək üçün cavan uşaq göndərərdilər.

Əvvəllər Havuşda toy üç gün çalınardı. Çörək yapmaq üçün iki qadın ayrılar, hər gün isti-isti təndirə çıppa-dəstəna ya-

pılardı. Hərəyə bir iş tapşırılardı. *Toy babası* təyin olunar, toyun məsuliyyəti bu adamın boynunda olardı.

Ev sahibinin istəyinə görə ya aşıqlar, ya da *combaxla toy çalanlar*[54] dəvət olunardı. Kəsmət kəsilər,[55] ev sahibi toya yığışan *haşşabaşı*[56] çalğıçılara verər, ya da müəyyən qədər pulla razılaşardılar. Gündüzdən dana öldürər,[57] əti sərərdilər. Bəzən də əti göydən asar, qanı-qoxusu çəkilsin deyə üstünə cuna sərərdilər. Axşama *ciyər axşamı* edər, malın bütün içalatı bişirilər, samavar salınar, yeyib-içər, işləri bölərdilər.

Kənddə belə bir adət vardı. Toy sahibi toyun birinci günü kənddə bir ili tamam olmamış təzə gəlinin və nişanlı qızın qapısına toy aparar, çalıb-oynayar, təzə gəlini, nişanlı qızı ortaya salar, əlinə şabaş verər, ev sahibi də toyçulara xələt verər, toy evinə qayıdardılar. Qız evinə parça aparar, həm də toya dəvət edərdilər.

Səhər tezdən toy evi qaynayardı. Hərə öz işində olardı. Çalğıçılar gələr, bir *Kəsmə*[58] ilə bəyin ata-anasını mağara dəvət edərdilər. Oğlan evi çalğıçıların nəmərini verər, sonra oğlanı sağdış-soldışı ilə oynamağa dəvət edərdilər. Oğul anası həya edər, yüngülvari əl qaldırar, sevincdən gözü dolar, qırağa çəkilərdi. Cavanlar ortaya düşər, oynayar, yallı gedərdilər. Qadınlar əllərində dəsmal "Şahsevəni"[59] oynayardılar. Orta yaşlılar, qocalar, qadınlar yan-yana düzülərdi. Hamısının da əlində toxunma, qırağı həşyəli[60] dəsmallar, yaylıqlar olardı. Yaşlı qadınlar san-

---

[54] combaxla toy çalanlar – qara zurna və çomaqla döyülən nağara dəstəsi

[55] kəsmət kəsmək – pulun məbləğində razılığa gəlmək

[56] haşşabaş – şabaş

[57] dana öldürmək – dana kəsmək. Kənddə heyvan kəsmək ifadəsi əvəzinə heyvan öldürmək işlədilir.

[58] Kəsmə – oyun havasının adı

[59] Şahsevəni – Şərurda oynanan yallılardan birinin adıdır.

[60] həşyəli – haşiyəli

dıqlarında xüsusi qırağı toxunmalı dəsmallar saxlayardılar. Mənim nənəm çox utancaq qadın olub, toylarda oynamazdı. Ancaq nənəmin yaşıdları – Zərnigar nənə, Çimnaz nənə, Qumru dostu, Fatı xala – hamısı Şahsevəni oynayırdılar. Hamısı başına güllü yaylıq bağlayar, ağızları yaşmaqlı olar, üzləri çox görünməzdi. Üst köynəyi geyinər, altdan da tumanları çıxardı. (İki qarışlıq tuman çıxmalıdır. Bu, geyimin formasıdır. Hamı bilsin ki, Fatma arvad və yaxud Fatma qarı üst köynəyiylə tuman geyinib. Yox, əksinə, tuman-kofta geyirsə, üst köynəyi yoxdur, xalis tumanıdır. Tumanın da üstdən şortuq[61] geyilirdi). Ayaqlarında qara yun corab, qaloş olardı. Mən uşaq olanda toyda çarıx geyən arvadlar var idi. Onları geyinib əllərində də dəsmal oynada-oynada Şahsevəni oynayırlar. Ağır-ağır, fırlana-firlana, asta-asta oynayardılar. Onlar yerlərində oynayar, sanki yerlərindən tərpənməz, çiyinlərini, əllərini oynadardılar. Dəsmalları ya çeçələ barmaqlarına, ya baş barmaqlarına keçirərdilər. Dəsmalı əllərində fırlamır, iki barmaqla çırtma vura-vura sallayırdılar. Beş-altı arvad yan-yana, dəstəylə gedirdi. Axırda bunların yanında cavan, məzəkeş, zarafatcıl oğlanlar dururdu. (Onlar bir azdan deyirdilər ki, fürsətdir, dərə xəlvət, tülkü bəy, keçin qabağa. Bunlar qoca nənələrin qabağına keçirdilər). Havuş kəndində oynayanlar yuxarı tullanmır, əyilə-əyilə oynayır, belini əyə-əyə oturur, çökə-çökə, dura-dura oynayırdılar. Oğlanlar qız-gəlin qabağında dik-dik durub oynamazdılar.

Toyun birinci günü “Sarı gəlin” yallısı gedilərdi. Bu yallıya cavan adamlar girməz, ancaq yaşlılar oynayardılar. Yaşlıların da hamısı oynamazdı. Həmin yallını qadınlarla kişilər bərabər gedərdilər. “Sarı gəlin”i ağır-ağır, təmkinlə oyanardılar. Qumru dostunun yaxşı “Sarı gəlin” getməyi vardı. Kənd soveti Mamed bir əlini Qumru dostunun çiyninə, bir əlini də Çimnaz nənənin

---

[61] sortuq – müxtəlif parçalardan əldə tikilən pencək

çiyninə salar, elə oynayardılar. Oyuna girənlər yırğalana-yırğalana, başlarını aşağı salıb oynayardılar. Zərnigar nənə də oynağan qadın idi.

Bu dərənin uzunu,
Nay-nay-nay-nay.
Sarı gəlin, balam,
Sarı gəlin, ooy,
Nənən ölsün, sarı gəlin.

Sarı gəlin oxunduqca dəstə ləngərlənirdi. Bu hava mütləq oyun havası deyildi. İstəyənlər, bacaranlar oynaya bilərdilər. Bu yallı da dəsmalla gedilərdi, ancaq dəsmalı çox oynatmaz, yavaşca sallayardılar.

Cavanlar "Qazı-qazı"[62] oynayar, böyük dəstə ilə yallı gedərlər. "İrəvanın dörd ayağı",[63] "Osmanlı",[64] "Tənzərə",[65] "Tello"[66] oynayarlar. İndi "Osmanlı" gedənlər yoxdur. Əvvəllər "Osmanlı" da oynanardı.

Toyun ikinci gecəsi daha maraqlı olardı. Hamı çalar-oynayar, yaxşı yallılar gedərdilər. Toyun ən axırında "Qazı-qazı"nı başlayardılar. "Qazı-qazı"nı oynamağı bacaran, döyülməyi bacaran cavan oğlanlar oynayardılar. Çünki buna dözüm lazımdır. Dəstənin başında bir oğlan əlində çubuq gedərdi. Bunun üçün əvvəldən xüsusi çubuqlar kəsilirdi. Oyuna girənlər əyinlərinə ağır paltarlar geyinməzdilər ki, tərləməsinlər. Ortanı boşaldar, bəzən on-on beş, bəzən iyirmi-otuz nəfər oğlan oyuna girərdi. Bu yallını gedənlər çiyin-çiyinə durardılar. Qollar bir-birinin

---

[62] Qazı-qazı – yallı adı
[63] İrəvanın dörd ayağı – yallı adı
[64] Osmanlı – yallı adı
[65] Tənzərə – yallı adı
[66] Tello – yallı adı

çiynində olurdu. "Qazı-qazı"o qədər şıdırğı yallıdır ki, ayaqlar göydə gedir. Birdən qəfildən toyçu çomağı yerə vururdu. "Na-na-na-na". Çomağı vurur. "Dı-dı-dı-dı". Bu zaman "Qazı-qazı"nın başçısı tez əlinə nəsə alır. Həmin anda hamı dəstə başçısının hərəkətini təkrarlamalıdı. Məsələn, iki il bundan qabaq qardaşımın qızının toyunda "Qazı-qazı" gediləndə oğlan gəldi, mənim çiynimdən yaylığımı götürdü. Hamı əlinə yaylıq almalıdı. Kim yaylıq tapa bilmirsə, onu çubuqla döyürlər. Yaxud da dəstə başçısı əlinə çöp alır, qələm alır. Dəstənin digər üzvləri də tez onun əlində olan əşyalardan tapmalı idilər, yoxsa döyüləcəklər. Döyülən mağar boyu ora-bura qaçır, ancaq onu dövrədən çıxmağa qoymur, kürəkləri zol-zol olana qədər çırpırdılar. Bu yallıda əsas şərt dözümlü, diqqətli, çevik olmaqdır. Oynaya-oynaya hamının fikri dəstə başçısında olardı. Onun mimikasından nə axtardığını hiss etməyə çalışardılar. Tutaq ki, dəstə başçısı toydakılardan birinin uşağını qucağına götürdü. Cəld olub oradakı uşaqlardan götürmək lazımdır. Axı hamı uşaq götürəcək, odur ki, bütün iştirakçılara uşaq çatmaya bilər.

Bəzən toyun ikinci gecəsi o qədər maraqlı olurdu ki, səhərə kimi uzana bilirdi. Bu zaman yaşlılar narazılıq edərdilər ki, ay bala, qurtarın, gecə keçir, səhər oyanmaq da var. Heç kəs evinə getmək istəməzdi. Hamını evdə məişət qayğıları gözləyirdi: çörək yapmaq, çölə getmək, mal sağmaq, qaynananı çimizdirmək, qaynatanın paltarını yumaq, ayaqlarını yumaq və s. Toy çox nadir hallarda gecə saat üçdə-dörddə dağılarmış. Bəzən hava işıqlanar, yaşlılar oradan durub namaza gedərdilər.

Toyun sonunda bəy tərifi olardı. Ona qədər bəy toyunda iştirak eləməzdi. Bəy tərifi deyiləndə bəyi onun üçün əvvəldən hazırlanan yerə gətirib, orada oturdardılar. O dövrdə bəylər indiki kimi ortalıqda gəzmirdilər.

Gəlin gedəcək qız da toyun ikinci günü çox gizlin toya gələrdi. Onun gəlməsindən heç kəs duyuq düşməzdi. Bundan xəbərsiz olan məclis iştirakçıları soruşardılar ki, gəlin hələ gəlməyib? Gəlinin başına örpək salıb gizlincə toya gətirərdilər. Çox adam bunu heç bilməzdi. Bilənlər də səslərini çıxarmazdılar. Bu hadisə daha çox ötən əsrin 90-cı illərində olardı. Ancaq hər gəlin öz toyuna gələ bilməzdi. Elə ailələr də vardı ki, qızlarını toya buraxmazdılar. Qız bəy toyuna gələrdisə, əlində konfet gətirər, oradakı subay yaşıdlarına paylayardı.

Toyun üçüncü günü səhər tezdən durardılar. Qız evində qızın hazırlıqları başlayardı. Ona *baş bəzəmək* deyərdilər. İndiki kimi gözəllik salonları yox idi. Dul qadınlar gəlinə yaxın getməzdilər.

Qızın saçı ilk dəfə başı bəzənəndə kəsilər, qaşı onda alınardı. Ona qədər qız əlini saçına, qaşına vura bilməzdi.

Bəy də bəy hamamına gedərdi. Kənddə hamam yox idi. Hərə öz həyətində çimərdi.

*Gəlin gətirmə.* Toyun axırıncı günü axşamçağı oğlan evi hazırlaşıb gəlini gətirməyə gedərdi. Qızın gəlinlik paltarını xonçaya qoyar, böyük təntənə ilə qız evinə gedərdilər. Qız evində xonçanı nəmər verib açardılar. Oğlan atası, ağsaqqallar qıza xeyir-dua vermək üçün içəri girərdilər. Qızın qaynı, ya bir ağsaqqal qızın belini bağlayar, xeyir-dua verərdi. Qırmızı yaylığı üç dəfə qızın başından salar, belinə çatanda bir tərəfini buraxar, bu sözləri deyərdi:

Anam-bacım, qız gəlin,
Əl-ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bir dənəsi qız, gəlin.

İnanca görə, qızın belini bağlayan düyün vurarsa, uğursuzluq olar. Ona görə də yaylığı bir dəfə yüngül şəkildə bağlayar, xüsusi sancaqla bərkidərdilər. Bel bağlama mərasimi başa çatandan sonra qız sahibi öyüd-nəsihət, xeyir-dua verərdi: "Getdiyin yer sənin evindir, oda-ocağa bağlı ol", "Qaynana-qaynatana hörmət et", "Ərəə sadiq ol", "Oğullu-qızlı ol", "Ruzi-bərəkətin bol olsun", "Canın sağlam olsun".

Gəlini evdən çıxaranda onun üzünə qırmızı qlas yaylıqdan örpək salar, örpəyin üstündən isə ayna vurardılar. Gəlin getdikcə ayna da silkələnərdi. (Gəlinin qarşısında aparılan ayna onun cehizidir. Örpəyə yapışdırılan aynanı isə oğlan evi gəlinə paltar alanda gətirərdilər).

Deyərdilər ki, "Gəlin havası" çalın. Gəlin havası kimi tanınan "Vağzalı" çalınardı. Gəlini hər iki qolundan tutub evdən çıxardardılar. Qızın qardaşı qapını bağlayar, xələt istəyərdi. Buna *qapı kəsdi* deyərdilər. Qapıda böyük məbləğ verərdilər. Adət belə idi. Oğlanın atası nəmər verər, qapını açar, gəlini çıxarardılar. Qız evi gəlinin arxası ilə su atar, daş atardı.[67]

Keçmişdə maşın olmadığı üçün gəlini atla gətirirdilər. Gəlin evdən çıxanda onun ayağında ayaqqabı olmazdı. Havuş kəndində gəlini ayaqyalın aparardılar. Adətən, gəlinin getdiyi yolu qız evi gündüzdən təmizləyər, yoldakı iri daşları, kol-kosu götürərdilər. Çünki bəzən gəlini atla yox, piyada aparardılar.

Qız evindən oğlan evinə kimi bir neçə dəfə gəlinin qabağını kəsərdilər. Bu adət *yol kəsdi* adlanırdı. Çatı və ya ip ilə yolu bağlayar, nəmər veriləndən sonra yolu açardılar. Gəlin yola düşəndə gəlin karvanından bir nəfər ayrılar, qabağa düşər ki, oğlan evinə tez çatsın, muştuluq versin. Bu adətin adı *papaq aparmaq*

---

[67] Söyləyici bu adətin mənasını qızın getdiyi yerdə daş kimi möhkəm olması, qalması üçün icra edildiyinə yozdu.

adlanırdı. Qabaqda gedən adam oğul anasından "Muştuluğumu verin, gəlininiz gəlir", – deyib nəmər alardı. Gəlin gələnə qədər bəy sağdışı-soldışı ilə hündür bir yerə – damın üstünə çıxar, gəlini gözləyərdi. Gəlin sağdışı-soldışı ilə oğlan evinə qədəm qoyar, sağdışı-soldışı əlində ayna, lampa tutardı. Gəlin aynasına *bəxt aynası* deyərdilər. Gəlin oğlan evinin qapısından girəndə onun ayağının altında qurban kəsər, o qurbanın qanından orada olanların alınlarına, boyunlarına vurulardı. Hamı istəyərdi ki, bu qandan ona da vurulsun. Pis gözlərdən qorunmaq üçün üzərlik yandırardılar.

Gəlini qapının ağzına gətirərdilər. Bəy qırmızı alma atardı. Bu almanın adı *bəy alması* idi. Alma gəlinin başını zədələməsin deyə (toydan əvvəl oğlanla qızın sözü çəpləşibsə, oğlan almanı qəsdən möhkəm atardı) qaynata cəld tərpənər, başından papağı götürüb gəlinin başına qoyardı. Bəy almanı, yanındakılar isə şirniyyat atardılar. Gəlin qapıdan girəndə onun ayağının altına dəmir atar, boşqab qoyardılar. Gəlin bəzən yalın ayaqla boşqabı qıra bilmədiyi üçün onu qaynata qırar, bundan sonra gəlini evə keçirərdilər. Bütün bunlar "Vağzalı"nın müşayiəti ilə icra olunardı. Gəlini əvvəldən hazırlanmış yerdə oturdardılar. Ancaq gəlin oturmaz, xələtini istəyərdi. Bəyin ata-anası nəmər verəndən sonra gəlin otarardı. Bu adətin adı *dizdayağı* idi. Sonra gəlinin qucağına oğlan uşağı qoyar, həmin uşağa nəmər verilərdi. Bu adətin mənası gəlinə oğlan övladı arzulamaqdır.

Gəlin gələnə qədər *kəbin aşı* deyilən plov süzülər, toy evinin qonaqları bu aşdan yeyər, alqış edərdilər. Üç gündən sonra qız evi görüşə gələrdi. Bu mərasimin adı müxtəlif formalarda deyilirdi: *duvaq, duvaqqappa, gəlin gördü, gəlin görüşü.* Havuş kəndində bu adlandırmaların hamısı işlənir. Qız evi böyük qazanla aş süzüb gətirərdi. Qızın qalan şeylərini də götürüb qadınlarla

oğlan evinə gələrdilər. Gələnlər nəmərlə gələr. Yeyib-içəndən sonra qızın xırda cehizləri göstərilirdi. Sonradan canamaz, corab, dəsmal, iki böyük döşəkçə oğlan anasına verilərdi. Döşəkçələr qaynata-qaynanaya çatar, qalanı böyüklərə paylanardı. Yeməkdən sonra gəlini üzü örpəkli gətirib məclisdə oturdardılar. Orada bir oğlan uşağı gəlinin üzündəki örpəyi götürər, ona da xələt verərdilər. Bunun adı *üzə çıxma, duvaqqappa* adlanırdı.

Yeddi günlükdə qaynana bəylə gəlini götürüb gəlinin dədəsi evinə gedərdi. Bu mərasimin adı *əl öpmək*dir. Bəylə gəlin qız anasının əlindən, böyüklər də onların alnından öpərdilər. On-on beş gün ərzində qız evi bəy-gəlinlə birgə oğlan evini qonaq çağırardı. Bu adət *ayaqaçdı* adlanırdı. Bəy-gəlinə, qudalara xələt qoyardılar. Sonra oğlan evi qız evini qonaq çağırar, xələtbaratla yola salardı. Bir il müddətində gəlin *təzə gəlin*, ildən sonra *əkə gəlin, köhnə gəlin* adlanırdı.

İlk uşaq doğulanda yenə qonaqlıq olardı. *İlk nəvə* deyilən mərasim keçirilərdi. Bir il müddətində gəlinin atası evi hər bayramda xonça tutar, bayramlaşmağa gələrdi.

Təəssüf ki, müasir dövrdə Havuş kəndinin toy adətlərinin önəmli qismi unudulmuşdur. İcra edilən adətlər də ya əvvəlki kimi təmtəraqlı keçirilmir, yaxud da keçmişdəki kimi deyil, xeyli dəyişikliyə məruz qalmışdır.

## HAVUŞUN YAS ADƏTLƏRİ

Havuş kəndində ölüyə üç, yeddi, cümə axşamları, qırx, qara bayram, il verərdilər. Əvvəllər bu qədər cavan ölüm olmurdu. İnsanlar qocalıb ölərdilər. Körpəykən ölən uşaqlara meyit namazı qılınmazdı, çünki uşaqlar behişt quşu hesab olunardı. Doqquz-on iki yaşında uşaq ölərsə, ona meyit namazı qılınar, ehsan

verilər, Quran oxunardı. Evdə halı getdikcə ağırlaşan yataq xəstəsi varsa, ağsaqqallar, ağbirçəklər ona nəzarət edər, ev sahibinə tapşırardılar ki, hazırlıq görün. Həyət-baca təmizlənər, ev-eşik sahmana salınardı. Halının ağırlaşdığını hiss edən xəstə bəzən özü tələb eliyərdi ki, filankəsi çağırın, gəlib mənə Quran oxusun. Bəzən də yaşlılar ev sahibinə xəstənin başının üstündə Quran oxutmağı məsləhət görərdilər. Bu zaman xəstənin yaxınları vay-şivən edər, ağlaşardılar. Dünyagörmüş yaşlılar deyərdilər: "Bala, siz cavansız, səs-küy salmıyın, əzap çəkir, can üsdədi, ölə bilmir, *canbəsər eləmiyin.*[68] Elin içində ortada qalmasın, qaxınc eliyəllər, qoyun urvatdı, hörmətdi gessin". Molla gələr, cavanları otaqdan, yanından çıxardıqdan sonra xəstənin başının üstündə Quran oxuyardı. Xəstə rahatlaşar, yavaş-yavaş canını tapşırardı. Yaşlılar deyərdilər: "Azrayıl gözünə göründü, sifəti əyildi. Mələklər alma uzatdı, bı da aldı qoxuladı, canın tapşırdı". Xəstə canını tapşıran kimi yaylıqla çənəsini çəkər, gözlərini sığıyar, qollarını yanına uzadıb düzəldərdilər. Ayaq barmaqlarını dəsmalla bağlayıb əvvəldən hazır qoyulmuş parçayla üzünü örtərlər. Əgər ölən cavan adamdırsa, üstünə qırmızı parça, qırmızı yaylıq çəkərlər. Yaşlı adamlara bu məqsədlə tünd parçalardan istifadə edirlər. Bəzən yaşlı qadınlar öləndə vəsiyyət edirlər ki, üstümə *çərçöyümü*[69] çəkin.

Yaşlı, xəstə adamlar əvvəlcədən uşaqları arasında mirasını bölərdilər. "Vəsiyyət yüngüllükdü", – deyərdilər.

Adamın canı ağzından çıxan kimi ölü adlandırılır. Ölünün sinəsinin üstünə kiçik ayna qoyar, ağlaşma başlayardı. Çığırar, şivən salar, şaxsey-vaxsey deyərdilər. Kənd camaatı axışıb ölü

---

[68] canbəsər eləmək – ölməyə qoymamaq. Xalq arasında daha çox canbəsər olmaq ifadəsi işlənir ki, ölə bilməmək anlamına gəlir.
[69] çərçöy – çadra

sahibinə köməyə gəlir. Cavanlar beli, külüngü götürüb qəbir qazmağa gedər, həyətdə ocaq qalanar, ölünü yumaq üçün tədarük başlayardı. Molla yoxsa, gedib gətirər, həyətdə samovar qaynadılar, evdəki iri əşyaları bir tərəfə yığıb, döşəkçələri düzərdilər. Kənddə yasda işlər bölünərdi. Səhərdən axşamadək hər kəs öz işinin başında olardı.

Əgər ölən cavan adamdırsa, ana, bacı, xala, bibi *ləbbey gedər.*[70] Yasa gələnlər bayatı çağırar, hərə öz dərdin ağlaryardı. Onlar öz dərdlərini də ölü sahibinin dərdinə qatıb ağlayardılar:

Bı dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Bırda bir qərib = igid ölüp,
Göy kişnər, bulud ağlar.

Qadınlar bir-bir ağlar, ev sahibinə ağlamağa kömək edərdilər. Əgər ölü cavandırsa, övladı yoxdursa, belə deyərdilər:

Mən getdim, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan xeyir gördüm,
Nə bir nişanam qaldı.

Uzaqda olan qohumlar da gələr, yas evinə girəndə başlarını açar, saçlarını  yolub meyidin üstünə tökər, üzlərini cırardılar. Ətrafdakılar onları tutar, başlarını bağlıyar, su verər, ürəyi gedib yıxılanların üstünə, sinəsinə su vurardılar.

El arasında ölü sahibinə təskinlik üçün deyərdilər: “Alın yazısı beləymiş, qismət yazan Allahdır. Usyan eləməyin, Allaha xoş getməz. Verən də odu, alan da odu, şükür məsləətinə. Bir gün azar, bir gün mazar. Allah rəhmət eləsin.  Qalannarıza şükür

[70] ləbbey getmək – Dərdin gücündən yaylıqlarını açıb, saçlarını yolub ölünün üstünə tökə-tökə, üzlərini cıra-cıra ağlamaq.

eləyin, bunnan da ağır dərtdər var. Neynəməy olar, bir sizin başıızda dəyil ki, Allahın işinə əl aparmayın".

Ölən cavandırsa, yaxınları deyər: "Ədə, sən nə etibarsızsan. Anaa yaman günə qoydun. Bala, ölüm məəmdi. Səən cavan yarıın üzünə nətəər baxım? Körpə balalaraa nə deyim?" Bu tərzdə ağlaşmaya *mələşməy* deyərlər. Kənddə çox işlənən "Anan mələsin!", "Arvadın qara yaylıx qalsın!" kimi qarğışlar qarşısındakına cavan ölümü arzulamaq məqsədilə deyilir.

Ölü düşən evə *ölü yeri*, yaxud da *mərəkə* deyərlər. Yaşlılar tövsiyə edərlər ki, "Mərəkəən yaxşı yola salın, kəsir heş nə qalmasın. Bına da bı qalacax, ehsan, Quran".

Mərəkədə ən ağır səhnələr ölü ortalıqda ikən olur. Ana balasının meyidini duz kimi yalayar, onun dilindən bayatı çəkər:

Anam, anam, öz anam,
Qoynu dolu köz anam.
Yad ağlar, yalan ağlar,
Qoy ağlasın öz anam.

Əzizim anam ağlar,
Ellər qara bağlar.
Anam ölsə, mən ağlaram,
Mən ölsəm, kim ağlar.

Anası ölən qızdar bayatı çağırırdılar:

Ananı qızdar ağlar,
Gülü nərgizdər ağlar.
Anaan sirrin, sözün,
Qızdarı gizdin ağlar.

Oturanlar "can", "dərdəə, odaa qurban olum" kimi söz və ifadələrlə yas sahiblərinin dərdinə şərik olardılar.

Mərəkədə vay-şivən uzun zaman sürərsə, meyidi tez yuata götürməyə çalışardılar. Bir nəfər mərəkə yerinə gələr, deyər:

“Yol verin, qalxın, kişilər gəər meyidi götürməyə”. Qadınlar tez ayağa qalxar, ana-bacı mərhumun üstünə döşənir, çığırışmağa başlayarlar: “Yox, qoymarıx, aparmayın, balamı soox torpağa qoymayın”.

Dağların qarı mənəm,
= Əzizinəm ərimənəm,
Gün vırsa, ərimənəm.
Qəbrimi qüzeydə qazın,
Cavanam, çürümənəm.

Ananı, bacını zorla tuturlar. Ağsaqqal deyir: “Götürün”. Cavanlar mərhumu döşəklə birgə qaldırırlar. Onlar əvvəlcə ağsaqqalın göstərişi ilə “Bismillah” deyərək üç dəfə qaldırır, yerə qoyur, üçüncü dəfə isə götürürlər. Əvvəlcədən yas evinə yaxın olan qadınlardan biri əlində kiçik daşla içəri girir. Həmin qadın meyid götürülən kimi daşı onun yerinə qoyur, ölünü qəbiristanlığa aparanda isə bu daşı cənazənin dalınca küçəyə atırlar.

Havuşda mürdəşir olmazdı. Qohum-qonşu köməkləşib ölünü yuyardı. Deyərdilər ki, ölü yumaq, ölüyə su tokmək savabdır. Bölgədə geniş yayılmış inanca görə, yeddi ölü yuyana o dünyada sorğu-sual, əzab yoxdur.

Ölünü yumaq üçün həyətdə yer hazırlanardı. Həmin yerin dörd tərəfi cecim, garbıdla tutulardı. Yaxın adamlar pərdənin iç tərəfinə keçər, orda da ağlaşardılar.

Ölünü gətirib taxtanın üstünə qoyarlar. Taxtanın aşağı tərəfində dərin çala qazardılar ki, meyid yuyulduqca su ora axsın. Ölü yuyulub qurtardıqdan sonra qırağa yığılmış torpaq həmin çalaya tökülərək doldurulur. Ölünün əynindəki paltarları qayçı ilə doğrayıb qırağa tökərlər. Ölünü iki nəfər yuyar, bir nəfər də su tökər. Çöldəkilərdən biri isə su hazırlayıb gətirər. Ölünü nə isti, nə də soyuq su ilə yumaq olmaz, su ılıq olmalıdır. Mərhumu

tər-təmiz yuyar, mollanın dediklərini eliyərlər. Ölü yuyulan arada evdə kəfəni biçirlər. Kəfən, adətən, beş-altı metr parçadan hazırlanır. Kəfən hazır olandan sonra ölü yuyulan yerə gətirilir. Mollanın göstərişi ilə sidr-kafur suyu ilə meyid təkrar yuyulur, sonra yenidən adi su ilə meyid qüsulu verilir. Ölüyə axırıncı dəfə qüsul verməmişdən əvvəl yaxınlarını, qohumlarını, küsülü olduğu adamı çağırarlar ki, gəlib ona halallıq versinlər. Onlar növbə ilə gəlir, bir qab su töküb, “Halalın olsun” deyərlər. Tabutu ölü yuyulan yerə yaxın gətirər, içinə kilim, cecim açar, balınc qoyarlar.

Ölünü kəfən köynəyinə bükərkən müəyyən əzasına pambıq qoyular. Kəfən parçadan kəsilmiş iplərlə üç yerdən: boğazdan, ortadan və ayaqlardan bağlanır. Yaşlı insanlar əvvəldən sidr-kafur, kəfən üçün ağ alıb sandıqda saxlayırdılar. Sandıqda qaldıqca ağ parçada ləkə əmələ gələrdi. Belə olanda onu sandıqdan çıxarıb ya can köynəyi tikər, ya süfrə eliyərdilər. Kəfənlik parçanın yerinə təzəsini alıb qoyardılar. Yaşlılar tövsiyə verərdilər ki, kəfəni yeznəyə aldırmayın, onlar ailəyə yaddır. Havuşda hər kəs evində kəfən pulu saxlamağa cəhd edərdi. Qəfil ölüm olardısa, yaşlılar yad adamın aldığı kəfənlə o dünyaya getməyə ehtiyat edərdilər.

Ölü yuyularkən, kəfənlənərkən qadınların ağlaşması kəsilməzdi. Kişilər tabutu götürəndə mərhumun ana-bacısı tabutdan sallanar, onu götürməyə mane olardılar. Belə hallar baş verəndə onlara “Gedəni qaytarmax olmaz. Gorda yatan əvdə yatammaz”, – deyə təskinlik verərdilər. Qadınlar dəfndə iştirak etməz, ancaq həyətin darvazasına qədər gələr, oradan da yaxın adamları tərəfindən geri qaytarılardılar.

Molla qabaqda, tabutu aparanlar onun dalınca, camaat da onların ardınca qəbiristanlığa gedərlər. Tabutu götürənlər onu

ehtiyatla aparmağa çalışar, ölünü səksəndirməkdən, onun ruhunu incitməkdən qorxardılar.

Qəbiristanlığa çatanda tabutu qəbrin qırağına qoyarlar. Bu zaman molla elan edər ki, camaat, yığışın bir yerə, qəbiristanlıq əhlinə bir Fatihə verək. Fatihəni verib qurtarandan sonra dəfnə başlayarlar.

Qəbir mərhumun boyuna görə qazılır. Ölünün boyunu iplə ölçürlər, çünki kəfən qəbir uzunluğunda olur. "Boyaa ip ölçüm" qarğışı da bu adətlə bağlı yaranıb. Qəbrin eni isə bir qarış olur. Qəbrin baş tərəfi daha dar olur, buna da *əhlət daşı* deyərlər. Havuşda ölü dəfn olunarkən cinsindən asılı olmayaraq cənazənin qarşısına pərdə tutar (Qadın üçün tutulan pərdə daha qalın olar), bundan sonra mollanın göstərişi ilə ölünü qəbirə endirirlər. Bir nəfər yaxın adam (oğul, qardaş və s. Qadının qəbrinə qardaş, oğul, ər, nəvəsi düşə bilər. Kürəkən,[71] yeznələr[72] naməhrəm sayıldıqları üçün qəbrə düşə bilməzlər.) qəbrə düşər, ölünü sağ tərəfi üstə torpağa qoyar, başını əhlətə keçirərlər. "Başı əhlət daşına dəydi", "Bir qarış torpağa qoyulassan" kimi deyimlər buradan yaranıb.

Qəbirdəki şəxs meyidin çiynini tərpətdikdən sonra qəbirdən çıxar. İnanca görə, axşam İnkir-minkir sorğu-suala başlayanda ölü yatıb qala bilər. Odur ki, ölünün çiynindən tutaraq onu tərpədib "oyadardılar".

Ölünün bir az yuxarısından əvvəldən qəbir qazanların hazırladığı sal daşlar düzülər, palçıqla salın qıraqlarını suvayarlar. "Səsin sal altınnan gəlsin" qarğışı bu adətə işarədir. Sal daşları düzdükdən sonra qəbirə torpaq tökərlər. Bu zaman hərə bir bel torpaq atar, "Halal xoşu olsun, məzarı nurla dolsun", – deyib kə-

---

[71] kürəkən – qızın əri. Buna Havuşda gəv də deyirlər.

[72] yeznə – bacının əri

nara çəkilərlər. Torpağı tökdükdən sonra beli digərinə ötürəndə beli ələ verməzlər. İnanca görə, belə etsələr, kənddə yenidən ölənlər olar.

Bəzən ölünün ardınca kənddə ard-arda ölənlər olur. Bu zaman ilk öləni "suçlayır", hətta onu söyənlər olurdu: "Get əzizdərii apar yanaa, urusumu[73] pis gorbagor".

Ölünü dəfin-kəfin eliyəndən sonra molla Quran oxuyar, ev sahibinə xeyir diləyər, hamı da "amin!" deyər. Qəbiristanlığa gedənlər evə gedənədək su tapıb əllərini yumağa çalışardılar. Heç kim evinə qəbirstanlığın toz-torpağını aparmaq istəmir. Ev sahibi camaatı evə dəvət edib, halallıq istəyir. Hamı deyər: "Halal xoşu olsun! Allah rəhmət eləsin!". Qəbiristanlıqdan qayıdanların bir qismi evinə, qalanı ölü yerinə gələr.

Camaat qəbiristanlıqdan gələnə kimi evdə yer hazırlayır, gələn adamları ora keçirirlər. Molla başda oturar, kişilər də sağ-soldan düzülər, çay gələr. Ölü torpağa qoyulan gün onun yasının birinci günü hesab edilər.

Yasın birinci günü ev sahibinin başı qarışıq olur, gələnlərə yemək hazırlaya bilmir. Odur ki, qonşular və kənd camaatı evindən varsa hazır yemək, hazır yemək yoxdursa, pendir, bal, yağ, şor, yumurta və s. gətirər, süfrə açar, ev sahibini də zorla yedirməyə çalışardılar.

Əvvəllər Havuşda kişilər üçün mağar qurulmazdı. Kişilər üçün yer məclisi qurulardı. Yuxarıda molla, yanında ev sahibi, yaxın qohumlar, ağsaqqallar otarardı.

Qəbiristanlıqdan gətirilən əşyalar (tabut xaric) ev sahibinə təhvil verilir. Qız-gəlin ölənin yorğan-döşəyini, əynindən çıxan paltarları, tabuta qoyulan əşyaları dalda bir yerə qoyarlar ki, sabah yuyulsun.

---

[73] urusumu – niyyəti

Kənddə belə adət də vardı. Ölü götürülüncə kimsə evinə gedəcəksə, vaxtında ayağa qalxmalıdı. Ölü qəbiristanlığa aparıldısa, darvazadan heç kim çıxa bilməz. Harasa getmək istəyənlər yalnız qəbiristanlığa gedənlər qayıtdıqdan sonra gedə bilərlər.

Kimin əli meyidə toxunubsa, o, axşamadək çimib qüsullanmalıdır. Kənd camaatının inancına görə, yoxsa ölü qəbir əzabı çəkər. Ona toxunan hər kəs axşamadək qüsullananda ölünün ruhu şad, əzabı az olur.

Şər qarışanda bir az halva qatıb məclisə gətirərlər. Həmin halvadan damın üstünə də atarlar ki, it-pişik yesin.

Ölünün dəfnindən sonra axşamüstü bir neçə cavan və orta yaşlı kişi qəbir üstə gedər, qəbirin baş tərəfində ocaq yandırar, ocaq sönənədək gözləyib, evə qayıdarlar.

Yasın birinci günündən evə *ölü yeri, yas əvi, mərəkə saabı* deyirlər. Yasın ilk gecəsi Havuş kəndində *ölünün gecəsi* adlandırılır. Bu gecəyə *Şamı-qəriban gecəsi* də deyirlər.

Əvvəllər Havuşda ölü yerində pul yığmaq adəti yox idi. Keçmiş dövrdə yasda pul yığılmasa da, yasda işlənəcək ərzaqları (bir tay un, bir tay qənd, bir toğlu, yağ, çay və s.) qohum-qardaş köməkləşib alardılar. Bu adətlə bağlı kənddə bu cür deyimlər işlənir: “Borc bir şeydir, bu gün məndə, sabah səndə”, “Aş vermişəm aşımı ver, yaş vermişəm yaşımı ver”.[74] Son zamanlar yas sahibinə kömək məqsədilə pul yığılmağa başlanmışdır.

Yasın ikinci günü el-oba, eşidən-bilən tökülüb gələr, ağlaşma axşamçağına qədər davam eliyərdi. Bu zaman süfrəyə gətirilən çayın arası kəsilməz, tez-tez *əl suyu* verilərdi. Bir cavan gəlin çiynində əl-üz dəsmalı, bir əlində ləyən, bir əlində su dolu

---

[74] Aş vermişəm aşımı ver, yaş vermişəm yaşımı ver – Kim sənin hüzüründə maddi kömək edibsə, sən də onun hüzüründə maddi kömək etməlisən. Kim sənin yaxınının yasında ağlayıbsa, sən də onun əzizlərinin yasında ağlamağa borclusan.

aftafa ilə məclisdə su gəzdirər. Kimin əlinə su tökərsə, həmin adam deyər: “Xeyir məclisində gəzəsən, bala”.

Havuş kəndində yasın ikinci günü ehsan yeməyi verilməzdi. Ehsan yasın üçüncü və yeddinci günləri, cumalar,[75] qırx, qara bayram və ildə verilir. Kənddə ehsan süfrəsinə nə qoyulmasına elə də fikir verməzdilər, bir stəkan çay da ehsan hesab edilərdi. Yasın ikinci günündə də ağlaşma olardı: “Yandım, bala, dur ayağa, mən yatım qəbrində. Körpə balalı, cavan yarrı iyidim, laylay!”, “Bı ölüm elə şərbətdi ki, işmiyən, dadmıyan olmıyacax. Əmə körpə balası, toy bəzəyləri əvinnən açılmayan gəlinin anası dərdiizə-oduuza qurban! Ay ellər, iki aydı məliyirəm, balamı axtarıram. Körpə balasın verip qucağıma, ciyarım, ürəyim yanıp, yerə qoyuram yer yanır”.

Əzizim balabanı, laylay balam, laylay!
Asta çal, ay zalım, balabanı.
Hamıın balası gəldi,
Ay ellər, məəm balam hanı?
Laylay, balam, laylay.

Əvvəllər kənddə arvad mollası olmazdı. Ağbirçək qadınlardan biri başda oturub mərəkəni aparardı. Çox ağlaşma olanda o, tez Fatihə verər, deyərdi: “Allah hamıiza xeyir versin. Axır qəmiiz olsun. Özünüzü öldürməylə ölən geri qayıtmaz, biriizə dayax olun”.

Havuşda belə bir adət də vardı ki, əri ölən gəlini mərəkənin ortasında oturdar, başına qara yaylıq çalardılar. Gəlinin yaxınları “Qara yaylıx canaa anan qurban, bala”, – deyərək fəryad eliyərdilər.

Cavan ölən adamların paltarlarının əzizləri tərəfindən geyilərək mərəkəyə gəlməsi də ləbbey gedilməsinə səbəb olardı. Bu

[75] cumalar – Buna başqa bölgələrimizdə adnalar, yaxud cümə axşamları deyirlər.

gərginlikdə ürəyi gedənlər, dili qatlananlar, hətta mərəkədəcə ölənlər də olardı.

Molla məclisdə ölü sahibinin adından üç, yeddi, cumalar, qırxın vaxtını deyər, hamını ehsana dəvət eliyərdi. Ehsan veriləcək günlər bozbaş, həvişli aş,[76] küftə bişirilər, süfrələr açılar, mərəkəyə gələnlər ayağa qalxdıqca onları ehsan verilən yerə keçirərdilər. Ehsanı yeyənlərə xidmət göstərmək üçün bir neçə adam ayrılardı. Mərəkə sahibi yasdan gedənlərə “Əvəə xeyir apar” deyərdi. O da “Axır qəmiiz olsun! Toy kismət olsun bı ocağa!” kimi dualarla qarşılıq verərdi. Ehsanda indiki kimi cür-bəcür yeməklər verilməzdi. Hamı eyni imkanın sahibi olmadığı üçün çox zəngin ehsan süfrəsi açanlar keçmişdə el qınağına tuş gələrdilər. Odur ki, çay, qənd, xurma, lumudan[77] ibarət sadə çay süfrəsi açardılar. Yemək süfrəsində isə bircə adda yemək olardı: həvişdi aş, bozbaş, yaxud da küftə. Küftəyə ət çox gedirdi deyə onu hər adam verə bilməzdi.

Havuşda əvvəllər gülab verilməz, ancaq əl suyu gəzdirərdilər. Əl suyunun verilməsinin həm gəzdirən, həm də ağlaşmada iştirak edənlər üçün savab olduğuna inanılardı. Sonralar əl suyu sıradan çıxdı, onun əvəzinə gülab verilməyə başlandı.

Havuşda qadınlar hər gün qəbir üstə getməzdilər. Onlar yalnız yasın üçüncü, yeddinci günləri, qırx, qara bayram, bir də ildə qəbir üstə gedərdilər. Ölünün heç cür təskinlik tapmayan yaxınlarının boynuna qəbir torpağı tökərdilər ki, sakitləşsin.

Ölünün paltarı *sooxa* adlandırılır. Yasın üçüncü gününədək ölünün paltarları yuyulub götürülməlidir. Bu paltarlar yuyulub qüsullandıqdan sonra sərilir. Qurumuş paltarların içindən yaxşıları seçilərək əlsiz-ayaqsızlara, kasıblara paylanır. Ölü sahibinin

---

[76] həvişli aş – qaralı aş

[77] lumu – limon

ehtiyacı varsa, bu paltarlardan özünə də götürə bilərdi. Geyilməyə yararlı olmayanları isə dalda yerdə torpağa basdırardılar. Həmçinin dünyasını dəyişən şəxsin yatdığı yorğan-döşəyin üzü, tabuta qoyulan kilim, balınc və s. – hamısı yuyulub qüsullanmalıdır.

Yas evini gündə bir nəfər süpürə bilməz. Yeddi gün eyni qız, yaxud gəlin – bir nəfər süpürməlidir. Ona görə də elə adam seçirdilər ki, yeddi gün bu evdə qala bilsin. Yas evini ev sahibi özü süpürə bilməz, bu işin icrası üçün yaxın qohumlardan biri seçilirdi. Kənddə geniş yayılmış inanca görə, yas evini yeddi gün ard-arda eyni adam süpürməzsə, ölünün dalı açılar, yenə həmin evdən adam ölər.

Yasın üçüncü günü çox ağır keçərdi. Həm ağlaşmaqdan, həm işləməkdən camaat yorğun düşərdi. Ağlaşma şiddətlənəndə ağbirçəklər tez-tez Fatihə verərdilər ki, ölü yaxınları toxtasınlar. Yasın yeddisinə qədər hər gün yas evi dolub boşalar. Yasın yeddinci günü də ehsan verilərdi. Bundan sonra cumalar başlayardı. Dörd cuma verilərdi. Cumalarda da kişi məclisi olmaz (Evin kişiləri və qohum-qonşu olardı.), ancaq qadınlar gələrdilər. Cumalara gələnləri qarşılamaq üçün əvvəldən hazırlaşardılar. Hər cumada bir xörək (aş, kələm dolması, möy dolması[78] və s.) bişirilər, bəzən süfrəyə verilən xörəyin yanına süd aşı və pendir də düzülərdi.

Ölünün qırxına əvvəldən hazırlıq görərdilər. Adətən, bu gün yasın üçüncü günü kimi çox ağır məclis olardı. Odur ki, qohum-əqrəba və qonşular arasında iş bölgüsü olardı. Aş bişiriləcəksə, onun ərzaqları, bozbaş veriləcəksə, heyvan əvvəlcədən alınardı. Qadınlar səhər tezdən qəbir üstə gedər, ağlayıb ovunduqdan sonra qayıdardılar.

[78] möy dolması – tənək dolması, yarpaq dolması

Kimsə cavan dünyasını dəyişib körpələri yetim qalıbsa, ölü haqqında *sağırı*[79] *var* deyərlər. Sağırı qalan ölünün ehsanını çox adam yeyə bilməz, deyərdilər: "Sağırı var, körpələrin üzünə baxmax olmur, ürəyimin yağı əriyir, boğazımnan bir tikə də keşməz". Sağırı olan ölünün ehsanını ailəsi deyil, qohum-qardaş, yaxınları verərdi. Yasın müxtəlif mərhələlərində verilən ehsanları ya bir qohum boynuna götürərdi, ya bir neçə nəfər birgə verərdi.

Qalan körpə yetimlərin sayına görə ölünün qırxından və ilindən bir gün çıxardılar. Ağsaqqallar, ağbirçəklər yığışıb məsləhətləşər, tutaq ki, ölənin altı sağırı qalıbsa, qırxı altı gün qabağa atar, yasın otuz dördüncü günündə qırx mərasimini verərdilər. Belə ölülərin il mərasimi də altı gün qabağa atardı.

Hər iki valideynini itirən uşaqlara *çil yetim* deyirlər. Belə bir hal baş verərsə, yası qohumlar verər, yetimlər böyüyənədək onları saxlayardılar.

Qara bayram adlandırılan mərasim ancaq təzə ölülər üçün keçirilir. Havuşda qara bayram Novruz ərəfəsində qeyd olunar. İlaxır çərşənbədən qabaqkı cuma kənddə qara bayramlar idi.

Kənddə neçə nəfər ölübsə, kənd camaatı həmin evlərə baş çəkər, qara bayrama görə başsağlığı verər, ehsandan yeyib, Fatihə verərdilər. Qara bayrama gələnlər ev sahibini yasdan çıxarardılar. Əvvəllər qara bayramda pul verilməz, hamı *yastama* apardı. Yas evinə qənd, çay götürər, üstünə oymalıx parça, yaylıq qoyardılar. Yaxın adamlar yastamanın üstünə xına da qoyardılar ki, evdəki qadınlar saçlarına, əl-ayaqlarına yaxıb yasdan

[79] İki valideynindən birini itirmiş, evə qazanc gətirməyə yaşı çatmayan uşağa sağır deyirlər. Bu söz bölgədə iki anlamda işlədilir. Qulağı ağır eşidən adamlara da sağır deyirlər.

çıxsınlar. Cavan əzizini itirən xına qoymazdı, bunu hamı bilsə də, yastamanın üstünə yaxınları xına qoyardılar. Həmin şəxsin ili çıxandan sonra yaxın qadınlar xınanı götürüb yenidən həmin evə gedər, ölü sahibinə yalvar-yapış edər, öyüd-nəsihət verər, Allaha, imamlara, ölənin ruhuna və s. and verərək zorla xına yaxardılar.

Yasın bütün mərhələlərində halva çalınardı. Bu halvaya *ölü halvası* deyərdilər. Bu halvadan ehsan süfrəsinə qoyar, həmçinin yataq xəstələrinə, qocalara, hamilə gəlinlərə, süd verən analara, şikəst insanlara pay göndərərdilər. Həmin insanlara yasın bütün mərhələlərində halva ilə yanaşı, yasda bişən yeməklərdən pay çəkilər, qənd, xurma, hətta əppək də yollayardılar. Uzaqdan gələnlərə də ehsan qoymaq unudulmazdı. Deyərdilər: "Ehsandı, gözdəri qalar", "Yuz tikədən biri avsanata düşər", "Yeyib rəhmət oxusunlar" və s.

Havuş kəndində xeyir işlərdə, şən günlərdə halva çalmazdılar. Halva ehsan üçündür. Yasın digər mərhələləri ilə müqayisədə qara bayram üçün çalınan halvanın həcmi çox olur, bu, bütün evlərə paylanır. Bunun üçün əvvəlcədən bütün kənd camaatının siyahısı tutulur, amma halva ev sayına görə yox, təsərrüfat sayına görə paylanır. Axşamdan halva üçün tədarük görülərdi. Bir tay, bəzən daha çox unun *omacı\umacı* ovulardı. Umacı ovacaq qadınlar əllərini yuyub salavatlayardılar. Kimin qüsulu yoxdursa, o, bu işə cəlb edilməzdi. Bunu müəyyənləşdirmək üçün qadınların boynuna deyin[80] qoyar, deyərdilər: "Kim təmiz deyilsə, babalı olsun dədə-anasıın boynuna". Bu adəti hamı bildiyi üçün umac ovmağa təmiz gələrdilər. Böyük süfrələr sərilər, qadınlar dövrə vurub döşəkçələrin üstündə oturar, hərə ovduğu umacı qarşısındakı teştə tökərdi. Kənddə

---

[80] deyin – babal, günah

umac başdansovdu ovulmaz, halvanın yaxşı çıxmasına xüsusi səy göstərilərdi. Umac ovanlara nəzarət etmək üçün bu işdə təcrübəsi olan bir qadın ayırardılar. O, teştlərə, tabaxlara baxar, göstərişlərini verərdi. Halvanın bütün məsuliyyəti həmin qadının üzərində olardı. Umac elə ovulmalıdır ki, dən-dən qalsın. Ovulmuş umacı süfrələrin üstünə sərər, arabir qarışdırardılar. Bundan sonra onlara yemək, çay verilər, onlar yeyib-içdikdən sonra Fatihə verib rəhmət diləyər, dualar edərdilər: "Bunnan belə əviizə xeyir çörəyi bişsin! Qazancın balalarıızın xeyir işinə, toyuna kismət olsun!" Onların bir qismi evlərinə gedər, bir qismi isə gecə də yas evində qalardılar. Obaşdan ocaqlar qalanar, qazanlar asılardı. Halva çalmağa cavan oğlanlar cəlb olunardı. Çünki umacı qarışdırmağa qol gücü lazımdır. Hər qazanı bir başı çıxan adama tapşırardılar. Umac hazır olana yaxın rəngi qırmızıya çalar, bu zaman şirəni töküb qarışdırar, ocaqdan düşürərdilər. Bundan sonra halvanın dini çıxmağını gözləyərdilər. Axşamdan bir-iki qadın lavaşları sulayıb, təkləyib[81] süfrələrin arasına yığardı. Ev damında yerə garbıd, cecim salır, döşəkçələr düzür, üstünə süfrələr açıb, hamı süfrənin başına yığışardı. Biri lavaşı açar, biri qazandan halvanı çömçəylə götürüb lavaşın içinə qoyar, biri içinə halva qoyulmuş lavaşı dördkünc qatlayıb yığardı. Bu qatlanmış halva-lavaş bükümünə *ülüş* deyərdilər. Bir nəfər də hazır ülüşləri məcmeyilərə yığardı. Digər şəxs də təsərrüfat hesabı sayla[82] ülüşləri sayıb paylayacaq adama təhvil verir. Ülüşləri paylayan adam qoca ata-ananı bir təsərrüfat hesab edir, onlara bir pay verir. Evdə yaşı keçmiş qız varsa, bu, ayrıca təsərrüfat hesab olunur. Ərini itirmiş qadın övladını da götürüb

[81] təkləmək – Lavaşın sulandıqdan sonra qatlanıb yığılması belə adlanır.
[82] təsərrüfat hesabı say – payı ailə üzvlərinin sayına görə deyil, təsərrüfatlara görə paylamaq

ata evinə qayıdıbsa, o, ayrıca təsərrüfat hesab olunurdu və s. Sadaladıqlarımız hamısı bir evə aiddirsə, deməli, bu evə üç ülüş düşür. Bundan başqa, ülüş evdəki kişilərin sayına görə verilirdi. Evdə ata-babayla birgə yeddi oğlan varsa, deməli, bu evə doqquz ülüş verilir. Əgər evdə ana, nənə və beş-altı qız uşağı varsa, bu evə iki-üç ülüş düşərdi. Yəni qadınlara adambaşına bir ülüş verilməzdi. Son dövrlərdə bu adət yığışdırılıb. İndi hər evə bir ədəd ülüş verilir.

Ülüşlər paylandıqdan sonra qara bayrama gələnlərə ehsan süfrəsi açılır. Əvvəlcədən bişirilib hazır qoyulmuş ehsan yeməkləri və halva süfrəyə verilirdi.

Həmin gün həm də qəbir üstünə çıxılırdı. Əvvəl kişilər dəstə ilə yığışıb qəbir üstə gedər, təzə ölüləri bir-bir ziyarət edər, Fatihə verərdilər. Onlar təzə ölülərdən başqa qəbiristanlıqda yatan hər kəsə, həmçinin qəriblərə, kimsəsizlərə, sonsuz adamlara ayrıca dua oxuyardılar. Bundan sonra onlar qara bayram veriləcək həyətləri gəzər, həyətdə Fatihə verər, başsağlığı verib geri qayıdardılar. Ev sahibi onları evə dəvət etsə də, kişilər evə girməzdilər. Ancaq evə münasib adamlar – qohum-qonşu kənddəki bütün qara bayram olan həyətləri gəzdikdən sonra evə gələrdilər. Amma qadınlar qəbir üstdən birbaşa qara bayram olan evə gələr, ehsan süfrəsinə oturardılar. Süfrəyə əppək əvvəlcədən qoyulmazdı. Yaşlılar deyərdilər ki, əppəyi əvvəldən süfrəyə verib intizarda qoymayın, günahdı. Odur ki, camaat süfrəyə oturandan sonra əppək verilərdi. Hamı əlini süfrədən çəkəndən sonra Fatihə verilirdi.

Havuş kəndində "Halva qəşəy çıxıp" deməzdilər, "İrəhmətdiyin halvası özünə layığdı" deyərdilər. Yaşlılar deyərdilər ki, könlünüz halva istəməsin. İnanca görə, halva istəməyin düşər-düşməzi olar, evə ölü halvası qismət olar. Bu səbəbdən hal-

vanı birbaşa tərifləməkdən qorxar, halvanın yaxşı alındığını müxtəlif ifadələrlə deməyə çalışardılar. Ağbirçəklər evdə tez-tez halva bişirməyi tövsiyə edərdilər ki, kimsənin könlünə halva düşməsin.

Qara bayram üçün bişirilən ehsan yeyildikdən sonra ölü sahibi hamıdan halallıq istəyir.

Qadınlar bu mərəkədən çıxandan sonra digərinə gedərdilər. Onlar kənddə qara bayramı olan bütün mərəkələri gəzərdilər. Yaxın adamlar gecə ölü sahibini tək qoymaz, gecə bu evdə qalar, toxdaqlıq verərdilər.

Novruz bayramı ərəfəsində hamı bayrama hazırlıq görür, amma yas sahibləri bayrama heç bir hazırlıq görməzlər. Xüsusilə də, cavan yaxınlarını itirənlər bayram keçirmək barədə heç düşünməzlər. Onlar ancaq ediləyərlər: "Bala, bayrammızı qara elədin, getdin girdin qara torpağın altına. Anaa yaman günə qoydun, ay insafsız. Səən tayların əviin, balasıın üsdündə, səən balalarıın boynu qalıp çiynində. Vay, bala, vay!"

Qara bayram qurtaran kimi yaxınların köməyi ilə ev-eşiyi tökər, mərəkədə işlənən bütün əşyalar yuyulub suya çəkilər.[83] Gəbə, kilim, yorğan-döşək günə verilər, axşama qədər qapı-baca təmizlənər, pəncərələr silinər, qurum eliyərlər.[84] Cavanlar ev sahibi ilə birgə həyət-bacanı sahmana salarlar. Ev sahibi işləyənlərə yemək-içmək hazırlayar. Yemək-içmək bitdikdən sonra ev sahibi köməyə gələnlərlə halallaşar.

Bir neçə gün sonra qohum-qonşu yas sahiblərinin evinə gələr, bu evdə bayram kökəsi, əyirdək, pişi bişirər, deyərdilər: "Ocağıız məvis qalmasın."[85] Axır çərşənbədə yenə gəlib bu

---

[83] suya çəkilər – salavatlanar
[84] qurum eləmək – uzun süpürgəylə tavanı, divarları süpürüb təmizləmək
[85] məvis qalmaq – həsrət qalmaq mənasında işlədilib.

evdə aş süzərlər. Bayram payı gətirib bayram süfrəsi açarlar. Şər qarışan vaxtı hamının qapısında od yananda yaxınları gəlib bu həyətdə də od yandırar, divara piltə[86] yandırıb sancarlar. Ev sahibini zorla gətirib tonqal başında dualar eliyər, sonra hərə öz evində bayramı keçirər.

İl mərasiminə iki-üç gün əvvəldən hazırlıq görər, lazım olan ərzaqlar alınardı. Əvvəlcədən qapıda ildə öldürmək üçün heyvan saxlayar, əppəklər yapılardı. İlə camaatı çağırardılar. Yasın digər mərhələlərində olduğu kimi ildə də iki mərəkə yeri hazırlanırdı. Yasa gələn kişi və qadınlar ayrı oturardılar. Kişi mərəkələrində cavanlar, qadın məclislərində isə qız-gəlinlər gələnlərə xidmət edərdilər. Ev sahibləri də mümkün qədər ayaqüstə olar, gələn-gedənə fikir verər, qarşılayıb yola salardılar. İldə qadınlar səhər tezdən, kişilər isə axşamüstü qəbir üstə gedərlər. İl məclisi bitdikdən sonra ölü köhnə ölü hesab edilir.

## HAVUŞ KƏNDİNİN ETNOQRAFİK HƏYATINDA TƏNDİR

Havuşda təndir adətən yer təndiri olardı. Yaşlıların dediyinə görə, yer təndiri iki cür idi: döymə təndir və badla qoyulmuş təndir. Döymə təndiri düzəltmək üçün münasib yer seçilir, təndir formasında quyu qazılır, ora duzlu su ilə isladılıb yastı daşla döyülür, hamarlanırdı. Döymə təndir hal-hazırda unudulmuşdur. Daha möhkəm, davamlı, badlı təndir isə bu günümüzə qədər gəlib çatmışdır.

*Təndirin qoyulması.* Havuş kəndində təndir adətən el dağdan enəndə, payız aylarında qoyulardı. Təndiri nə istidə, nə də

[86] piltə – Piltəni hazırlamaq üçün çubuğun başına pambıq sarıyıb, nehrə yağına batırardılar.

soyuqda qoymaq olmaz, havalar sərinləyəndə sentyabr, oktyabr aylarında qoyulardı. Təndirin ömrü beş-səkkiz il arası olardı. Beş ilə qədər olan təndirlər *təzə təndir*, qoyulmasından beş ildən çox keçmiş təndirlər isə *köhnə təndir* adlandırılırdı. Təzə və köhnə təndirin fərqi bundan ibarətdir: Təzə təndir əppəyin hər iki üzünü yaxşı qızardır, təndirin dalı gəlmir,[87] köhnə təndirin isə dalı gəlir, çırdıyıb tökülürdü. Buna görə də ev sahibi təndiri təzələyərdi.

Təndir qoyulan yer *eyvan, təndirasdan*, yaxud *təndir damı* adlanırdı. Təndir eyni zamanda hər bir kəsin *əv damı* deyilən damında da qoyulardı. Təndir qoyulanda köhnə təndir sökülər, ya da yeni təndir yeri qazılardı. Çıxan torpağı köhnə təndirin içinə tökür, onu ləğv edirdilər. Təndirin yeri qazılarkən torpaq işinə başlayırdılar. Havuşda təndir torpağını bir neçə təpədən qazardılar. Bu ərazilər illərdir ki, kənd camaatı tərəfindən sınanmış yerlər idi, oraların torpağının yaxşı təndirləri olardı. Təndirin torpağı qırmızı torpaq olmalı idi. Torpaq qazılanda cavan oğlanlar, kişilər, qadın, qız – hamı kömək eliyərdi. Torpağın birinci qatını qazıb kənara çəkər, ikinci qatdan təmiz torpağı götürərdilər. Torpağı daşıyıb eyvanın qabağında əvvəlcədən süpürülüb hazırlanmış yerə tökərdilər. Torpağın içini arıtlayar, daş-çınqılı ayırar, xəlbirdən ələyər, sonra su töküb isladardılar. Əvvəldən yuyulmuş, təmizlənmiş keçi qəzilini torpağa qatıb ayaqlayardılar. Bu işdə təcrübəsi olan yaşlılar deyərdi ki, torpağı yaxşı ayaqlamaq lazımdır, torpaq *acımalıdır, gəlməlidir.*[88]

---

[87] Təndirin dalı gəlmir – Çörək təndirdən çıxarılanda arxasında bad qırıntıları olmur.

[88] Təndirin də palçığı xəmir kimi acımalıdır, gəlməlidir. Torpağı isladıb səkkiz-on gün ərzində yaxşıca ayaqlayıb üstünü basdırarlar ki, acısın, gəlsin. Acımış palçıq ovalanmır və dağılmır.

Təndiri qoyan işi yaxşı bilməlidir, sıyırmalıdır.[89] Bad döyənlər yaxşıca döyüb əllərində yetirməlidirlər, təndir paş[90] kimi çıxmalıdır. Havuş kəndində təndir qoyan adama *təndirçi* və yaxud *təndir qoyan* deyərdilər. Təndirin qazılması, torpağın gətirilməsi, qoyulmasına – hamısına "Bismillah"la, xeyir-dua ilə başlayardılar. Palçığı yeddi-səkkiz, yaxud on gün ərzində bir neçə dəfə sulayıb ayaqlayar, üstünü garbıdla, cecimlə[91] örtərdilər ki, həm qurumasın, həm də it, pişik dəyməsin. Bundan sonra yaxşı təndir qoyan qadını çağırardılar. Təndiri qoyan qadın gəlib palçığa, təndirin yerinə baxardı. Gün ayırar, cümə, cümə axşamı işə başdıyardılar. İnanca görə, yüklü qadın, zahı arvad təndirə yaxın gəlməməlidi. Təndir-ocaq murdarlıq götürməz. Yüklü gəlin iş başına gələrsə, təndir yaxşı çıxmaz, partdayıb tökülərdi, çünkü yüklü gəlinin ayağı ağır olar. Ayağı yüngül olan uşaqları təndir başına çağırardılar. Adətən, gündüz anadan olan uşağa üstünlük verərdilər. Havuş kəndinin inamına görə, gecə doğulan uşaqların ayağı ağır, gündüz doğulanlarınkı yüngül olar. Bütün başlanğıc işlərin üstünə ayağı yüngül uşaqları çağırıb deyərlər: "Gə, dədə və yaxud bacı, gə, qədəmlərəə qurban olum, gə! Gün olsun, saa bu təndirdə toy əppəyi yapax. İsdiyənnərimizə min rəhmət, isdəmiyənnərimizə min nəhlət!"

Təndir işinə baxanların hamısı çimib qüsullanmalı idilər. Cümə və yaxud cümə axşamı səhər tezdən hərə öz işinin başına

---

[89] təndiri sıyırmaq – Təndiri qoyan adam badları qoyduqca əllərinin iki-üç barmağı ilə badların arasını birləşdirir. Bu cür hamarlamaq sıyırmaq adlanır.

[90] paş – su parçı

[91] garbıd və cecim – Hər ikisi hanada toxunur, evi və kürsünü döşəmək üçün istifadə edilirdi. Garbıd rəngli pambıq, yun iplərdən toxunan ev əşyasıdır. Cecim ona nisbətən nazik toxunardı. Əldə əyrilmiş və müxtəlif rənglərə boyanmış qoyun yunundan hazırlanmış iplərdən toxunardı. Cecim adətən kürsünün üstünə açılar, onu həmçinin ölünü büküb dəfn etmək üçün qəbiristanlığa aparardılar.

keçər, iki-üç yaxşı bad döyən qadın da çağırardılar. Təndirin başı garbıdla, cecimlə döşənər, bad döyənlərin sayına görə döşəkçələr düzülər, qabağında da şümşad, sal daşlar qoyular. Hərə öz yerini tutar, təndir qoyan çalaya düşər, duzlu su ilə divarları isladar, xeyir-dua verər, deyər: "Toy əppəyi yapasıız, şirinniy pişmişi eliyəsiiz. Od-ocağıız gur, qazannarıız qaynar olsun. Qolum ağrıyır, ay təndir saabı". Ev sahibi deyər: "Yorulmıyasıız, Allah qollarııza qüvvət versin. Bu da sizin xələtiiz". Ev sahibi qolundan nə qopursa, pul, ətir, yaylıq, oymalıx,[92] corab verər, bad döyənlərə də nəmər verər. Ev sahibi təndirçiyə deyər: "Sən maa qəşəy təndir qoysan, yaxşılığınnan çıxacam". Sonra dua, niyyət, nəzir eliyər: "Ya Allah, təndirim qəşəy çıxsın, birinci təndirə yağlı qalın[93] nəzir eliyirəm, yapıb paylıyacam. Toy əppəyi yapılsın, odum-ocağım bol olsun, qazannarım dolu olsun. Sizinnən bir yerdə. İlahi, amin! Allah elə, millətə xeyir versin, hamının balaların saxlasın. Məəmkilər də ooun içində. Müharibəsiz, dərdsiz, bəlasız xoş günnər görsün balalarımız. İlahi, amin!" Təndir başındakılar əl açıb dua edərlər.

Bad döyənlər işə başlar, əllərinin kəfəsiynən[94] badı döyərdilər. Şap-şup səsi eyvandan həyətə yayılardı. Təndirin birinci badı "Bismillah"la qoyulardı. Birinci badda *küflə*[95] yeri açılardı. Üç bad gedəndən sonra hər iki badın üstünə dəmir *xətircəy*[96]

---

[92] oymalıx – don tikmək üçün parça

[93] yağlı qalın – çörək növü

[94] əllərinin kəfəsiynən – əllərinin içi ilə

[95] küflə – təndirdə havalanmasını təmin edən oyuq

[96] xətircəy – Təndirin və ocağın üstündə caydan və qazanları saxlamaq üçün istifadə edilən dəmir parçasıdır. Onu təndirin və ocağın ölçüsünə görə dəmirçidə kəsdirərdilər. Xətircəyin bir tərəfi əyilmiş və qarmaqlı olardı. Ocağın üstündəki xətircəyi palçıqla bərabər suvayardılar. Çörək yapanda təndirin xətircəyini götürüb kənara qoyardılar.

yerləşdirər, dördüncü bad halqavari qoyulardı. Təndir qoymaq prosesi adətən səkkiz-on gün çəkərdi. Əgər bu müddətdən az vaxta başa gəlsə, təndir *ağnıyar,*[97] odur ki, hər gün ancaq iki bad qoyulardı. Üç badı üst-üstə qoyan zaman ağnıyıb gələrdi. Badlar qoyulduqca təndir qoyan onları yaxşı-yaxşı bir-birinə qavışdırar,[98] sığıyar.[99] Badların dalına çınqıl, malın quru peyini, qumu qarışdırıb ustupca[100] töküb yayırdılar. Ev sahibi yaxşı yeməklər bişirər, çayın dalı üzülməzdi. Qonum-qonşu, qohum-əqrəba gələr, xeyir-dua verər, çay içər, yemək yeyər, söhbət edərdilər. Təndir qoyan badları yaxşıca qavışdırar, sivirər, əl boyda yastı, şumşad daşla təndiri döyüb bərkidərdi. Ev sahibinin istəyinə görə təndiri *güllüyəllər,*[101] sonra malın təzə, yumşaq peyini ilə təndiri yaxşıca suvayardı. Bu, ondan ötəridir ki, təndir partlamasın. Proses başa çatdıqdan sonra ev sahibi təndirçini razı salır. Təndirçi adətən ev sahibinin verdiyi payı götürmür və deyirdi ki, halallığını vermişəm. Ev sahibi bununla razılaşmır, halallıq üçün gümanı nəyə gələrsə, onu da verərdi: oymalıq, qənd-çay, toyuq, bir tay buğda, yaxud un, bir quzu və s.

Havuşda təndiri on iki baddan qoyardılar. Birinci badın adı *özül* badıdır. Son üç bad isə *öhsüz, gədə badı, ağız badı* adlanırdı. Özül və ağız badını o birilərə nisbətən böyük və enli qoyardılar.

*Küflənin mahiyyəti.* Küflə baddı təndirin havalanma yeridir. Təndir qoyulanda təndirlə bərabər, küfləyə də bad döyülüb qoyulurdu. Təndirin içindən ayrılıb çıxan küflənin çöl tərəfdən

---

[97] ağnıyar – Uçmaq, tökülmək, yıxılmaq mənasındadır. Yeri gəlmişkən qeyd edək ki, uzunqulağın küllükdə əvədəməsinə də ağnamağ deyirlər.

[98] qavışdırar – pərçim edər

[99] sığıyar – sığallayar, hamarlayar.

[100] ustupca – ehtiyatla

[101] təndiri gülləmək – Üsküklə, stəkanın dalı ilə, çəngəllə, işlənməmiş daraqla təndirçinin təndirə güllər salmasına kənd arasında təndiri güllənək deyirlər.

təndirlə ara məsafəsi təxminən bir metrə qədər olurdu. Adi vaxtda təndir ağzı örtülü saxlanırdı. Köhnə çar-çapıtdan[102] yumax formasında yumrulayıb tıxac kimi küflənin ağzına soxardılar. Küflənin ağzını təndiri qalayanda açar, əppəy yapılanda bağlıyardılar. Təndirə tüstü veriləndə də küfləni xapıyallar.[103]

*Ana-bala təndir.* Havuşda təndiri tək qoymazdılar, cüt olmalı idi: ya ana-bala – biri böyük, biri balaca təndir, ya da böyük təndir və xətircəkli ocaq. Yoxsa düşər-düşməzi olar. Buna görə də ev sahibi palçığı əvvəlcədən artıq hazırlayardı. *Böyük təndir* qurtaran kimi *bala təndir* qoyulardı. Böyük təndir beş-altı *lavaş-yuxa,* səkkiz-doqquz *çıppa-dəstəna, bökən* tutardı. Bala təndirə lavaş yapmaz, ancaq *əl əppəyləri* yapılardı. Daha çox yaylaqda-obada bala təndir qoymağa üstünlük verilərdi.

Təndir-ocaq işləri başa çatan kimi ev sahibi eyvana *suvax salar*.[104] Təndir palçığını hazırlayanda suvaq üçün palçıq hazırlayardılar. Bu da su, torpaq, *samanın uvağınnan*[105] ibarət olurdu. Ona su qatıb ayaqlayardılar. Təndir damı səliqəli şəkildə qapının ağzına qədər suvanardı. Gündüzlər qapı açıq qoyular, gecələr örtülərdi. On beş-iyirmi günə, bəzən bir aya *təndir təpiyər.*[106] Təndirçi ara günlərdə gəlib təndirə baş çəkər, tam quruyandan sonra ona tüstü verilərdi.

*Təndirə tüstü vermək.* Təndirin ağardılmasına havuşlular *tüsdü vermək* deyərdilər. Tüstünü odunla deyil, *kərmə, yappayla*[107] verərdilər. Təndirin kərmə, yappa ilə ağardılmasının səbəbi budur ki, onu gur odla yandırmazlar, yoxsa partlayar, parçalanardı.

---

[102] çar-çapıt – köhnə geyim əşyaları

[103] küfləni xapamaq – küfləni kip bağlamaq, örtmək

[104] suvax salmax – suvax vurmaq

[105] samanın uvağı – saman xırdası, ovuntusu

[106] Təndir təpiyər. – Təndir quruyar.

[107] kərmə, yappa – mal, qoyun peyinindən hazırlanmış yanacaqlar

Təndir *öz xəkinə*[108] tüstüləməlidir. Böyük kərmələri, yappaları təndirin başına töküb, tüstüyə başlayardılar. Bir kərməni, yappanı neftə batırıb böyük şişlə küflənin ağzında *çatax*[109] qurardılar. Təndirin ağzına qədər kərmə, yappayla doldursalar da, tüstülədikcə *yandırası*[110] aşağı enir. Yandırası endikcə axırıncı ağız badının qıraqlarına qədər yandırasını təpə-qalama yığardılar. Bu, ona görədir ki, təndir baş-əyax[111] bişməlidir. Tüstü vermək təxminən bir həftə çəkər, bu müddət ərzində təndir ağarardı. Təndiri sahibsiz qoymaz, ətrafına dəmir əşyalar düzər, yandırasını, alışqan şeyləri uzaq edərdilər. Gecələr bir necə dəfə eyvana baxar, təndirin başını kərmə, yappayla doldurardılar. Beş-altı günə təndirin ağız badı qıraqlarına qədər ağarar, yandırasını dayandırar, gözləyərdilər ki, içindəki yanıb külə dönsün, təndir soyusun. Sonra xəkəndazla yavaş-yavaş təndirin külünü alıb bağçanın küllük yerinə tökərdilər. Təzə külü baxçaya, əkinə, ağaca verməzdilər, çünki təzə kül bitkiləri yandırar. Beş-altı aydan sonra köhnə külü gübrə kimi əkinə verərdilər. İlk külü qız-gəlinə umut etməzdilər,[112] oturaxlaşmış[113] ev sahibi külü ala-ala təndirin divarlarına fikir verərdi. Əyər partlayıbsa, kefi pozular, yaxşı çıxıbsa, sevinər, Allaha sükür edər, təndiri qoyana, bad döyənə, əməyi keçən hər kəsə dua eliyərdi.

*Nəzir qalını.* Vaxt ayrılar, cümə, cümə axşamı nəzir edilmiş qalını yapmağa hazırlaşardılar. Həmin gün təndir qoyan və ev sa-

---

[108] öz xəkinə – zəif odla tüstü verilməlidir anlamında işlədilib.

[109] çatax – Beş-on kərmənin, yappanın küflənin ağzında təpə-qalama yığılması çatax adlanır.

[110] yandırası – Havuş kəndində bütün yanacaqlara – neft, odun, daş kömür, kərmə, yappa və s. yandırası deyirlər.

[111] baş-əyax – tamamilə

[112] İlk külü qız-gəlinə umut etməzdilər – Təndirin ilk külünü almağı qız-gəlinə etibar etməzlər.

[113] oturaxlaşmış – təcrübəli

hibinin yaxın adamları qonaq çağrılardı. Ev sahibi səhər xəmir eləməyə başlayar, unu ələyib tabağa, teştə tökərdi. Havuş kəndində qalına su qatmaz, çim südlə[114] yoğurardılar. Süd, yumurta, bir ovuc nehrə yağı, bir neçə dişləmə qənd qatılardı. Sonra acı *xamranı*[115] qatıb yavaş-yavaş *gehrəliyib*[116] xəmiri yoğururdular. Anam deyərdi ki, xəmiri eləmək şərtdi. Yaxşı xəmir eliyən arvadın əppəyi *mamağananar,*[117] dəni suyuna qarışmıyan xəmirin əppəyi *kələfətir*[118]olardı. Ev sahibi xəmiri yaxşı qarışdırandan sonra *dəstəyüz,*[119] *sığarramax* verir,[120] xəmir saqqız kimi şaqqıldayır, ələ yapışmırsa, hazır hesab edilərdi. Xəmirin üstünü təmiz dəstərxanla[121] basdırıb, təndiri qalayardılar. Qalını yapmamışdan əvvəl iki-üç gün təndiri qalamaz, gözləyərdilər ki, *toxdasın*.[122] Havuşda təndiri əvvəlcə kərmə, yappayla salar, odunu ikinci təndirdə yandırardılar. Təndiri salanda neftə batırılmış kərməni yekə şişə taxıb küflənin ağzına qoyar, üst-üstə kərmə, yappa yığaraq çatax qurardılar. Təndirin yaxşı havalanması, yanması üçün küfləni açardılar. Şeşmələri[123] təndirin qırağına yığar, arabir təndirə tökərdilər. Şeşmə, kərmə, yappa təndiri qıpqırmızı yandırır, yaxşı ağardır, gec soyudurdu. *Təndir oturuşunca*[124] xəmiri, əl

---

[114] çim süd – xalis, qatqısız süd

[115] acı xamra – balatı

[116] gehrəliyib – fırlatmaq, qarışdırmaq, həll etmək

[117] mamağananar – Xəmir yaxşı uzanar və şişər.

[118] kələfətir – Yaxşı bişməmiş, köpməyən, bərk və göyərmiş halda bişən çörəyə kələfətir deyilir.

[119] dəstəyüz – dəstək

[120] sığarramax verir – hamarlamaq

[121] dəstərxan – süfrə

[122] Təndir toxdasın – Təndir qurusun, bərkisin.

[123] şeşmə – Kərmə-yappanın balacaları şeşmə adlandırılır.

[124] təndirin oturuşması – təndirin içərisində olan odunların tamamilə yanıb külə dönməsi

suyunu, urvalığı təndirin başına gətirərdilər. Bu işlərə *təndirin başını döşəməy* deyilirdi. Əvvəlcə təndirin başına aid olan nimdaş garbıd, cecim, üstündən un sırfası[125] açılar, *urvalıx* ələnərdi. Urvanı süfrəyə çox qoymaq lazımdır. İnanca görə, urvalıx az olanda xəmirin bərəkəti göyə çəkilir, bu səbəbdən bir teşt urvanı süfrəyə tökərdilər. Əppəy yapanın yanına əl suyu qoyular, bir neçə yumurtanı qırıb çanaqda çalar, içinə sarı çiçək tökərdilər. Ərsini xəmirlə bərabər süfrənin qırağına qoyar, təndirdən çıxan əppəyin altına dəstərxan açar, əppəyi yapan adam "Bismillah" deyib xəmiri ərsinlə kəsər, kündə salmağa başlayardı. Qalının kündəsi iri olmalıdır. Evdəki uşaqların sayına görə balaca *məməli çöçələr*[126] yapılardı.

Ev sahibi dua eləməyə başlardı: "Ya Allah, özün can sağlığı, ağız şirinniyi, könül xoşduğu ver!", "Nəzirimi qəbul eylə!", "Təndirimi, odunumu, ocağımı gur eylə!", "Toy əppəyi yapax!", "İmam ehsanı, bişmişi asmax nəsib eylə!", "Allahım, əvimin üsdünə aydınnıx suyu səp, dualarımı qəbul eylə. İlahi, amin!"

Əppəy yapan kündələri yayardı. Qalının ortasını çökək, qırağını da qalın və dik eliyərdilər. Təmiz süfrəylə təndirin badlarını silib qalını yapmağa başlayırdılar. Qalının üzünə yumurta, arxa tərəfdən başdan *dəndənə vurar,*[127] "Ya Allah", – deyib təndirə yapardılar. Qalını iti odda yapmazdılar ki, *tətrizdiyər.*[128] Onun üçün təndirin içinə, odun üstünə dəmir parçası atar, bununla da xəki alınar,[129] qalınnar çox gözəl qızarardı. Birinci əppəyi əl suyuna

---

[125] sırfa – süfrə

[126] məməli çöçələr – balaca kündələrdən yapılan yumru, qıraqları çıxıntı formasına salınan şirin və yağlı kökələr

[127] dəndənə vurmaq – azca su çiləmək

[128] tətrizdiyər – qarsar

[129] xəki alınar – yanar odun, iti odun söndürülməsi

batırıb itə atar, deyərdilər ki, "itin urzusudur, yeyirik". İlk çörəyi subay qız, oğlan yeməz, yoxsa *baş yoldaşı*[130] ölər.

Çörəyin əl suyuna batırılmasının da səbəbi var: "İt o dünyada dirənib durur ev sahibinin üzünə ki, çörəy yapdın, maa vermədin. Onda su şahıd durur və deyir: "Ay imansız köpək, axı o əppəyi maa batırıb verdilər". Beləlihlə, əv saabını su məşhər əzabınnan qurtarır".

Qalınla bərabər evin uşağının sayına görə balaca məməli çöçə yapardılar. Qalını yapıb qurtaran kimi təndirin başını yığışdırar, garbıdı, cecimi çırpar, urva qarışıq süfrəni teştin içinə qoyub öz yerinə yığardılar. Nəzir qalınlarını səliqəli bir dəstərxana yığar, qız-gəlin paylayardı.

*Təndirdə yandırılan yandırası.* Təndir salınanda mal-davarın təzəyindən yapılan, hazırlanan kərmə və yappadan istifadə edilirdi. Birinci təndiri kərmə-yappa ilə qalayardılar ki, arxası qızsın. Bir-iki *kirkə*[131] də kərmənin üstündən qoyardılar ki, bərabər yansın. Onu qoymaya bilərdilər, çünki Şərur mahalında birinci təndiri kərmə-yappa ilə yandırırdılar. Bu təndirə *kərmə-çatax təndiri* deyilirdi. Lavaş-yuxa yapanda beş-altı dəfə təndir salınardı. Birincisindən sonrakı təndirə ancaq odun salınardı. Buna da *odun təndiri* deyilirdi.

*Şişlər.* Eyvanda bir neçə şiş olurdu. Şişlər boyuna və yoğunluğuna görə fərqlənsə də, formaca eyni idi. Möhkəm metaldan döyülüb düzəldilir, əl tutmaq üçün istifadə edilən yeri qarmaq formasında əyilib döyülürdü. Ən böyüyü ilə kərməni, yappanı sancıb təndirin içində küflənin qabağına yığıb, çatax qururdular. Böyük şişlə əppəy yapılandan sonra təndirə qazanı, çaydanı sallayıb közün üstünə qoyurdular. Havuşda xaş, sümüklü

[130] baş yoldaşı – həyat yoldaşı
[131] kirkə – yoğun odun

ət, qarın-bağırsaq, balıq döşəməsini *çölməyə*[132] töküb təndirdə bişirirdilər. Orta ölçülü şişdə kabab, kartof bişirərdilər. İtə küt salanda onu da orta ölçülü şişlə çıxarardılar. Ən balaca şişlə isə lavaşı, yuxanı çəkərdilər.

*Xətangaz və yaxud xəkəndaz*. Havuş kəndində bu sözlərin hər iki variantı işlədilirdi. Xətangaz təndirin külünü almaq üçün lazım olan alətdi. Sapı bel, şana uzunluğunda olub belin əyilmiş formasına bənzəyirdi. Ağac sapından yapışıb təndirə salır, külü doldurub çəkirdilər. İtin kütünü də bişən kimi xəkəndazla və yaxud şişlə təndirdən çıxarırdılar. Yumurtanı üç-üç, iki-iki xəmirə büküb xəkəndazda yavaşca təndirin içinə qoyardılar. Kartofu isə təndirə tək-tək atardılar. Bişəndə kartofu da, yumurtanı da xəkandazla çıxarardılar. İsti-isti, təzə əppəklə təndir başında, kartofla yumurtanı dürməkləyib yeyər, bəzi hallarda nehrə yağından da üstünə tökərdilər.

*Ərsin*. Ərsin xəmiri təhnədən, teştdən, tabaxdan götürmək üçün istifadə edilən məişət əşyasıdır. Ərsinlə xəmiri kəsir, süfrəyə töküb kündələyirdilər. Bu ev əşyası əppək yapımı üçün vacib olan bir alət idi. Ağzı enli, sapı nazik, ensiz, baş tərəfi qarmaq formasında metaldan döyülüb düzəldilərdi. Bu alətdən xəmirin kəsilməsi üçün istifadə edilərdi.

*İrəfətə*. İrəfətə hər ölçüdə olur, onu əppəyin ölçüsünə görə düzəldirdilər. Adətən lavaş-yuxanı irəfətəylə yapırdılar. Havuşda *çıppanı*[133] irəfətəylə də yapanlar olurdu. Əslində çıppanı süfrələri yumurulayıb üstünə sərib yapırdılar. İrəfətə gərməşoy ağacından

---

[132] çölmək – qara, qulpuna sim bağlanmış qazan

[133] çıppa – çörəyin bir növü

düzəldilirdi. (Nəinki irəfətəni, müxtəlif ölçüdə səbətlər, *sələcə,*[134] *çəti*[135] və s. kimi məişətdə işlənən çox sayda əşyaları da toxuyardılar. Yadıma gəlir, rəhmətlik Heydər babam arı üçün səbət toxuyardı. O dövrdə arı səbətin içində yaşayardı. Sonralar isə arı üçün taxta yeşiklər hazırlanmağa başlandı).

İrəfətənin yuxarı tərəfində əl yapışmaq yeri olurdu. Analarımız onu üzləyər, üzlə çətinin arasını yunla, parçalarla doldurardılar. Bəzi hallarda bəlimlə[136] məkə qabığından[137] da istifadə edərdilər. İrəfətənin qarnı dolu olar, lavaşı üstünə sərib yapardılar. Qarınlı irəfətənin əppəyi təndirə tez yapışar, onu yapmaq asan olardı. Çıppa üçün də balaca irəfətə düzəldərdilər. Çıppanın irəfətəsi də eynən böyük irəfətə kimi üzlənər, üstünə sərilərək yapılardı. Bəzən də çıppa irəfətəsiz, süfrələrdən yumrulanmış irəfətə formasında olan vasitənin üstünə sərilib yapılardı.

*Ələk.* Ələk əppək yapımında vacib hesab edilən əşyalardan biridir. Dəyirman daşı kimi yupyumru olub, bir tərəfi xüsusi qılla (bu qıl atın quyruğundan götürülür) toxunmuş alətdir. Bu ələk ancaq un ələməkdən ötrüdü. Bu da teşt, tabax, ərsin kimi ev damının divarından asılırdı. Ələklər tez-tez yuyular və təmiz saxlanardı. Ələyi yuyub qurudandan sonra təmiz süfrəyə büküb divara vurulmuş taxta *çüyə*[138] asardılar.

---

[134] sələcə – Gərməşov, yaxud söyüd ağacının nazik budaqlarından toxunan, məişətdə aşsüzən əvəzi istifadə olunan əşyadır. Sələcə tabaq formasında toxunardı, bunun içərisinə yuyulmuş buğdanı, yuyulmuş pencərləri qoyardılar.

[135] çəti – İrəfətə boyda, düz toxunmuş məişət əşyasıdır. Onun üzərinə ən çox pendir torbasını qoyub daşlıyardılar.

[136] bəlim – Otun xəsil növüdür. Yupyumuşaq, uzunsov otdur. Onu kilim və gəbənin altından da döşəyərdilər.

[137] məkə qabığı – qarğıdalının qurumuş qabığı

[138] çüy – İndiki mismarı əvəz edən vasitə. Alça və cəviz ağacından hazırlanıb, baş forması enli, ucu isə nazik formada yonulan civ.

*Şana və qaralı ağac.* Təndirin odunu deşmək üçün işlədilən şana və ya qaralı ağac olurdu. Bunların hər ikisi eyvanda, ev damında, təndir olan yerdə, küncdə saxlanırdı. *Təndirə üz verəndə*[139] küfləni açıb bu alətlərin biri ilə, daha çox şana ilə deşərdilər ki, təndirdəki *közdər körələsin.*[140] Küfləni iki-üç dəqiqə açıq saxlayırdılar ki, közlər dirilsin, sonra küfləni bağlayıb çörək yapardılar.

*Oxlov və çörəy daşı – dördəyax.* Havuşlular oxlova *axloy* deyirlər. Əppək yapanda deyərdilər ki, ya *axloylu* yapıram, ya da *əl əppəyi* yapıram. Axloyu lavaş yuxa əppəyinə deyilir. Çünki bu əppək növü daş və axloyla açılıb yapılırdı. Əl əppəyi deyəndə *çıppa, dəsdəna, bökən, qalın* nəzərdə tutulurdu. Bu əppəklər əl ilə yapılanlardı. Çıppa-dəsdəna hər iki qol üzərində ata-ata böyüdülüb uzadılaraq yapılırdı.

*Təndir başında istifadə olunan qablar. Tiyan qazan* – böyük, iki qulplu, dərin qazandır. O, daim təndirin üstünə qoyulur, içi dolu su olardı. Xəmir yoğurarkən, xörək hazırlayarkən həmin sudan istifadə edərdilər. Bu qazanı təmiz saxlayardılar. Abgərdan daim qazanın qulpundan sallanar, qazanın ağzı örtülərkən ağzı aşağı qapağın üstünə çevirərdilər.

*Abgərdan.* Su götürən yeri orta qazan boyda, əlli santımetrə qədər olan məişət əşyasıdır. Abgərdan daim tiyan qazanın içində, qapağın üstündə olur, ya da qazanın qulpundan sallanar. Evin qadınları tez-tez bu tiyan qazanı və abgərdanı tərtəmiz yuyub salavatlayardılar. Təndirin üstünə tiyan qazanı qoyarkən külə su töküb qarışdırar, qazanın çölündən sürtərdilər. Bu, ondan ötrüdür

---

[139] təndirə üz verəndə – közləri dərindən qarışdıranda

[140] közdər körələnsin – közlər alovlansın və dirilsin

ki, qazan təndirin üstündə qaralmasın. Küllərkən[141] tez yuyulur, təkrar küllənirdi. Bizim evimizdəki tiyan qazan babamın babasınnan qalmışdı. Adı da Heydərəlinin qazanı idi.

*Sırfalar.* Havışda süfrələr dəstərxan, sırfa, örtük, un sırfası kimi bölünür, sonuncu təndirin başı üçün ayrılardı. Un süfrəsi qalın bezdən iki-üç metr kəsilərək hazırlanırdı. Bunu başqa yerə işlətməzdilər. Onu iki-üç aydan bir teştin içində isladıb yuyar, qurudub sonra üstünə urva tökərək götürərdilər. Süfrələri – istər çörək süfrəsini, istərsə də urva süfrəsini sabunla yumazdılar. Elə teştin, tabağın içində su ilə isladıb, çırpıb yuyardılar. Süfrəni dörd qatlayıb teştin içinə atar, sonra ev damında ayrılmış yerinə qoyardılar. Havuşda süfrəni, teşti-tabağı boş qoymazdılar. Bunun *urusumu*[142] pis olar, yəni zərər gələr aclıq, qıtlıq olar.

*Teşt-tabaq*. Xəmir eləmək üçün xüsusi böyük qablardı. Evimizdə gümüş, mis *təhnə*, *tabax*lar, *kasa*lar, *məcməyi*lər işlədilirdi. Hamısının çöl tərəfində qədim yazılar, şəkillər var idi. Sonralar çini təhnə, tabaxlar da bu çərgəyə qoşuldu. Havuşluların çini dediyi qab-qazan, teşt-tabaq Azərbaycanın digər bölgələrində şirli qab, teşt adlanır. Bunlar böyüklü-kiçikli olur, xəmirin tutumuna görə seçilərdi. Havuşda bu xəmir elənən təknə-tabax bir neçə cür adlandırılırdı: *təhnə, tabax, teşt, ləyən* və s.

*Acı xamra və puşa.* Hər bir çörək yapılan evdə xəmir eləmək üçün acı xamra saxlayardılar. Hər çörək yapılanda xəmiri ərsinlə kəsib bir kündə boyda urvanın içinə qoyardılar. Bir kündə boyda acı xamra daim urvanın içində olardı. Kəndimizdə, evimizdə hər axşamçağı təndir salınar, üstündə bişmişlər bişirilər, tiyan qazan üstündə, çaydan badın qırağında durar, xəmir elənər,

---

[141] külləmək – təndirin külünü su ilə qarışdırıb çaydanların, qazanların çöl hissəsini sürtmək. Qab-qazanı bu cür külləyib ocağa qoyanda hisi asan yuyulur.

[142] urusumu – aqibəti, sonu mənasında işlədilib

əppək yapılardı. Buna görə də acı xamranı gündəlik götürərdilər. Əgər bir neçə gündən sonra xəmir eliyəcəklərsə, xamranı ağzı kip qazana, yaxud şüşə bankaya qoyardılar. Xamra kəsilibsə və yaxud təzələmək istəyirlərsə, axşamdan bir balaca xəmir eliyər, üstünü basdırar, acıyıb tökülərdi. Bunun da adı puşadır. Qadınlar deyərdi ki, axşamdan *puşa tutmuşam.*[143] Səhər puşanın hamısını, ya yarısını qatıb xəmir eliyərdilər.

*Duvax.* Duvax təndirin ağzına qoyulur. Əvvəllər qırmızı təndir palçığından təndirin ağzına görə yumru duvax tökər və qurumağa qoyardılar. Duvağın palçığı təndir palçığı kimi acımalı və *qəzil*[144] qarışdırılmalı idi.

Duvağın tən ortasından əllə tutmaq üçün palçıqdan dəstək qoyardılar. Duvağın çöl tərəfinə qəşəng *işdəmələr*[145] edərdilər. Duvağı tökəndə xüsusi dəmirin üstünə tökərdilər ki, quruyanda ovulmasın, bütöv çıxsın. Palçığı töküb formanı verəndən sonra üstünə gül işləyər, üsküklə, qaşıqla gülləyərdilər. Ora bəzən evin uşaqlarının adı yazılar, ay, il, gün tarixi qoyulardı. Quruyandan sonra onu təndirin ağzına qoyardılar. Sonralar onu təndir ölçüsündə taxtadan, ağacdan, dəmirdən də hazırlardılar. Ağacdan duvaq hazırlayanda daha çox söyüd, qələmə, cəvizdən istifadə olunardı. Ağacı yonar, *naçax*la,[146] *qəmərti*[147] ilə, *mişar*la, *dəhrə*ylə düzəldər, əl tutmağa yer qoyar, üstünə əl işləri – yəni gül, yaxud əppək şəkli oyardılar.

---

[143] puşa tutmaq – acı xəmrədən əvvəl hazırlanan xəmir mayası

[144] qəzil – keçinin qırxılmış tükləri

[145] işdəmələr – əl işləmələri, rəsm işləri

[146] naçaxla – balta ilə

[147] qəmərti – yekə bıçaq

*Urva. Xaralda,*[148] *unnuğda,*[149] *çuvalda*[150] saxlanan un təndir süfrəsinə tökülüb təndir başına gətiriləndə ona urva deyərdilər. Yəni bu un xəmir eləmək üçün deyil, əppəyi təndirə yapmaq üçündür. Bunların fərqi budur, istifadə yerlərinə görə un və urva adlandırılır. Analarımız, nənələrimiz deyərdi: "Urvanı bol eliyin, ajdıx salmıyın, bala. Qarın qənimət götümür, Allah urzumuzu versin".

Əppək yapanın əli süfrəyə dəyməməlidi. Ancaq unlu olmalıdı, yəni un bol olmalıdı. Əppək yapımının sonunda süfrəni komalayıb urvanı ələyərdilər. Əgər urva azdısa, əlavə un gətirib süfrəyə tökər, ələyərdilər.

Ağıllı, işgüzar qadınlar sabahkı xəmirin tədarükünə bu gündən başlayardılar. Mən evimizdə nənəmdən, anamdan, bibilərimdən belə görmüşəm, bu gün də buna əməl edirik.

*Əl suyunun zəruriliyi.* Çörək yapımında əl suyu vacibdir. Təndir oturuşanda başı döşənər, nimdaş garbıd, cecim sərilər, üstündən təndir süfrəsi urvayla birgə açılardı. Əppək yapanın sağ tərəfində əl suyu, sol tərəfində urvalı süfrə olardı. Xəmir teşti-tabağı süfrənin qırağında, yəni garbıdın üstündə olurdu. Təndirin başının döşənməsi qaydası bu cürdür. Yadımdadı, evimizdə gümüş *seyinimiz*[151] kasa formasında aşağısı dik, dar, getdikcə ağıza doğru olan hissəsi isə geniş formadaydı. Çox ağır qab idi, çöl tərəfi qədim yazılar və işləmələrlə bəzədilmişdi. Bu qab evimizin əl suyu qoyulan qabıydı. Bunu başqa şeylərə

---

[148] xaral – Çuvaldan böyük, xüsusi toxunmuş ağ bez parçalarından tikilmiş, unu yığmaq üçün istifadə edilən məişət əşyasıdır.

[149] unnuğ – Xaraldan da böyük olur, xüsusi taxtalardan düzəldilir və yaxud qalın bez parçadan tikilir. Bunlara buğda və un yığılır. Bir xarala iyirmi-otuz çuval un tökülürdü.

[150] çuval – kiçik torba

[151] gümüş seyin – qab, kasa formasında gümüşdən hazırlanan məişət əşyası

istifadə etməzdilər. (Nənəm qavıdı[152] qarışdıranda nəfər sayına görə[153] bu seyindən istifadə edərdi. Evimizdə adam çox olanda böyük seyində *qavıd* qarışdırılardı).

Əppək yapılanda arxasına bir-iki dəndənə, yəni əl suyu çilənərdi. Təndirin istisinə suyu artıq çiləyər, sönükəndə isə az çiləyərdilər. Əl suyunu çörək yapandan sonra atmaz, bunu günah sayardılar. Əppək yapanın əlindən un, xəmir əl suyunun içinə tökülür deyə onu yerə-yurda atmazdılar. Çörəyin axırında itə küt hazırlayanda, yal bişirəndə onların içinə tökərdilər. (Təzə doğmuş mal-davara bir neçə gün isti yal verərdilər. Bunların hansı olsa, əl suyu onun içinə qatılardı).

*Ev damı və kürsünün rolu.* Havuşda hamının ev damında, eyvanda təndiri vardı. Qış, payız, yaz aylarında təndirin üstündə həmişə *kürsü* olardı. Kürsü stol formasında, ancaq ondan alçaq, dördayaqlı, üstü taxtalı, hamar ağacla bərkidilirdi. Kürsünün üstündə yemək, yatmaq olurdu. Təndirin ölçüsündən böyükdür. Kürsünü qış aylarında ev damında qoyardılar. Ev damı insanların yaşadığı yer idi. Qış aylarında təndiri burada salar, sonra da kürsünü onun üstünə qoyardılar. Ev damındakı təndirin tuşunda *baca* qoyardılar. Təndir yananda tüstü oradan çıxardı. Gecələr bacanı bağlayardılar. Təndiri qalayar, üstündə bişmiş, çay hazırlayardılar. Böyük tiyan qazanda su qoyar, çimmək, paltar yumaq ehtiyaclarını belə həll edərdilər. İtə, mal-davara soyuq aylarda yal da bu sudan bişirilərdi və sair. Əppək yapılandan sonra kürsünü təndirin üstünə qoyardılar. Təndir təzə yandığı, çox iti[154] olduğu üçün əvvəlcə duvağı təndirin ağzına qoyar, *isti*

---

[152] qavıd – qovut. Qovrulmuş bugda, noxud, qarğıdalını əl dəyirmanında üyüdərək hazırlanan çərəz növü

[153] nəfər sayına görə – evdəki adamın sayına görə

[154] iti – güclü

*korşalanda*[155] duvağı açardılar. Kürsünün üstünə kilim,[156] keçə[157] açar, dik yastıqları düzər, süfrə açar, isti çıppa, dəstəna, bökən, qalın düzər, bişən xörəkləri süfrəyə verərdilər. Hamı kürsünün üstünə yığılar, yeyib içərdilər. Yeməyi "Bismillah"la başlayıb, şükranlıqla bitirərdilər. Çay süzülər, qənd, nabat, noğul, cəviz, müxtəlif qaxlar, qavırqa[158] süfrəyə düzülərdi. Deyə-gülə çay içər, söhbət edərdilər.

Yatmaq vaxtı gələndə nimdaş garbıdı, cecimi kürsünün dörd bir tərəfinə açar, üstündən də keçələri isti və qalın olsun deyə döşəyərdilər. Sonra yorğan-döşəyi salar, yatanda təndirin ağzından duvağını götürərdilər ki, yerləri isti olsun.

Ev damının müəyyən tərəfi döşənəyli[159] olardı. Həm də bir qırağında taxta qarabat[160] qoyardılar. Onun üstü həmişə döşənəkli, yastıqlı, döşəkçəli olardı. Taxt kürsüdən həm en-uzun, həm də hündürlük baxımından böyük olurdu. Gündüzlər ailə bunun üstündə yeyər-içər, dincələrdi. Bizim ailədə taxt *gəzərti*[161] olardı. Yay aylarında taxtı evimizin açıq balkonunda qoyardılar. Babam yastıqlara söykənər, bizi də başına yığardı.

---

[155] isti korşalanda – isti azalanda

[156] kilim – Kilim hanada yun və rəngli iplərdən toxunurdu. Onun üzərinə güllər və müəyyən naxışlar salınardı. Uzunluğu iki-dörd metr arası, eni isə iki-üç metr olardı.

[157] keçə – Keçəni heç bir yerdə toxumurdular. Onu xüsusi atıcılar atırdı. Keçəni hazırlayan adamlara atıcı deyərdilər. Xalis qoyun yununu, bəzi hallarda isə boyanmış yunu atıcı ortalığa tökər, xüsusi tokkaşla (atıcı aləti ilə) keçə halına düşənə qədər döyəcləyərdi.

[158] qavırqa – Qavırqanı hazırlamaq üçün buğda, qargıdalı, noxudu yuyub təmizləyər, sonra sacda qovrurdılar. Bu qarışığın dəstərdə (əl dəyirmanında) üyüdülməsi isə qavıd adlanır.

[159] döşənəyli – döşənmiş

[160] qarabat – taxt

[161] gəzərti – Mövsümlə əlaqədar olaraq yerinin dəyişdirilməsi anlamında işlədilmişdir. Yəni yayda balkona, payızda eyvana, qışda isə ev damına qoyulardı.

Bizim iki təndirimiz vardı, mən gözümü açıb belə görmüşəm. Babamın tikdiyi daş pilləkənlərlə yuxarı – birinci eyvana qalxardıq. Birinci eyvandan həm iki mərtəbəli evimizə, həm də ev damına keçərdik. Birinci eyvan iki yerə bölünmüşdü. İkinci eyvanımız bir metr hündürlüyündə hörülmüş, eyvan boyunca *şatır*[162] qoyulmuşdu. Şatır ikinci eyvanın bir metrlik hörgüsünün üstündən qoyulmuş söyüd, ya da qələmə ağacıdır. Həm də sağ, sol tərəfdən şatırın üstündən divarların dibində dirək vurulurdu. Eyvanın yuxarı ağacları bu dirəklərin üstündə qoyulurdu.

İkinci eyvanda böyük bir təndir var idi. Yay, yaz, payız aylarında əppək bu təndirdə yapılardı. Kürsü də gecələr bu təndirin üstündə qoyulardı. Birinci eyvanda sağ tərəfin divarının dibində açıq ocaq qurulmuşdu. Axşamçağı təndir yanana qədər çay, bişmişlər bu ocaqda bişirilərdi. Adi vaxtda qaralı qazanlarda su qoyulardı. Samovar tez-tez salındığı üçün ocaq çayına ehtiyac olmurdu. Yəni hər ikisindən istifadə edilirdi. Qış aylarında ev damındakı təndir və ocaq qalanardı. Ev damındakı ocaq divarın içindən hörülmüşdü. Bunun adı *buxarılı divar ocaq* idi. Onun tüstüsü divarın içindəki buxarıyla damın üstündəki havalanmaya çıxırdı. Buradakı ocaqdan da təndir yanana qədər istifadə edərdilər. Ocağımız keçməzdi, daim tütərdi.[163] Ocağın odundan təndiri qalayar, təndir odundan isə samovar salardılar. Ev damının bir tərəfində *unnux* qoyulardı. Baş tərəfdə qoyulmuş güllü farmaşlara[164] yorğan-döşək, əyin-baş geyimləri yığılardı. Divar boyu taxçada bir neçə lampa, xart-blöv, kirbit-çaxmax və s. xırım-xırda

---

[162] şatır – Şatır ikinci eyvanda divar boyu yerdən qoyulan ağacdır. Hər iki tərəfdən qoyulan ağaclar dirək, yerdən qoyulan ağac isə şatır adlanır.

[163] tütmək – tüstüləmək

[164] farmaş – hanada toxunan, sonra qıraqları tikilərək sandıq formasına salınan ev əşyası

şeylər qoyulardı. Küpələr dolu qavırma, nehrə yağı, bal pərdənin arxasında yığılardı. Əgər evdə gəlin, cavan ailə varsa, bir tərəfdən də gərdək qurulardı.

*Təndirdə yapılan çörək növləri.* Havuşda çörəyə əppək deyərdilər. Təndirə yapılan əppəklər bunlardır: çıppa, dəstəna, bökən, yağlı qalın, içi müxtəlif pencərlərdən[165] olan kətələr, çöçələr.

*Çıppa.* Çıppa  su, duz və undan hazırlanırdı. Çıppa, dəstəna, bökən – bunlar gündəlik yapılan çörəklərdir. Hər axşamçağı təndir qalanar, üstündə bişmiş asılar, çay qoyular, tiyan-qazan da həmişə təndirin bir qırağında durardı.

Təndiri salmamışdan qabaq xəmiri eliyərdilər. Unu ələyib əvvəldən süfrəyə tökərdilər. Unu tabağın bir qırağına yığar, "Bismillah" deyib duzunu tökər, acı xamranı suyun içində yaxşıca əridərdilər. Sonra unu yavaş-yavaş su ilə qarışdırar, xəmiri yoğurardılar. Anam deyərdi ki, xəmiri eləmək şərtdi. Xəmiri yaxşı eliyəndə yaxşı acıyır, əppəyi də mamağannanır. Unu dəninə qarışmayan xəmirin əppəyi də kələfətir olur. Nənəm, anam yaxşı xəmir eliyərdilər. Sağ əllə xəmiri eliyər, sol əllə tabağın qırağından tutardılar ki, tabax oynamasın. Xəmiri yumruqla sıxar, sonra əllə qaldırıb çırpa-çırpa atıb tutardılar. Xəmiri əldə yetirmək lazımdı. Xəmir saqqız kimi şaqqıldamalı və əldən qopmalıdı.

Xəmiri eliyəndən sonra təmiz süfrələrlə üstünü basdırar, xəmir üçün ayrılmış isti örtüyü soyuq aylarda xəmirin üstünə sərərdilər. Sonra təndirin külünü xəkəndazla alıb bağçanın *küllük* deyilən tərəfinə atardılar. Kərmədən, yappadan, xırım-xırda təndirin başına tökərdilər. Yoğun şişlə kərməni, yappanı küflənin ağzına yığardılar. Üst-üstə yığılan kərmə-yappa yığımına *çataq* deyərdilər. Əgər ocaq yanırsa, yanan kösövü çatağın qarşı

---

[165] pencər – göyərti

tərəfinə qoyar, bir az da *avar-uvar*[166]*qırçın,*[167] *gəvən*[168] atar, odlanardı. Səliqəli, evdar, israfçı olmayan qadınlar təndiri, ocağı beləcə yandırar, kibritə ehtiyac olmazdı. ("Odu-oda calamax" ifadəsi yəqin ki, buradan yaranıb). Təndir yanar, başını doldurardılar. Mal-davarın kəlləsi, ayaqları təndir üstə ütülər, qarın təmizlənərdi. Bunları əvvəlcədən hazırlayardılar ki, çörək yapılandan sonra qazanda, çölməkdə təndirə atılsın.

Xəmir acıyan kimi təndirin başın süpürüb təmizləyər, döşəyərdilər. Urva dolu süfrəni açar, əl suyunu gətirib çörək yapanın sağ tərəfinə qoyar, xəmiri sol tərəfinə süfrənin qırağına qoyub, üstünü açardılar. Çörək yapan ərsinlə xəmiri kəsib süfrəyə tökər, bir ucdan kündə salardılar. Çıppanın kündəsi böyük olardı. Kündələri başı üstə qoyardılar ki, *qaysaxlanmasın.*[169] (Çörəyi yapanda da üzü üsdə olan tərəfini üzə salardılar. Bunu *pəsəndə* qadınnar edər, *ərdəmsiz* arvatdar bunun fərqini bilməzdər. Onnar üçün al da birdi, şal da birdi).

Təndir oturuşan kimi çörəyi yapmağa başlayardılar. Çıppa üçün də irəfətə düzəldər, ancaq bəzi qadınlar çıppa irəfətəsini çox işlətməzdilər. Bir neçə təndir başı süfrəsini iç-içə qoyub, yumrulayıb təndirin qırağına qoyardılar. Kündəni bir az yastılayıb iki əlin arasına alar, sağ əldən sol qol üzərinə, sol əldən sağ qol üzərinə çırpa-çırpa atardılar. Sonra yumurcağın[170] üzərinə sərib, dalına bir-iki dəndənə vurub təndirə yapardılar. Bəzən çıppanı yapmamışdan qabaq bıçaqla bir-iki yerdən çərtərdilər. Çıppanın üzünə su vurmazdılar. Çıppa, dəstəna, bökən eyni xəmirdən

[166] avar-uvar – kiçik, xırda
[167] qırçın – qurumuş ot
[168] gəvən – çöl bitkisi
[169] qaysaxlanmasın – üzü hamar olsun
[170] yumurcağ – süfrələrdən yumrulanmış parça topası

hazırlansa da, çörəklərin formasına görə fərqlənərdi. Bunlar gündəlik əl əppəkləridir. Onların xəmiri bir az boş, yəni *cuyuğ* olmalıdı. Ümumiyyətlə, təndirdə bişən çörəklərin növlərinə görə xəmir fərqi var. Məsələn, lavaş-yuxa bərk xəmirdən bişirilir, həmçinin yağlı qalının da xəmiri bərk olmalıdır.

*Dəstəna.* Dəstəna nə irəfətə, nə də yumurcağ üzərinə sərilməzdi. Bu əppəyin də kündəsi böyük olur, yastılayıb əl üstünə atardılar. Dəstananın fərqi uzun olmasındadı. Əl-qol üstünə ataraq ancaq baş-ayaq tərəfləri uzadılır, sağ-sol tərəfləri uzadılmaz, tamam uzadılandan sonra əl suyunun üzərinə tutub o ki var üzünə su tökər, arxa tərəfinə başdan bir-iki dəndənə vurar, sonra suyu təndirə tökülə-tökülə yapardılar. Dəstənaya su vurulduğu üçün *haqqıx*[171] kimi qızarırdı. Bir gündə eyni xəmirdən üç cür əppək yapılardı: çıppa, dəstəna, bökən.

*Bökən.* Bökənin də kündəsi çıppa, dəstəna kündəsi boyda olur, yəni böyük olur. Bökən də əllə, yəni irəfətəsiz, yumurcağsız yapılır. Süfrədə yupyumuru, bir az da qalın yayar, ortasını da deşərdilər. Bökən eynən dəyirman daşını xatırladardı. Onun formasını dəstərə, əl dəyirmanına da bənzətmək olar. Ortasını böyük deşib, eynən dəlmə[172] formasında enlədib təndirə yapardılar. Bu əppəyin üzü unlu olar, yapanda bir çimdik unu üzünə səpib, arxasına su çiləyərdilər.

*Lavaş-yuxa.* Havuşda lavaş, demək olar ki, yapılmazdı. Babam deyərdi ki, lavaş tənbəl arvadların işidi. Qoçaq arvad hər gün təndirini qalayar, işlərini də təndir üstə görər. Amma ötən əsrin 80-ci illərinin axırlarından etibarən lavaş-yuxa yapımı

---

[171] haqqıx – Haqq ağacı adlanan ağacda qırmızı muncuq formasında yetişən meyvələrdir. Haqqıx yeyilməzdi, ondan bəzək əşyası kimi istifadə edirdilər. Qıpqırmızı və gözəl olduğu üçün yaxşı qızarmış əppəkləri haqqıxa bənzədərlər.

[172] dəlmə – Ortası deşik daşlara, dəyirman daşı kimi daşlara dəlmə deyərlər.

xeyli artmışdı. Səbəbi də o idi ki, həmin dövrün cavanları artıq yaşlı arvadlar kimi əziyyət çəkmək istəmirdilər. Bu dövrdə əl əppəklərinin yapılması aralığı bir həftədən, on gündən bir dəfəyə düşmüşdü.

Lavaş-yuxanı yayda az yaparlar, yoxsa dadıxar,[173] kifsiyərdi.[174] Qış, payız və yazda bir-iki taya qədər unun lavaş-yuxasını yapardılar. Axşamdan bir tay unun xəmiri elənər, süfrəyə tökülərdi. Xəmir çox olduğu üçün əldə yetirmək çətin olurdu. Ona görə də ayaqlayardılar. Bu zaman xəmirdən bir çimdik götürüb baş yaylığının üstünə yapışdırar və belə dua edərdilər: "Allahım, keş günahımnan. Bərəkəti ayax altına aldım, əmə əlacım yoxdu". Bundan sonra "Bismillah" deyərək süfrəylə xəmirin üstünü örtər, ayaqlamağa başlayardılar. Xəmir hala gələndən sonra[175] ərsinlə kəsib tabağa doldurardılar. Təndir salınar, üstündə çay-bişinti işləri görülər, sonra təndirin başı döşənər, yapmağa başlayardılar. Lavaş-yuxanı köməkli açıb yapardılar. Ən azı dörd-beş nəfər qız-gəlin lavaşı açar, bir nəfər isə yapardı. Lavaş-yuxa oxlovla açıldığı üçün ona *axloylu* da deyərdilər. Bəzi hallarda lavaşın xəmiri südlə yoğrulardı, belə lavaşları südlü lavaş adlandırırdılar.

Xəmir eləyən qadının salavatlanıb qüsullanması lazımdır. Yayda lavaşı sübh tezdən eləyər, isti düşüncə qutarardılar. Yayda yapılan lavaşa xamıra qatmazdılar, yoxsa qıjqırıb[176] tökülərdi. Onun xəmirinə pendir suyu qatardılar ki, xəmirin əl-ayağı yığışsın, təndirdə axmasın. İsti günlərdə bir vedrə suyun xə-

---

[173] dadıxar – dad verər, tamı dəyişər

[174] kifsiyər – kiflənər

[175] xəmir hala gələndən sonra – xəmirin hazır vəziyyətə gəlməsindən sonra

[176] qıjqırmax – qıcqırmaq. Burada xəmirin acıması anlamında işlədilmişdir.

mirini eliyərdilər. Yenə də lavaşın dalınca ikinci təndirə çıppa, dəstəna yapardılar.

*Yağlı qalın.* Yağlı qalın müxtəlif səbəblərdən yapılırdı. O, nəzir üçün bişirilir. İmam ehsanı verəndə yağlı qalın da yapılıb süfrələrə verilərdi, həm də bütün bayramlarda yapılırdı. Evə əziz qonaq gələndə də növbənöv bişmişlərlə yanaşı, yağlı qalın da bişirilirdi. Gündəlik yapılan çörəklərin arasında da yağlı qalın yapılardı. Qalının xəmiri belə hazırlanardı. Mal-davar sağılar, südü süzülər, soyumaması üçün ocaq qırağında qoyulardı. Bildiyimiz kimi, mal-davar sağılanda südü isti olur. (Çobanlar südü sağıb bişirmədən içər, çörək doğrayıb yeyərlər). Unu ələyər, böyük teştin içinə yığar, sonra teştin bir tərəfinə *təpəqalama* yığardılar.[177] İlıq südü una qatar, bir ovuc nehrə yağı, beş-altı yumurta, bir necə dişləmə qənd, duz, acı xamranı qarışdırıb xəmir edərdilər. Yumurta və qəndi tamam açandan sonra onları una qarışdırardılar. Yağlı qalın dediyimiz çörək ancaq südlə hazırlanırdı. Ona qəti su vurmaq olmaz, bərəkət üçün duz vurulurdı.

Qalın xəmiri bərk olmalıdır. Xəmirə yaxşıca dəstəyüz verər, əl-ayağını yığıb acıması üçün üstünü basdırardılar. Təndiri salar, təndir ağarana qədər lazımi işləri görərdilər. Çayı qoyar, bişmişi asar, tiyan qazanda ağzına qədər su qızdırar, bu su işləndikcə başını doldurardılar. Qovurğa qovrular, bütün işlər qurtarandan sonra təndirin yandırılmasını dayandırardılar. Qalan yandırasını bir küncə çəkər, eyvanı süpürərdilər. Cecim, garbıd döşənər, döşəkçələr adam sayına görə düzülərdi. Urva dolu sürfə açılar, əl suyu həmişəki kimi sağ tərəfə qoyular, xəmiri çörək yapanın sol tərəfinə qoyardılar. Ərsinlə xəmiri kəsib böyük kündələr eliyərdilər. Beş-altı yumurtanı qırıb dərin *seyinə* töküb

---

[177] təpəqalama yığmaq – üst-üstə yığmaq

yaxşı çırpar, içinə sarı çiçək töküb qarışdırdıqdan sonra əl suyunun yanına qoyardılar.

Qalının yastılanması fərqlidir, o biri əppəklərdən seçilir. Kündənin aşağı tərəfini yuxarı salıb iki əlin barmaqları ilə ortasını çökəldib kündənin qıraqlarına salırdılar. Qalının içini barmaqların ucu ilə, dırnaqlarla basırdılar. Qalın quruluşuna görə başqa əppəklərdən fərqlənirdi. Fərqi bu idi ki, qalının ortası çökək, qıraqları hündür, qalındır. Həmin görüntü bu çörəyin adının qalın olmasına gətirib çıxarmışdır. İçinə tökülən nemətlər – süd, yağ, yumurta, qənd qalını çox gözəl və dadlı edir. Qalının içini çökək, qıraqlarını hündür etdikdən sonra üzünə yumurta, arxasına bir-iki dəndənə vurub təndirə yapırdılar. Təndirin tutacağı qədər qalın yapardılar. Əgər təndir istidirsə, üzünə tünkədən[178] atardılar. Yox əgər *təndir keşgindirsə,*[179] küfləni açardılar ki, təndir körələnsin.[180] Şana ilə dalını yüngülvari deşərdilər, buna da *üz verməy* deyərdilər. Küfləni bağlayıb təndirin ağzını örtərlər. Qalınları qızartdıqca çıxardardılar.

Qalını adətən səhər yeməyində şör-kərə, pendir, bal ilə birgə yeyər, süd hörrəsinə, ya da südə doğrayıb yeyərdilər. Gün ərzində də qalından isti-isti şor, pendir dürməyi edib yeyərdilər.

*Məməli çöçə.* Evdə uşaqların sayına görə xəmirdən məməli çöçə düzəldərdilər. Bunun üçün balaca kündələr hazırlayıb qalın formasına salar, ortası çökək, qırağı dik qalın çöçənin qıraqlarından, qalın tərəfindən səkkiz-doqquz çıxıntı – məmə çıxarardılar. Çöçəni bir ələ alıb digər əllə qıraqlarını yaxın-yaxın tutub dartardılar. Bu formada yumrulayıb yapardılar. Analar, nənələr çöçələr çıxana qədər qalının qıraqlarından kəsib evin uşaqlarına

---

[178] tünkədən – dəmir parçası

[179] təndir keşgindirsə – təndir sönükdürsə

[180] təndir körələnsin – təndir şölələnsin

verib deyərdilər: “Gəzə-gəzə yeyin, muncux, pul tapassız. Yerə tökməyin, günahdı”.

*Maş çöçəsi.* Maş çöçəsi bütün Şərur mahalının, İrəvanın kəndlərinin, o cümlədən, Havuş kəndinin də çox sevdiyi, mötəbər bildiyi bir bişmiş idi.

Maş çöçəsi bütün bayramlarda, əlamətdar günlərdə yapılardı. Hörmətli qonaqlar gələndə onu ad eləyib yapardılar. Qışa aid çöçə olduğu üçün bəzən bu mövsümdə səbəbli, səbəbsiz yapardılar. Fatma nənəm rəhmətlik deyərdi ki, “bir halvanı köylüüz[181] isdəməsin, qalan hər şeyi köylüüz isdəsin”. Nənəm demiş, kimin könlü nə vaxt istəsə, yapardı. Ancaq bayramlar, xüsusilə də, Novruz bayramı çöçəsiz, *pişi*siz, *əyirdəy*siz olmazdı.

Maş çöçəsində istifadə edilən ərzaqlar bunlardır: quru maş,[182] yaşıl mərcimək, bolluca baş soğan, nehrə yağı, duz, istiot. Bunlar maş çöçəsinin içinin hazırlanması üçündür.

Maş çöçəsinin xəmiri qalın xəmiri kimi bərk olunur – süd, yumurta, bir ovuc nehrə yağı, bir neçə dişləmə qənd qatılaraq hazırlanırdı. Çöçənin xəmirini də qəti surətdə suyla etməzdilər. Suyla olunan xəmirin çöçəsi quruyub *qaysıyır,*[183] dadsız olur, tez *kərtiyir,*[184] bir sözlə, çöçə dadı vermirdi.

Axşamdan çöçənin hazırlığı görürlürdü. Bütün quru maşlardan çöçənin içi olmur. Bu zaman sınanmış, yoxlanılmış, ağız dadına uyğun maşlardan istifadə olunmalıdır. Aşa qatılan maşdan maş çöçəsi bişirmək olmaz. Onun tamı başqa cür gəlir. Bunun üçün əsasən üç quru maş növündən istifadə olunur:

1. Dənəvari yekə qırmızı maş;

---

[181] köylüüz – könlünüz

[182] maş – lobya

[183] qaysımaq – köhnəlmək

[184] kərtimək – vaxtı keçmək

2. Çil-çil, çilli qırmızı, bənövşəyi qarışıq dənəvari yekə maş;

3. Yekə, dənəvari ağ maş;

Bunları axşamdan təmizləyib yuyur, ayrı-ayrı isladırdılar. Səhər tezdən maşları və yasıl mərciləri yuyub süzəndən[185] süzüb üstünə təkrar su töküb ayrı-ayrı qaynadırdılar. Bunların biri tez, biri gec bişə bilər, hərəsinin bir çür rəngi çıxar, bu səbəblərdən də ayrı-ayrı qaynadılırdı. Bişəndən sonra aşsüzən və ya sələcəyə tökülər, üstündən qaynar su gəzdirirdilər ki, rəngli suyu çıxsın. Suyu süzüləndən sonra yastı tabağa, məcməyiyə töküb su parçı ilə əzirdilər. Müasir dövrdə isə su parçından istifadə edilmir, ətçəkən maşından keçirilir. Bolluca baş soğanı doğrayıb sarı yağla[186] tavlıyırdılar.[187] Qızartmamaq şərti ilə soğanı öldürər, bir az da tavlıyıb hazır maşı yağ soğanın içinə tökür, bundan sonra ocağı zəiflədirdilər. İçinə duz, sarı çiçək, istəyə görə istiot atıb qırağa çəkirdilər. Bu çöçənin içidi. Onun ağzını örtmək olmaz, çünki qazanın içində qalan buxar hazır içliyi sulandırar.

Evin qızı, gəlini köməkləşib işə başlıyar, xəmiri biri eliyir, təndiri biri qalayırdı. Sonra dəmdəsgahı təndir başına yığarlar. Anam deyərdi ki, "çöçə yapbax dəngi-duvaldı",[188] yəni bu, tək adamın işi deyil, kömək lazımdır.

Xəmir acıyan kimi təndirin başını döşəyərdilər. Hər şeyi daşıyıb təndirin başına yığardılar. Xəmir, əl suyu, yumurta, çöçənin içi, əlavə süfrələr təndirin başına gətirilirdi. Balaca kündələr salınar, balaca *vərdənə*[189] verərdilər. Çöçəni daş oxlovla bir az yayırdılar. Üç-dörd nəfər qız-gəlin süfrənin başına düzü-

---

[185] süzən – aşsüzən

[186] sarı yağ – nehrə yağı

[187] tavlamax – tavlamaq. Qovurmaq anlamında işlədilir.

[188] dəngi-duvaldı – uzun-uzadı sürən işdir.

[189] vərdənə – oxlovla yarım açılmış xəmir parçası

lər, onların hərəsinin qabağında da bir çörək daşı olardı. Birinci qadın oxlovla böyük olmamaq şərti ilə yayar, sonra onu balaca vərdənə verərək yanındakının daşına atardı. İkinci qadın qaşıqla yayılmış xəmirin içini doldurur, qıraqlarını barmaqlarının ucunda bərkidib üçüncü daşa atırdı. Üçüncü qadın çöçənin qıraqlarını şəkərbura formasında bükər, sonra cəngəllə, təmiz, işlənməmiş daraqla üstünü *gülləyər,*[190] sonra yapanın daşının üstünə atardı. Çöçə yapan güllənmiş çöçəni əlinə götürər, üzünə sarı çiçəklə çırpılmış yumurtanı çəkər, dalına da dəndənə vuraraq təndirə yapardı. Bu qaydayla çöçə yapımı davam edərdi. Çöçə təndirdən çıxdıqca bir nəfər onu sərərdi. Çünki onları üst-üstə yığmaq olmaz, yoxsa içi sulanardı. Çöçə yapanlara çay verilərdi, ev sahibi deyərdi: "Qızdar, əlinizi saxlıyın, yeməy yeyin, soora davam eliyəy".

Həmin gün ev sahibi yaxşı yemək asar, süfrəyə yeməklə yanaşı isti çöçə qoyardı. Dua edər, çay içə-içə çöçənin qalanını da yaparlar. İşlərini qurtarıb "Allah bayramınızı mübarək eləsin, ağzı şirin yeyin. Həmişə bayram çöçəsi yapasınız", – deyə xeyir-dua verərdilər. Ev sahibi də "Allah köməyiniz olsun", – deyib hamısına evə aparmaq üçün çöçə bükərdi. Elə buradaca digər çöçə yapmaq istəyənlər üçün də növbə qurar, bu minvalla bayram çöçəsini yapıb qurtarardılar. Havuşda bayram çöçəsini, lavaş-yuxanı kollektiv şəkildə yapardılar.

*Pencər kətələri. Gicitkən kətəsi.* Kətələr çıppa, dəstəna, bökən xəmirindən yapılırdı. Onlar adətən pencərlərin bol olduğu yaz, yay aylarında bişirilirdi. Əppək yapılan günü qadınlar bağçadan körpə gicitkəni yığar, içinə qaragöz yarpızdan da vurar, tərtəmiz yuyar, suyunu süzər, sonra duzla pencəri iki əlinin kəfəsi ilə ovardılar. Bundan sonra hazır xəmirdən balaca kün-

[190] gülləyər – bəzək vurar

dələr tutar, yastılayıb ovulmuş pencəri yayılmış xəmirin içinə qoyub qıraqlarını barmaqlarının ucu ilə birləşdirir, arxasına dəndənə vurub təndirə yapardılar.

Bu kətələrin hazırlanması qutabı xatırlatsa da, onların fərqi var. Qutab xəmiri oxlovla yayılır, lavaş kimi nazik olur və saca salınır. Kətənin xəmiri qutabla müqayisədə qalın olur, onu təndirə yapardılar.

*Çiriş kətəsi.* Havuşun dağlarında mart-aprel aylarında çiriş adlı pencər bitir. Bu pencəri qovurma ilə, yağ-soğanla qovurub yeyər, həm də kətəsini yapardılar. Çirişi də eynən gicitkən kimi ovub xəmirin arasına qoyardılar.

Çiriş uzun bir bitkidir, çox dadlıdır. Onun kətəsini hazırlamaq üçün təmizləyər, yuyar, doğradıqdan sonra xəlbirə yığardılar ki, suyu süzülsün. Sulu pencər xəmirə su verər, kətənin içi *lığıs*[191] olar. Bəzən qadınlar pencəri süfrəyə yığardılar ki, suyu çəkilsin. Sonra çirşi təhnə-tabağa töküb duzlayar, ovmağa başlayardılar. Çiriş gicitkəndən bərk və sərt bitki olduğu üçün onu çoxlu ovardılar. Çiriş ovulub hazır olandan sonra kündələri əl ilə yastılayıb içini doldurar, təndirə yapardılar.

*Cacıqbaşı pencərinin kətəsi.* Cacıqbaşı yaz aylarında dağlarda bitir. Bunun həm kətəsi, həm qovurması, həm də *qatıxlaması*[192] çox gözəl olur. Eynən çiriş kimi təmizlənir, yuyulur, doğranar, suyu çəkiləndən sonra teştə töküb duzla ovar, xəmiri kündələdikdən sonra yastılayıb içinə duzlanıb ovulmuş pencəri doldurub yapardılar. Bəzən bu pencərlərin hamısını, bəzən də ikisini qarışıq ovub yapardılar, qarşıq pencərlərin kətəsi çox dadlı olardı. Zövqə görə bu pencərlərin içinə baş soğan, göy soğan da doğranardı. Bəzən qadınlar soğanı da duzla ovardılar ki, diri

---

[191] lığıs – xəmirin içərisinin sulanması, su verməsi

[192] qatıxlama – pencərin üzərinə qatığın tökülüb yeyilməsi

qalmasın. Əgər soğan duzla ovulmurdusa, pencərləri soğanla, az miqdarda yağla bişirib qovurar, sonra xəmirin içinə qoyub eyni qaydada yapardılar. Bu, yağlı kətə olardı.

*İçalatın təndirə yapılması.* İçalatın təndirə yapılımasını anam eliyərdi, çox da gözəl yapardı. Təndirə yapılan malın-davarın içalatı dedikdə xirtdək,[193] ürək, böyrəklər, qaraciyər, öpgəsi[194] nəzərdə tutulurdu. Bunları yuyub təmizdiyərdilər ki, suyu çəkilsin. Sonra böyük teştin içinə töküb iti qəməlti ilə bir ucdan yaza-yaza çırtardı.[195] Yaza-yaza ciyəri, ürəyi buraxırdı, əl boyda ürək çıppa-dəstəna kimi uzanardı. Ürək, böyrək doğranmazdı. Üzməmək şərti ilə qəməltinin ucuyla eninə xətlənər, yaza-yaza uzadılardı. Bu prosesin adı içalatın yaza-yaza uzadılması və təndirə yapılmasıdır. Bu iş xüsusi səriştə tələb etdiyindən onu hər qadın bacarmazdı.

İçalatın "yazılması" başa çatdıqdan sonra baş soğan doğranılıb içalata qatılır, alınan qarışığa duz vurulur, varsa, üstünə bir-iki yarpız düzülər, ağzı bağlanardı. Təndir yapımında nə olsa – lavaş-yuxa, çıppa, dəstəna, bökən, qalın, çöçə fərq etməz, bunların arasında ciyər də yapılardı. Qadınlar hazır içalatı çörək kimi əllərinə alar, "ya Allah" deyib təndirə yapardılar. Təndirdə gözəl görünüş yaranardı: bir çıppa, bir ciyər, bir dəstəna, ürək, ağciyər, bir bökən, böyrəklər. Çox hallarda əppəklərin bütün növləri eyni vaxtda içalatla yapılardı ki, bir dəfəyə təndirdən çıxarılsın. Təndirdən gözəl qoxular gələrdi. Təndirin başındakı qadın çörəkləri, icalatı qızartdıqca çıxarar, aşağıdan çıppanı qoyar, içinə içalatı yığar, əvvəldən doğranmış baş soğanı içinə tökər, süfrəyə verərdilər.

---

[193] xirtdək – mal-davarın nəfəs borusu

[194] öpgə – ağciyər

[195] yaza-yaza çırtardı – bıçaqla çərtə-çərtə əti dartıb uzatmaq

*Göbələyin təndirə yapılması.* Havuş kəndi dağlıq ərazidə yerləşdiyi üçün orada dağ göbələyi də bitir. Göbələk yazda, may-iyun aylarında çıxır. Yağış yağanda, göy guruldayanda kənd əhalisi sevinərdi ki, "bəh-bəh göbələylər çıxdı". Yağışdan sonra göbələk yığmağa gedərdilər. Dağ göbələyinin dadı çox gözəl olurdu.

Göbələklər irili-xırdalı olardı, hətta aralarında papaq boyda olanlara da rast gəlinərdi. Göbələyi həm yağda qızardır, həm də yağ-soğanla, bibərlə *tavlıyardılar*. Onun təndirə yapılması çox ləzzətli olurdu. Göbələk yuyulub təmizlənər, iriləri təndir üçün ayrılar, gövdəsi kəsildikdən sonra duzlanar, təndirə yapılardı. Təndirə yapılmış göbələkləri yapılan əppəklərlə dürmək edib yeyərdilər. Bəzən göbələyi şişlərə düzüb, təndirin zəif vaxtında ya təndirə sallayar, ya da təndirə atıb bişəndə götürərdilər. Bundan başqa, göbələyi ocaqda da bişirərdilər. Oçağı qalayar, yaxşı köz düşəndə göbələyi közün üstünə düzərdilər. Göbələyin bu cür bişirilməsinə göbələk kababı deyilir.

Obada təndirə axrıncı çörək yapan qadın vannanı onun ağzına çevirməliydi. Çevirməyəndə təndirin üstünə yağış yağırdı. Sonra baxırdılar ki, təndirin üstündə, içində pambıq-pambıq şeylər əmələ gəldi, kifsidi, sonra da bad tökülür.

## DÜRMƏKLƏR

Havışda dürməylər çox dəbdə idi. Dürməhlər bir neçə cür olur.

Üç yaşına qədər uşağa cücə dürməyi eliyirlər. Lap şəhadət barmağı boyda, naziy dürməh olar, o uşağın əlinin ovcuna sığacax qədər. Cücə dürməyiin içində pendir ola bilər, şor qoyula bilər. Nehrə yağı az sürtülür ki, uşağın ağzına daddansın. Balı xəfif sürtərlər ki, axıb tökülməsin. Çünki uşaxlar yeyəndə adətən

nənələr dürməyin altın tutur ki, ədə, tez ye də, ağzını bağlama, tez ye, bal axır. Biz çıpba dəsdana dürməyini eliyirdiy. Dürməh bükülür, verilir uşağın əlinə. Bu, cücə dürməyidi.

Onnan bir az yuxarıda quzu dürməyidi. Quzu dürməyi bir az cannı olur. Onun içinə hər şey qoya bilərsən. Ürəyin nə isdiyir, göy göyərti, göyərti qovurubsan onu... Bu dürməyi verirsən uşağın əlinə.

Quzu dürməyinnən sora qoyun dürməyi gəlir. Üş yaşınnan on yaşına qədər hər kəs yeyə bilər.

Qoyun dürməyinnən yekəyə öküz dürməyi deyərih. Öküz dürməyi ancax çölçülüyə, cütçülüyə yarıyır. Bir böyüh dürməh yekə bir dəstənanın içinə düzəldər, büküb qoyallar heybiyə və yaxud da dəsmala. Bir naharın yeməyidi bı.

İndi bizdə uşaxlara arzuya görə deyərih ki, bala, sənə quzu dürməyi eliyim? Cücə, quzu, qoyun, öküz dürməyi dört dürməyimiz var bizim.

Çoban dürməyi də var. Çoban dürməyi deməh öküzdən qabağ gedir. Yəni cücə, quzu, qoyun, çoban, dördüncü çobandı, beşinci öküzdü. Çoban dürməyi get-gedə böyüyən və öküzdən aşağı olan bir dürməhdi. Lavaşnan eliyərih dürməyi, kökənin də içinə, qırağın bir balaca aralıyarığ, onun da içinə qoya biləllər. Çıpbanın yarısın paralayıb ortadan dürməhliyəllər. Ancağ öküzdə bütöv çörəyi dürməhliyəllər.

## OVÇULUQ ADƏTLƏRİ

Bizdə qış aylarında ovçuluğla məşğul olardılar. Deyim ki, elə ailə var ki, elə ovnan ötüşərdi, qapısındakı mal-qaradan kəsməzdi. Qavırmalığı da bizdə ovnan – ya çöl qabanıynan, ya çöl keçisiynən eliyərdilər. Kəhliy yüngül quşdu da. Yazda bala üstə

olur. Ona görə bizimkilər qıymazdı onu vurmağa. Ovçuluğa ən çox meyillənirdilər soyuğ aylarda.

Dekabırın əvvəlinnən, noyabırın axırınnan ovçuluğ başdıyardı. Adətən iki-iki gedərdilər. Çünki bizim tərəfdə canavar, ayı olurdu, pələng olurdu, ona görə çalışırdılar ki, iki-iki getsinnər. Gedirdilər, birdən elə olurdu bir gündə iki qaban vururdular, gətirə bilmirdilər. Çıxırdılar Ağ qayadan, pirin başınnan, ordan qışqırırdılar ki, köməyə gəlin, filan tərəfə, Tək armuda, Çırağxanıya. Av vurmuşuğ, gətirə bilmirik.

Ümumiyətnən, bizdə av ətini tərəziyə qoymazdar. İsmayıl qurbanın pay bölgüsündə də əti tərəziyə qoymağ olmaz, günaha gedər.

Av heyvanının buynuzdarın asardılar çöl tərəfdən qapıların başına. Dərisin əvvəl duzduyurdular, qoyurdular bir tərəfə. O duzunu alırdı, onun da bir neçə həftə vaxtı vardı, yaya qədər çəkirdi. Quruyannan sora asardılar samannıxdan və yaxud əv damınnan. Yanı atmağ söhbəti yoxuydu.

Avın ətin doğruyurdular, hamıya paylıyardılar. Əgər av böyühsə, (elə olurdu ki, yüz iyirmi kilolux heyvan olurdu, bunu gətirmək də çətin olurdu), onnan qalanını qavırardılar.

Elə olurdu ki, bir gündə iki qaban, iki dağ keçisi, dörd-beş kəhlik vurardılar.

Av əti tərəziyə qoyulmur. Kəntdə neçə nəfərə pay veriləcəksə, düzürdülər dərinin üstünə, onun dərisi böyükdü. On beş-iyirmi pay qoyulannan sora, bunun sümüy tərəflərini qayırardılar. Bunu atardığ təndirə, kürsünü qoyardılar təndirin üsdünə, axşam çağı onları qaralı qazana və yaxud da çölməyə (yekə çölməhlər vardı) tökərdilər. O sümüyləri də balaca-balaca doğramazdar, eləcə qoyardılar təndirə. Üsdünə ancağ baş soğan, bir də duz vurardılar. Yanı artığ şey atmazdılar. Yumşağların götürərdilər, daş küftə döyülərdi. Avın heç bir şeyin atmazdılar.

Ayağlarını ütərdik təndirdə, dırnaxlarını, papışı vırıb çıxardardılar. Baş-əyağın bir qoyular, sümüyləri bir qoyular, yumşağı da bir. Paylanannan sora ailə onu yerbəyer eliyər. Bizdə adətən, cuma, cuma axşamları ava gedərdilər. Xüsusi hazırrığ olurdu, axşamnan deyilirdi, üç nəfər gedirih ava. Çörəh hazırranırdı, axşamnan dəsmala çörəh bağlıyıb qoyurdular. Ava elə-belə yüngül paltarnan gedilmir. Papağlar, çarığ, dizə qədər yun corablar geyilirdi. Çarığ suyu-zadı keçirtmir. (Çarığın da tikilmə qaydası var, dəri salınır çöl tərəfə, isti tərəf əyağ tərəfinə düşür. İplərinən yun corabın üsdə tamam bağlanır). Yeməhlər götürürlər, qumquma deyilən lap qədim qablar var e, onda da su aparılır.

Axşamnan yemək yığılır, hazır qoyulur dəsmala, ya da xurcun götürür. Çölə gedənin hamısı xurcunun atırdı çiyninə, ya da dəsmalı ortıya bağlıyır ki, maneçiliy törətməsin, çünki av güdməyə gedir. Suyun, qumqumasın götürənnən sora, silahın bağlıyannan sora, ağır paltarrarnan çıxırdılar. Bismillahir Rəhmanir-rəhimnən çıxırdılar. Kəndin çıxacağında ağsakqallar xeyir-dua verirdi: “Bala, əli dolu gəlin, xeyirri olsun”.

Avın pusulmağ yeri var, bunu hər adam gedib, eliyə bilməz, avı qaçırdar. Peşəkarrar gedir ən çox. Deməy, av nə vaxdı düşür düzən yerrərə? Qar yağıb, külək, tufan kəsib. Hamsı zağadan, mağaradan, yerinnən, yurdunnan çıxır. Ən çox da belə günnü havalarda av çıxır, onnar da yem axtarıllar. Qardı, yağıb bir neçə günnüy, bərkiyibdi, xam qarda av çıxmır çölə.

Bizim avçılar bunu deyip ki, xam qar batıbsa, bizim dağların heyvannarı çıxmır. İndi iki gün-üş gün ac qalırsa, bir az qar bərkiyirsə, çıxır, başdıyır yem axdarmağa. Bunnar gedərdilər, məsələn, Sarı bulağa yaxın, Püşəhliyə, Çıraxanıya, Ağ qayanın ətəyinə yaxın, Qırmızı qayanın ətəyinə. (Bizim qayalarımız var). Və yaxud bizim Böyüh Cəvizdiyə gedərdilər ki, bunnar sıldırım-

nı qayalardı, dağlardı. Bular güdükçü olardı, onnarı güdərdilər. Heç biri gərək cınqırın çıxartmıyaydılar. Hiss eliyərdilər ki, nəsə kolun dalınnan bir tərpəniş, ya bir mırıltı gəlir. Adətən qaban mırıldıya-mırıldıya, quşdar səsnən, oxumağnan, cikgildəməynən, nəğməynən özünü bildirər. Onda bunnar tamam marığa yatallar, bizim avçılarımız. Hər iki tərəfdən silahı hazır qoyallar. Qabannara bir dənə silah güc gəlmirdi, vırırdılar, yaralı vəziyyətdə qaçırdı, vıra bilmirdilər, harda mındar olurdu, olurdu. Üş-dört metir varsa, onda silahı doldurardılar, iki-üş yerdən bunu vurardılar, yaralanardı. Atam da, qardaşım da nağıllıyırdı ki, ağ qar olub qıpqırmızı qan. Bı heyvanı biz tutammırığ ee. Vırhavır, bizi gəmirir, təpiy atır, kəllə atır, tay candı, o da ölməy istəmir. Tutardılar, başın kəsərdilər. Elə olurdu, bir gündə iki təkə, bir qaban gətirərdilər, iki-üş nəfər.

Atam deyirdi ki, getdiy avı vırdığ. Gələndə o qədər deer dağ ucadı, biz enə bilmədiy yüknən. Avı başdadığ itələməyə, helləndi getdi, dalıcan da özümüz. Həmişə dağlarda hellan gəlir. O dağlardan qayalar qopur. Qopub gəldikcə yolda vurır. İnsanı da vura bilir, heyvanı da.

Quşdarın tükünü yolub atırdığ balışdarın içinə. Kəhliyin, hunduşkanın, Murad quşunun qanaddarın yekə ləlöhlərini yığardılar, dəsdə bağlıyardılar. Gəlin gərdəhlərinə asardılar, divarlardan asardılar. Gəbələri boyuyanda ipin suyuynan rəhlənərdi. Rəhlənəndən sora evlərə asardılar, şəkillərin altına, lampanın baş tərəfinə. Bizdə lələy atılmazdı.

## ORUCLUQ

Bizim kəndimizdə Orucduğ bayramı xüsusi təntənəynən keçirilərdi. Bizım kəndin əhalisi daha çox dindar adamlardı. Ümumiyətnən, Orucluxda, bir ay müddətində nə toy eliyərih, nə

bir xeyir iş görərih, nə təzə paltar geyinərih. Heş nə. Necə Məhərrəmnihdə yas saxlıyarığ, bax heləcə olar.

(O dövürdə indiki kimin televizya yox, radiyo, filan yox. Gözümü aşdım, bizim evdə patifon deyilən bir şey vardı, yanı kəndin hamısı, qohum-əqraba gələrdi, uzun qış gecələri, patifonda atam val qoyardı, qulağ asardılar).

Sora atam altımışıncı illərdə radiyo almışdı. Ayağı uca stolun üsdə qoymuşdu, stolun da əyağını kəsmişdi, bizim əlimiz çatsın. O radiyonun vasidəsiynən atam İranı tuturdu, Orucduğun vaxını, ifdar vaxını bilirdi. Həm də bunnarı deyim ki, ifdar vaxı kəndə necə yayılırdı. Atam radiyonun içinnən nəsə elektirik bir şey çıxartmışdı, vurmuşdu balkonumuzda eyvannan çöl tərəfə. İfdar vaxtı orda azan verilirdi, babam deyirdi ki, qaçın, çıxın palkona. Kəndə deynən ki, azan verilipdi, hamı bizi gözdüyür. Biz də dört-beş bacı-qardaş yığışırdığ pilləkanın başına, məhəccərin başında çağırırdığ: “İfdar, ifdar... Hüseyn əmi, Baba dayı, ifdar..”.

Qurban bayramı bircə gün olur. Ramazannan Məhərrəmliyin arası iyirmi gündü, səhv eləmirəmsə, Ramazannan Qurbanın arası yetmiş gün çəkir.

Mən indi də orucduxda telefonda saata baxmıram, çıxıram çöldə ulduzlara, aya baxıram. Əvvəla, aya baxmaq, salavat çevirməy hər bir müsəlmanın borcudu və xeyirridi. Bütün günahların o salavatla yuyulur. Orucduğ vaxı yatmırsan, mən ailəmdə görmədim ki yatalar. Axşam çəkilənnən sora, məsələn, gecə bir-iki arası babam deyərdi (bu da orucluga aiddi deyə danışıram), sırfaları açın, yağı, balı gətirin, qarışdırax. Yəni bizim evin adətiydi, axşam çəkilib dincəlib merdən-meyvədən yiyənnən sora, yatmamışdan qabağ bir də yiyərdilər. İndi deyillər, yeməyin, nəfəs alammazsız, yatmamışdan qabağ olmaz, yeyirsiz kökəlirsiz. Elə şeylər yoxuydu. O qədər işdiyirdilər ki, yedihləri də cannarına

yatırdı, nə yağa, nə piyə getmirdi, kökəlməy yox idi. Yatmamışdan qabağ yenə bibilərim, anam sırfalar açardılar, üsdünə yağ – sarı yağ, nehrə yağı, bal düzərdilər. Qavırma qoyardılar. Qavırma Naxçıvanın, Şərurun, necə deyim, mötəbər bir yeməyi idi qışda, payızda. Qavırmanı da qoyursan peçin üsdünə axşamnan. Burda zəyif xodda yağı əriyirdi. Kimi yağlı yiyirdi, kimi yağsız yiyirdi. Ətin ayrı-ayrı yeyirdilər. Düzürdülər ortalığa, həmişə də qaralı qazanımız, çaydanımız ocağın üsdündə olardı. (Onda maşınka da var idi, amma ona meyil eləməzdilər. Babam deyərdi ki, ocağın, samavarın çayı daddı olur). Yeyirdilər, içirdilər, gedirdilər yatmağa. Bəlkə də heş babam, nənəm bir saat yatmazdılar, durardılar obaşa. Obaşa da axşamnan hazırrığlar görülürdü. Xörəylər qışda qoyulurdu kürsünün üsdünə ki isdi qalsın, durub o vax yeməy qızdırmasınnar. Dururdular, əl-ayağlarını yuyurdular dua eliyə-eliyə. Sırfanın başına yığışırdılar, ifdarlarını açırdılar. (Anam deyərdi ki, oruc tutmax şərt dəyil, oruc tutana qullux eləməy lazımdı. Onun pişvazında durmax ən böyük savabdı. O oruc tutannan çox sən gedirsən o savaba, cənnətə düşürsən. Qullux eləməy asan dəyil. Adam var ki, fironnuğunnan qullux eləməyi sevmir kiməsə, ərinə, qaynatasına, bir adamına. Adam var ki, tənbəlliyinnən eləmir. Qadınnarı neçə yerə bölmək lazımdı, fironu, tənbəli...). Yeyib-içib yığışdırana kimi, caylarını içincə namazdarını qılardılar. Onu erkən edirdilər ki, günaha batmasınnar. Tamam yer işıxlananda, günəş hələ çıxmamışdan ağapbağ, süd kimi işığ yayılırdı. İndi imsak diyilir, biz imsak diməzdiy, o başdan həm orucu, ifdarı açırsan, həm namazını qılırsan. Onnan sonra başıı yerə qoyursan.

İfdar vaxdı çatanda (bizdən qabağkı dövrü diyirəm) babam belə nağıl eliyirdi ki, biz azanı İrannan tutardığ. Kətdə polis,

milisiya axtarırdı oruc tutan, namaz qılan, ehsan verəni cəzalandırırdılar. Camaata zülüm eliyirdi sovet hökütməti.

Babama deyirdiy:

– Baba, bəs siz necə namaz qılırdız, o başdan ifdarı filan?

Deyirdi:

– Bala, şən-şün əlləşən vaxda[196] biz ifdarmızı açardıx. Allah qəbul eləsin. Nə verib Allah, su ilə açardıx.

Müsəlmanın ifdarını açmağı bir suynandı, bir xurmaynandı. Su olan yerdə mütləq suynan açmalısan. Deyirdi, Allah Yezidə lənət eləsin. Su olmadı xurmaynan, bir dənə xurmaynan mütləq açmalısan. Dəstəmazı almağa suyun yoxdusa, (su tapammırsan, elə yer var dağda, bağda, yaylaxda) namazının vaxdını keçirtməyəsən gərəh. Quru, təmiz torpağın üsdünə əlini üç dəfə, dört dəfə vurursan, dəstamazın alırsan. Allahım, qəbul elə, Allah, Məhəmməd, Əli, Fatimə.

## QURBAN ƏTİNİN PAYLANMASI

Həmin günü dört-beş yerdə ət ölür, heyvan öldürüllər. Qurban payı ayrılanda bunun qara ciyarınnan, öpkəsinnən, ağ ciyarınnan, ürəyinnən, böyrəyinnən, quyruğunnan hər payın üsdünə atıllar. Çünki bunun ciyarını bir adama vermillər. Yeddi qapıya pay getməlidi. Yeddi ev tamam ötüşənnən sora, bir pay özəə götürməlisən. Bir evdə bir qoca kişi, qaynana, qaynata varsa, bu bir paydı. Evdə oğul evlənibsə, bu bir təsərüfatdı. Evdə subay qız varsa, və yaxud əri ölüb, müharibədə, filanda gəlib qısılıb, oturub atasının ocağında. Üş pay hesab olunur onun evi. Yeddi əvin bir evinə üş pay qoyulur. Ailənin payında

[196] şən-şün əlləşən vaxda – gözə görünməz varlıqların dolaşdığı vaxt. Axşam üstü, şər qarışan vaxt nəzərdə tutulur.

bir sümüy, bir yumşağ olmalıdı, hər bir kəsə. Məsələn, məən evimdə beş nəfər varsa, beş tikə yumşağ qoyulacağ, beş tikə sümüy qoyulacağ. Üş tikə, dört tikə quyruğ qoyulacağ. İki ciyar, bir öfçə, ürəyin bir qırığı, böyrəyin bir qırığı qoyulacağ ki, dadızmaxdı. Bax budu paylaşmağ, qurban budu.

Qurban həmin günü dəriin üsdə paylanmalıdı. Axırda dəri götürülür, duzdanır. Kimin ehtiyacı varsa, o aparacağdı. Adətən, yunlu olur axı qurban, həmin dəyqə qırxılmır axı heyvan. Tezdənnən, axşamnan onu paltar sabunuyla çimizdirillər. İlığ suynan yuyullar tər-təmiz ki, sabah bu qurban kəsiləcəh. Ümumiyətnən, qurbannığ heyvan təmiz olmalıdı, qurban tükünün üsdündə heyvanın təzəyi olmamalıdı, günah sayılır. Ona görə qurbanın tükü uzundusa, verillər kiminsə ehdiyacı var ona. Alan adam da dərini duzduyur axşamnan, üş gün saxlamamış onun yunnarın yolur. Ölən heyvanın biz yununu yolarığ. Dəri qalar, onu da çöl tərəfdə, eyvanda, əv damında, palkonda atıllar əyağ altına.

Bizdə bir gün qabağdan qurban kəsiləcəh heyvana günah olacağ şeylər yedirmillər, buğdadı, arpadı, yarmadı.

O başdan aylə çimər ki, sübh tezdən hamı qüsullanmalıdı.

Hər adam İsmayıl qurbanını kəsə bilməz. Oon xüsusi şərtdəri var. Qurbanı kəsən qüsullanmalıdı, duaların eləməlidi. Bir də İsmayıl qurbanında pıçağı iti eliyəllər, heyvan inciməsin. Heyvanın boğazını itilənməmiş pıçağla kəsmək Allaha xoş getmir. Qəməltini elə iti eləməlisən ki, elə bir dəfə "Allah, Məhəmməd, Əli" eliyib kəsməlisən ki, heyvan yazıxdı, əziyyət çəhməsin.

Qurbanın qanını təmiz yerə tökəllər. Heyvanı öldürəndə çala qazıllar, onu kəsən kimi qanı axır, gedir o çalıya. Qurbanın qanınnan götürüb uşağların alnına, boynunun dalına vurullar. İndi də bizdə o adət-ənənə var. Kişinin gedib, cavan gəlnin, qızın alnına

qurban qanı sürtməyi bizdə ayıb sayılar. Orta yaşdı qadın eliyər bunu. Elə ki, bütün bu ayinlər bitdi, o çalanın üsdünü torpağnan basdırallar.

Heyvanın içinnən çıxan acı bağırsağı, bir də yelnini basdırallar. Dərini, kəlləni kimin ehtiyacı var, götürür. Həmin günü həll olmalıdı, həmin günü təndirrər yanır, hamı çörəyin yapır, axşam da bayram axşamıdı. O götürülən kəlləsi-əyağı orda ütülür, elə orda doğranır.

## MƏHƏRRƏMLİK

Bizim kətdə bir adət varıydi, Məhərrəmliy girənə qədər bütün işdər görülüb qurtarmalı idi. Paltarı tik, geyin, gəbə-kilimi kəs. Məhərrəmliy girən günnən biz bir iş görməriy, yasa batarığ. Yarımçığ qaldı, çatdırmadınsa, elə qalacağ bir də altımış günnən sorıya. Nə gəbə toxuna, nə kilim toxuna, nə qız sevdasına düşə bilərsən, nə isdiyə bilərsən. Ola bilər, qəlbindədisə, altımış gün səən qəlbinə qar yağdı. Altımış günnən sora gedib, bu işi görə bilərsən.

Anam həmişə deyərdi ki, qırmızı geyinməy, həmin günü bütün işdəri görməy Yezidin tayfasına gəlir. Məhərrəmliydə imamnarı şəhadətə yetirənnən sora hamısı qırmızı geyinir, hamısı da sakqız çeyniyir. Yanı bunnar bizə yasağdı ha. Məhərrəmliy günündə sakqız çeynəməy, qırmızı geyinməy, acar[197] paltar almağ, təzə işdər görməy, təzə sevdıya düşməy, qavırma eliyəssən, mürəbbə bişirəssən, nabat bişirəssən – hamsın dayandırırsan. Hətda, deməy, sabah şəhadətə yetəcəy imamlar, axşamnan sabahın xörəyini asırsan ki, sabah mən qazan tavlamıyım.

---

[197] acar – təzə

Yezidin arvatdarı qol-qanad açıllar, təndir salıllar, ayran aşı bişirillər, aş bişirillər, yun çırpıllar, qırmızı yorğan-döşəy salıllar. Bunnarın hamısı bizə yasağ olur. Bir malın-heyvanın qabağına yem tökürsən. Evdə sinəzən deyib ağlıyıllar. Məhərrəmliy ayının yeddi gününnən sora "imamın qətli sındı" deyilən günü var, o qətil günü axşamnan hazırrıxlar görülür bizim məçiddə, Havışda. Məçidin həyətin süpürərdilər arvaddar.

Bizdə iki məçid var, biri imamların gəlib orda şəhadətə yetdiyi yer, dağların başında pirimizdi. Ancağ burda məçidi tikiblər, dini ayinləri orda keçirdillər.

Məçidin həyətiin bir gün qabağdan cavannar otun, ələfin vurar, arvaddar süpürər. Gəbə, kilim hamı evinnən aparır bunnarı. Qabı, qaşığı hazırrıyıllar. Sabah obaşdan hamı ordadı. Orda bizdə ağ köynəy eliyəllər, imamnarın necə başını kəsiblər, onu danışallar.

Sabahı günü ki qətil sınacağ, saat on iki, bir arasında qətil sınır. Bir gün qabağ məçidin həyətin-bacasın təmizdədilər, içəri döşəndi, çöl döşəndi. Məçiddə də daim adam olurdu. Bir gün qabağ qızılgüldən şərbətdər hazırranırdı, axşamnan. Hazırlanma qaydası belə idi. Əgər yaz vaxdına düşübsə, qızılgülün ləçəylərin, çiçəylərin dəsdərdə[198] döyürdülər. Döyənnən sora şərbətin içinə atırdılar. Əgər qış ayıdısa, qızılgülün qurusun qaynadırdılar şərbətnən bərabər. Şərbətnən qaynadanda o yumşalırdı, ətri qalırdı. Anam onu qəyçiynən doğruyurdu balaca-balaca. Şərbəti hazırlanırdı. Aran yerlərində doşabdan da eliyə bilərlər. Havışda tutdar yetişmir, soyuğ yer olduğuna görə. Biz doşab işdətmiriy, bizimki ancağ baldı, bir də şəkər, yəni qənd. Qənd də dişdəmə olurdu. Baldan da şərbət hazırrıyırdılar.

Özü də işi bölürdülər. Kimsə deyirdi, sabaha aşı o bişirəcəy. Sabah tezdənnən, gün çıxmamış hər şeyi yığırdılar məçidin qaba-

---

[198] dəsdər – əl daşı

ğına. O aşa neçə adam kömәy dururdu. On kilo-iyirmi kilo düyü süzüləcəhsə, hərə evinnən beş kilo, üş kilo düyü gətirirdi. Hərə evinnən səkgiz-dokquz dəstəna, bökən, bir tabağ çörəh, pendir gətirirdi. Yayda ayran hazırrıyar, ayran aşı bişirərdilər axşamnan. Ayran aşın bişirənnən sora yaydısa, qazırdılar torpağa bassırırdılar. Üsdünə qapağ qoyurdular, qapağın da üsdünnən başqa bir dəmir qoyub torpaxlıyırdılar ki, it-pişiy yaxın düşməsin. Sabah gün çıxmamış babamgil məçidin həyətində şaxsey gedərdilər. Biz ona şaxsey-vaxsey deyərdih. Hamı ağ köynəydə getməlidi, onda da üş düyməli köynəydi, can köynəyi. Hamı üst köynəylərin soyunardı, ağ köynəydə kişilər şaxsey-vaxsey gedərdilər. Babam başda durardı, kişilər hamısı yallı formasında əllərin keçirdərdilər bir-biriin çiyninə. Gedirdilər-gedirdilər dayanırdılar, babam şaxsey deyirdi. Bunnar da getdihcə şaxsey deyirdilər. Sora əllərin bir-birinnən qopardırdılar. Sinələrinə zəncirlə vururdular, ağaşnan, şillə-yumruğnan vırırdılar.

Babam başdan deyirdi:

Ay işığı süd kimin.
Şaxsey-vaxsey.
Yezid gəlir it kimin.
Şaxsey-vaxsey.

Arvatdar da yeməh süfrələrin açıb, döşəhçələr düzülüb bir tərəfdə, ağacın altında. Yay ayların deyirəm, süfrədə hər şey düzülüb ortalığa. Şaxsey getdihcə, şərbət paylanır camaata, həm ayran aşı verillər. Şərbəti stəkənlara doldurullar. (Aşağası dik məskö deyillər, biz onnara dəh-dəhi deyərih). Qətil sınana qədər bir adam orda çörəh yeməzdi. Aşı qoyardılar dəmə, ocağa. Arvatdar da mərsiyə deyərdilər, ağlaşardı, hamısı yaşmaxlı, başı örpəyli. Arvatdar da bir tərəfdə oturub, ağlaşıllar.

Onnan sora qətil sınmamış, məsələn, hər il bizim kəndimizdən, bir ili Süleyman dayı ağköynəy olardı, bir ili İslam, cavan oğlannar. Özü də istəynəndi. Kim bu il ağköynəy olacağdı, əvvəldən seçirdilər. Əgər gəlibsə, sora dədə-ana onu dəyişə bilməz.

O ağköynəy olan oğlanı gətirillər ortıya, qətilə az qalmış. Onu otağın bir tərəfində soyundurub, ağı kəfən kimi salırdılar boynuna. Bircə başı açığ olurdu. Başınnan keçirdirdilər aşağı. Gətirirdilər eşihdə ortada, şaxsey gedilən dövrəən içində saxlayırdılar. Babam xənçəri alırdı əlinə, bunun başınnan belə vırırdı. Başınnan vuran kimi qan axırdı ağ köynəyə. Elə ki, qan gəlirdi töküllürdü, ağköynəy olurdu. Ağköynəy olannan sora bunu götürüllər, bu dəfə də başdıyıllar onun yarasın dağlamağa, parça yandırıllar, basıllar ora. Yəni hər kim orda ağköynəy olursa imamnarın xatirinə, onun da sahabı, Allah onun ailəsinə, uşağına xeyirriy verir. Yadımdadı, İslam dayı, Süleyman dayı, bunu əvvəldən soyundururdular lüt. Ağ kəfəni, başı deşiy... burdan keçirdirdilər, ayağa qədər, əlləri də kəfənin içində qalırdı. Gətirdirdilər şaxsey-vaxsey deyən kişilərin ortasında saxlıyırdılar.

Babam xənçəri aldı əlinə, (xənçər ay formasında olur) düz Süleyman dayının təpəsinnən nətəər vurdu, qan gəlib, ağ köynəydən axıb, ayağın üzünə qədər getməlidi, adətin forması odu ha, çərtməy söhbəti yoxdu. Bu da belə vırılanda qorxub ağapbağ kəfən kimi oldu. Sora onu götürüllər məçidin dal tərəfinə. Arvatdar ocaxda əsgilər yandırıllar, taxta parçasının kömürün, isdi-isdi basıllar o yarıya.

Həmin günü qan axıtmağ mütləq olmalıydı. Yadımdadı, babamın kürəyi elə olurdu ki, gömgöy, zəncirnən vururdular. Ta ağac-zad yox a, zəncirnən vırırdılar, nənəmnən neçə gün onun kürəyinə məlhəm sürtürdüy.

Elə ki, qətil sındı, hamsı girirdi məçidə, palın-paltarın geyinirdi, üst köynəklərin-zadın. Sırfaların başında kişilər bir tərəfdə, arvatdar bir tərəfdə, uşağların yığırdı başına, yeyirdilər, içirdilər. Həmin günnən bizim yasımız başdıyırdı. Düz altmış gün, yeddi gün bu başdan, yeddi gün imamnarın şəhadətə yetdiyi gündü. Onnan sora da qırx gün bizim məhərrəmliyimizdi, əsil matəm günümüzdi, iyirmi gün səfər ayımızdı.

Bu aylarda nə toy eləməy, nə xeyir iş görməy, uşağın əynində paltar cırılıb düşür, iynə alıb tikməy günahdı.

Babam deyirdi, hər bir evin altımış günnüy azuqəsi tutulmalıdı. Üş-dört günnən sora çörəh yapılırdı, təbii şeydi, çünki bunu heş nə eliyə bilmillər. Ancağ yamağ-yırtığ eliyə bilməssən, təzə paltar tikəmməssən, yun çırpa bilməssən, əriştə kəsə bilməssən. Bir tay əriştə kəs əvvəldən, qavır, yığ ora. Gündəliy bişir, tök uşağın yanına.

Qırx gündə, altımış gündə də bişirdiylərin hamısına nənəm duz atırdı, deyirdi ki, imam yolunda ehsan olsun.

Bu, neçə ilin köhnə yaylığıdı. Onu mən Məhərrəmliydə çiynimə ata bilmərəm. Yəni mənim içim şəhadətdiy vermir. Başımın üsdə nənəm nə yoxdu, babam yoxdu, anam yoxdu, amma yenə eliyəmmirəm. Bunnar bizə təbliğ eliyiblər, biz bunun içində böyümüşüy.

Kərbəla müsübətində necə imamı, onun nəsli-nəcabətini şəadətə yetiriblərsə, onu icra eliyirdilər kəndimizdə, arvatdar da hönkür-hönkür ağlıyırdılar.

Bizdə Məhərrəmliydə imam ehsanı da verilərdi. İmam ehsanı içdən gələn bir hisdi, heş kəs heş kəsə məcbur demir imam ehsanı ver. İmam ehsanı ancağ Məhərrəmliydə verilmir. Onnan sora da verməy olur.

El dağa qalxanda nəzir eliyərdilər, qurban diyirəm öz pirimizə (Havışın dağların başında bir pirimiz var) sağ-salamat ge-

dim yaylağa, işimi-gücümü görüm, pendirimi-yağımı tutum, bütün daxılımı tutum gətirim evimə, kəndimə. Ya da imam ehsanı verəcəm, kəndin içində məçiddə ehsan verəcəm.

Bizdə həylə ələm gəzdirilmir. Ağacnan vururdular əllərinə, zəncirnən döyürdülər özdərini.

## SEYİDLƏR

Seyid qızdarına bizim kətdərdə, yəni ümumiyətnən, Şərur bölgəsində, Naxçıvanda çox böyüh hörmətnən yanaşıllar. Ümumiyətnən, seyitdərin hamısına, kişili-qadınnı. Həmişə onnarın ocağına gedərih. Elə seyiddər var ki, ocağına av gəlib. Ocağına ilan məliyə-məliyə gəlib, av məliyə-məliyə gəlib. Onnarı barmağnan göstərillər və diyəllər ki, bunnar ağır seyitdilər. Onnarın ocağına av gəlir, ilan məliyə-məliyə gəlib. Ağır xəsdələri aparallar seyitdərin ocağına. Üş gün, iki gün onnarın evində yatırdallar, əlini çəkər başına. İndi seyitdərin törəməsi var da, elə bil qədim vaxdı nənə-baban yaşında onnar lap ağır seyitdər olardılar, hörmətdi, izzətdi olardılar. İndi baxma, get-gedə nəsil də bir az cırlaşır. Uzun sözün qısası, ağır xəsdələri, uşağı olmuyan, övlatdarı olub ölən və yaxud da yarımçığ olan, çiləli qadınnarı, bınnarın hamısını aparardılar seyitdərin ocağına. Onnan sora bu seyitdərin qızdarı həmişə seyitdərnən evlənər. Ümumiyətnən, adət belədi, seyit seyitnən evlənməliydi. Çünki seyitdərin göydə mələhlər kəbinini kəsibdi, əmioğlu, əmiqızı... Belə də, yəni köhdən qızdar da seyit olmalıydı. Əgər seyit qızı qara adama, yəni bizim kimi əcəmlərə ərə gedirsə, o seyitdihdən ta çıxır. Özü seyit olur, oon balaları seyit olammır. Seyit qızı qara adama ərə gedəndə həftədə bir dəfə, beşinci günü o seyit qızının uşağına seyitdih düşür. Ancax seyit oğluynan evlənəndə oon özü

də, balaları da, ikisi də hər iki tərəfli oğlu, qızı elə seyit gedir. İndi mən bəzi şeylər var, onnarı bir də təkrar eliyim, bəlkə danışmamışam. Seyidin oğlannarı seyit gedər. Məsələn, Seyidəli, bir də Mirəli. Qızdarı Bəyim, Xanım. Məsələn, Həbbəbəyim, Leylixanım, bax belə.

Ümumiyətnən, bizdə seyitdərə nəzir apararıx, ağır xəsdəliy oldu, məktəbə qəbul olsun uşağım, əsgər gedib gəlsin, qızımın uşağı olsun, oğlumun evi, eşiyi olsun... Bütün ocaxlar kimi seyitdərə nəzir eliyərih. Qurban da deyərih, yəni heyvan da apararıx oon ocağına. Bizim Havuşda ümumiyətnən seyit olmayıb. Seyitdər Aran tərəflərdədi. Axurada da dədə-babadan seyit olmuyub. Axura, Havuşda olmuyub. Ancax keçirsən Dizə, Oğlanqala, Mahmud kəndi, belə Yengicə-zad üsdündə seyitdər çoxdu. Yəni əsilli, köhlü seyitdər Arbatan üsdündə var. O seyitdərin qızdarı bizim kəndə də ərə gəliblər, Axuradı, Havuşdu. Ağır məclislərdə seyit qızdarını, qadınlarını, fərqi yoxdu, kişiləri də çadırda, mağarda, qonaxlıxlarda yuxarı başa keçirdərih. Kişilərin də, qadınnarın da. İndi mən qadın məclislərindən danışım. Toy məclisində, ümumiyətnən, qadın məclisində seyit qızdarını, qadınnarı keçirdəllər yuxarı başa. Oon altına, üsdünə, kürəyinə yastıx-zad qoyallar. Yas məclisində isə seyit qızdarın indi tanıdıxsa, hamımız keçirdərih ən başa. Tanımadıxsa, əsnaf verəllər də yəni. Yəni təqdim edəllər ki, bu, seyit qızıdı. Yasda əl suyu gəzdirərih. Əl suyu gəzdirilir ağlaşma yerində, əsas oturax yerində. Onda birinci bizim qızdarımız əlində dəsmal və yaxud əlində sürahi, əvvəllər aftafa gəzdirərdilər. Aftafa formasında həylə su qabları varıydı. Onda bir də əlində ləyən, balaca tabax, içində dəsmal. Girir ora ki, əl suyu gəzdirsin, çay gəlir, çörəh verilir, onda diyəllər ki, seyit qızı, keş yuxarı. Ay qız, bala, ay gəlin, keçirt yuxarı birinci seyid

qızdarını. Molla da qalar, evin ağbirçəhləri, tayfaan, kəndin ağbirçəhləri qalar, birinci seyit qızdarına, fərqi yoxdu, yaşınnan asılı olmuyarax seyit qızdarına su gəzdirəllər. Bir də görürsən, tanınmaz olubdu, bilməmişih seyit qızıdı, bu tərəflərdə oturub. Oy, az qalar məclisin camahatı, əv saabı bizi öldürə ki, siz niyə dikqətsiz olubuz, seyit qızı ayaxda oturub. "Ay bala, dur, dur, bağışda, cəddə qurban olum, cəddə fəda olum". Qaldırıb keçirdəllər yuxarı başa. Onda birinci diyəllər, seyit qızı kimdi tanıdıxlarınnan. Birinci əl suyunu seyit qızınnan başdıyallar. Seyid qızı əlini yuyar, qayıdar deyər ki, xeyir məclisində gəzəsiz. Onnan sora başdıyallar qara adamnara o sular paylanar, əl suyu. Sora birinci yeməyi seyit qızının qabağına qoyallar. Məsələn, onnan ağbirçəhlər də var, mütləqdi, elə olmalıdı. Seyit qızıın yaşına görə dəyil. Seyit qızının cəddi bizdən ağırdı. Yanı onnan da ağbirçəhlər var, kəndin ağbirçəhləri düzülüb oturub, irax əvimizdən, eşiyimizdən. Əv saabı, əvin qoca nənələri yanı o seyit qızınnan qocadılar. Ancax birinci onnarın qabağına xörəyin qabını, bişmişin, əl suyun gəzdirmillər, çayı qoymullar. Birinci seyit qızıın qabağına qoyullar ki, onun cəddi bütün o qara adamnardan yuxarıdı, yüksəhdi. Onnan sora o qara adamnarın, ağbirçəhlərin qabağına düzülür. Sora bizdə belə bir şeylər var ki, uşax xəsdədi aparıllar seyit qızının, seyidin yanına. Ən çox yaşdı qadınnarın ocağına. Deyillər ki, əlii çəh balamın başına. Sağalsın, saa nəzir demişəm. Günnər olur ki, uşax sağalır, o nəzirin, qurbanın... toyuxdu, nə bilim hinduşkadı, ağ tühlüdü, çəpişdi, puldu, nədi. Nəziri götürüb gedillər həmin seyidin ocağına. Seyit qızdarına niyyət eliyərih. Diyərih ki, seyit qızıın işdiyi suyu və çayı içəcəyəm. Diyərih:

– Seyit qızı, işdiyin suyun və çayın dibində bir az saxla, bir damcı mən onnan içim, niyyət eləmişəm. Ay seyit qızı, yediyin

yeməyin dibində bir az yeməy saxla, mən ona batırım yeyim, niyyət eləmişəm.

Onda seyit qızı, mehriban seyit qızı olanda deyir:

– Aaz, gəl ye, a bala, gəl mənnən batır ye.

Oon elə bil qabıın bir tərəfinnən batırıb götürürsən. Bir tikə və yaxud da artığını yalıyıb, sıyırıb yeyirsən ki, niyyət eləmişəm. Yəni seyitdərə bizdə o qədər inam, etiqad, hörmət var. O qədər çox isdiyərih. Sora, indi biz belə diyərih də. Diyərih ki, onnar peyğəmbər övladıdı. Məhəmməd peyğəmbərin nəslinnən olannardı seyitdər. Məsələn, il başa çatır, belə nəzir diyərih ki, Allahım, filan seyidin cəddinə nəzir eliyirəm. Bu il məhsulum yaxşı olsun, noxudum, əkinim, qoyunum, quzum... Payızda yığacam, oon ocağına nəzir aparacam.

## BUĞDA BOYDA, ARPA BOYDA

Babam deyərdi ki, payızda, çilə başlamamışdan payızın qısa günnəri başdıyır. Gün hər gün əvvəlcə buğda boyda qısalır, sora arpa boyda qısalır. Buğdanın başı çəltihsizdi, yəni yumru təhərdi. Arpanın hər iki tərəfində qılçığı var. Arpa bir az uzundu. Sora yazda yenə... Günnər uzananda babam deyərdi: "Günnər əvvəlcə buğda boyda uzanır, sora arpa boyda uzanır".

Bir də uşağların böyüməsində bunu deyərdi. Qız uşağı hər gün arpa boyda böyüyür, oğlan uşağı buğda qədər böyüyür. Oğlan uşağı, deyərdi, hinduşka balası kimidi, tez yıxılar, xəsdəlih tapar, dərd tapar. Qız uşağı toyuğ cücəsidi, tez orda-burda eşələnər. Toyuğun cücəsi tez böyüyər. Ümumiyyətnən, qızın inkişafı da, doğuluşu da, hamiləliyi də həmişə yüngül keçər. Oğlan uşağı analara həmişə əziyyət verib. Dokquz ay bətnində əziyyət verir, hamiləliyi ağır olur, doğuş ağır keçir. Özünün

böyüməyi, addım atmağı, yeriməyi, dis çıxartmağı ağır olur. Sora da evlənir, arvadı bəd olur, ananın canını alır. Amma çox isdənən də oğlan uşağıdı, tələb olunan da oğlan uşağıdı. Nəzir-niyazı, qurbanı da oğlan uşağına kəsillər.

## UMMAQ

Ummax şişməh mənasındadı. Kiminsə əlində yeməh görüb şişər, gözü düşər. Yaxud kiminsə əvində, baxçasında nübar yeməh görəndə gözü qalar, umar. Buna ummax diyərih. Umannan sora da bu adam şişər. Bu, adətən, arvaddarda, ən çox uşaxlı qadınnarda olar. Körpə uşaxlarda, azyaşdı oğlan, qız uşaxlarında olar. Uman adamın həmişə günün dalınca qızdırması qalxar. Əvindəki nəfərrər, bibilər, qaynana, ana bilər, əl-əyağa tez düşər ki, bu adam umubdu, şişib. Səhər tezdən bir kasa götürəllər, yeddi qapı sayıb hamısınnan su isdər. Elə olar ki, yeddi qapıdan su tökəllər kasıya. Bəzən su verəllər, əlavə yaxşı yeməhlər verəllər. Uman adamı gizdincə dihsindirməy lazımdı. Əlindəki tikəni, almadı, xiyardı, gülbəsərdi,[199] armuddu, nədi... bını şişən adamın kürəyinə möhkəm vırallar qəfildən, o dihsinməlidi. O dihsinəndə oon ummağı, küsməyi çəkilir. Adam dihsinən kimi də dönür dala, yeməhləri görür. Nənəmgil diyərlərdi ki, elə bil, gözüün çayırı açıldı. Yəni gözü səvindi. Töhdüm qabağına, hamısını yedi, elə onnan da qızdırma getdi. Ummax, gözü qalmax, şişməh çox pis şeydi. Nənəm elə eliyərdi, vırardı arxasınnan, diyərdi: "Gecə gəlibsən gecə get, gündüz gəlibsən gündüz get". Üç dəfə bu sözdəri deyib gətirilən şeyləri tökürdi uman adamın qabağına. Diyərdi ki, ye, bala, doyunca ye, dərdin, bəlan gessin ermənilərə,

[199] gülbəsər – xiyar

Xəçiyin ermənilərinə. Allah onnarı yox eləsin. Gessin ermənilərə, dağlara, daşlara. Əvvəl suyu içirdəllər, doyannan sora da yeməhləri tökəllər qabağına.

Uman adam, şişən adam süd verən anadısa, qucağında körpə uşağı varsa, oon döşü gələr, südü kəsilər. Buna görə də tez əl-əyağa düşərdilər ki, qoy uşax aj qalmasın. İnşallah da bütün dərd, bəla hər birimizdən uzağ olsun.

## KİRVƏLİK VƏ SÜNNƏT TOYU

Sünnət deməh bizdərdə elə olur ki, dədə-baba küyrə olur. Biz kirvəyə küyrə diyərih. Küyrə, məsələn, nəsilbənəsil üş nəsil, dört nəsil, beş nəsil gedir. Qocalar öldühcə cavannarın küyrəliyi davam eliyir. Ancax eləsi də var ki, küyrəliyi davam eləmir. Bax, küyrəliy müqəddəsdi. O vaxkı adamnar deyir də, indi hamı beş mərtəbə filan, damnarda qalır, nə bilim villalarda qalır, uca evlərdə. O dövürrərdə evlər alçağ idi, elə Havışda elə idi, İçərişəhər kimin. Hamı çıxırdı damıın üsdünə. Diyərdilər: “Küyrə gərəh küyrəən damı üsdünə çıxmıya ki, ordan torpax tökülər küyrəmin əvinə, günahdı”. Küyrə küyrəən qızını ala bilməz. Bınnar günahdı. İndi küyrəliy eliyəndə, məsələn, bu evin üş dənə oğlu var. Payızı nəzərdə tutur ki, buun sünnətin eliyəcəhdi. Sünnət üçün mal, nə bilim, heyvan-zad saxlıyır, böyüh bir sünnət eliyir. Adamnarı çağırır. Onda küyrəyə məlumat verir, adam göndərir. Gedir onun əvinə, məsləhət eliyir ki, ay küyrə, bu payız sünnət eləməy isdiyirəm. Vaxdıın da ayarrıyıllar, danışıllar, qayıdıb gəlillər, hərə öz işində olur.

Sünnəti əvvəllər də toynan eliyərdilər. Yanı zırnaynan. Yanı biz zırnaya düdəh diyərih. Elə olurdu saznan, aşığnan eliyərdilər. Aşıx toyu eliyərdilər. Yanı bizim kətdə də olurdu toy-

nan sünnət toyu. Onu da deyim bəri başdan, uşax ikidisə, onnarın arasında xoruz qoyardılar, xoruzu kəsməzdilər. Oon ayağın bağlıyıb qoyardılar iki uşağın ortasına. Uşağı sünnətdiyənə dəlləh diyərdilər, onda həkim-zad yoxdu. Kəndimizdə dəlləh vardı. Dəlləh Bəşir kişi kəsərdi uşaxları, sünnət eliyərdi. O xoruz dəlləyə çatır. Yəni bın da adəti odu. (İndi danışmışam, saa demişəm, iki bacı əgər evdən hamilə olursa, iki bacı, bir evin qızı, ayrı-ayrı yerrərdə hamilədisə, o qızdarın dədələri bu qızdarın arasında qurban kəsməlidi. Üz-üzə qoyub qızdarın, ortasında qurban kəsir qızdarın atası. Çünki qaynataları eliyə bilməz axı, hərəsi bir qapıdadı. Əgər bir evin iki gəlini eyni vaxda hamilədisə, yenə də qaynata, əv saabı o gəlinnərin arasında qurban kəsməlidi. İki bacı bir evdən gəlin çıxırsa, bınnarın arasında qurban kəsilməlidi eyni gündə. İki qardaşın eyni gündə toyudusa, orda qurban kəsilməlidi. Bınnarın hamısı sınanmış adət-ənənələrdi. Ziyan gəlməsin, zaval gəlməsin, xeyirriyi olsun. Qurbanı kəsəllər, qanınnan hər kimdisə evlənənnərin, ərə gedənnərin hamısıın alnına vurallar, boynuun dalına vurarlar, dualar eliyəllər). Ancax sünnətdə xoruz qoyallar arada. Sora çörəh yapılardı, Aran yerrəri lavaş yapardı. Küyrəliyə hazır olardı, mal öldürərdilər. Bir gün qabağ axşam sünnətdə də ciyər axşamı olardı. Sabahı günü hər iki tərəf gedərdi İrəvana, gedərdi Naxçıvana, Tiflisə harasa, pal-paltar almağa. Çünki küyrələr birbirinə xonça aparacaxlar. Alardılar, gələrdilər başdıyardılar. İndi toynan eliyən eliyərdi, eləmiyən də heləcə eliyərdilər. Hamı geyinəcəhdi, keçinəcəydi. Həmin günü sünnət olunan evə küyrə tərəfinnən adamnarı başına yığır, başıın cəlalın yığır, qohum-əqrəbasın. Hamı da xonça tutur. O dövürrər xonçaydı. Sora Sovet dönəmində (Sovet hələ dağılmamış demək istəyir – top.) xonça ləğv oldu, hamı əlində pul aparırdı. İndi yenə xonçadı. Xonçaları

bəziyərdilər, xonçaların da üsdünə qlas yaylıxlar, qırmızı kəlağayılar, əgər bunnar yoxdusa, qırmızı ipəhlər salınardı məcməyilərin üsdünə. Orda da şirniyyat, kar-kanfet, nə bilim yaylıx, parça, uşağa aid olan şeylər olardı. Hə, belə xonça aparardılar. Sünnət toyun bir gün eliyərdilər axşama qədər. Xörəhlər verilərdi, sırfalar açılardı. Kişilər ayrı, arvatdar ayrı oturardı. Yiyərdilər, içərdilər, axşam çağı uşax sünnətdənərdi. Sünnətdənəndə də küyrə yaşdı adam olanda qorxmur, uşağın yanında rahat olur. Əgər yaşdı adam deyir ki, məəm oğlumun, nəvəmin qucağına uşax qoyulsun, sünnətdənsin. Onda küyrə kimin oturan cavan uşağın gözün dəsmalnan bağlıyardılar ki, ürəyi xarab olmasın. Yanı belə bir şeylər də var. Uşağı sünnətdiyənnən sora əgər uşax ikidisə, üşdüsə, onda ayrı-ayrı döşəh açıllar uşaxlara. Klyonka açallar. Özü də əvvəldən hazırranmış qırmızı, ipəhli, qanovuzdu, məxmərri yorğan-döşəh açallar. Nənələr niyyət edər ki, sünnətində bir dəs yorğan-döşəyi mən gətirəcəm. Uzun sözün qısası, sünnətdəndihcə uşaxları aparıb uzadallar yerinə, üsdünü örtəllər. O uşax sünnətdənəndə birinci küyrələr gələr uşağın əlinə pul verər, əv saabı verər, uşax nə qədər pul yığar. Sora daldan gələnnər başıın altına, yastığın altına pul qoyallar. Uşax sünnətdəndi, axşam çağı ta kənar adamnar çəkilər gedər, küyrələr sabahı günü gələr o əvi, uşaxları, *küldən çıxartmax* diyərih. Sabahı günü bir çamadan pal-paltar gətirəllər, xonçalar gətirər. Boyünkünnən başqa, sünnət gününnən ayrı. Deyillər ki, gedirih uşağı küldən çıxartmağa. Bu da bir adətdi – küldən çıxartmax. Küldən çıxartmax, yanı paltarnan gələllər, cah-cəlalnan yenə gələllər. Xonçalar da məəm yadımdadı, nətəər boşaldıllar. Bir arvadı qoyallar sandığın başına. Boşaldallar, qoyallar bir yerə. Hamı gələr. Sandığın başında biri oturubdu. Sandığı açar, nə bilim, kanfetdi, qəntdi, almadı, meyvədi, parçadı, köynəhdi,

nədisə, bınnarı ayrı yığar. Sandığın başında oturan diyər ki, Allah səən də balalaraa qismət eləsin, Allah səən də nəvələrəə qismət eləsin. O gətirilən kanfetdən bir avuc götürər qoyar xonçuya, verər hərəən öz xonçasın, məcmeyisin qaytarar özünə. Heyləcə yığılar ora. Onnan sora dəlləyə də danışığ eliyillər. Adam var ki, dəlləyə bir quzu verir, adam var ki, pul verir. Gedəndə dədəlləyə yanındakı adamnarın hamısı – qohum-əqrəba dəlləyin cibinə pul qoyar. Dəlləyin yerdə alətdəri olur, ağ da qoyullar oon üsdünə. Məən yadımdadı, bunnarı görmüşəm. Gələn yerə pul atır dəlləyin adına. Dəlləyi başqa yerdən gətiriblərsə, Havışda qalırdı. Çünki gecə uşağı qan-zad aparar da.

Sabahı günü küyrələr gəlirdi küldən çıxartmağa, onnan iki-üş gün keçənnən sora uşax saabı gedirdi küyrəən görüşünə. Bir neçə dəfə gedib gəlirdi. Küyrələr o sünnət olunan uşaxlara təpədən-dırnağa paltar almalıydı. O paltar, məsələn, başmağınnan tutmuş, corabınnan tutmuş, alt paltarı, şalvar, qəsdum,[200] köynəh, papağına qədər alıb gətirərdilər. Bu da bizim sünnətimiz.

## DALINCA QIRMIZI ALMA GÖNDƏRMİŞƏM?

Havuş kəndinin maraqlı bir toy adəti olmuşdur, təəssüf ki, indi bu adət unudulub. Kim oğluna böyüy, kiçiy toy edərmişsə, bir yaxın qohumunu çağırıb toya adam çağırmağı tapşırarmış. Kimləri çağıracaxmışsa, addarını deyərmiş və adamnarın sayı qədər qırmızı alma yığarmışdar heybənin hər iki gözünə, atarmışdar bı cavan oğlanın çiyninə, o da düşərmiş qapılara.

– Ay filankəs dayı, ay behmankəs dadaş, ayın filanında, filankəs qağamın oğlunun toyuna ayləliycə gələrsiz deyib, bir qırmızı alma verərmiş.

[200] qəsdum – kostyum

Ev sahibi də bunun əvəzində ona çay, ayran, su, bir dürməy, yeməy verərmiş.

– Ay bala, otur dincəl, soluğun genəlsin. Bir iskan çay iç, soora işəə yol al. Allah xeyir versin! Nubarəy olsun! Gələriy, niyə gəlmiriy, filankəs özümüzünküdü, yad dəyil ki. Biz elə əvladıx daa, yanı qohum.

Toya çağıran cavan hamını çağırannan sora qayıdırdı toy əvinə. Ev sahibini  arxayın eliyirdi ki, hamıın çağırmışam. Ev sahibi də sürfə açar, Allah nemətindən düzər  qabağına, deyər:

– Sağ ol, bala, balançün olsun. Yeməyii ye.

Şirinniydən, nəmərdən, xələtdən-baratdan verib yola salallar. Bərk-bərk tapşırallar ki, get dincəl, sabahdan bizdə ol, işdərə köməy elə.

Bu adət İrəvanın bəzi kətdərində də varıymış. Toya çağrılmayan adamnar küsər, ya toy vaxı, ya da toydan sora gəlib, umu-küsü eliyərmişdər. Söz böyüyüncə ev sahibi deyərmiş:

– Nə isdiyirsən? Dalınca qırmızı alma göndərmişəm? Get ot əvində, toyuma xlapottux[201] salma, sən də bizi çağırma toyaa.

Adi vaxlarda da kimsə kimin əvinə gedib, orda giley-güzar, qanıqaralıx salanda genə əv saabı həmin sözü deyərmiş:

– Əşi çıx get daa, nə veribsən, ala bilmirsən? Nə isdiyirsən? Otduğum yerdə gəəb maa azar versən, azarın güjdü gəlsin, elə booyum.[202] Dalınca qırmızı alma göndərmişəm? Çıx cəhənnəm ol, get daa.

---

[201] xlapottux salmaq – qanqaralıq salmaq

[202] booyum – emosiyanı gücləndirmək üçün istifadə edilən söz

## ÖLÇÜ VAHİDLƏRİ

Qızım, torpağı, parçanı metrəynən ölçərdilər. Sağ əlini açırsan, sol əliin burnunun ucunda tutursan. Normativ bir şey varıydı. Sağ əli açırsan, sol qolunnan iki barmağın burnunun üsdünə qoyursan, bu, bir metirdir. Mən indi bir az qısa olduğuma görə bir balaca bu yana əyirəm. Boy gödəy olanda iki barmax sürüşdürürsən sol tərəfə ki, yəni bir metir düzəlsin. Mənim bibilərim paltar tikərdi parçadan. Bir yeddi-səkgiz taxdalıxdan tuman geyinirdilər. (Taxdalıx iki mənada işdənir bizim kəntdə. Biri metir, yəni ölçü vahidi kimi, biri var taxdasız. Bu sözü ən çox ağılsız qadınnara deyərdilər).

Torpağı ölçməyə taxdalar kəsərdilər babamgil. Özdərinin, bir kişinin qolunun ölçüsündə, bu uzunnuxda taxda ölçülərdi. Həmişə bizim əv damında göydə asılardı. Bir tərəfini asılqannı eliyərdilər. Torpağı ölçüllər, ev tikəcəhlər, əv damı qoyacaxlar, samannıx qoyacaxlar, onnan ölçəcəhlər. Bir addımnan ölçəllər. Hər bir insanın öz addımı bir metirdi. Qadınnan kişinin ayağının ölçüsü bir ola bilməz. Torpağı əyağımıznan ölçürdüh.

Boynuna qamış ölçüm. Qədim dövrrərdə ölünün boyunu qamışnan ölçərmişdər. Bütün sucux yerrərdə qamış bitir. Biz qəmiş deyərih. Bizim zonalarda qəmiş yoxdu. Çünki Araz tərəflərdə, Naxçıvanın çökəh yerrərində, sucux yerrərdə olar. Onnan ölünün boyunu ölçərmişdər. Ona görə də qarğış tökəndə deyərlər ki, “Boynuna qəmiş ölçüm”.“İp ölçüm” də deyillər.

O vaxlar bir də ağırrıx ölçməylər varıydı. Ağırrıx ölçməyləri batmannan deyərdilər. Niyə deyir, “Ağır otur, batman gəl”. O vax əti əllərində belə tutarmışdar sanballı kişilər, deyərmişdər, bir girvənkədi, iki girvənkədi. Bax həylə ölçərdilər.

Mənim dört-beş yaşımnan sora evmizdə oturax tərəzi varıydı. Belə dəmiriydi yasdı, məcmeyi kimi yekə qab, hər iki tərəfində qabıydı. Başında da ip varıydı, onnan belə qaldırırdılar, orda çəkini göstərirdi.

Bir də babamın bir çert sözü varıydı. Çert ağılın ölçü vahidiydi. İndi, məsələn, qızılı misqallan çəkəllər, hər bir şeyin ölçü vahidi var. Ağılda çert deyilən bir şey var. Bunu mən hələ indiyə qədər nə Azərbaycan ədəbiyyatında, nə şifahi xalq ədəbiyyatında, nə bir kəntdə, heş yerdə eşitmədim. Təkcə Heydar babamnan eşitdim. İnsanı bir dəfə görür, deyir, bunun ağılı üş çertdi. Üş çertnən on çertin arasındadı insannarın ağılı. Üş çert ən aşağı, düşüh bir rəqəmdi. Hansı qadın bir az bambılıdı, yüngüldü, nə bilim, iş görməzdi, ailə, ər qədiri bilməzdi, ona üş çert ağılı verirdi. Bizdə kolxoz sədiri, məktəb direkdoru, müəllim... bunnara başbilən deyərdilər. Babam deyərdi, onnarın ağlı on çertdi.

## UŞAĞIN ONUNU VƏ QIRXINI TÖKMƏK

Qadın yatıb qurtarannan sora götürürmüşdər yorğan-döşəyə. Uşağı silib təmizdəyib bükərmişdər əsgiyə, qoyarmışdar anaan yanına. Uşağ bir də on günnüyündə çimərmiş. Ana-balanın onun töküllər. Yenə də qazannar asılır. Ayrıca bir qabda, kasada su götürürdü. (O kasa Məkkədən gələn yekə kasaydı, nənəm onun içinə bütün dini şeyləri qoyurdu. Müqəddəs yerin qabıydı, hər şeyi ona qoymazdılar). Bu kasada nənəm suyu götürürdü, məsələn, vedrədə suyu soyuxluyurdular. Qaşığnan suyu həmən kasadan götürüb tökürdülər, on qaşıq su. Suyu götürdükcə “Allah, Məhəmməd, Əli, Fatimə, ya Hüseyin ağam”, – deyirdilər. O suyu gəlinin başına töhdükcə, dua eliyirdilər. Uşağın üsdünə töhdükcə “Ay Allah, balamı sağ-salamat elə”, – deyirdilər. On qaşığ suyu

tökənnən sora gəlin o suynan çimirdi. Əvvəl uşağı çimizdirirdilər. Gəlin əgər əkə anadısa, məsələn, səkgizinci uşağdısa, özü çimizdirirdi. Birinci, ikinci uşağdısa, cavan gəlinin, anaan əlinə uşağı vermirdilər. Özdəri çimizdirirdilər, çimizdirənnən sora o uşağı gətirirdilər anaan üsdünə. Ana uşağın üsdə gəlməməlidi, uşağ çiliyə düşər. Anaan da çiləsi balanı onda basır. Uşağı çimizdirib, salavatdıyırdılar, qüsulluyurdular, gətirirdilər anaan yatdığı otağa. Gətirənnən sora uşağı fırrıyırdılar anaan bir dəfə başına, keçirdirdilər uşağı öz yatağına. Ana gedirdi çimməyə. Ana təmiz olub gəlirdi uşağın yanına. O suyla, on qaşığ duvalanmış suyla ana-balanı çimizdirirdilər, onu qutardı. Onnan sora gəlin yatmırdı, adətən, ayağ üsdündə olurdu. Gəlinin palın-paltarın yuyurdular, yığışdırırdılar. Qırx gün bu gəlini qoruyurdular, çölə-bayıra qoymurdular. Bulağa, suya-zada getməy olmaz. Çünki üsdünə gələllər, kəntdə həmzaddı var.

Ümumiyətnən, pişihdən də qoruyurdular haa. Pişik bir dəfə doğanda səkgiz-dokquzun doğur. Pişik balasını yeyir, əgər o ananın üsdünə gələrsə, ana da qudarar, uşağa baxmaz, uşağa nəsə eliyər. Havalanar, qudurar, pişihdən daha çox qoruyurdular.

Qırxı da tökəndə, yenə qazannar asılır, samavar salınır evdəki adamnara. Çünki bizdə bu mərasimlərdə şəhər yerinin böyüh qonaxlığının adamnarı qədər adam olur. Kənt yeridi, hamını da çağırıllar, qohum-əqrəba, yad adam yoxdu. Hamı da gəlir, köməy eliyir.

Aş bişirilir, həvişdi aş, çəhmə aşı, yenə xəşil, yenə də quymağ bişirilir. Yumurta, üsdü də dolu bolluca balnan. Qayğanağ eliyəllər, balı yanında, düzəllər ortalığa.

Bu dəfə də on günlükdən fərqli olaraq, qırx qaşıq suyu töküb sayırlar. Hər tökdükcə “Allah, Məhəmməd, Əli, Fatimə, ya Hüseyin ağam! Ya Allah, özün köməy ol! Balama ömür ver! Gəlnimi həmişə sağlam elə! Gəlnimi həmişə sağımlı elə, doğsun-törəsin! Döşü süd-

dü, başı, ağzı yaşmaxlı, el gəlni olsun! Yolu azmasın, şeytana uymasın!" kimi dualar eliyirlər. Yenə də birinci uşağ çiməcəh, çimən uşağı tər-təmiz qüsullayıb paklanmış halda gətirəcəhlər anaan üsdünə. Uşağı qoyacağlar yatağa, ana çiməcəh. Anaan yatdığı yatağı, paltarları – hamısı yuyulacağ, salavatdanacağ.

## ƏMGƏK

Fatma nənəm deyərdi ki, başı boş uşağlar tez diş çıxardar. Başı bərk, əmgəyi bərk uşağlar doqquz ayına, on bir ayına çıxardır. Əmgəyi boş uşağlar altı-yeddi ayında dişin çıxardır. Uşağın əmgəyi tədricən yığışmalıdı. Nənəm-babam deyirdi ki, bir yaşına qədər uşağın əmgəyini qoruyun. Uşağ adətən iməhləyir, iməhlədikcə də başın hara gəldi çırpır. Yadımdadı ki, nənəmin əli elə mənim körpə qardaş-bacımın əmgəyində olardı.

Əgər uşağın əmgəyi tez yığışseydi, heş nə eliyə bilmirdilər, uşağın gözü əyilirdi, çəpləşirdi, onda uşağ ölə bilərdi.

Əmgəyi birləşməməy də lap dəhşətdi. Elə olanda havanı dəyişmək uşağa pis təsir edir.

## DİŞ HƏDİYİ

Uşağ yaşa çatmamış, beş aydan sora başdıyır əlin gəmirməyə. Nənə, baba həmişə uşağın ağzın arıyır, görür ki, burdan diş dirçəlibdi. Uşağ diş çıxardır, başdıyır əlini gəmirməyə. Tez baba deyir:

– Nənəsi, buna hədiy qoy.

Axşamnan buğdanı, məkəni,[203] noxudu, yaşıl mərciməyi təmizdiyillər, yuyullar tər-təmiz. Axşamnan bunnar tabaxlarda, ləyənlərdə beləcə ağzı örtülü saxlanılır. Birinci məkəni qoyullar

[203] məkə – qarğıdalı

qaynamağa, çünki o çox bərk olur. O qaynadı, baxıllar bir az yumşaldı, sora buğdanı töküllər, buğda bir az yumşaldı. Yaşıl mərciməyi, noxudu, sora xanım göbəyi deyilən ortası qara lobyalar, maşdar var, onnan vurullar. Duzun-zadın da atıllar. Adam var yağ da atır, alça qurusu da atır, zövqə görədi. Səhər məclis qurulur, qohum-əqrəba yığışır, yeyib-içillər, hədiy gəlir ortıya. Hamısı hədiyə xələt qoyur. Bu hədiydən yaxın qonum-qonşuya, hamının evinə pay göndərillər. Kimin nəyə gücü çatır, uşağa görə paltar qoya bilər, məsələn, bir abbası pul qoyullar. Bir toyuğ tutur, qıçın bağlıyır, verir hədiyi gətirənə. Deyir:

– Apar, nənəsi ona yumurtasın bişirsin, yesin.

Yanı hədiy qoyulan qablar boş qayıtmır. Bir-iki kanfetnən kifayətlənmirlər, bizdə payın dəyəri ağır olur.

Diş çıxaran uşağ başın-gözün ora-bura çırpır, başı ağrıyır, qızdırma verir, uşağın bağırsağı açılır, öyüyür, qusur. Diş çıxarma o qədər ağır prasesdi. Fatma nənəm deyirdi ki, uşax deyir ki, dədəm-anam bircə bilə ki, mən nə çəkirəm, dədəm başının papağın, anam yaylığın satar, maa dərman eliyər ki, dişdərim tez çıxsın.

## SİÇAN QAĞAM DİŞ GƏTİRDİ

Uşağ adətən, dört-beş yaşında diş dəyişir. Diş dəyişəndə ağrıyırdı, tərpəşirdi, nənəm deyirdi:

– Aaz, qaç farmaşın qabağına, yükün qabağına, dişini at farmaşın dalına, yükün dalına.

Denən:

– Ay siçan qağa, gə məən bı xarab dişimi, çürüy dişimi apar, sağlam, iti dişini ver maa.

Bizim də boyumuz çatmırdı, nənəm, bibilərim alırdı qucağına, yük üsdən atırdığ dişi.

Dişimiz çıxanda nənəm-babam deyirdi:
– Gördün, sıçan qağan saa təzə diş gətirdi.

## İTİYİN TAPILMASI

Buxçada, sandığında, taxçanda harasa nəsə qoyursan. Özünə lazım olan bir əşyadı, tapa bilmirsən. Onda yaylığın ucunu (O dövür qadınnarının başında hamısının saçaxlı yaylığlar idi) düyür: "Allah, Məhəmməd, Əli, Fatimə, ya imam Hüseyn ağam, sirrimə, xudaya, şahid ol. Bağlı buğçalarıma, itiylərin hamısına şahid ol, açarını sən ver, Allahım, heş bir şeyi qıfıllama". Bu duaları eləyə-eləyə yaylığın ucunu düyürüh. Üş dəfə deyirih bu duaları. Sora baxırsan ki, elə ani olarağ tapılır. Elə bil, bu duadan sora mənim yaddaşıma bir işığ gəlir. Əlimin altındadı bəlkə də. Bura qoymuşam, sezəmmirəm.

## DÜBƏK, DƏSTƏR, QOVUQĞA, QOVUT

Dübəy qədim dağ kətddərində hamıda olmasa da, üş qonşudan birində, üş nəfərdən birinin evində olardı. Biri başdıyanda qonşulara da xəbər verirdi. Ay filankəsdər (bulağ başında, nə bilim, çay başında, hana başında deyirdilər), sabah mən başdıyacam dəsdəri. Hamı qavırğasın, buğdasın hazırrıyırdı, gətirirdi onu çəhməyə. Dübəy bizim də evimizdə, əv damında küncdə qoyulmuşdu. Dübəyi adətən eyvannarda, əv damnarında qoyullar. Həmişə küncdə olar, əl-ayağ altında olmasın. Onun üsdünə çox vax səbət çevirəllər. (Bir neçə cür səbət olar: tavla, baca, samannığ üçün, ev üçün. Bu səbətin birini həmişə dübəyin üsdünə qoyallar. Üsdün yudular, sildilər, təmizdədilər, üsdünə sırfa çəkəllər. Üsdünə səbəti qoyallar). Ən çox payız aylarınnan

yaza qədərdi, dübəydi, dəsdərdi, əl dəyirmanı işdiyən vaxdı. Sabahı gün qavırğa qavrılacağ. Axşamnan noxut islanır, buğda, məkə təmizdənir. Bunnar özdə[204] payızda yuyulur. Buğda yuyulannan sonra bir tayı götürüb ayrıca qoyullar ki, bu, qış uzunu bunun yarmalığı, bunun qavırğalığı, qavıtdığıdı. Təmiz yuyulmuş buğdadan axşamnan götürüllər, ayırıllar, tököllər teşdə. Məkəni tököllər, noxudu isladıllar, sudan çıxarıllar onu ayrı. Özü də noxuda duz səpillər ki, bir az meyxoş olsun, şor olsun. Sora çətənə, küncüd, cəviz... onnar axırda qatılacağ. Təndir yananda sacı qoyullar yerə, xətircəyin üsdünə. Təndir üsdünə. İki-üş dənə köhnə süfrəni belə eləyillər bu boyda. Birinci buğdanı tököllər, buğdanı onnan fırrıyıllar təndirin üsdündə. O qavırdıxca sacın bu qırağına məcmeyi (məcmeyilərinin də hamısı gümüşdü, yadımdadı) verillər belə sacın ağzına, ordan da sıyırır tökür ora. Buğda qavrıldı, məkəni ayrıca sırfanın üsdünə tököllər. Dəstərxanın üsdünü basırıllar, açığ qoyanda quruyur. Həm də dini çıxsın. Məkəni ayrı, buğdanı ayrı, qara noxudu ayrı, ağ noxudu ayrı qavırdılar yığdılar ora. Qara noxudu heş vax qavıda vurmazdar. Çünki qara rəng verir. Sabahı birinci dübəydə bunnarı döyəcəhlər. Dübəydə birinci qavıdı başlıyıllar döyməyə. Məkəni döydülər, buğdanı döydülər, noxudu döydülər. Döyənnən sora qırağda onu ələyir, lap dikləri bir də tököllər dübəyin içinə. Onnan sora ələyə. Qavıt, ümumiyətcən, un kimi olmalıdı. Yəni dişin altında çox diri olmamalıdı. Bunnarı ayırdılar, ələdihcə yığıllar teşdə, tabağa ayrı-ayrı. Ayrı-ayrı döyüllər, tamam un kimi olanda onnarı birrəşdirillər ayrıca. Axırda bunu tüklü məmulata yığmıllar. Məsələn, çuvala-zada yığmazdar ki, onnar tük buraxır. Bunnarı, nə bilim, küpüyə, vedrələr olurdu, on kiloluq yağ qabı filan, yekə-yekə, iri qablara yığardılar, ağzını örtərdilər. İl

[204] özdə – özü də

urzası deyərdih biz bunnara. Məsələn, Xıdırda mütlək hər bir adamın evində qavırğa, qavıd olmalıdı. Hər bayramda, ümumiyyətnən, havışdının qış günü qavırğası evdən kəsilməz. Boyat olanı, köhnələni töküllər toyuğa, cücüyə.

Qavırğanı diri tökürsən cibinə. İçinə cəviz qatıllar, içinə qarpız dənəsini qatıllar. Biz bu günnərə qədər qarpız atmarığ. Onun dənəsini yuduğ, qurutduğ, açarığ, yığarığ torbaya o qış azuqələrinnən bir yerdə eyvannan asarığ dirəhlərdən. Yerdə qoyulmaz ki, nəm çəkər, siçan parçalar, yeyər, dağıdar. Qavırğa gündəlih yemək üçündü. Tökürsən cibinə cəviz, küncüt, bir də çətənəni də qatıllar içinə. Kimin də ürəyi isdiyir, hələ bir az duz da axırda çiliyir üsdünə, elə sacın içində. Ancağ qavıtdığa yox ha. Bunu yemək üçün ayrıca eliyəllər. Bu qavırğanı ayrıca yığallar bir örtüyün arasına və yaxud bir torbaya. Qoyallar əv damına, ya bir otağa. Uşağ gündə səhər yeməyini yedi, bir avıc qavırğadan tökəllər uşağın cibinə, bir cibinə də cəviz tökəllər: "Bala, ye, ağzın boş qalmasın". Bizim kəntdə gəlinnər elə yaşmağın altında ancağ yeyərdilər. "A bala, süt verirsən. Südün gəlməyinin ən böyüh səbəbi (indiki həkimnər malicə yazır) birinci qavırğadı. Bir balaca duz at, ye onu. O sənə olduxca çay içirdəcəh, susuzduracağ, sən çay içəssən, içdihcə saa süt gələcəh. Sən niyə gedib dərman içirsən ki, süd gəlsin, uşağ süt yesin. Bu, türkəçarəliyin bir növüdü. Qavırğanı çox yeyib, çaysu içməh. Onnan sora, qavırğanı yeyəcəyin yerə qədər saxlıyırsan. Qalanı döyülür, qavıt olur. Qavıt il urzasıdı. Qavırğa gündəlih yemək üçündü. Qavıt un şəklindədi. Qavıdı döyüb qutardılar, yığdılar küpələrə bizimkini. Ağzına həmişə üsdən ağ bağlayardılar, təmiz parçaynan bağlıyardılar. O işdəri nənəm anama həvalə eliyərdi: "Siz elə yığın ora, Rübabə həll eliyəcəh". Çünki mənim anam çox səliqəli idi ki, ora heç bir toz-torpağ, cücü-mücü girə bil-

məzdi. Sora ağızdığı var, ağzını tıxıyardı. Ağzını bağlıyıb, divara dayıyardılar, divarın dibinə yıxardı.

Qavıtı necə hazırlayallar? Ya doşaba, yanı bəhməzə, ya da qənd-şirəyə (şərbət deyərih) qatıllar. Bizdə ailə, nəfər çox olduğuna görə gəl-get çox olduğuna (Axşamnar altı bibim gələrdi, ərləri gələrdi, qaynanaları. Hərəsinin, səkgiz, dokquz, on ikiyə qədər mənim bibilərimin uşağları varıdı.) çox hazırranardı. Böyüh bir teşdə nənəm tökərdi qavıdı, xəmir eləyəndə unu bir tərəfə necə yığıllar, sora tədricən qarışdırıllar. Qavıtı həmin teşdin, xəmir teşdinin bir tərəfinə tökərdi. Anam da şərbətini hazırrayardı və yaxud doşabını. (Havışda, düzdü, tut yetişmir, soyuğ olur hava. Doşab çatdırmağ da olmur da, nədən çıxardasan. Ancağ Axıradan-zaddan alardılar. Bizə həmişə pay gələrdi dayımgildən. Dayımgil pay göndərərdi, dayıcanım göndərərdi). Hə, uzun sözün qısası, kim isdiyirsə, doşabnan eliyir, balnan da eləməh olar. Bal bir az çox güjdüdü, ağırdı da yəni. Nə isə... bunnarın hansıylasa... Balı da suya qatırsan, doşabın da gözünə su vurursan, balın da gözünə su vurursan ki, açılsın. Bunu qaşıxla qarışdırdılar, taxda qaşıxla, hazır oldu. Götürürdü nənəm, yumrulayırdı, bax beləcə, əlinin kəfəsində. Beləcə bütün verirdi əlimizə. Deyirdi, oturun burda, sırfanın başında. Burda yeyin, yerə tökülməsin, günahdı, Allah gözümüzü yumar.

Qalanını da yığardılar zirə, yanına da bir çay qaşığı. Sırfa açılardı, çay sırfası, yeməhdən sora. Düzərdilər ortalığa, yanı zövqə görə. Elə olurdu babam deyirdi: "Üçünnən də hazırrayın, evdə qonağ var". Onda anam bir teşdə eləmirdi. Üş dənə belə kasalarımız vardı, gümüş kasa. Onnarda ayrı-ayrı: biri ballı, biri qəntdi, biri də doşablı. Belə düzəldirdilər. Rənginnən də bilərdilər. Qənd tamam ağapbağ olur, doşab qırmızıya çalır, bal da qızılıya çalırdı.

Dübəyi yerə bassırardılar. Yer qazılırdı, indiki hazır təndirrərin forması kimi. Bunun ölçüsünə qədər çala qazılmalıdı. Çalanı bir balaca az qazırdılar ki, dübəy o çaladan dörd barmağ qədər yuxarıda qalsın. İçinə daş-qaya dolmamağ üçün dik qalmalıdı, təndir formasında. Onnan sora onun qırağ-bucağını doldururdular, suvuyurdular tər-təmiz. Dübəyin ağzı dik durardı. Dübəyin daşı ağır, şümşad bir daş olardı. Yanı döymüşəm ha. İki əlli dübəyin daşını qaldırmağa gücüm çatmırdı. Onnan sora sırfanı açırdılar hər tərəfinə belə yumru, dairəvi. Dübəy döyən ayağının birini sağa, birin sola eliyir. Altına ağır kilim, ya köhnə gabıtdan açardılar, sırfa açardılar. Teşdin birini qoyardılar dübəy döyənin yanına. Qabaxda da boş bir tabax qoyardılar. Ələyi, xəlbiri də yanında. Bu burda döyüb, ələyə, qəlbirə tökürdü. Orda əliyirdilər, ən axırda un kimi tabaxlara, teşdərə yığılırdı. Dört-beş arvat (o vaxı qız bolluğuydu), qohumnar bir-birinə köməh eliyirdi. Məsələn, anam, nənəm döyəcəh, onun dalınca kimsə dübəydə nəsə döyəcəh, hazır gəlirdi. Birinci buğdanı döyürdülər, ən axırda duzu döyürdülər. Buğdanı döyürdülər, qavıtdığı təmiz əlеdilər, özü də yorulur ha əl. Şümşaddı, əl yorulur. Tez-tez dəyişirdilər. Yəni əliyən, yerbəyer eliyən otururdu. Bu dübəyi döyən çəkilib otururdu qırağda. Çay dəsgahı olurdu, yəni çox maraxlı keçirdi. Elliyinnən[205] hər şeyi, əppəy yapbasınnan, hanasınnan, nə bilim, dübəy döyməsinnən, dəsdər çəhməsinnən… hamısı elliyinən olan bir şeylər idi. Hamı bir-birinə köməy olardı.

Ən axırda duzu döyüllər. Bildiyin kimi, Naxçıvan duz zonasıdı, Duzdağdan yekə-yekə, belə-belə daşdar, sal daş duzdar gələrdi. Bunnarı babam xışdıyardı, gupbannan[206] ayırardı bir az

---

[205] elliyinnən – iməciliklə

[206] gupban – toxmaq formasında dəmir alət. Onunla gəvən əzir, ot döyür, böyük ağacların yerə çalınmasında ondan istifadə olunur.

malın, davarın qabağına. Axurrara, tavla həyətinə qoyurdu babam ki, heyvannarı açıb ötürəndə duza gedir. (Sözə baxmayan insan olanda deyillər: “Get, bala, hələ duza gedirsən”. Vay o günnən duzdan qayıda. Onda ki, suyu süzülə-süzülə gələndə deyirdilər: "Bala, gəl dur mıxıın dibində". Yəni duzu yaladın, (mala bənzədir) sözə baxmadın, burnun yelləndi, getdin. İndi gəl dur mıxının dibində. Babam o duznan bağlı çox şeylər deyirdi). Nə isə, uzun sözün qısası, babam xışdıyırdı, yarısını mal-qoyun üçün, nəəm[207] davar üçün yığırdı. Qalanı da babam üsd-üsdə yığardı. Bu xışdanmışdarın da mala bir az diri götürərdi. Turşuluğu ayrı götürərdi (Anam görsədərdi, nənəmə diyərdi. Anam bəlkə on-on beş il babamnan danışmıyıbdı. Nənəmə deyirmiş yaşmağın altınnan ki, əmimə denən elə bəsdi da, xala, bu boyda olsun turşu üçün, tutma üçün yəni. Onnan sonra qalanını babam elə xeyləx xışdıyarmış). O xışdananı gətirib töküllər dübəyə. Dübəhdə döyülən duzu iki cür götürərdilər. Bir qismini bir az diri götürərdilər. O xörəy üçündü. Qalanını xışdıyıb tamam döyərdilər. O qədər döyərdilər ki, elə eynən o qavıt kimi döyəllər. Əvvəl xəlbirdən keçirdəllər, sora ələhdən keçirdəllər. Ələyin üsdündə, xəlbirin içində nə varsa, qaytarıb tökəllər dübəyin içinə. Onu elə xırda döyub, sırfaya qoyardılar. Elə xörəh var, onun içinə xışdanmış duz atmazdar. Küftənin içinə, dolmanın içinə xışdanmış duz atmazdar. Buna görə də duz neçə cür döyülürdü bizim evdə. Duzdan sonra qavıt da çəhməy olmaz, yarma da çəhməy olmaz. Duzun duz tamı var axı. O birsilərə qonar. Ona görə də ən axırda duzu çəkillər ki, onnara bulaşmasın, onnara duzu getməsin də. Şoran duzu olmasın. Ən axırda dübəyi yuyur, silir, daşını elə aparıllar bulaxda yuyurdular. İçini yaş əsgiynən silirdilər. Üsdünü sırfaynan

---

[207] nəəm – nə bilim

bassırırdılar, səbəti çəvirirdilər üsdünə. Bəzən elə olurdu ki, üş gün anamgil dübəyi yumurdular. Qonşular gətirib döyürdü da. Dübəh dəsdərdən xəyləy yüngüldü da, oturursan, tək işini görürsən. Dəsdəri çəhməy üçün evin ortasında ya bir qırağında sırfaları, palazı açırsan, daş ağırdı, gətirib üsd-üsdə qoymağ çətin olurdu. Hamının evində dəsdər yox idi.

(– Fatma xala, dübəy hazırdı?

Deyir:

– Hə, elə qızdar duz çəkir.

– Yaxşı, axşamçağı gətirərəm).

Hamı bir-birinin ehtiyacını ödüyürdü. Gətirib mənim evimi batırdın, zibillədin, səs elədin... belə şeylər kəntdə olmazdı. Dübəyi yuyanda yalıyırdılar da. Əyilirdi, dilinnən dübəyi yalıyırdı, deyirdi, yox, hələ duz var. Qayıdırdı bir də... Tamam tər-təmiz yuyannan sora, təmizdiyənnən sora onun ağzını açığ qoyurdular bir-iki saat ki, dübəyin içi tamam qurusun. Daşda nəmnih qalmasın. Nəmnih qalanda daşın özü də kif tutur da. Üzündə elə bil ki, qar dənəciyi kimi kiflər olur. Ona görə nəm olmaz. Ağzını yenə dəsmalnan bağlıyıdılar. Səbəti də çəvirdilər üsdünə. Anam o daşın özünü də parçıya bükürdü. Şümşad daşı da bəliyirdilər. Daşı həmin dəsdərxanın birinin qoyurdu içinə, sora onun başını bəliyirdi. Ona baş bələməy deyirdi, dübəyin başını bələməy. Parçaynan tamam bəliyənnən sonra səbəti çevirirdilər.

Dəsdərə əl dəyirmanı deyərih. Dəsdəri necə işlədirdih? Buğdası, nə bilim, qara noxudu, ağ noxudu qavrıldı. Buğda payızda yuyulubdu, o hazırdı. Elə vax olur, məkəni də yuyurdu anam, bibilərim köməy elyirdi, sərib qurudurdu. Yığılan məkə avılır, eliyir, baxma da, toz-torpağ olur. Onu da yuyurdular, qurudub qoyurdular. Bir teş qara noxudu, bir teş də ağ noxudu yuyurdular tər-təmiz, axşamnan isladırdılar. Qoyurdular, qalırdı.

Səhər durub süzürdülər, tökürdülər (Babam, atam, böyük qardaşım sələcə düzəldərdi. Bizdə onun adına sələcə deyilir. Məəyən şeylər yığmaxçın.). Bax, həmin o noxudu tökürdü ora.

Dəsdər dəyirman daşına oxşuyur, amma bu, bir az onnan balacadı. O formadadı. Birinci daşı dörd barmağ boyunda olur. Boyu budu üst daşın. Alt daş daha qalın və uca olmalıdı. (Bax, bu daşa görə məsəl də yaranıb ki, alt daşı qüvvətdidi. Ən çox da evə gəlin gələndə oğlan anadan uzaxlaşır, ümumiyətnən, nə qədər çox isdəsə də, oğlan evləndi, evlənən kimi uzaxlaşır anadan. Onda ana gileylənir. Oğul belə eliyir, sözümə baxmır, veşi, payi birinci aparır içəri otağa, eyvana, kürsünün dalına, arvadına. Onda deyillər, bıy a, başaa dolanım, alt daşı qüvvətdidi. Alt daşı qüvvətdidi, ağırdı, söz onundu. Sən onu çəkib çevirə bilməzsən heş yerə. Ta o sözünü deyibdi. Gəlin gəlib, möhürün vurubdu). Dəsdərin alt daşı o qədər ağırdı ki, altındakı tərpəşmir, üsdəki hərəkət eliyir. Dəsdəri qoydular yerə, açırdılar dəstərxanı, sırfanı. Dəsdərin alt daşının ortası bax belə bir yumrudu, ortasında bir belə çıxıntı kimi dəmir qoyallar. Üsdən əl daşını fırramağ üçün yekə əl yeri var, dəsdəy yeri. Əlinnən ordan tutub fırrıyırsan.

Dəsdərin başında oturan yorulanda başqası gəlib onun yerində oturar, yer dəyişəllər. İndi bir nəfər oturur onun başında, teşdə buğda, məkə, noxud, hər nədi, yığıb. Ələk də qoyullar, çünki bura çox tez üyüdür. Özü də, yaxşı üyüdür, normal üyüdür. Yəni dübəydə üsdən vurursan, yekəni xışdıyırsan. Bu elə özü çəkir. Onun elə gözəl səsi var. Dübəy gup, gup, gubbagup eliyir. Dəsdər isə xar, xar, gur, dəyirman işdiyir xar-xar, gur-gur. Arada gupbultu eliyir, dübəy kimi. Dəsdəri işlədən əlini dayandırıb ordan buğda götürüb tökmür. Bunun işi ancax çəhməkdi. Ordan biri buğdanı tökür, altında belə komalanır, biri

onnarı yekə kəfkir, abgərdan nədirsə, onnan yığır. Götürür, tökür o teşdin ağzındakı ələyə, ələyir. İriləri, bir də xışdanmışın tökür bunun boğazına. Dübəydəki formadı, ancağ çəhməy üçün bir az ayrıdı. Bunu yenə yığdılar teşdə, tabağa, ağzın örtdülər. Əvvəlcə isdi olur. Onun ağzını örtmüllər. Bir-iki saat saxlıyallar, o soyuyar, dini çəkilər. Onnan sora qapağı qoyallar.

Sora yarmanı çəkərdi anamgil. Buğdanı yenə tökərdilər. Yarmanı bir dəfə çəkəllər. Dübəhdə də, dəsdərdə də. Çünki tamam un kimi olmamalıdı, diri, unnu, lığaplı bir şey olur. Yenə o da soyuyannan sora yığıllar məəyyən ayrılmış yerrərə. Ağzı bağlanar, yığılar o kürsünün altına. Yanı o farmaş-zad yığılan kürsünün altına. Təndirin üsdündəki kürsünün yox. (Yühlərimiz varıdı, üsdə fərmaş yığılırdı, yorğan-döşəh fərmaşdara yığılırdı. Əyin paltarı fərmaşa qoyulurdu. Yəni nənəmgil gedib bizim otağda şifanerrərə paltar asmırdı. Anam aparırdı, asırdı. Nənəm gedib gətirirdi, bala, sən dəymə. Yəni bunnarın əv damı o qədər qannarına hopmuşdu ki, orda yaşamağı rahat bilirdilər. Otaxlarda belə gəlib otururdular, yeyib-içirdilər, yatmağa gedirdilər əv damına. Həmin fərmaşların altındakı yerə atamgil *irəf* deyərdilər. Üst-üsdə irəf qayırmışdılar. O irəflərə bax belə şeyləri (döyülmüş yarma və s.) yığırdılar. Ağzını bağlıyıb yığırdılar onun altına).

Ən axırda yenə burda duz çəkillər. Dəsdərdə də duzu töküllər, duz əvvəlcə, nə təhər deyim e... elə bil, araba gedir daşdı yollarda. Əvvəlcə belə səs çıxardir. Duzu da çəkillər. Özdə duz çəkməy onnara nisbətən çətindi və ağırdı. Əlinə-zada dəydikcə yandırır. Deməli, duzu ələyib götürəllər. Hətda bibar çəkənnər, bibar döyənnər də olurdu, acı bibar. Duzdan sora bibarı döyərdilər dübəydə. Həmin gün hamının gözü acışardı. Dəsdərdə də çəkənnər olurdu, tamam gözü-başı acışırdı. O iy açığ eyvannarda hər yerə yayılırdı, hamımızın gözü acışardı, bax heylə.

# VAXTIN SAATSIZ TƏYİN EDİLMƏSİ

Deməh, saat olmuyan dövürlərdə (bunu mən babamnan, nənəmnən eşitmişdim) zamanı ayarlamağı kölgəynən, məəyyən bir şeynən məəyyənləşdirərmişdər. Çölçülüy dövrüydü, hamı cütə gedirdi. Xırmanda öküz qoşurdular. Süph vaxı həm də namaza durardılar. Bizim kəntdə hamı oruc tutan, namaz qılanıydı. Bunu Dan Ulduzuynan məəyyən eliyərdilər. Dan Ulduzu çox işıxlı və çox xeyirri ulduzdu. Hər bir ulduz çəkilər, Dan Ulduzu qalar. O vax durallar süph namazına, ta saat yox, filan yox. Günorta namazını günəşnən ölçəcəhlər, süph namazını Dan Ulduzuynan. Deməh, Dan Ulduzu tək göydədisə, namaz qılardılar. Buxcalarını axşamnan arvat-uşax ayırardı cütə getməy üçün.

(Bizdə süph vaxdıdı, səhər, nahar, günorta, günortadan sora axşamçağı, axşamçağınnan sora axşam, gecə yox ha, axşamdı. Axşam, şən-şün əlləşən vaxda deyərih, qarannıx çökən vaxlara. Yayda, yazda bir az qarannıx gec çökər. Qış aylarında, qısa günnərdə bir az tez qarannıx olar. Bir də gecə deyərih, gecənin bir də yarısı. Yəni süphnən gecənin arası gecəyarı deməhdi). Günorta namazının vaxdını bilməh üçün babam bizə deyirdi, dur görüm, ölçüm görüm kölgəniz nə yerdədi? Deməh, günorta namazının məqamını bilməy üçün düpbələmdüz durmalısan günün altında. Kölgən sola-sağa düşürsə, namazın vaxdı deyil. Düpbələmdüz durursan, heş yana getmir öz üsdündə bərqərar olursa, deməh, günorta namazının vaxdıdı. Yəni sağa-sola kölgə vermirsən. Bizim kəndimizdə üş dəfə namaz qılardılar: süph namazı, ikinci, zöhrnən əsri bir yerdə qılallar (Yadımdadı, babam deyərdi ki, əsrnən zöhrün arasında dəvə karvanı necə gedir, bir dənə dəvənin yerişini sən yadında saxla. Bir dənə dəvənin keçməsi – əsrnən zöhrün arası o boyda olmalıdı). Axşam na-

mazı olur, bir də xiftə namazı. Axşam namazı şər qarışmamışdan qılınır. Şər təzə qarışanda namaz qılınır. Yayda vax bir az uzun olduğuna gözdüyüllər. Gün batan kimi axşam namazını qılıllar. Onda da bizdə axşam namazı ilə xiftə namazının arası yenə karvanda bir dəvə ayağ ləpirini necə qoyub, məsafə ilə ölçülürdü. Nə qədər olar? Bəlkə iki-üş dəyqə olardı. Dəyqə söhbəti olmadığına görə heyvannarnan, aynan, günəşnən, ulduznan işdiyırdilər. Axşam namazı ilə xiftənin arasında dualar edərdilər, qılardılar namazı, o vaxda qədər o evdə dəsdərxanı aşmazdılar. Gözdüyərdilər, namaz qılınardı, sora axşam yeməylərini yeyərdilər.

Atamgil bazarrığa Gürcüsdana, bir də İrəvana gedərdilər. Tiflisdən babama gümüş saat almışdı zəncirri-zaddı. Babamın da qara sətin köynəyin sol tərəfində, döşünün üsdündə cibi olardı. Vurardı saatı cibinə sancağnan, ordan çox işdətməzdi.

– Ay baba (atamgil öz dədələrinə baba deyiblər, analarına da ana), sən niyə o saata baxmırsan?

Deyirdi:

– Ay bala, saatım odu e, başımın üsdündə. Allaha qurban olum, Allah mənə o boyda Günəş verib, gün verib, ay verib, ulduz verib. Neynirəm saatı-zadı.

Saatı elə firradırdı, qoyurdu cibinə ki, Əkbər inciyər. Ölənə kimi cibindeydi, sora atam götürdü, yadigar saxladı. Uzun sözün qısası, saatdan istifadə eləmirdi babam.

## YARMA

Yarma supuna, başqa suplara, şiləyə yarma atallar. Bizdə ayran aşını da düyü əvəzinə yarmaynan eliyəllər. Yarma isdiliy gətirici, qış-yay aylarında yeyilən çox gözəl bir un xörəyidi, unnu xörəhdi.

Payızda, buğda yuyulanda, unnuğa gedəndə, un üyüdüləndə bir payı götürülüb ayrıca qoyulurdu. Sabahı günü buğdanı bir aşsüzən, bir teş gətirib qoyurdular, başlıyırdılar döyməyə. Buğdanı qavıt kimi, un kimi eləmirdilər. Bir az paralandı, götürürlər. Əslində bir az diri götürüllər. Bu paralanan kimi buğdanın elə bil unu lığaplıyır.[208] Bir ovuc atan kimi görürsən ki, düyü şiləsini nə qədər lığaplı elədi. Bir balaca parçalanan kimi götürürlər. Bunu nə ələmirlər, nə də xırda, böyüh-kiçih eləmirlər. Elə yenə yığıllar küpələrə, teşdərə, tabaxlara. Bunu da tüylü şeylərə yox, o çüvallar qıllı, tühlü olullar da, tərkibində qəzil var. Qara qoyunun yununnan var, ipliy var, pambıx var. Bunnarın heş birinə yığmağ olmazdı, axı onnar ip buraxır, bunu orya yığmırdılar.

## LƏPƏ

Qupquru tokəllər elə dübəydə döyəllər. Xalis kül kimi yox, beş-on dəfə vurallar, paralanar. Noxudu belə dəsdərdə çəhməy olur, adına ləpə diyərih biz. Xörəhlərimizdə bu ləpədən isdifadə eliyərih. Supa atarıx, kələm supuna da atarıx. Düyü şiləsinə də atarıx, bütün dolmalara – yarpağ dolmasına, kələm dolmasına bu ləpəni atarığ. Cəviz ləpəsini yox, biz cəvizə elə cəviz diyərih. Ancağ başqa zonalar ləpə diyər. Biz noxudun paralanmışına ləpə diyərih. Bir də aşın həvişinə[209] atarığ. Biz dübəydə də döyürüh, dəsdərdə də. Elə bir dəfə tökəllər, bir-iki dəfə belə xarhaxar, gurhagur çəkəllər. Paralandı, day yığarlar. Bunu məsələn, torbalara da yığmağ olar. Sora bunu isladallar, yüngülvari yuyallar, tökəllər bişmişə, xörəyə. Supa, bozbaşa… hər cür yeməyə tökə bilərsən.

[208] lığaplıyır – şirəli olur
[209] aşın həvişi – aşın qarası

Bu, noxudun özünnən də daddı olur. Noxud bütün qalır, bu paralanıbdı. Bu çox lığaplı olur, ləpə daddı olur.

## SÜDAŞI

Südaşı iki cür bişirilir. Biri var piloyu, biz piloyunu da süd-nən süzürüh. Pulov suynan süzülür, süddüsü belə olmur. Düyünü yudun, islatdın, südü hazır qoyursan. Bişir, üzü qaymaxlananda belə bir-iki burum qaynada da bilərsən. Onda düyünü töküllər içinə. Südaşınnan fərqli olarax piloyun düyüsü elə olmalıdı ki, süd düyünün üzündə durmalıdı. Eynən çəhmə aşı kimi. Yeməyi xoda qoyursan.[210] Düyü südü tamam canına çəkib. Əgər itidisə (ocağı nəzərdə tutur – top.), külün çəkib qoyursan dəmirin altına, qazanı dəmirin üsdünə qoyursan təzədən. Elə bil dəmə qoyursan. Aşı necə dəmə qoyursansa, bunu da eləcə. Ağzına qapağını örtürsən, bəzən anam onu xəmirriyirdi. Ümumiyyətnən, anam xörəhlərin bəlkə əlli-altmış faizinin ağzın xəmirriyirdi. Ya təndirə atırdı, ya ocaxda eliyirdi, ocağın üsdündə, o da zəyif odda dəmin alır. Onun üsdünə kişmiş də tökə bilərsən, bir də xurma eliyə bilərsən. Ta bu olur. Sora qapağını götürürsən, piloyda düyü əfsəm-əfsəm olmalıdı.[211] Əvvəldən ətdən, ya da qavırmadan həviş hazırrıyıllar. Çiy əti tökdü, pörtdətdi, onun gözünə ləpə vurallar. Qara da, həviş də hazır olar. Süd ploynan həviş yeyilə bilər. Ancağ adam var ki, heş nə isdəmir. Ancaq süddü ployun, mütləq üsdünə kişmiş düzəllər, bir də xurma düzülməlidi. Bunun adı olur süddü piloy. Onu da biz çaşırnan, şorabalarnan da yeyirih.

Ancaq südaşı tamam ayrıdı. Bu yağnan olur, yağlı olur. Yağı qoyuruğ ocağın qırağında dağ olur. Ümumiyyətnən,

---

[210] yeməyi xoda qoymaq – gur odun üstünə qoymaq mənasında işlədilib.
[211] əfsəm-əfsəm olmax – dən-dən olmaq

piloyların elə mən də ərinmiş yağı düyünün üsdən belə qoyanam. Anam, nənəm elə qoymurdu. Ayrıca qazanda qoyurdular közün üsdündə qıraxda, ocağın yanında dağ olurdu, cızhacız tökürdü üsdünə. Onnan sora dəmə qoyurdu. Ancaq südaşı yağsız bişən yeməhdi. İki cür bişirilərdi. Bir var, südü kəsmə kimi olur, daş kimi. Biri var, duru vəziyyətdə. Ployun düyüsü uzun düyü, səbir düyüsünnən bişirərdilər o vaxı. Ancaq südaşın iki növünün ikisini də yumru düyüynən bişirirərdilər. Yarmaynan bişən də var. Hələ mən düyüynən bişəni danışıram. Düyü yuyulur tər-təmiz. Bir az da duz atılır. Bərəkət üçün bu başdan "Bismillah" deyib bir çimdiy duz atıllar.

(Tər halvadı, halvadı, onnara da bir çimdiy duz atılmalıdı, bin-bərəkət üçün). Anam həmişə düyünü suya salanda bax belə əlinən ovxalıyıb yuyardı, suyun süzərdi dönə-dönə. Sora bir damcı duz atardı, bir qaşıx. Südaşına bir az az eliyirdi. Çünki südaşı, adətən, duzdu yeməh dəyil. İslatdı, sudü də hazır qoydu orda. Süd də bişir, üzü qaymaxlananda düyünü tökürdü onun içinə. Beş-altı dişdəmə qənd də atır. Özdə zəyif odda qarışdıra-qarışdıra, onu gur xodda eləməy olmaz. Zəyif odda qarışdır, elə ona görə nənəm otururdu ocağ başında, təndirin qırağında. Bir az gurdusa, bir az şeşməni, gərməni, yandırasın azaldırdılar. Nənəm elə başında otururdu, onu belə fırrıyırdı. Məsələn, bərk süd aşı eliyəcəhlərsə, bunu qoyurdu, tamam südü çəkilirdi qaynıya-qaynıya. Düyü elə bil çıxıb üzə, dənərriyib. Onda çəkib qoyurdular qırağa, ağzın örtürdülər. Gozdüyürdülər, düyü qazanda tamam bərkiyirdi. Axşam xörəyin yanında nə bişmiş yeyəcəydilərsə, əlavə də südaşını yeyirdi. Və yaxud aparıb qoyurdu eyvanda, əv damımızda saxlıyırdı, (o vax xaladelnik-zad yoxuydu) bunu dəstənaynan, çıppaynan yeyirdilər. Yanı bunnarın yeyilməh forması isdəyə və zövqə görədi. Adam var çörəyi çox isdi-

yir, o çörəhlə yeyirdi. Yumurtanı soyutma, ya kabab elyirdilər, qoyurdular o südaşının qırağına. İsdiyən ikisini qata-qata yiyərdi.

İkinci cür südaşımızı cüyuq eliyərih. Yanı onun suyu bol olar. Yenə də yumru düyü qoyduğ isdağa. Bir damcı duz atdığ. Südü qoyduğ bişməyə. Düyünü töhdüy. Onu xoddu odda buluya-buluya beş-altı dişdəmə qənd atdığ. Mən duru südaşını o kəsilən, yanı bərkdən daha çox xoşduyuram. Elə fırrıya-fırrıya, fırrıya-fırrıya düyü bişdi, götürüb yığışdırıllar. Ancağ qənd atıllar. Bu şirin olmalıdı. Buna bərəkət üçün bir çimdiy duz atılmalıdı.

Yarmaynan da bişirirdilər. Yarmanı düyü kimi isdağa qoymullar. Buğdanın yarması yuyanda görürsən ki, tez şumalır.[212] Yəni islatmağ lazım dəyil. Bunu da iki cür eliyillər. İsdiyirsən, elə kəsmə formasında eliyirsən, qaşığnan, pıçağnan kəsilir. Yenə bir çimdiy duz atırsan, iki-üş dişdəmə qənd atırsan. Bu, bərk formada olur. Bu da axşam da yeyilir, günorta da, yəni bişmişdərin yanında.

İkinci forması duru vəziyyətdə olur. Südaşı, südün yarmalısı. Yarmanı süd bişənə macal töküllər, bunu da zəyif xodda qaynadıllar ki, südü qurumasın. Yenə beş-altı dişdəmə qənd atıllar. Elə isdi-isdi düzüllər qavlara. Nənəm tumanını açırdı belə şatırın üsdünə, tumanını, üst köynəyini. (Nənəm tuman geyirdi, üsdünnən üst köynəyi). Bizi də düzürdü yanına. Anam da çanaxda əlimizə verirdi. İsdi çörəhnən orda yeyərdih. Çox gözəl dövran idi.

Yeməyə görə qazan seçilərdi. Yəni ərzağa görə qazan seçilərdi. Südaşın əgər daş kimi eliyirihsə, onun qazanı balaca, kip olmalıdı. O tez qavrılsın, bişsin. Südü tez çəkilsin. Geniş qazanda olmaz. Ancağ duru südaşını bir az geniş qazanda eliyirih, o bir az boş olmalıdı, sulu görünməlidi.

Südaşını bişirib bəzən aparıb bulağa qoyurdular. Vedrəni qoyurdu bulağın içinə. Daş qoyurdu da, içini doldururdu. Teşdi,

---

[212] şumalır – ovulur, parçalanır, əzilir

tabağı qoyurdu həmin o suyun içinə. Məcmeyini çevirirh ağzına, bir daş da onun üsdünə. Məəyyən vaxda qədər qalırdı, onnan sora götürüb gətirirdilər. (Bir də tez soyutmax üçün elədiyimiz şeylər vardı. Məsələn, ayran aşını qazannan aparıb qoyurduğ bulağın altına. Üsdünü örtüb, onun da üsdünə yekə bir daş qoyurduğ. Orda soyuyurdu. Nehrə çalxıyıllar, yağı tutmaq üçün qoyurdular suyun içində).

## İÇALAT

İçalatın hazırranmasında biznən başqa yerrərdə çox fərqi var. Bəzən içalata bağırsağ da qarışdırılır. Heyvanın böyrəyi ürəyi, qaraciyarı, övkəsi, yəni ağciyarı, bəzən olanda heyvannan eliyəndə heyvanın şirin bağırsağı da bunun içinə vurulur. Bu indi zövqə görə və iyini götürməyə görədi.

İçalatı yuduğ, doğradığ. Balaca-balaca doğranır. Ona bolluca baş soğan hazırranır, hazır doğranır, qoyulur. Yaşdı mal olanda bunu bir burum qaynadarığ, suyunu atarığ. Duru suyunnan bir az götürüb sora içinə vurular. Ancağ körpə heyvan olanda, körpə dana, körpə qoyun-quzu olanda birbaşa soğanıynan, yağıynan, quyruğunan tavlanır. Malın içalatı olanda buna yağ vururuğ, soğanla bir yerdə tavlanır. Mal elə yağlı olmur. Bəzən içalat yağlı olur, bəzən yağsız olur. Ancağ qoyun olanda quyruğunu da vururuğ. Doğruyurux balaca-balaca, tökürüy yağsoğanın içinə qavırırığ, duzun, isdotun atırığ, bəzən buna kartof da vurulur. Əsas da kartofsuz olmalıdı, kim yeyir, ürəyi isdiyir, vura bilər. Yaz-payıza düşəndə zövqə görədi, buna bibar də vurullar, təzə bibar. Pamidor da vura bilələr. O ki tavlandı, elədi, qəşəng tər-təmiz bişdi, kartofnan da eliyə bilərsən, kartofsuz da eliyə bilərsən. Qaramalın içalatı bişiriləndə ona yağ

vurulur. Ancağ heyvanın içalatı bişəndə ona yağ vurulmur. Bir də bu içalatın sacda bişməyi var. Doğranır, yığılır sacın yanına bunnar. Anam belə eliyirdi, tökürdü heyvanın quyruğun, sacın dört tərəfinə beləcə düzürdü quyruğu. Sacın yuxarısınnan yağ axırdı çökəyə. Anam qaraciyərdi, nə bilim, ürəyi, boyrəyi tökürdü sacın çökəy yerinə. Axı sacın ağzı dik olur. Qarışdırırdı, qarışdırırdı, bişənə macal[213] bir balaca su tökərdi. Yenə eyni qaydayınan, şirin bağırsağı da vura bilərsən ora, biz onun iyini götürmürdüy, isdəmirdiy. Ancağ ayrı da bişirə bilərsən. Bəzən şirin bağırsağı elə təndirin üsdündə şişə çəkib kabab da eliyillər. Onnan sora sacın ağzına teşdi çevirirdi anam. Zəyif xodda orda o bişirdi də. Sonra götürüb yeyilirdi. Qış aylarında şorabalarnan yeyilirdi, bizdə ən çox onu çaşırnan yeyirlər.

## SAC QOVURMASI

İçalatdan əlavə anam qoyun ətini də bu formada sacda bişirərdi. Qoyunun o qara tikələrini balaca-balaca doğruyardı, yığardı ora, quyruğunu da ayrıca. Qoyunun ancağ əti və quyruğu, bir də kartofu. Birinci, yenə quyruğu düzərdi, sacın dörd bir tərəfinə bax belə, fırrama düzərdi, sora o yağ əridihcə qara tikələrini salardı o çökəyə. Özdə taxta qaşığınan qavrılardı, tamam qavrılardı. Kartofu tökərdi, qarışdırardı, sora quyruxları helliyib tökərdi onnarın içinə. Sarı çiçəyin, duzun vurardı, isdiot da vurardı. Sora onun ağzına teşdi çevirərdi, orda zəyif odda bişərdi.

[213] bişənə macal – bişənə yaxın

# V. NAĞILLAR

## TAMAHKAR KİŞİ

Anam rəhmətdiy danışardı ki (qızım, Allah hamının əzizdərinə rəhmət eləsin, qalan analara Allah köməy olsun), Xorasanda bir kişi yaşıyırdı. Bu kişi kasıbıydı, bir çətən külfəti vardı. Kişi o qədər kasıbıydı əyninin, başının yamağınnan, yırtığınnan cin ürkərdi. Arvadı o qədər yamax vurmuşdu ki, əyninə başına, bilməzdin ki, bunun əsil paltarı nə rəngdəymiş. Balaları da o geyimdə, arvadı, özü də o geyimdə. Hər gün gedərdi dərya qırağına, tilov atardı. Ordan bir dənə, iki dənə, beş dənə balıx tutardı, gətirərdi. Arvat-uşağın əlinnən qutarmazdı ki, o balığın ikisin, üçünü sata, nəsə bir şeyə dəyişə. Olanda da arpaya, buğdaya dəyişərdi gətirərdi, gündəliy dolanardılar.

Bir gün gəlir kişi, yenə dərya qırağında tilovunu atır. Ha çəkir, ha çəkir, çəkib çıxarda bilmir. La ilahə illallah, bu nədi? Nə isə ayağın da dirəyir daşa, çəkir çıxardır. Tilov çıxanda günəş kimi başdadı parıllamağa, işıx saşmağa. Çəkdi, çəkdi, heş nə başa düşə bilmədi. Bir qəribə, yekə bir balıx. Kişi qorxdu.

Bu qorxanda tilovdan səs gəldi ki, qorxma, ey bəni-insan, mən su pərisiyəm, mən qızıl balığam. Sən isdə, nə diləyin var, ürəyin nə isdiyir mənnən isdə. Məni burax suya, mən saa onnarı verəcəm.

Kişi qorxur, sora durur elə qızıl balığın adını eşidən kimi. Həə... Onda deyir:

– Onda mənim kasıblığımı üsdümnən götür, ruzu, bərəkət ver, evimi-eşiymi...

Deer:

– Hə, bildim. Mən saa bunnarın hamsını verdim. Get Allaha dua elə, bu Allahın isdəyinnən olur. Mən Allahın isdəyini yerinə yetirirəm. Sən ancax mənim sirrimi heş vax soruşmazsan. Sən nə isdəsən, gəl dərya qırağında denən ki, ay qızıl balıx, mən çıxacam eşiyə. Nə isdəsən sənə verəcəm, ancax mənim sirrimi isdəmə.

Deer:

– Baş üsdə.

Elə balıx suya tullanan kimi kişi baxır baay... əyni qəribə bir hala düşdü, başmax, ağ şalvar, başında buxara papax, əba, filan.

Elə tilovu qaldırır ordan, kişi götürülür evə. Qaça-qaça gəlir ki, evinin yerinə çatır, həyətinə, məhləsinə, ancax inanmır ki, baay, nə gözəl hasarı, filan. Darvazanı açır, girir içəri, arvat oturub eyvanda. Arvadını da tanıyammır. Balalarını görür, Allaha şükür eliyir.

Arvat deyir:

– A kişi, bu nə əhvalatdı, nə sirri-xudadı? Bu qəfildən bizim əvmiz, eşiymiz, əynimiz, başımız, kisə-kisə unumuz, dənimiz, unnuğmuz, hər yerimiz doludu.

Başdıyır nağıllamağa, deyir:

– Ay arvat, hal-qaziyə belə, başıma bu oyun gəlibdi. Balıx belə şey dedi ki, mənim sirrimi isdəmə.

Arvat kişidən çırtma boyda ağıllıydı. Ərinə deyir ki, o qızıl balıx elə deyibsə, o Allahın, sən onnan isdəmə, nə işinə var onun sirri nədi. Səni ajdıxdan xilas eliyib, əynimiz, başımız, yeyəcəyimiz, uşaxların şad-xürrəm qarın dolusu yeyir, bəsimizdi, Allaha min şükür! Nə isə. İnsan naşükür olarmış. Kişi böyün keçir, sabah gedir.

Arvat deyir:

– Getmə, gündə-gündə dərya qırağına nəyə gedirsən? A kişi, elə olacax, balığı da bezdirəssən. Üş günnən, beş günnən bir get.

Deer:

– Yox, ey arvat.

O qədər kəmhəvsələ, səbirsiz kişidi ki. Səhər durur, bir də gedir dərya qırağına:

– Ay qızıl balıx, ay qızıl balıx!

Su genə aralanır ay, günəş dəryadan çıxır. Balıx başını uzadır:

– A kişi, nə var, nə yox? Necə dolanırsız, ürəyincədi?

– Hə, ürəyimcədi, ancax bir şey isdiyirəm.

– Nə isdiyirsən, a kişi?

– İsdiyirəm tarlada məəm mallarım olsun, öküzdərim olsun, torpağım olsun, atım olsun, quyum olsun...

Deer:

– Yaxşı, get, o da olacağ.

Kişi gəlir ki, evin yanında yekə, işıxlı bir tarla, içi dolu mal-qara. Arvadı elə hər gün dannıyır ki, a kişi, insaf elə, a kişi, bəsimizdi, artıx şey isdəmə. Bu, gündəlih varidatı çoxaldıxca kişinin içindəki eşqi, qəzəbi, məhəbbəti tamam çoxalır ki, filan bəyin bir belə şeyi varıdı, filan xanın bir belə şeyi varıdı, gərəh mənim də ola. İndi arvadı deyir:

– A kişi, onnarın dədə-babadan varı varıydı. Saa qızıl balıx veribsə, Allah verib. Otur yerinə.

Yox, yenə razılaşmır. Bir də gedir dərya qırağına:

– Ay qızıl balıx, ay qızıl balıx!

Qızıl balıx çıxır:

– Nolub, a kişi? Ürəyin nə isdiyir?

Deer:

– Maa elə bir yerrər ver, işdərim olsun. Qabaxda qulluxçu, qaravaşım olsun, otarsınnar daa bəy, xan kimi.

Deer:

– Yaxşı.

Nə isə. Kişi iynə qoymağa, barmax qoymağa evdə bir qüsur tapa bilmir.

Bir gün yenə gəlir. Bu gün gələndə deer ki, filan şahın, xanın bir belə torpağı var, kəndi, əhli var, maa da bunnarı ver, bir də sən maa sirrini ver.

Deer:

– Qızıl balıx dedi ki, saa neçə gün bunnan qabax dedim ki, sən mənnən sirrimi isdəmə. Bir az da nəfsinə təp denən. Sən naşükür bəndəsən, sən ged indi.

Elə balıx başını suya vuran kimi kişi baxır, baa… elə o dəyqə tör-töküntüsü sallanır. O gözəl geyimnən əsər-əlamət yoxdu, elə əvvəlki cır-cında üsdündə. Başına, gözünə döyür. Oturur dəryanın qırağında, ağlıyır, deyir, nətəər gedəsən, arvat məni öldürəcəh.

Durub gəlir. Ağlıya-ağlıya gəlir ki, elə kəndin kənarında heş nəyi qalmayıb. Görür deyir, Allah! İkiəlli qapaz vurur başına. Arvadı görən kimi:

– Başına daş düşsün, a kişi! Mən saa dedim, nəfsinə təp de. Bax, indi gəl otur bu cırın, cındanın içində.

Bax, həmişə anam deyərdi ki, çoxa qane olmuyan insan, aza da qane olmaz. Allahın verdiyi hər günə min şükür eləməy lazımdı. Əlimiz, gözümüz, şüurumuz, ağlımız başımızda, bir tikə çörəyi verir, gedə biliriy, qazanıb halal çörəymizi, evmizə gətirib uşağmızın, ailəmizin boğazınnan haram şey keçitmirsə, ona min şükür.

## İLAN OĞLAN

Nənəm deyirdi ki, bir qız olur bir mahalda. Çox gözəl qızıymış. Ancax bunun bir ilan aşiqi varıymış. Heş özü hiss eləmirmiş. Qız yatanda ilan gəlib akuşkadan girərmiş, bu qıza ta-

maşa eliyərmiş. Qız oyananda ilan yox olub gedərmiş. Deməh, məleykədi də, hami bilir ki, ilan məleykədi.

Bir gün bu qızı verillər bir oğlana. Cah-cəlalnan da ərə gedir. Bir ana, bir balaymışdar. Yola varıllar, toy gedir. Qız gedir, xoşbəxt olur. İlanın nəfsi qalır qızın üsdündə. Üş günnüyündə bunnar görüşə gedir. Üş günnüyü qutaran gecə bu getdiyi oğlan, ərə getdiyi oğlan ölür. Qız toyunnan sora erkən, təzə vaxdı ər ölürsə, onda o gəlini qaradaban çağırallar. Başına qara örpəyi örtəllər, yasdan sora övladı yoxsa, qaradaban kimi qaytarallar dədə əvinə. Bu qızı da qaradaban qaytarıllar anasının əvinə. Qaydıb gəlir qız. Elə beş gün, üş gün sora qız yatır, dihsinib ayılır ki, yanında bir gözəl oğlan durubdu. Dəli olur, bu nədi, filan-feşməkan? Oğlan deyir ki, bəs mən saa neçə müddətdi aşiqəm. Bunnar sevişillər, görüşüllər, hər gecə görüşüllər. Qız oğlan gələndə gözünü açır ki, ilandı, yasdığın yanda. Bir azdan sora cavan, gözəl bir oğlan olur.

Nə isə. Bu oğlan, ilan cildində gələn oğlan qıza deyir ki, sən bunu heş kəsə demə.

Deer:

– Niyə?

Deer:

– Demə da, mən saa deyirəm, məəm sirrimdi. Əgər sən bunu bir adama faş eləsən, mən yox olacam.

Qız heş oğlanın dediyinə əhəmiyət vermir. Bir gün, beş gün, qız, nə bilim, nənəm deyir, qız hamilə də qalır. Ancax o əvvəlki ailə elə bilir ki, onnarın uşağıdı. Gəlir, bir gün bulax başında qonşunun gəlinnə nağıllıyır ki, bəs belə, mən... Hər gecə ilan cildində bir oğlan gəlir, belə sevişiriy, görüşürüy, süph vaxı oğlan gedir. O da deyir ki, ay qız, o məleykədi, filan-feşməkan.

Oğlan gəlir, deer:

– Sən mənim sirrimi faş elədin, deməy?

Deyir:

– Yox, mən nə dedim ki. Dedim yanı mən onu çox isdiyirəm.

Oğlan ilan cildinə girir, qızı çalır, çıxır yataxdan. Qız ölür. Çıxıb gedir.

## AĞ QOYUN, QARA QOYUN, BAŞIMI HARA QOYUM?

Babam bir məsəl danışırdı. Deyirdi ki, bir gün Məhəmməd peyğəmbər yolnan gedirmiş. Günəşin altında durur, görür kü, günorta namazının vaxdıdı. Qabaxda da bir böyük çinar ağacı var. Bir çoban da qoyunnarın yığıb o çinarın altına, orda oturup dincəlir. Gəldi peyğəmbər, əbasını aşdı, nə bilim, heybəsini qoydu, dəstamazını alıp başdadı namazını qılmağa. Namazını qılanda bu çoban buna fikir verir. Çoban da namaz qılır. Tanımır ancağ peyğəmbəri. Başdyır buna firkir verməyə. Görür peyğəmbər belə qalxır, belə əyilir, bunun qıldığı namaz formasında dəyil. Peyğəmbər gələn kimi salam verir:

– Salam, ay çoban, mən burda namaz qılım, icazə verirsən?

Deer:

– Hə, buyur.

(Ümumiyətnən, dədə-babadan mən belə eşitmişəm ki, harda namaz qılırsan, kimin məkanında, kimin evində, ocağında, həmin adamnan icazə almalısan. Qoy sənə halallığ versin, qılannan sora orda olannarın hamsına dua eliyirsən.Mən elə qılıram. Otağa gələn günnən icazə almışam, namaz qılıram, sizə maneçilik törətmirəm?

Dedilər:

– Yox, halal olsun.

Mən də həmişə namaz qılannan sora başda rəhpərriy, şöbəmizin müdiri, işçilərimizin hamsına dua eliyərəm. Bular maa yer verir, yol verir, mənim yolumu kəsmir, deməy, savabı elə onnara da gedir da).

Hə, peyğəmbər namazını qılannan sora uzanır, söykənir. Qolunu qoyur heybəsinin üsdünə, dincəlir. Çoban durur namaz qılmağa, əyilib qalxır:

– Ala qoyun, qara qoyun, başımı hara qoyum?

Peyğəmbər baxır, ancağ dilini dişinə sıxır, deyir, qoy qutarsın. Qutarannan sora deyir:

– Allah qəbul eləsin. Oğlum, namaz belə dəyil, belə qılınır.

Deer:

– Yox e.

Durur bir də qılır, yenə elə.

Peyğəmbərin dediyi qalır orda. Deyir:

– Mənim dədəm, babam belə qılıb.

Hələ bilmir, bu peyğəmbərdi. A qardaş, deyir, mənim dədəm, babam belə qılıb. Ömrümüz boyu da çölçülüydə, mal-davarın dalındayıx.

Allah tərəfinnən səda gəlir ki, ya peyğəmbər, o, bu yolda can qoyur, əziyyət çəkir, vaxdını buna sərf eliyir. Qoyunun dalınca gedincə fikrində qalır ki, namazın vaxdı keşdi. Necə qılırsa, mən onu qəbul eliyirəm.

Hamı eyni qutudan çıxmış kimi eyni formada əyiləmməz, qıla bilməz, qunutu belə tuta bilər, səcdiyə belə gedə bilər. Ona görə ürəyi necə isdiyir, o cür qılsın.

# İKİ TACİR

Babam nağıllıyardı bunnarı. Babam deyərdi ki, Allah-taala insanın hər birni nəfsinə görə imtahan eyliyir. Görüm bu adam nəfsinnən keçir, nəfsinə təp deyir? (Təp deməh, yanı çəkilirsən arxıya ki, nəfsim maa qalib gəlməsin, mən nəfsimə qalib gəlim. Bir də bizim eldə, kəndimizdə bir deyim var ki, yaşa, yarat, ye, doy, qarnın tutana qədər. Qarnıı heş vaxdı başınnan ucaya saxlama. Başıı heş vax qarnına qurban verme. Ye, ye. Dadmağ üçündü də, doyumlux üçün dəyil ki, bu dünyanın neməti).

Babam deyərdi ki, iki tacir olur. İkisi də varrı-karrı, hal əhli. İksi də dost, iksiin də əvi, eşiyi, arvadı, uşağı... Ancax elə günnəri yollarda, karvannarda keçir. Satallar, savallar, mal gətirəllər, mal aparallar. Çinnən tutmuş Təbrizdən, Ərdəbildən, ordan-burdan gətirərdilər.

Bir gün yenə bu iki dos karvan qabaxlarında çıxıllar bazarrara, dünya bazarına, hara gedillər, hardan gəlillər. Gəlib bir karvasarada düşüllər, yanı indiki otellər kimi, dincəlillər. Dəvələrini bağlıyıllar öz aidiyyəti olan yerrərə, yükləri yığıllar anbarrara. Anbarın da müqaviləsi, daqavoru olur harda nələrim var, nələrim yoxdu. Özdəri də bir otaxda dincəlillər. Səhər gedillər satmağa, alverə, gecələr gəlib düşüllər həmin yerə. Bir gün tacirin biri gedir bazara, biri yatır, bir az gej durur. Deer:

– Bir az kefim yoxdu. Sən get, mən də dalınca gəlirəm.

Oturur çörəy yeməyə. Yediyi yerdə görür parıltı gəldi. Yanında bir siçan cıvıldıyır, ağzında da bir qızıl. Tacir görür siçan ciyildiyir elə, qızılı qoyur yerə, başdıyır hopbanıb düşməyə. Bu, əlində yediyi çörəydən bir tikə atır siçana, siçan götürür gedir. Gedib girdiyi yeri, dəliyi də görür. Əlini atır, qızılı qaldırır, deyir,

La İlahə İllallah! Allah şeytana nəhlət eləsin. Bu nədi belə? Siçan gətirdi qızılı qoydu, atdığım çörəyi götürdü getdi.

Həmin günnən bu ikinci tacirin qarnına sancı dolur. Həmin günnən bunun rahatdığı pozulur, bunu başdıyır sınamağa. Axşam yoldaşı gəlir ki, bəs sən gəlmədin.

Deyir:

– Hə... Nə bilim, özümü kefsiz sayıram.

Bu minvallan bir həftə bu satışa, alış-verişə getmir. Elə fikiri qalıb orda kı o siçan nəsə gətirəcəy. Sabahı günü eyni vaxda yenə nahar yeməyini səhərdən bir az gec oturub yeyəndə baxır, yenə civ-civ, dönür. Yenə o, həmin deşiydən siçan çıxdı gəldi, yenə ağzı parıldıyır. Qoydu yerə, başdadı qızılın ətrafında hopbanıb-düşməyə. Yenə deer, əlində pendirdi, nədi, ətdi, nədi yeyir. Çörəyin içinə qoydu, bir tikə atdı. Siçan götürdü, yenə getdi yuvuya. Götürdü bu dəfə nə bilim, üzühdü nədi yenə. Bu bir həfdə davam eliyir. Elə bu qızılı qoyur, o gətirir götürür, bu atır. Tacir bunnan şüphələnir. Bu da yemir, içmir, fikirdə, neyniyir, yasdığının üsdə oturur, orda oturur, burda oturur. Bu bunnan şüphələnir. Deyir, elə gidi dünya, səni güdəcəm, ay dosdum, görəy sənin qarnının nə ağrısı var, nə dərdin var?

Güdür, deyir:

– Çıxıram gedəm işə.

Getmir. Gəlir onu, deer, gizdi bir yerdən izdiyir ki, oturub çörəy yeyir. Siçan əhvalatını görür, ancax üsdünü vurmur. Ta əmin olur ki, bu siçan buna nəsə qızıl qoydu, bu da çörəyi atdı, o da getdi. Deer, yaxşı, səən işini bildim. Sabahı tacir işə getmir. Taa bunu gözünnən gördü. Oturur evdə. Tacir narahat olur:

– Niyə getmirsən bazara?

Deer:

– Elə bir az kefim yoxdu. Bir az dincəlim, bir azdan durub gedirəm.

Özün vurur yuxuluğa, uzanır yerində. Bu gəlir oturur, çörəh yeyəndə tacir durur postalını, yanı başmağını götürür, gəlir keçir, bunun arxa tərəfində durur.

Deyir:

– Orda neynirsən?

Deyir:

– Heş zad, elə bir az ayağım ağrıdı, başmağımı geyirəm çıxam.

Elə bu ərəfədə siçan gəlir yenə civ-civ... Qızılı qoyanda elə postalıynan siçanın başına birini vırır, siçan elə yerində ölür. Tacir dönür baxır ki, qızıl yerdə, bu başmağıynan vırdı, onu öldürdü. Belə elə yediyi yerdə əlini atır qəməsinə, soxur dosdunun qarnına ki, sən niyə onu öldürdün?

Deyir:

– Baa... Deməh, sən bunnan ötürü getmirsən. Maa buna görə pıçax qaldırdın?

Nə isə... Burda elə dosdu ölür. Bu dos hara gedir? Biri qəbirə, biri Sibirə. Ay nə bilim, elə hay düşür karvansaranın qaradovoyu, filan, nə bilim, gözətçi, filan gəlillər. Qızıllar da tökülür qalır, mal da qalır, karvan da qalır. Harda qaldı dəvələr. Biri getdi ölümə, biri getdi qazamata.

Babam belə deyərdi. Deyərdi ki, Allah bu kişini o qızılnan imtahan elədi. Kifayət qədər pulu, varı, qəşəng əvi-eşiyi, ismətdi arvadı, yaxşı əməl-saleh balaları... Bir dənə siçan, şeytanı Allah o siçanın içinə doldurur ki, bunu sınamağ üçün. İmtahan eliyir, görüm əgər o siçana yem atmasa, qızıl götürməsə, bu sabahı günü davam eləmiyəcəy, çıxıb gedəcəydi işə. Nəfsi bunu apardı ölümə. Bi/r dosdunun ölümünə... özünə də heş o qızıllar qalmadı. Babam

həmişə bunu deyərdi ki, insannar gərəy bugünkü yediyi nemətə şükür eliyə. Öz həyatın təhlükəyə atmıya. Bu da iki tacirin nağılı.

## ALLAHIN İŞİNƏ QARIŞMAQ OLMAZ

### I mətn

Biz şərurrular balqabağa kədoy, qundur, qabax deyərih. Bunu da Fatma anam danışardı. Fatma anam deyərdi ki, iki dos olur, gedillər çöldə cütçülüy eliyillər, yer şumluyullar, taxıl biçillər, ümumiyətnən, elə günnəri çöldədi. Çörəylərini bağlıyıllar ortalarına, heybəsinə atıb gedillər. Səhər çıxıllar gün çıxmamış, gecə də qarannıxda evlərinə qayıdallar. Bunun biri deyir çox şükürrü bəndədi, oldux qədər Allaha tabe olan, qonum-qonşuynan çox yumşax, mülayim adamdı. Bunun biri ancağ deyirdi, yetənə yetir, yetmiyənə bir daş atır, elə davakar filan. Əstafurullah, elə hər şeyə də qarışır. Bunnar gedir, yenə günorta çəkilillər, böyüh bir cəviz ağacıymış ki, anam deyirdi ki, (Fatma anam elə nağıllıyırdı, biz iki qucağımızı açırdıx) nənəm belə nağıl eliyirdi, deyirdi, iki qoşa qucağını açırsan cəvizə çatmaz, elə bir yoğun cəviziydi. Bunun altında oturullar yeməh yeyillər. Biri uzanır, Allahın şükürrü bəndəsi oturur namaz qılmağa. Namaz qılır, qılır, "Allah Əkbər" eliyib əlin yuxarı qaldıranda belə gözünə cəvizin üsdündə qabax sallanır, kədoy. Kədoy da axı ip kimi uzanır gedir, gövdəsi yanı. Tağ sürə-sürə gedir, elə böyüh bir şey dəyil, ancax onun gətirdiyi meyviyə bax da. Ordan görür cəvizin içinnən, balaca cəvizdərin içinnən bu boyda kədoylar sallanır. Namazına davam elliyir. Namazını qılır qutarır. Hamsınnan sora dualarını eliyir, oturur dosdunun yanında. Deyir ki, ədə, yuxarı bir bax hələ. Bu da baxır, deer:

– O nədi?

Deer:

– Vallah, namazı az qaldı pozam, lənət şeytana. O cəvizdərin içində, cəviz ağacında kədoy bitip.

Bu naşükür bəndə deyir:

– Ə, bunu kim əkib ora?

Bu şükürrü bəndə deyir:

– Heş kim əkmiyib, yəqin elə quşun-zadın dimdiyinnən düşüb da. Burda kim əkib ki, çölün düzündə?

Naşükür bəndə uzanır yerə arxası üsdə. Əlin verir dayanır, söykənir heybəsinə.

Deer:

– Pay dədəm, ağacın yekəliynə bax! Gətirdiyi cəviz ağacının boyuna bax! Bu saplağın boyuna bax! Tağ sürə-sürə gedib cəvizin içinnən sallanıb, bəlkə üçüz, dördüz.[214] Bu nədi, ay Allah, bu nətər şeydi? A bu nədi deyəndə, ordan bir cəviz düşür düz kişinin gözünün üsdünə. Gözü burdan çıxardır, üz-gözü olur qanın içində. Cəviz də elədi, tamam dəymiyib, yəni onda yaşdı, ağır olur. Ucu da miz olur da, cəviz ağacının aşağı tərəfi.

– Vay gözüm, vay çıxdı, vay çıxdı, öldüm.

Ta dosdu bilmir neynəsin. Heybədən, sufranın qırağınnan, çörəy yediyi sufranın qırağını cırır, gözünə basır. Neyniyir olmur.

Deyir:

– Bilirsən, Allah səni necə cəzalandırdı? Bə sən niyə Allahın işinə əl aparırsan, o cəviz belədi, kədoy belədi. İndi gördün, di dur ayağa, dur ayağa, gedəh.

Durur, gözün tutur, deer, heş işdiyəmmərih. Səni aparım qoyum evə, mən də çıxım gedim. Gedillər yol boyu gəlillər, gəlillər bir də görüllər ki, bir leysana düşdülər. Yağış tutdu bunnarı. Yağış, soyux, küləy, fırtına... qayıdır ki, şükürrü bəndə deyir:

---

[214] üçüz, dördüz – üç-üç, dörd-dörd

– Allahımız, sana min şükür, burda günəşdi, rahat, sakit havadan çıxdıx, məsləhət sahibisən, saa şükür, gəldiy bu tufana düşdüy. Min şükür, gözmüzü çıxartsan, nə çarəyih?

Qayıdıb gözü çıxan deyir:

– Sözü maa vurursan?

Deer:

– Yox, saa niyə vururam? Yəni Allahın işidi, da neynəsə biz onun quluyux.

Deyir ki, mən nə qələt elədim, mən ta bunnan belə Allahın işinə qarışmayacam. Bax belə dedim, bir damcı cəviz mənim gözümü nə günə qoydu.

**II mətn**

İki kişi olur. Bınnar bütün ili işdiyillər ki, əvlərinə, balalarına çörəy aparsınnar, urzuları bol olsun, züriyyəti korrux çəhməsin. Çöldə ot biçillər, taxıl əkib becərillər, biçillər, torpağ şumnuyullar, mal-qara, davar otarıllar, öküz haylıyıllar, bir söznən, kəntdə işdərin hamsın görüllər. Bir gün genə çox işdədilər, günortuya çıxdılar. Böyüy bir çəviz ağacın altında oturdular. Heybələrin, buxcaların aşdılar, Allah verənnən başdadılar yeməyə. Yayın son aylarıydı, əmə çox isdiydi. Çəviz ağacı çox qollu-budaxlıydı, başın qoymuşdu yerə. Bı iki dos çox yorğunuydular, həm də hava bərk isdiydi. Yaxşı dincəldilər, dəsdəmazdarın alıb namazdarın qıldılar. Kişiin biri əlləriin qulağına qoyup "Allahu Əkbər, Allahu Əkbər", – deyib göyə baxanda çəviz ağacına baxdı. Namazın qılıb qurtardı.

Yoldaşına dedi:

– Allah şeytana nələt eləsin, bir yuxarı bax. Mən də namaz qılanda gördüm, az qala namazımı pozacaydım, nələtdiy şeytan.

Dostu dedi:

– Booy... o nədi həylə?

Kişi dedi:

– Kədoydu da, nə olacax.

Hər ikisi gəldi çəvizin dibinə. Kötüy o qədər yoğunuydu, iki qol çatmazdı ona. Gördülər ki, bir dənə kədöy çəvizin dibinnən çıxıb sarınıb çəvizə, tağ sürə-sürə çəvizin qol-budağınnan sallana-sallana yarpaxlarına qədər gedib.

– Ədə, bı kədoy bıra nətəər düşüb?

– Kədoyu bırda əkən olmuyub, quşdarın hansınsa dimdiyinnən düşüb, göyərib.

– Allahın işinə bax, bir kədoy dənəsiin göyərib ağaca sarınmağına bax, gətirdiyi məhsula bax. Allah, səni tanımıyana nələt.

Kədoylar qarpız boydadılar, çəvizin hər tərəfinnən sallanırdılar. Dosdu yuxarı baxa-baxa dedi:

– Bı boyda çəvizin meyvəsin balacalığına bax, bı sap boyda kədoyun gətirdiyi meyvəsiin bööhlüyünə bax.

Elə bı dəmdə çəvizin biri ağaşdan qopub bıın düz gözünə düşdü. Kişi başdadı qışqırmağa:

– Vay gözüm, gözüm çıxdı.

Kişi tez dosdunun gözünə baxdı ki, nəə... aşıx boyda çəviz kişiin üz-gözün yaralıyıb. Tez dəstərxaan qırağınnan cırıb islatdı, qoydu gözünə, üz-gözüün qanın sildi, təmizlədi, dedi:

– Uzan bir az, dincəl.

Heybələri yumurruyub dosduun başın altına qoydu:

– Qardaş, Allahın işinə barmax aparmağ olmaz. Höküm Allahındı, görsən, bi damcı çəviz səni nə günə qoydu, gör indi kədoy başaa düşsəydi, nolardı. Şükür eləməy lazımdı, Allahı tanımıyana nələt.

Ta işdiyə bilmədilər. Kişi dedi:

– Qardaş, dur, veş-meşokumuzu yığax gedəy, sən də get yat.

Dosdunu qaldırdı, heybələri də asdı çiyninə, yola düzəldilər. Qəfildən hardanşa yağış, küləy gəldi, şimşəy çaxır, elə bil, bayaxkı hava dəyil. Şükürrü kişi gənə Allaha duva elədi:

– Saa min şükür, Qadir Allah, bircə dəyqəən içində hava döndü, bayaxkı isdi günə bax, indiki tufana bax, nə çarəyiy səən altında çəm-xəm eliyəy. Daşa döndərsən də şükür, gözümüzü çıxartsan da, şükür.

Yaralı kişi inilliyir:

– Mən qələt eylirəm bir də Allahın işinə qarışıram, bir dəfə qarışdım, gözümü çıxartdın, tooba, tooba bir də ağzımı açıb danışsam.

Dosdu dedi:

– A kişi, saa kim deyir danışma, danışığaa fikir ver, gör nə danışırsan. Öz işinnən məşğul ol, cütcü babasan, başıı sal aşağı, çörəyii qazan, züryəti dolandır. Allaha şükür elə.

Allaha şükrannığ adamın gərəy qanında, qəlbində ola, əyər bı yoxsa, heş nə.

## DOZANQURDU YEYƏN KİŞİ

Dəmirqapı Dərbənddə bir kişi yaşıyırdı. Bu kişi çox yaşdı da dəyildi, otuz-qırx yaşında olan bir kişi idi. Çox lovğa, qudurqan, ayağı yerin, gözü ayağın altını görmüyən bir adam idi. Yəni məhlədə, kəntdə, o ərazidə, o məmləkətdə heş kəs bu kişini səvməzdi. Ona görə ki, çox qudurğan idi, harın idi. Bir-iki baş heyvannarı var idi. Bınnan qudururdu. Bir söznən, təzə qaloşdar giyərdi, qaloşdarı parıldadırdı. Bütün günü kənd arasında qaloşdarını silərdi və bı da heş kimə xoş gəlmirdi. Adam vardı ayax yalın gəzirdi, adam vardı çörəy tapmırdı. Bu kişiin bir də bir xasiyəti vardı ki, dozanqurdu dediyimiz Allahın həşəratı, (Bına biz qara pıspısa da diyəriy. Qarabəniz qızdara, nə bilim, uşaxlara qara pıspısa diyəriy. Dozanqurdu qara pıspısadır. Abdulla Şaiqin nağılı var, “Tıqtıq xanım”.

Həmin Tıqtıq xanımdı). Bı qara pıspısanı, dozanqurdunu harda görərdi, bu kişi əzərdi. Onnan irgənərdi. Harda görürdü əzirdi, donqulluyurdu onun dalısıyca "məəm zəhləm gedir sənnən, sən niyə gəlib məəm qabağıma çıxırsan?" Bıın üçün də məhlədə bını görən arvad, kişi hamı onnan zəhləsi gedərdi. Arvatdar hələ qarğış da tökərdi, diyərdi: "Allah havaa alsın!", "Burnun avılsın!", "Hələ duza gedirsən, get duzdan gələndə kefii soruşacıyıx", "Burnun dəyəcəy bir gün divara, avılanda diyəciyih". Uzun sözün qısası, bı kişi bı minvalnan öz həyatın yaşıyırdı, belə qudura-qudura. Bir gün bu kişi ağır xəsdəliyə düşdü. Saraldı, soldu, yeməy yemir. Ayax üsdə bi-iki ay çəhdi, axırı düşdü yorğan-döşəyə. Xəsdəliyinə heş kəs əlac eliyə bilmədi. Oğlu, qızı, dədəsi, anası, tayfa – hamısı töküldü gəldi. Heş kəs bıın dərdinə əlac eliyə bilmir. Yanı çox adam da marax göstərmirdi. Deyirdilər ki, elə zavalını bulub da, heyvannarın canı qutardı bı kişidən. Nəysə, axırı bir qonşu məmləkətdən bir loğman çağırıllar, gəlir, bu kişiyə baxır. Baxır, ancax o qədər təəcübnən baxır ki, bına. Deyir ki, səən nələrdən zəhlən gedir?

Deyir:

– Nə bilim.

Ta danışa bilmir.

Deyir:

– İndi mən saa bir dərman diyəcəm, sən bu dərmanı eləsən sağalassan, eləməsən öləssən. Ölməyəə də bir neçə gün qalır.

Xəsdənın sahıbları deyir ki, nədisə, denən da.

Deyir:

– Bıın xəsdəliyiin dərdi dozanqurdudu. Dozanqurdu yeməsə, öləcəhdi.

Bu loğman da çox bilici idi. Yanı bütün hər yerə səs salmış bir savatdı loğman idi. Xəsdəən qulağına fısıldadılar ki, bə dərdin dozanqurdu. Üzün, gözün qırışdırdı, qolu, əlini, ayaxlarını yel-

ləməyə hayı yox idi, o qədər zəyifləmişdi. Elə ürəyində fikirrəşdi ki, Allah, saa qurban olum, mən nə qələt eləmişəm ki, indi günnərnən, saatlarnan öldürdüyüm dozanqurdunu maa dərman elədin. Mən onu yeməliyəm. Nəysə, loğman məsləhətini verib getdi. Qaldı aylə arasında fikirləşillər. Bu kişi dozanqurdunu yeməy isdəmir. Adamnarı da, ayləsi də, qohum, əqraba da deyir:

– Ay bala, gözu yum, qoy ağzaa. Ye, dur ayağa da day. Bir də dozanqurduynan işin olmasın. Görsən, Allah saa bını ibrət elədi ki, bir də heyvannarı öldürmüyəsən, camaatnan gobud davranmıyasan, mehriban olasan. Allahın altında sən heş nəsən. Allahın qulusan, bəndəsisən. Niyə artıx hərəkətdərə yol verirsən? Niyə Allahın yaratdığı heyvanı öldürürsən? O heyvana sən can verə bilirsən?

–Yox.

Uzun sözün qısası, getdilər qohum, əqrabası küçədən, bacadan (Adətən bu dozanqurdu da zibilin-zadın, mal zibilinin, yanı təzəyin-zadın içində olar, onnarı deşəliyər) gedib bir-ikisin tutub gətirib qoydular qaba. Elə qaba qoyullar, dozanqurdu qabınnan qalxır. Qalxa bilmir axı, o adətən torpaxda yaşıyır. Sürüşür, bir də düşür qabın içinə. Kişi dönür baxır, ölür də. Yanı ölür bir xəsdəlihdən ölür, bir bını yeməhdən ölür. Necə yeyim? Nəysə, axırı bına yedirdillər. Yeyir, bir neçə günə qalxır ayağa. Ta kişi qələt elədim ərizəsini verir. Allahın qarşısında günahlarını bilmirəm yuya bildi, yuya bilmədi. Allah bilər. Allahın qarşısında o qədər dualar elədi ki, Allahım, mən qələt eləmişəm, səhvliy eləmişəm. Bir də səən yolunnan azıb şeytana uymuyacam.

Uzun sözün qısası, bir gün qəfildən yenə yağış yağır, küləy əsir. Sel suyu kəndi, evləri basır hamının. Həmin bı kişiin də əvi, eşiyi dolur suynan. Arvadı qışqırır ki, a kişi, niyə tərpəş-

mirsən? Tez elə, nə bilim, Allaha yalvar, suyu boşalt. Sel, su əvi-eşiyi basdı. Kişi deyir:

– Yox, mən Allahın işinə qarışa bilmərəm. Bir dəfə Allahın işinə qarışdım, Allah məni elə cəzalandırdı ki. Ona görə Allah bilən məsləhətdi. Neyniyər, qoy olsun.

## RUZUMU ALLAH BACADAN TÖKƏCƏK

Bir kişi çox tənbəl olur, işdəmir, eləmir. Arvad bını gündə dannıyır ki, get işdə. Kişinin heş vecinə deyil, bı qulağınnan alır, o biri qulağınnan ötürür. Bir müddət belə keçir. Kişi göör ki, arvad üzə durup, əvdə söz-söhbət qutarmır, başdadı arvada hirsdi-hirsdi söyləməyə:

– Ay gorbagorun qızı, bəsdir da zəhləmi tökübsən. Harda işdiyim? İş tökülüb küçələrə? Məən urzumu Allah bacadan tökəcəy.

Arvadın bı sözdən soora cin vırır başına:

– Bax xalxın kişilərinə, gör nətəər əv-eşiy saxlıyıllar, balaların əyni-başı şık-şık şıkkıldıyır. Bax, saa deerəm, işdəməsən balalarımı götürrəm gedəm dədəmin xarabasına, səndə qal bı xöşəy əvində, Allah bacadan töhsün, səndə ye, baxtavar məəm başıma, yarımışam daa...

Kişi gördü ki, əvdə hal-əhval qarışır, başdadı fikirrəşməyə ki, mən kopolu nətəər eliyim, arvadın səsini kəsim. Axır bir qərara gəldi, arvadı səsdədi:

– Ay arvat, ay arvat.

Qaşqabaxlı çımxırdı:

– Nə deersən?

– Arvat, maa çörəydən-zaddan qoy, geerəm işdəməyə.

Arvat başdadı deyinməyə:

– A kişi, zarafat eliirsən? Gedim divara çöp sancım,[215] yarımışam da, gedir işdəməyə, Fərəzəni fət eliyəcəy, qoduğu da biryan.[216]

Kişi qışqırdı:

– A mürtədin qızı, az zəvzə[217] da, bir xeyir-duva ver da, noolar.

Kişi axşamnan yatdı, səhər tezdən durub xurcununu asdı çiyninə, əvdən çıxdı. Axşam əliboş qayıdır.

Arvad deyir:

– A kişi, bə səən pulun hanı?

Deer:

– Ayın başında verəcəylər, məəm urzum bacadan töküləcəy.

Bir gün belə, beş gün belə, kişi səər gedir, axşam əliboş gəlir. Gələndə də deer:

– Məəm urzum bacadan töküləcəy.

Bir gün arvad kişi paltarı geyib kişiin dalıca gedir. Görür, kişi bir dərədə əlinə ağac alıb ordakı tikannarı qırır, deer:

– Arvad maa eliyir, mən də saa eliyirəm.

Arvad kişi paltarı geyib ərini pusur, genə də deer:

– Məəm urzumu Allah bacadan tökəcəy.

Bir gün kişi genə tikannarı qıranda qıçı bir daşa dəyir, belə baxanda göör ki, daş yerinnən tərpəşir, altınnan bir şey parıldıyır. Baxır nəə... bir küpə qızıl. Ətrafa göz gəzdirib göör ki, heş kim yoxdu, oğrun-oğrun daşa işarə qoyub gəlir əvə, arvadına deer ki, arvad ağa, başıma nə gəldi, qulağ as. Bınnarı arvada

---

[215] Gedim divara çöp sancım – Birindən gözləmədiyin söz eşidəndə, yaxud iş görəndə kinayə ilə işlədilən cümlə.

[216] Fərəzəni fət eliyəcəy, qoduğu da biryan – Fərəzəni fəth eliyəcəy, qoduğu da biryan. Zarafatla işlədilir. Kiçik işin böyük təqdimatı. Bir şeyi şişirtmək.

[217] zəvzəmək – boş-boş danışmaq

deyəndə sən demə, qonşu da bınnara gəlirmiş, kişinin dediylərin eşidib. Arvad deer ki, a kişi, yeri yadında qalıb?

Kişi deer:

– Bə nətəəri ki, yadımda qalmasın. Filan yerdə, üsdünə də filan şeydən işarə qoymuşam.

Saa kimnən xəbər verim, qonşudan, bı sözü eşidib dərhal qayıdır əvinə. Səhərə qədər ilan vıran yatır, qonşu yatmır. Səəri gözdüyür, durup qaçır kişiin dediyi yerə. İşarəni tapıb daşı qaldırır, küpün ağzın açır ki, nəə... ilan, çayan. Tez ağzın örtür, deer, it oğlu it, kopoolu, gətirib bınnarı haa gör başaa nə oyun açacam.

Küpəni gətirir əvlərinə, gecə olanda çıxır qonşunun damın üsdünə, küpəən ağzın açır, ilan-qurbağa bildiyin, bacadan əndərir kişiin əvinə.

Kişi deyir:

– Arvat, gəl dedim saa, məəm urzumu Allah-taala bacadan tökəcəy.

Qonşunun gözünə görünən ilan-çayan ta demə, qızılıymış. Kişinin başına bacadan tökülür. Qonşunun hərəkətdəri Allaha xoş gəlmir, kişinin qismətinə yazdığı qızıllara saab durmax isdiyir. Ona görə də qızıllar oon gözünə ilan-çayan kimi görünür. Paxıllığ pis şeydi, paxıl artmaz. Bı əhvalatdan bı məsəllər yadigar qalıb: "Paxıl artmaz", "Urzumu Allah bacadan tökəcəy".

## ALLAHIN DOSTU

Biri varmış, biri yoxmuş, bir əməli-saleh kişi varmış. (Bı nağılı anam danışardı həmişə). Bı kişinin çoxlu balaları var idi. Küfləti böyügüydü, yükü böyügüydü, ağır idi. Ayləsi, uşağı da çox ədəbli-ərkannıydı, tərbiyəli balaları var idi. İbadətnən, itayətnən böyüyərdilər. Allah bı kişinin urzasını o qədər

vermişdi ki, urza başınnan aşırdı. Axşam arvadı çuvaldan unu götürüb xəmir eliyərdi. Sabah çuval dolu olardı. Bı kişi o qədər əməli-saleh kişiydi ki, evində nə var, paylıyırdı qonuma, qonşuya. Bir gün əlini qaldırıb Allaha yalvarır ki, mənim ruzimi, bərəkətimi azalt, bir az ver o əskiy olan insannara, qonşulara. Ruzim özümüzə bəsdi da. Allah-taaladan səda gəlir ki, ay Allah dosdu, sənin ki belə gözəl ürəyin var, gəl saa bir məsləhət eliyim. Səən ruzini çəkəcəm göyə, bir şərtnən. Yoldaşın quru lavaş yapsın, versin uşaxların əlinə. Uşaxların əlində quru lavaş, ötürün eşiyə, bacaya. Gessin, harda gəldi yesinnər, onnan sora səən ruzun azalcaxdı. Kişi deyir:

– Baş üsdə.

Gəlir evə, arvada deyir ki, bə bir çuval quru lavaş yapırsan, qupquru olur. Deyir:

– Niyə, a kişi?

Deyir:

– Yap da, Allaha qurban olum. Allahın belə bir ismarışı var maa.

Deyir:

– Yaxşı.

Arvad durur obaşdan, xəmir eliyir, lavaşa başdıyır. Lavaşdar hazır olub çıxana qədər kişi gedir (on iki-on üç uşağı var), hamısının sayına görə önnük hazırrıyır. Uşaxların ortasına önnük bağlıyır. Çörəy hazır olanda uşaxları çağırır təndirin başına. O quru lavaşı da götürür, yekə tabaxda əzir. Hərəsiin önnüyünə o quru lavaşdan doldurur. Uşaxlara deyir:

– Gedin, küçədə yeyin. Ancax bir şərtnən ha, yeyəndə ağzıız önnüyün içində olsun. Bir dənə yerə çörəy düşməsin. Allah gözüüzü çıxardar.

Uşaxlar da deyir:

– Baş üsdə, ata.

Kişi bı minvalnan Allahın dediyini eliyir. Uşaxlar da yeyir, qayıdıllar əvə. Axşam yenə Allah tərəfinnən sifariş gəlir kişiyə ki, ay Allahın dosdu, bəs sən dedin, mənim ruzum azalsın, mən də dedim, belə elə. Sənin ruzun nəyinki azaldı, sənin ruzun birə min artdı.

Dedi:

– Niyə, Allah, saa qurban olum?

Dedi:

– Ona görə ki, sən əməli-saleh adamsan. Mən saa dedim ki, uşaxlar gedib çöldə-bayırda yesin, çörəy düşsün ayağ altına, günaha batasan. O günahın müqabilində səən çörəyin, ruzin azalsın. Çəkəcəydim göyə. Ancax sən çörəyə sadiq oldun, şükrannı bəndəsən. Ona görə də səən ruzun birə-beş artdı.

## DƏMİRÇİYƏ QİSMƏT OLAN VAR-DÖVLƏT

Bir kişi olur, bu çox varrı olur. Bir gün bı kişiin arvadı ölür. Kişi deer ki, mən bı qədər var-dövləti neyniyəcəm? Nə oğlum var, nə qızım, nə də arvadım. Gedir rəmmalın yanına, bir rəml atdırır. Rəmmal deer:

– Sənin var-dövlətin bir dəmirçiyə qismət olacax.

Kişi gəlib fikirrəşir, deer, var-dövlətimi heş kimə vermiyəcəm, nə də torpağı. Nə var-dövləti varsa, hamsın çəvirir qızıla, bir çəliy alır, yığır oon içinə. Altınnan da dəmir atdıx[218] vırır. Deer, öləndə deyəcəm çəliyimi də məən qəbrimə qoysunnar. Kişi çəliyini alır əlinə, gəzməyə çıxır. Bir qurumuş çaydan keşməli olur. Oturub bı daşdarın üsdündə isdiyir buxcasın açıb bir tikə əppəy

[218] atdıx – altlıq

yesin. Bir də göör ki, çay gəlir, nə gəlir. Özünü ancax atır qırağa, çəliyi su götürüp aparır. Düşüb çay boyu gedir.

Sizə kimnən deyim, aşağı kəntdə yaşayan dəmirçidən. Bı dəmirçi oğluyla birgə işdiyirdi. Gündəliy əppəy pulunu ancax çıxarırdıllar. Bir gün dədə-bala işdədiyləri yerdə körüyün ağacı qırılır. Dəmirçi oğluna deer:

– Get bir düz ağaç kəs, gəti.

Oğlan gedir ağaş kəsməyə. Düz ağaş tapbır. Gəlir çayın qırağına, ora baxır, bıra baxır. Bir də göör, çay çoxlu çör-çöp, ağaş budağı gətirib. Bıın da üsdündə bir gözəl ağaş var, əl atır götürməyə, göör ki, bı bir çəliydi. Çəliyi gətirir əvlərinə, qoyur qapıın dalına, ayrı ağaş kəsib aparır dəmirçixanaya. Gedib göör ki, dədəsi yoxdu. O ağacı da götürüb qayıdır əvlərinə. Əvə çatanda göör ki, dədəsi anasın döyür. İçəri girir ki, nolub?

Dədəsi deer:

– Nə var, nolacax, anaan oynacı var. Kişi gedəndə çəliyi yaddan çıxıb qalıb qapıın dalında.

Oğlu hirsdi-hirsdi deer:

– Ay dədə, ayıbdı, çəliyi mən çaydan tutub gətirmişəm.

İndi də sizə çəliy saabınnan deyim. Həmən kişi çay boyu gəlib çıxır dəmirçi olan kəndə. Soruşur ki, bırda dəmirçi var?

Deyillər:

– Odu bax, oradı əvləri.

Gəlir dəmirçiin əviin yanına. Həmən vax dəmirçinin oğlu dədəsinə hirsdənib çıxır eşiyə, göör ki, bir yad adam durub. Yaxınnaşır deer ki, sən kimsən, nəçisən, nə axtarırsan?

Kişi deer:

– Mahacirəm,[219] qalmağa yerim yoxdu, Allah irzasına qonax eliyərsən?

---

[219] mahacir – mühacir

Oğlan deer:

– Qonax Allah qonağıdı.

Bı, qərib kişini əvə gətirir. Kişi içəri girəndə çəliyin görüp tanıyır, fikirrəşir ki, düz gəlmişəm. İlahi, yazıya pozu yoxdu.

Allah verənnən yeyillər, içillər, ordan-bırdan söypət eliyillər. Dəmirçiyə başına gələnnəri kişi deer.

Deyir:

– Bax, o çəliy varım-dövlətim olan çəliydi.

Deer, bir dəstərxan gətirin. Gətirillər. Çəliyin dəmirin çıxardır. Deer ki, sizə çatacax, halal xoşunuz olsun. Arvad kişiyə, yanı dəmirçiyə işarə eliyir.

Dəmirçi deer:

– Noolub, nə deersən?

Arvad deer:

– Heç olmasa, yarsın ver kişiyə.

Dəmirçi deer:

– Niyə veerəm? Ona yalvarmadım ki, maa qızıl ver. Vermiyəcəm.

Səhər olur, kişi durur getməyə. Arvad ona üş-dört bökən bükür bir dəsdərxana. Deyir:

– Qardaş, yolda açarsan.

Əpbəyin içinə də bir avıc qızıl tökür ki, bə bı bütün var-dövlətini bizə verdi, birdən lazım olar. Kişi dəmirçinin əvinnən bir az aralanır, baxır ki, başmağı cırılıp. Başmağı götürüb gəlir pinəçinin yanına, başmağın tihdirir. Əl atır cibinə, baxır, pulu yoxdu. Pinəçiyə deyir:

– Nəyə işdiyirsən?

O da deyir:

– Bir qarın əpbəyə.

Deyir:

– Məən pulum yoxdu, əmə bırda üş-dört dənə əpbəy var, onu verim.

Pinəçi razılaşır, əpbəyi alır, axşam əvə aparır. Pinəçinin arvadı deyir:

– A kişi, o nədi?

Deer:

– Əpbəydi.

Pinəçinin arvadı deer:

– Dəmirçinin arvadınnan borc əpbəy almışam, aparım verim.

Buxcanı qoltuğuna vırıb apaar dəmirçigilə, deer:

– Bacı, sənnən əpbəy almışam, dedim elə oon verim, gedim.

Dəmirçinin arvadı pinəçinin arvadıın əlindəki buxcanı görən kimi tanıyır. Arvad quruyub qalır, fikirrəşirdi ki, Allah, bı nə sirrdi?

Pinəçinin arvadı genə deer:

– Bacı, al, əpbəydi, borcuu qaytarmağa gətirmişəm, sənnən əpbəy almışdım.

Arvad buxcaan alıb açır ki, elə töhdüyü qızıllar da əpbəyin içindədi.

Deer:

– İlahi, saa qurban olum, yazıya pozu yoxdu.

## AĞILLI KİŞİNİN SÖHBƏTİ

Deməh, bunu babam nağıllıyırdı. Babam nağılladığına görə, (indi qardaşdarımnan soruşuram, onnar deyir, bunnar bizim yadımızda dəyil) bu ağıllı kişinin söhbətində bu yol gedən kişi ya Bəhlul Danəndədi, ya da bu İbn Sinadı. Babamın dediyinə görə bunnarın biridi bu yolu gedən. Bının görünüşü, savadı, geyimi-kecimi diqqəti cəlb eliyir. Yolnan gedir. Qabaxdan da bir kişi gəlir. O da bunnan geri qalan dəyil. Bəlkə də bunnarın iksin qarşılaş-

masıdı, yanı bunnarın iksin də adın babam çəkibdi. Mən qeyd eləmişəm, ancax anşıdammıram[220] hansı biridi. Bu qarşıdan gələn də geyimli, kecimli, görkəminnən bilirsən ki, bu da savatdıdı, filandı, gəlip qarşılaşıllar.

– Salam əleykim!

– Əleykim salam!

Bu ikinci yolu gəlip birinciyə qarşılaşan deyir:

– Ay yolçu, görürəm ki, söz xiridarısan. Görürəm ki, ağıllı adamsan, dünya görmüsən, saa bir sual verəcəm.

Kişi deyir:

– Ver gəlsin, qardaş, ürəyin nə isdəyir, ver.

Deer:

– Bu dəyqə maa heyvanın pisini, adamın pisini, meyvənin pisini, məkanın pisini söylə.

Deer:

– Mənim gözüm üsdə.

Deer:

– Söylə, sora da açmasını de.

Deer:

– Baş üsdə, mənim gözüm üsdə.

Deer:

– Bir kürd, qabağında eşşək, əriynən yühlü gedir dağa, yaylağa.

Deer:

– İndi açmasını de.

Deer:

– Açmasını deyirəm. İnsanın pisi kürt. Ayı qandı, kürd qammadı. Kürd nə qanır bayramı, hor-hor içir ayranı. Kürdün başına döy, denən ki, ay bala, bu yol belə dəyil. Sən gedirsən, qayadan

[220] anşıdammıram – tam xatırlaya bilmirəm mənasında işlədilib.

düşəssən, nə bilim, canavar səni yeyəcəh, qurt basacax. Deer, yox e, elə mən deyəndi ki, mən deyəndi. Kürd insanın pisi.

Heyvanın ən qanmazı, qabırğası qalını eşşəydi. Eşşəy çalışqandı, üsdü dolu olar həməşə veşinən. Saabı qatır bunu qabağına əlində ağacınan. Düz yolu qoyar eşşəy gedər sıldırıma, keçilməz yollara. Saabı ha bunu keçər düz yola, eşşəy bildiyini dədəsinə də verməz. Əziyyət verər saabına. Ona görə də kürəyi həməşə ağaşdıdı.

Meyvənin pisi əriy. Əriy yaxşı meyvədi, yaxşı tərəfləri də var. Ən pisi odu ki, dağ yerində, yaylaxda, təbibi, loğmanı olmuyan yerdə beşini, onunu ye, üsdünnən də soyux bulağ suyu iç. O, sənin məzarını həmin günü qazır. Əriyin belə xüsusiyətdəri də var.

Məkanın pisi dağdı. Dağ gözəldi, yaylağa çıxarıx, malımızı, davarmızı saxlıyarıx, məhsulumuzu yığıb gələrih. Ancax dağın bir belə çətinniyi var, pisdiyi var ki, kimi qara sancıdan ölər, kimi eşşəy vurar, kimi dağdan yıxılar, kimini ilan vırar, heş bir yerə çatmaz, elə orda da tutan orda da ölər.

Həə... Sora deyir:

– Sağ ol, qardaş.

Əl-ələ verillər, görüşüllər hərə öz yoluna davam eliyir. İki ağıllı kişinin söhbəti budu. Ancax bilmirəm Bəhlul Danəndə bunun hansıdı, İbn Sina hansıdı. Bilmirəm həqiqətən olmuş şeydi, ya bunnarın ağılna görə rəvayətdər yaranıbdı.

## ATA VƏ OĞUL

Bu ata və oğul söhbətini də babam eliyərdi. Bir evdə üş nəsil yaşıyar, ata, oğul, nəvə. Bir gün ata həyətdə səbət qayrır, evdə də xəsdə atası yatır. Tez-tez çağırır arvadını ki, atama yeməy ver, atama bunu ver. Gəlin də bezib canınnan, kişiyə, yəni

qaynatıya baxmağ isdəmir. Bu da oğlun gözünnən yayınmır, nə arvatdan keçə bilir, nə atadan keçə bilmir. Ata xəsdə, altını təmizdə, üsdünü yu, hər gün də neçə dəfə bunun paltarını dəyişdir. O dövürdə xatir varıydı, hörmət varıydı. El ağsakqalları, hamı gəlir xəstənin yanına, baş çəkir. Əlbətdə ki, bunu urvatdı eliyib üzə çıxartmax, təmiz saxlamax hər qadının, hər aylənin işi dəyil. Oğul atanın altına, üsdünə baxa bilmir. Gəlin də belə, gah baxır, gah baxmır. Oğul fikirrəşir, həyətdə səbət toxuyur. Oğlu gəlir yanına ki, ay dədə, nə qayrırsan?

Deyir:

– Bala, hələ bilmirəm nə qayrıram, səbət toxuyuram. Ancax səbəti çox böyüh toxuyur.

Uşax deyir:

– Ay dədə, sən bu boyda səbəti neynirsən ki? Eyvanımızda səbət, tavlamızda səbət, nə bilim, samannığımızda səbət... Buna nə yığacıyıx? Buğda yığacıyıx? Buğda saxlamır axı. Səbətin arası açıxdı.

Nə isə. Səbəti toxuyub qutarır. Deyir:

– Oğlum, indi biləssən mən neynirəm.

Gedir səbətin içinə bir dənə köhnə kilim açır, qoyur bir uca yerə. Gedir dədəsini gətirir, oturdur içində.

Uşax deyir:

– Ay dədə, sən onu neynirsən ki? Bə atanı hara aparırsan?

Deer:

– Oğlum, əlacım yoxdu. Anan baxmır, aparıram babanı. Harasa qoyam gələm.

Uşax deyir ki, ata, onda aparıb səbəti ora qoyma babamnan. Səbəti qaytar gətir bura, maa.

Deer:

– Niyə, bala?

Deer:

– Ona görə ki, vax gələcəh ki, səni də mən aparıb qoyacam ora.

Kişi uşağın sözünə baxmır. Fikirrəşir, uşağın sözündə bir həqiqət var. İyirmi, otuz ildən sora bu da yaşa gələcəh, ancax dayanmır. Gedir, gedir, uzax yerə. Gedir bir qayanın ətəyində oturur, səbət dalında. Ata da o qədər yaşdaşıb, zəyifliyib, qocalıb. Yaşdan çox baxımsızdıxdan əriyir də bədən. Elə orda zarıldıyır. Dədəsini götürür, qoyur qayanın yanına. Səbəti də götürüb gəlməy isdiyir. Gəlir, yolda bir də peşmannıyır, qayıdır gəlir götürür bir də dədəni.

O elə bir dövran idi ki, o dövürdə ölüm yoxuydu. İnsannar qocalardı, əriyərdi, torpağa qarışardı. O, orda qoxardı, bu burda qoxardı. Bax, belə bir dövranıydı.

Kişi götürür dədəsini, bir də səbətə qoyub qaytarıb gətirir evə. Uşax yenə çıxır. O, çox ağıllı uşağıymış. Dədəsinnən də ağıllıymış, babasınnan da. Bu gələcəyi – qırx il, əlli il, sorakı dövrü gətirdi öz dədəsinin gözünün qabağına. Ona bir ibrət, həyat dərsi verdi ki, ay dədə, səbəti qaytar, çünki maa da lazım olacax, səni aparıb qoyacam ora. Qaytarıb gətirir.

Uşax deyir:

– Ay dədə, bə babamı niyə gətirdin?

Dedi:

– Bala, ürəyim gəlmədi. Bir də sən dediyin söz mənim zehnimdə qaldı ki, otuz ildən sora da sən məni aparassan.

Onnan sora insannar ağlaşdı ki, Allahım, neyniyək bə? Bu insannar qocalır. Ölüm yox, itim yox, qalır hamı, bir-birinə qarışıb, dünya ətdən ibarət olub.

Allah-taala bu zülmü götürmür. O vaxdan Allah tərəfinnən yer üzünə ölüm göndərilir ki, insannar qocaldıxca ölsün. Elə Azreelə də o vaxtı can almax işi düşdü. Allah qocalarmızı əldən-

ayaxdan salmasın. Elə cavan oldu, qoca oldu, heç kəsi bir-birinə möhtac eləməsin. Sağ gözü sola, sol gözü sağa möhtac eləməsin. Elə öz ömrümüzü əyax üsdə başa vurax. Amin, Allahım!

## DUZ MƏHƏBBƏTİ

Bu nağılın adı duz məhəbbətidi. Biri varmış, biri yoxmuş bir adil, ədalətli şah varmış. Bu şah öz məmləkətini çox gözəl idarə eliyərmiş, kasıb-kusubun qeydinə, qayğısına qalarmış. Eyni zamanda ailəsinə, uşaxlarına da vaxd ayırarmış. Bu şahın üş dənə qızı varmış. Bu qızdarın üçü də bir-birinnən ağıllı, kamallı, tərbiyəli imiş. Bir gün şah bu qızdarın çağırır yanına ki, ay qızdarım, gəlin oturun siznən, bir az söhbət eliyim. Ordan-bırdan söhbət eliyillər, keflərin soruşur. Qızdar da ataların o qədər çox isdiyirmişlər ki, biri başını sığallıyır, biri dizinə başın qoyur, biri atasının qolunun altına girir. Yanı övladdarına o qədər məhəbbət verərmiş ki, balaları da atasını şah kimi yox, bir ata kimin çox isdiyərmiş. Şah qızdarına deyir ki, mən sizi dünya qədər çox isdiyirəm, hər şeyimsiz siz məən. İndi siz məən nə boyda çox isdiyirsiz, nə kimi çox isdiyirsiz? Böyüh qız deyir ki, ay ata, mən səən yağ kimin çox isdiyirəm. Ortancıl qız deyir ki, mən səən bal kimin isdiyirəm. Balaca qız da deyir ki, mən səən duz kimi isdiyirəm. Şahın böyüh qızın yağ kimin, ortancıl qızın bal kimin deməyi buna xoş gəlir. Çıkqılı qızının duz deməyi buna acığ gəlir. İçində çox hirsdənir, ancağ üsdünü vurmur. Deyir, uşaxdı da yəqin. Uzun sözün qısası, deyir, yaxşı, bunu yadında saxlıyır, hirsdənir. Deyir ki, sən ki məni duz qədər isdiyirsən, mən səni normal bir adama ərə vermiyəcəm, saa cehiz-zad vermiyəcəm, kənt-kəsəy, heş-zad bağışdamıyacam saa. Elədihlərimi bu iki qızdarıma eliyəcəm. Şah elə belə də deyir, eli-

yir, kiçih qızı başdıyır xiffət eləməyə. Fikir eliyir ki, anası oon dannıyır, deyir ki, bala, eybi yox, vaxd gələcəh, atan başa düşəcəh ki, duz o yağdan da, baldan da irəlidi. Deyir:

– Yox e, ana, atam məən gözdən salıbdı, bacılarımı çox isdiyir. Məən gözümçıxdıya salıbdı.

Ana deyir ki, tələsmə, bala, vax gələr, atan səhvin başa düşər. Vax gəlir, qızdara bir-bir elçi gəlir. Böyüh qızı vəzirin oğluna verir, yaxşı dəm-dəzgah, toy, cehiz, kəntdəri, kəsəhləri, məmləkətdəri qızına cehiz verir. Ortancıl qızı başqa bir ölkənin şahına verir, ona da kəntdər, şəhərrər, torpaxlar bağışdıyır, yaxşı cehizdər, karvannarnan, kecavələrnən cehizdər verir, göndərir. Qızını arıyır, axtarır. Kiçih qızı da bir el sənətkarı isdiyir, alim həm də. Həm alimdi, yanı yaxşı təhsil görmüş bir alim, sənətkar. Əli də, beyni də qızıl olan bir insan isdiyir. Şah da elçi düşən kimi qızını çağırır yanına, deyir:

– Onsuz da səən fikrini soruşmayacam, elə səən yerin oradı. Get, səni verdim o sənətkara. Get ömrü boyu oon ocağında duznan əlləş.

Qız da aylə qurur, toyu olur. Dədə tərəfdən ona heç bir cehiz filan, ay məmləkət, şah qızıdı da torpax, kəntdər bağışdamax söhbəti olmur. Ancax qız gedir, (əri də ağıllıdı, özü də ağıllıdı) yaxşı aylə qurur. Üçü də doğur, törüyür, xoşbəxd olullar. Ata o iki qızıın həmişə dalınca kecavəynən payların göndərər, onnarı ərləri, uşaxlarıynan öz sarayına dəvət edər, ancax çıkqılı qızına əhəmiyyət verməzdi. Yəni, ümumiyətnən, qızını evinə, ocağına dəvət eləməzdi. Bir gün şah deyir ki, qızdarımın əvinə qonax gedəcəm. Qızın anası yalvarır ki, noolar seçmə, elə oon da ocağına get. Böyüh qızıın ocağına gedir, başın kecavəsiynən, dəminnən, dəzgahıynan, cah-cəlalıynan böyüh qızının əvinə qonax gedir. Qız gözəl sırfalar açır, xörəyi də çoxlu yağlı eliyir.

Çünki demişdi axı, ata, səni yağ kimin çox isdiyirəm. O yağdan da əlavə balaca-balaca qablarda, sürahi qablarda sırfıya yağlar qoyur. Ata yeyir, içir, bırdan könlü xoş ayrılır. Gedir ikinci qızıın əvinə. İkinci qız da demişdi axı, səən, ay dədə, bal kimin çox isdiyirəm. İkinci qızıın da əvində qəşəng yeyillər, içillər. Bu qız da sırfıya elə ara-ara ballar qoyur. Çünki demişdi, ata, səən bal kimin çox isdiyirəm. Yanı, ata, bu sırfa ona dəlalət eliyirdi ki, sən bizim ürəyimizdəsən, könlümüzdəsən. Ordan da yığışıb gəlillər üçüncü qızının ocağına. Üçüncü qızın əri də ağıllıdı, özü də. Qəşəng sırfalar açıllar, yeməy açıllar da, indi şah gəlir ocağına. Kiçih qız çox ağıllı imiş, həm də fənd işdədir. (Yanı hiylə deməh olmaz, hiylə pis mənada işdənir). Yanı bırda bir fənd işdədir ki, qoy atamın gözü açılsın. Qəşəng-qəşəng bişmişdər eliyir o da, qazannar asıllar. Ancax heş birinə duz vurmur. Xörəyləri bişirillər, düzüllər sırfaları. Ancax sırfaya duz qoymullar. Şahın dəsdəsi gəlir, yeyillər, içirlər. Elə birinci dişdə, ikinci dadda baxır ki, xörəyin duzu yoxdu. Əlaşdarı olmur, yeyillər. Qızını çağırır, deyir:

– Ay qızım, sırfaların qəşəngdi, qəşəng sırfa açıbsan, yaxşı naz-nemət düzübsən, sağ olun, yoldaşın da, özün də. Ancax bınnarın duzu yoxuydu.

Qız deyir:

– Ata, icazə verirsən qulluğunda əyləşim?

Şah deyir:

– Buyur.

Oturur atasının qənşərində. Deyir:

– Əziz atam, gözümün işığı atam, sən elə bildin, mən səən sevmirəm. Mən səni hamıdan çox sevirəm. Bax, o dediyim duz həmin budu. Bu boyda bişmişdər bişilib, naz-nemətdər düzülüb sırfıya. Ancax heş birinin duzunu atmamışam. Nəyə görə? Çünki mən səən duz qədər çox isdiyirəm. Duz o yeməylərə, o bişmiş-

dərə dad verirdi. Sən də bınnarı dadını bilməy üçün duz qoymadım ki, sən biləsən ki, mən nəyə işarə eliyirəm.

Atası qızı qucaxlıyır, öpür. Qız təzdən duz gətirir, düzür ortalığa. Təzdən orta qızışır, aralıx qızışır, təzdən yeyib içillər. Təzdən atası bu qızını, kürəkənini, (gəv diyərih biz havışdılar) gəvin də götürür gedir, yığışdırır aparır saraya. Təzdən bu xırda qızına qırx gün, qırx gecə toy eliyir, yeyillər, içillər, xoş, gözəl günlərnən yaşıyıllar. Nağılın axırında da belə diyəllər. Göydən üç alma düşdü. Biri mənim, biri sənin, biri qulağ asannarın.

## DAĞDAN AĞIR HÖT-HÖT BACININ NAĞILI[221]

Bir gic arvad olur, kişi ağıllı olur. Ər arvad elə ötüşürlər. Beş altı uşaxları var. Arvadın törətdiyi pis işdəri kişi yoluna salır, səhmana salır. Düzəliş verir ki, ta bəxdim, taleyim, qismətim belədi. Bir çətən küflətim var, hara boşayım bunu, ötürüm eşiyə. Bu arvad genə səf işdər görür, ev-eşiy kirin-pasağın içində, uşağların əyni-başı kir, pasaxdı. Gəlir çölçülüy, cütçülüy, xırman döyməy, məhsul yığmağ, hamısı kişiyə baxırdı. Arvat ev işdərinə baxmır. Bütün günü bulağların başında o arvadnan söhbət eliyir, bu arvadnan lakqırtı vurur. Əli də başınnan enmir, bütün günü qaşınır. Bir gün kişi gəlir, bunu belə görəndə arvadı döyür.

Deyir:

– Bəs, köpək qızı, tünbətünün qızı, mən səni nəyə almışam. Bütün günü çöllərdəyəm. Uşağlar kirin içində, gəlirəm yeməy, işməy yox,qazana, qaba baxmırsan.

---

[221] Söyləyicinin dediyinə görə nağıl Havuş kəndində uzun qış gecələrində bu adla danışılarmış. Əyilə-əyilə gəzən, yerişi normal olmayan qadınları “Aaz, o nə yerişdi, höt-höt bacı kimi gəzirsən. Yerişii düzəlt” deyə məzəmmət edirmişlər.

Nə isə... Bunu döyür, arvad küsür, gedir. Gedir kəndin kənarında bir kalafa evlərdə oturur, orda öz-özünə söylənir: "Evə gəlmiyəcəm, get neynirsən elə".

Yazığ kişi götürüb qab-qaşığ yuyur, xörəy bişirir uşağlara, bişmiş asır, ocağ yandırır, təndir salır, uşağın dolandırır. Bir gün axşama qədər arvad qalır kalafanın dibində. Oturub orda. Bir azdan baxır ki, bir pişik mavulduya-mavulduya gəlir. Bilmir də. Arvadın yanında fırrananda arvad deer:

– Gəlmə, mav-mav bacı, getmiyəcəm onsuz da. Səni göndərdi, gələn dəyiləm. O, məni belə döydü, elə döydü...

Elə bilir ki, kişi pişiyi göndərib bunun dalınca. Mav-mav bacısın yola salır, gedir. Hələ arvad deyinir. Bir azdan sonra bir it hürüyə-hürüyə gəlir. Kalafıya girən kimi arvad deer:

– Hav-hav bacı, indi də səni göndərdi. İndicə mav-mav bacını yola saldım. İndi də səni göndərdi. Get o köpəyoğluna denən ki, gələn dəyiləm ta o evə.

İt də hürüyür-hürüyür, qoyub gedir. Bu elə bilir, bunnan ötrü gəlib. Bir azdan sora arvad bir tapbıltı eşidir. Heş nə başa düşmür, ancağ gün batır, arvad qorxur. Deyir, Allah, bu nə tapbıltıdı, elə "dak-dak-dak", ağır-ağır yeriş gəlir. Gəlhagəl bir dəvə, üsdü dolu, karvannan ayrılmış, xurcunda nə yükdü bilmir də. Dəvənin yerişi də ağır, ayağın yerə qoyduxca da daşa dəyir kalafada dapbıldayır. Arvad vahimələnir, elə dəvəni görən kimi deer:

– Boyyy, öləsən səni, ay belə kişi. Mav-mav bacım gəldi, getmədim, hav-hav bacım gəldi, getmədim. İndi də dağdan ağır höt-höt bacımı göndərib dalımca.

Gedən dəyiləm deyir. Öz-özünə deyinir. Birdən dəvənin yükünə baxır. Elə bil, nəsə içinə işığ doğur ku, durum gedim də, qarannığ düşür. Durur dəvəni minir, afsarını yuxarı çəkir, gedir. Axşam qarannığ olduğuna (ta artığ kəndə girəndə də qarannığdı)

heş kim bunu görmür. Elə yavaş-yavaş, tapbıldada-tapbıldada gəlir özdərinin qapısının ağzına. Balaca bir taxda darvazaları var. Açır cırıltıynan, içəri girir. Kişi tavladan çıxır, mal-heyvan vaxdıdı, sağır. Çıxıb baxır, bu qarannığda bir şey tapbıltıynan gəlir ağır-ağır. Yaxına gəlir ki, arvad dəvənin üsdündə. Deyir:

– Allahım, dəlidən doğru iş. Qoy görüm, bu nə məsələdi.

Dəvəni görür kü, karvannan ayrılmış dəvədi. Kişi ağıllı adamdı. Görür kü, bu yüklüdü. Tez arvadı xoş-beşnən qarşılıyır:

– Ay arvad, xoş gəldin, sən hardasan? Səhərdən səni axdarıram.

Dilin salır işə ki, bəlkə arvad qışqır-bağır salmıya. Qonşuları bura tökmüyə. Deyir:

– Hə, nə göndəribsən? Bax, hav-hav bacı gəldi, gəlmədim. Mav-mav bacım gəldi, gəlmədim. Bu dağdan ağır höt-höt bacım gəldi, bircə onun xətrinə gəlmişəm, sənə görə gəlməmişəm.

Deyir:

– Hə, yaxşı eliyibsən, düz eliyibsən.

Arvadı keçirdir içəri. Deyir:

– Səni görən olmadı?

Deyir:

– Yox, niyə? Heş kim görmədi.

Dəvəni tez çəkir tavlıya. Yükünə baxır ki, hamısı doludu qızılnan. Barmağın dişləyir ki, bu karvannan ayrılmış dəvədi. Hardasa bunun sahibi gələcəh. Ona görə arvadı amanatdıyır ki, qoy heş nə bilməsin. Tez dəvəni çəkir tavlaya, qapını bağlayır, gəlir evə. Arvada xoş-beş, mehribannığ eliyir ki, arvad ağzın açıb zayıldamasın. Bunnarın çörəyin-zadın verir, eliyir. Arvad da, uşağlar da yatır. Gedir tavlıya. Bunun qızılın yığışdırır xurcunnara. Torpağı qazır, gecəynən bunu bassırır torpağa. Dəvəni gecəynən öldürür, doğrayır, yerbəyer eliyir. Ətin pörtdədir təndirdə. Yarı

ordan torpağa basırır, yarı burdan, izi itirir. Səhər olur. Durur, arvada deyir ki, arvad mən sənə toy eliyəcəm.

Deyir:

– Mən bu gün gedirəm bazara. Kim gəlsə, dəvə-zad soruşsalar, sənin xəbərin yoxdu. Mən sənə toy eliyirəm. Gedirəm sənə tuman-kofta almağa.

Gedir yaxınnan, bilmirəm hansısa dükannan par-parçadan alır gətirir. Qlas yaylığdan,[222] başmaxdan, qaloşdan... şirniyat, qənd-çay alır, gətirir tökür balalarının qabağına. Deyir:

– Səsini çıxarma, axşam sənə toy eliyəcəm. Qırmızı toy eliyəcəm deyir. (Qırmızı toy ona görə deyir ki, arvad danışanda qırmızı toy, qırmızı qar yağır desin. Yəni dəvənin sahibi gəlib soruşsa, həmin günü kişi buna toy eliyib axı. Desin ki, mən dəviyə minib gələn günü göydən qırmızı qar yağırdı. Qırmızı qar yağan il yadına gəlir? Kişi nə bilsin, bu arvat nə vax ərə gedibdi). Mən filan mollanı gətirəcəm, ona görə gərəy sən bunnarı görmüyəsən, ayıbdı.

Tezdən durur, bazardan gələn kimi uşağları da göndərir özünün anasının, dədəsinin evinə ki, arvad naxoşdu, baxammır. Arvadı salır təndirin içinə, üsdünə də dəmir qoyur, soyux təndirin. Dəmirin üsdünə dəni tökür, toyuxları buraxır üsdünə. Arvada deyir:

– Bax, sənin yadında qalsın, göydən qırmızı qar yağır. Qırmızı qar yağan il mən sənə toy eləmişəm. Mollanı da gətirmişəm, kəbinimizi kəsir. İndi sən ordan səsini çıxarma. Çörəy-zad da ataram aşağı, ye. Heş kim bilməsin təndirdəsən. Ayıbdı, gəlin eşiyə çıxmaz, üzə çıxmaz.

Arvad elə bilir, bunu çox isdədiyinnən belə eliyir. Toyuğlar orda dəmiri, dəni vurduğca deyir:

– Eşidirsən dapbadarap?

---

[222] qlas yaylıq – ipək, saçaqlı yaylıq

Deyir:

– Hə, eşidirəm.

Deyir:

– Bax, sənə toy çalınır, mən də oynayıram. Səsini çıxartma.

Nə isə... Bu minvalla arvadı təndirdə saxlayır. Ona kimi dəvəsi itgin düşən dəvənin sarvanı gəlib bütün qapı-qapı gəzir, soruşur. Bunnarın da qapısına gəlir. Deyir:

– Yox, görməmişiy.

Bunu yola verir, gedir. Onnan sora axşam şər qarışanda yenə arvadı çıxardır təndirdən. Deyir:

– Arvad, ta toy da qurtardı. Bu tuman-kofdalar, yaylığ, başmağ – hamısı sənindi. Səssiz-ünsüz oturursan evdə. Dəviyə minib gəlməyii də heş kimə demirsən.

Deyir:

– Yox.

Arxayınnaşır kişi. Axşam dəvənin ətini qavurur eliyir, yığışdırır. Sabahı gün arvada deyir:

– Di çıx çölə.

Vedrələri, səhəngi vurur qoluna, gedir bulağa. Gedir, bulağ başında bir kişi oturub. Bulaxdan o tərəfə, daşın üsdündə kişini görür. Gic arvad deyir:

– Ay qardaş, burda niyə oturubsan? Dəvəsi ölmüş ərəb kimi başını da sallayıbsan aşağı.

Kişi dəvənin adın eşidən kimi dik atılır. Deyir:

– Ay bacı, dəvəni gördün?

Deyir:

– Hə, gördüm.

Deyir:

– Harda gördün?

Deyir:

– Bə yadına gəlmir? Kişi mənə qırmızı toy elədi ha... Qırmızı toy eliyəndə mən dəvəni mindim. Məni döymüşdü, getmişdim, kalafadaydım. Mindim o dəviyə, gəldim.

Görür kü, bu zayıldayır, deyir:

– Yeri get də, bacı, başımnan açıl!

Bu da gedir bulaxdan su doldurur, səhəngin götürür, gəlir evə. Onnan sora kişi deyir ki, mən daa bu kəntdə qalmıyım. Qonşular deyəcəh ki, bu kasıb kişiydi, nooldu birdən-birə varrandı? Köçür gedir, qəsəbə tipli yaxın bir yerdə, orda bir dükan alır, uşaxlarını yaxşı saxlayır. Oxudur, neynir... Yəni bu gic arvadın sayəsində kişinin əli malı, mülkə dolaşır. Yaxşı əv-eşiy sahibi olur.

## AĞILDANKƏM ƏR-ARVADIN NAĞILI

Deyir, bir kişi olur, bir arvad. İkisi də ağıldan bir-birinnən kəm. İkisi də gic, gicbəsər. Bunnarın üş dənə qızı var. Üçü də ağıl dəryası. Nə isə. Bu qızdarı böyüdüllər, yekəldillər. Yekələn kimi bu qızdarın başının hamısının üsdünü elçilər kəsər. Birini şahın oğlu alar. Birin vəzir özü alar, birin başqa kəndin xanı alar. Üçü də oturax, varrı-karrı yerə gedib çıxar. Bu qızdarın üçü də gedib yerbəyer olub. Hərəsinin oğlu-qızı, çoxlu uşaxları var. Bir gün bu gic arvad ərinə deyir ki, a kişi, gəl gedəh bazarrığ eliyəh, gedəh bir qızdara baş çəkəh. Kişi deyir:

– Gedəh.

Gedillər, bunnarın bir ala eşşəyləri var. Ala eşşəynən getdilər bazarrıxdan parçadan, ayakqabıdan, başmaxdan, yaylıxdan, qirbişinnən, nə gəldi əllərinə yühlədilər xurcuna, gəldilər əvə. Əvdə oturdular, böldülər. Bu böyüh qızın, bu onun uşaxlarının. Bu ortancıl qızın, bu da xırda qızın. Yığdılar xurcuna, özü də payız vaxtıdı, qarın yağan vaxtıdı. Qar da sürətnən yağıb, küləh

o yana, bu yana... Alaçalpoyda[223] düşüllər yola. Gəlir, bir xeyli yol gələnnən sora arvad baxır ki, gülburnu kolu, küləh vurur, şaxdadan uğulduyur.

Deyir:

– A kişi, dayan, dayan.

Dayanır. Deyir:

– Nə oldu, arvat?

Deyir:

– Bu gülburnu yazıx üşüyür. Tez xurcunu aç, qızın yaylığın açım, çalağ bu gülburnunun başına.

Gic kişi düşünür, deyir:

– Hə, yaxşı, noolar. Yazığdı, soyuxdan üşüyür.

Böyüh qıza aldığı qirbişin yaylığı açır, gülburnunun başına doluyur. Gülburnu da tikannı olur axı, elə başına örtən kimi küləh aparmır. Tikannar keçir parçıya. Bəliyir buna, ayağın guya düyür. Deyir:

– Görürsən, a kişi, necə soyuxdu. Heş yazıx cınqırın çıxartmadı. Qaldı başında, üşüyür.

Getdilər, bir az gedənnən sora arvat baxır ki, bir qəcələ qarın üsdündə ayağın birin götürür, birin qoyur, birin götürür... Üşüyür. Deyir:

– A kişi, düş aşağı eşşəydən.

Kişi eşşəhdə gedir, xurcun da eşşəyin belində, arvat da dalınca.

Deyir:

– Yenə nə oldu, ay arvat?

Deyir:

– Düş aşağı, qəcələ üşüyür, ayağın birin götürüb qoyur. Qıza aldığımız, ikinci qızın başmaxların ver, qoyağ buna, geyinsin.

---

[223] Alaçalpoy – qarın tufanla yağması

Çıxardır qoyur başmaxları da bunun qabağına. Qəcələ qaçır, bu arvat irəli getdikcə qəcələ dala gedir.

Kişi deyir:

– Qoy gəl, utanır, sora özü geyinəcəh.

Keşdi o yana, baxdı qəcələ gəldi, ayakqabının içini dimdihləyir. İndi elə bilir, buna yem qoyub, bilmir ki, bu gicdi. Deyir ki, a kişi, dön bax, girir içinə, bax utanırmış.

Nə isə. Getdilər. O qızdara aldıxları payı eləcə heyvana, qurda-quşa, ağaca bağlıya-bağlıya getdilər, çıxdılar böyüh qızın evinə. Böyüh qız da yaxşı bir əvə, eşiyə qismət olubdu. Şahın gəlinidi, ambarrarı, qulları, bəxdəvər yerə düşübdü. Ağlının böyühlüyünə gəlib yaxşı yerə düşübdü. Böyüh qız eşidəndə hay düşür, atan, anan gəlib eşşəhnən. Aldıxları xələti, hamısın kolakosa paylıyıb gəliblər. Bir az konfet qalıbdı. Verillər uşağlara. Böyüh qızın ürəyi düşdü ayağının altına. Dedi, vaxsey! Ürəyinə gəldi, yazığ oldum, yerimi soyuğ eliyəcəhlər. Allah, bunnar nəyə gəldi. Bunnara yaxşı sıfra aşdılar, yedilər, işdilər. Elə bunnar yeyə-yeyə onnar soruşur:

– Nə var, nə yox?

Qız bilir ki dədəm, anam zayıllıyacağ, tez bunun ağzına dil atır,[224] qaynatasına, qaynanasına:

– Xala, yol gəliblər.

Tez otaxda yer eliyir. Yer açır ki, tez aparıb yatırsın, tezdən yola salsın, gessin.

Deyir:

– Burdan hara gedəcəhsiniz?

Deyir:

– Gedəcəyih bacılaringilə.

[224] ağzına dil atmaq – söhbəti dəyişmək

Buna hələ öyüt-nəsiyət verir ki, ağzınıza gələni danışmayın, yerimizi soyuğ eləməyin. Yatıllar, səhər tezdən durullar. Deyillər:

– Hələ getmiyəcəyih, hələ burdayıx. Deyir, durax tezdənnən, qızın əvin-eşiyin gəzəh görəy nə var, nə yox?

Gəlillər ki baa... toyuxlar. Görüllər ki, toyuxlar bitdəşir.

Deyir:

– A kişi, tez gəl bura. Qızın başı qarışıb işə, qul-qaravaş da baxmayıbdı, tez su gətir.

Biri qazan asdı, tez ocağın altına alonqa[225] qoydu, oddadı, xoddadı. Toyuxları bir-bir basdı qaynar suya, yığdı yerə. Bəlkə yüz, yüz əli toyuğu cimizdirib yığıblar yerə.

Deyir:

– Boo, anan ölsün, vaxd eliyənmiyibdi, gör necə dincəldilər.

Birdən kənizdərin biri bu yana keçir. Baaa... Bütün toyuxlar yerdə, hamısı yatışıbdı. Vay-şivən salır:

– Ay xanım, xanım.

Hay düşür, xanım gəlir. Elə səs düşən kimi qız deyir:

– Vaxsey! Əvim yıxıldı. Yəqin bu gic dədəm, anam nəsə elədi.

Gəlillər ki, bütün toyuxların hamısın basıb isdi suya, toyuxlar bişib. Düzüblər yan-yana ev sahibini görən kimi:

– Toyuxları bit-birə basmışdı, çimizdirmişih, dincəliblər.

Ev sahibi bunnara:

– Cəhənnəm olun, çıxın. Bunnar hardan gəldi? Bütün bu boyda malımızı zay eliyblər.

Dünya malı şirindi, nə qədər varrı da olsan, bir dəyil, iki dəyil. Yüz, yüz əlli toyuğu basıb cıbırıx[226] çıxardıb yığıblar ora.

---

[225] alonqa – çırpının xırdası

[226] cıbırıx – büsbütün, tamam

Bunnarı qovaladılar, qızın da könlü sındı. Dədəm qovalandı, anam qovalandı. Utancaxlığ gətirdi.

Gəlib çıxdılar ikinci qızın əvinə. Vəzirin arvadıdı.

– Xoş gəlibsiniz.

İkinci qızın yenə mırınqı düşdü[227] kü, Allahım, genə gəldilər, nəsə eliyəcəhlər. Gəldi. Bunnar da ortalığa yeməh-işməh töhdülər. Böyüh bacısı kimi ürəyi döyünür. Allah, nəsə bir quş buraxacağlar. Nəsə bir pis danışacağlar. Tez-tez atasının, anasının ağzına dil atır. Əv sahibi buynan maraxlanır:

– Hardan gəldiniz? Necə gəldiniz?

Ana zayıldayır:

– Belə gələndə gördüh gülburnu üşüyür, quşlar...

Qız tez başa düşür ki, bütün payın doluyublar kolların, heyvannarın əlinə, ayağına. Tez anasının yanını basır ki, sakit ol. Arada deyir ki, bunnarın yerin açmışam, gedib yatsınnar. Bunnar burda yatıllar. Durub tezdən bunnar neynir?

Deyir:

– A kişi, dur gedəh o biri qız kimi əvinə, eşiyinə baxax.

Durub gəzillər, görüllər böyüh ambardı. Qapını açıllar. Baa... Kişmişdi. Bu kişmiş iki cürdü, qara kişmiş, sarı kişmiş.

Deyir:

– Bay, anan ölsün, bala. Başı qarışıb, buranı, əvi gənə basıbdı.

Alıllar əllərinə kürəyi, lapatkanı, kürüyüllər, töküllər ambarın eşiyinə, ordan da, hasardan da çölə. Tapbıltıya-zada qulqaravaş gəlir. Kənizdər gəlir ki, baay... bunnar anbarı daşıyıb töküblər.

– Ay ev saabı, ay arvat, ay kişi, neynirsiiz?

Deyir:

– Bəə qıza köməy eliyirih, buranı gənə basıb.

[227] mırınqı düşdü – burnu sallandı, halı dəyişdi

Genə hay gedir, ikinci qız gəlir. Gəlillər, əv saabı gəlir. Nə... Başınnan tüsdü çıxır. Bütün ambarın kişmişin töküblər hasardan çölə. Gəlillər. Hay düşür, bunnarı qovalıyıllar. İkinci qız da böyüh bacısı kimi məril-müşgül qalır.[228] Biyabırçılıx, hörmətsizdih... Yola salıllar, gedir.

Bunnar yola varıllar,[229] gəlillər üçüncü qızın əvinə. Gəlillər xanın əvinə. Gəlillər bunnar, yenə elə qızın mırınqı düşür. O dəyqə könlü sınır ki, Allah bilir, o bacılarımın əvində neyniyiblər. Hələ soruşur, onnar nətəridi, filan?

Bu elə zayıldayanda deyir:

– Baay... Ağzıızı yumun, sakit olun.

Gecə yatıllar, səhər tezdən durullar. Gəzillər həyətdə, bir pürcüm[230] tapa bilmirlər. Bir şey tapa bilmillər, əllərinə bir şey keçmir. Gəlib oturullar guya səhər çörəhlərin yeyələr, qayıdallar əvlərinə. Bunun da dört-beş uşağı var. Qızdarın hamısın çox uşağı var. Qızın biri əlini aparır başına, başını qaşımağa. Qaşıyan kimi kişini belə vurur ki, ə, dur, qızın başına bit düşübdü. Uşax başını qaşıyır. Yazıx qızın vaxdı yoxdu da. Arvat kişiyə deyir ki, tez qayçı tap gətir. Qayçını tapıb gətirir. Dört qızdı, beş oğlan. Bu qızdarın hamısının hörühlərini kəsillər, başın qayçılıyır yığır ora. Bu qayçılanan qızlar da qışqırır, ağlayır, qoymullar. Bu səsə, küyə yenə əv saabı gəlir. Gəlir da, bu nə məsələdi?

Qızdarı görür, nənə gəlir, dəli olur. Ana gəlir, dəli olur. Xan gəlir, oğlu gəlir, aləm qarışır bir-birinə. Hamı qarışır:

– Bu nə deməhdi? Bu uşaxların başın qayçılayıbsan?

Deyir:

---

228 məril-müşgül qalır – əli qoynunda qalır

229 yola varıllar – yola düşürlər

230 pürcüm – qüsür

– Bə, anası ölmüşün vaxdı var? Bunnarı çimizdirsin, təmiz bit basıb, qız başını qaşıyır.

– Ay arvat, nə bit basıb? Onnara qulluxçu baxır. Heş sənin qızın onnarı çimizdirir?

Nə isə. Burdan da qovalayıb ötürüllər. Gəlir, yol boyu söylənə-söylənə, danışa-danışa gedillər ki, heş bunnara yaxşılığ var? Bax getdih toyuğların bit basıbdı. Çimizdirdih, bizə pis dedilər. Gənəni təmizlədih, bizi söydülər, biyabır elədilər. Uşağın başını bit basıbdı, artıx söz-söhbət oldu. Gəlib çıxıllar bu kəlxoy[231] əvlərinə.

## AĞILLI ÇOBAN İLƏ SƏQQƏT[232] ARVADI

Bir məmləkətdə bir çoban yaşıyardı. Bınnan əvvəlki dövrərdə təhsil almax, oxumax müşgül iş idi. Yanı hamının işi dəyildi. İmkanı olan Məkgədə, Mədinədə, Xorasanda gedib dini təhsil ala bilirdi, şeyix təhsili ala bilirdi. Bizim bu günki danışdığımız rəvayətin çobanı da çox savatdı və ağıllı adamdı. Ancax özüün sürülərin saxlıyır, ayləsin, uşaxların dolandırır. Bu kişiin bir oğlu var, bir qızı. Oğlu da çox ağıllıdı, yanı özü qədər. Arvadı bir az ağıldan səkqətdi. Elə qızı da anasına oxşuyub, ağıldan səkqətdi. Ana-bala bınnar gijdilər. Gijin deyir, başında palıt ağacı olmur ki. (Dədə-baba məsəli var). Bir gün ata sürünü yaxın bılağa gətirir. Axşamnan da yoldaşına deyir, bəs mən çörəy aparmıyacam, elə sürünü yendirəcəm. Mən sabah heyvanı gətirəcəm filan bılağın başına. Dədə-bala orda qoyunnarı qırxacıyıq qırxlığnan. Sən də yeməy hazırrıyarsan, qız gətirər də, yaxın yerdi. Bu kəndinnən də o bılağın arasında bir körpü var. Çayın üsdündə köhnədən,

[231] kəlxoy – uçuq, dağılmış

[232] səqqət – axmaq, ağılsız

qədimnən bir körpü var. Körpü silkələnir. Əyağı qoyanda adam deyir ki, elə bı dəyqə düşəcəy çayın içinə. Ana da azdan-çoxdan hazırrıyır. Qızına deyir ki, ay bala, gəl apar, dədənnən qardaşın çörəy yesin. Qız da boxçanı vurdu çiyninə, gəldi keşdi. Qız da subaydı. Elə körpüün üsdünnən bir-iki addım atmışdı, körpü başdadı silkələnməyə. Qız qorxdu. İrəli getməy əvəzinə dala çəkildi. Çəkildi dala, oturdu. Buxçaan da, yeməyi, bişmişi qoydu bağlamada yerə. Əyaxların uzadıb sərələnib oturdu körpüün üsdə. Başdadı fikirrəşməyə ki, ay gidi dünya, mən qonşu kəndə ərə gessəm, məəm dədəm, anam gələcəy dalımca, doğacam, törüyəcəm. Məəm uşaxlarım gələcəydə babasın, nənəsin yanına gələndə bu körpü qırılacax, bu uşaxlar tökülüb çayda boğulub öləcəydi. Deyir, başdıyır kəreneyi tutur.[233] Nağılladıxlarımı diliynən deyir: “Mən qonşu kəndə ərə gessəm, uşaxlarım olacax, onnar körpə olacax. Gələcəy nənəən, babaan yanına. Bu körpü belə çalxanacax, silkələnəcəy, balalarım töküləcəkdi çaya. Vay, vay! Vay, ana, gəl günümə! Vay, dədə, gəl günümə!” Bayatılıyır da. Kərəneyi başdıyır, səsi götürüb aləmi. Bir azdan sora buxçanı vırır qoltığına, durur gəlir əvə ağlıya-ağlıya. Kənddə də kim görür, hamı bilir da, səkqətdi bir az ağıldan. Kim görür, deyillər:

–Aaz, nolub?

Heş kəsə cavab vermir. Ağlıya-ağlıya, özün cıra-cıra gəlir düşür əvə. Ana qorxur:

– Aaz, nolub?

Evə girənnən başdıyır nağıllamağa. Mən gedəcəm qonşu kəndə ərə. Balalarım olacax, nənə-babaan görməyə gələndə töküləcəy çaya. O körpü uçur, məəm balalarım öləcəydi.

Ta anaan da ağlı yoxdu ki. Anaan da ağlı elə bı qızdan az dayazdı, səkqətdi. Demir ki, bala, qələtii elə, sən hələ ərə gedəsi,

---

[233] kəreneyi tutur – ağı deməyə başlayır

doğası, ya qismət. Balaların çaya töküləsi, ya qismət. Elə demir. Başdıyır deyir:

– Caan! Can bala, başaa dolanaram, balaların töküləcəydi çaya, qalassan sonsuz. Vay, uşaxsız balam,vay!

Ana deyir, bala deyir. Səsi qonşular eşidillər. Ağlaşma, şivən, qiyyə, qışqırıx... Səsə qonşuların hamısı tökülür gəlir. Taxda qapıdı həyət qapısı. Qapıdan girən:

– Aaz, nolub?

– Filan, filan.

Elə ki, bınnarın bı söhbətinə agah olullar, hamısı başdıyır qımışır. Yaşmağı çəkillər ağzına. Bir-ikisi deyir:

– Aaz, bəsdirin, yekə arvatsız. Hələ səən qızın ərə gedəsi, doğası, uşaxlar yekələsi, körpüdən gəlib töküləsi... Nə bilirsən, bəlkə Allahın bir mömin bəndəsi gəlib körpü çəkdirəcəydi?

Uzun sözün qısası, kirimirlər. Keçillər, hələ əv damında başdıyıllar kərəneyi böyütməyə. Qonşular da yığışıb başına. Biri gülür, biri ağıl verir. Heş kəsi də eşitmillər. Nəysə, dədə-bala çox gözdüyüllər, yunu qırxıllar, yunnarı yığıllar çuvallara, elə sudan içillər. Ana-baladan xəbər çıxmadı. Nə çörəy gəldi, nə çay. Xatalıxdan[234] da bınnar çaydanlıxların bu gün götürmüyüblər, ocax qalıyıb çay içələr. Dədə dözəmmir e, deyir:

– Bala, sən otur sürüün yanında. Mən qaçım görüm nəsə ana-bacı başında bir iş var, belə şey olmaz axı. Anan bilirdi ki, bəs biz ac-susuzux.

Durur kişi, tez qaça-qaça o körpünü necə keçir. Yazıx kişi necə keçir, heş özü də bilmir. Qaça-qaça gəlir öz həyətdərinə. Çöldən darvazıya yaxınnaşanda səsi eşidir. Əlin çırpır dizinə deyir, vay, əvim yıxılıb, görəsən, bın hansıdı? Ya anadı, ya baladı da. Qapını açır ki, həyət-baca doludu. Ona deyir, noolub, bına

---

[234] xatalıxdan – tərslikdən

deyir, noolub. Hamı qalıb məhədəl. Nə desinnər ki? Gülməlidi. Gülməli yox, elə həyqi ağlamalıdı bınnarınkı. Gəlir, keçir içəri ki, nə olub? Ağlaşmadı, arvatdar da oturub. Ana-bala bınnardan başqa ağlıyan yoxdu. Bınnar elə ediliyir, kərəneyir. O deyir, bı kəsir. Ana-bala biri deyir, biri kəsir. Görür, ana oturub. Yaxşı, ana oturubdu. Ürəyi qırılır deyir, yəqin qızım... Birdən qız dönür:

– Dədəəəəəəə!

Dədə deyəndə dədə diysinir ki, baay, qız da salamatdı, bə kimdi ölən? Bınnarın evində əlavə adam yoxdu. Keçir, gəlir:

– A noolub, noolub?

Tutur qızı, silkəliyir. Qız başdıyır, dədəəəə. Ağzın ayıra-ayıra:

– Gedəcəm ərə qonşu kəndə, balalarım olacax, onnar gələcəydi sizi görməyə. Körpü də tərpəşir, hamısı tökülüb çayda boğulacaxdı.

Kişi qayıdır deyir:

– Tfu, sizin nəsliizin kökü kəsilsin!

Arvadına yetirir, əlində çombağnan... arvadın başın verir çombağa. Gij köpəyuşağı, ölmürsüz?

Arvadına deyir:

– Sən ölmürsən? Səən qızın deyir, ağlıyır, bu camaatı nəyə yığıbsız bıra? Demirsiz ki, bəs biz orda aj-susuz öldüy. Nə demişdim saa? Biz oturub orda yeməy gözdüyürüy, siz oturub bırda nağıl danışırsız. Səən qızın ərə gedib doğub törüyüb ki, gedə çayda tökülüb boğulalar? Tfu, sizin zatıza, kököüzə ləhnət!

Arvadı verir ağaca. Arvatdar əlinnən zornan alır. Camaat çıxıb gedir. Arvad düşür yorğan-döşəyə. Bir ay elə o yana döndər məni, bı yana döndər məni. Tərpəşdiycə sümüyləri xurd-xəşil olubdu. Həə, qızına da bir-ikisin çəkir, deyir:

– Yeməy hardadı?

Deyir:

– Nə bilim.

Baxır görür ki, buxça qalıb qapıın ağzında. Götürür bir-ikisin çəkir. Çıxır gəlir, oturur eşdə, darvazasıın ağzında bir daş vardı. Fikirrəşir, deyir, Allah, saa qurban olum, nolardı arvad səkqət idi, bı qızı bir az ağıllı eliyərdin. Bı nədi, mən el içinə çıxa bilmirəm.

Nəysə, rəvayətimiz, nağılımız bırda bitir. (Yanı həmişə dədə-babadan belədi. İki ağıllı bir yerdə dura bilməz. İki qoçun başı bir qazanda qaynamaz. Ya arvat ağıldan səkqət olmalıdı, ya kişi ağıldan səkqət olmalıdı. Allah bir ağıllını bir gicin boynuna bağlıyır ki, bı ağıllı bir gici sürüyüb aparsın. Fərqi yoxdu, arvad olsun, kişi olsun).

## EŞŞƏKLƏ CANAVARIN NAĞILI

Günnərin bi günü eşşəy meşə qırağında otduyurdu. Bı yol da meşiyə gedən yoldu. Bı yolun qırağıynan da bir canavar elə girələnə-girələnə gedirdi. Bir də gördü ki, eşşəy otduyur. Çağırdı, dedi:

– Salam əlöyküm, eşşəy qardaş.

Eşşək başın qaldırmadı, işində oldu. Canavar bir az da yaxına gəldi. Dedi:

– Eşitmirsən məni? Niyə cavab vermirsən?

Başın qaldırdı, dedi:

– Nə deyirsən?

Dedi:

– Allahın salamını verirəm.

Cavab vermədi. Sora qayıtdı ki, nə qayırırsan, ay eşşəy? Eşşəy yenə cavab vermədi. İki-üş dəfə canavar soruşannan sora eşşəy dedi:

– Nə deyirsən?

Deyir:

– Eşitmirsən, nə deyirəm? Bə bını neçə dəfə dedim, dediyimə cavab ver də. Deyirəm, nə qayırırsan?

Deyir:

– Görmürsən, nə qayırıram? Otduyuram daa.

Deyir:

– Bə bını bir dəfə denən da. Bir dəfə denən ki, otduyuram.

Deyir:

– Niyə? Sən bilmirsən, mən nə qayırıram? Gərəy bının axırına çıxasan?

Deyir:

– Yaxşı, otduyursan, ay eşşəy qardaş, nə otduyursan? Otdadığıın rəngi nədi? Adı nədi?

Deyir:

– Ot otduyuram.

Deyir:

– Otun rəngi nədi?

Eşşəy ta təbdən çıxır. Deyir:

– Otdadığım otun rəngi qırmızıdı.

Halbuki eşşəy otdadığı ot bı dəyqə yamyaşıl idi. Deyir:

– Ot yaşıldı, ay eşşəy, qırmızı dəyil. Sən səhvsən.

Deyir:

– Yox, səhv dəyiləm. Niyə səhv oluram? Mən otdadığım otun rəngin bilmirəm?

Əlqərəz, canavar dedi, eşşəy dedi. Sözdəri çəp düşdü. Eşşək ona bir təpiy atdı, canavar ona bir ağız atdı. İşdər böyüdü. Axırı canavar keşdi eşşəyin qabağına. Eşşəy isdiyirdi qayıda kəndə. Keşdi qabağına, dedi:

– Yox, hara gedirsən? Gedəciyih meşəən şahının yanına.

Eşşəy dedi:

– Əşi, əl çək get, gedirəm, sahibim indi məni axdarır.

Dedi:

– Yox, gedəciyih.

Nəysə, əl çəkmədi, eşşəyi qatdı qabağına canavar, getdilər meşəən şahının qabağına. Divan quruldu. Meşəən şahı dedi ki, sizin işiiz, davaaz nə üsdündə başdıyıbdı? Canavar biz nağılladıxlarımızı nağılladı ki, hal-qaziyə belə. İndi eşşəy durub ki, otdadığı ot qırmızıdı. Mən deyirəm yaşıldı, o deyir qırmızıdı. Eşşəydən bir də soruşdu ki, ay eşşəy, otdadığın ot nə rəngdəydi?

Deyir:

– Qırmızıydı.

Deyir:

– Yaxşı, qırmızıydı.

Dedi:

– Onda ikiizə verdiyim cəza belə olacaxdı. Canavar, sən üç ay müddətinə meşiyə ayax qoymuyassan. Sən üç aylığa sürgün olunursan. Eşşəy, sən isə yeri çıx get evəə.

Eşşəy durur, soncuxluyur anqıra-anqıra. Oon sözü keçib axı. İndi eşşəy belə başa düşür ki, o haxlıydı. Soncuxluya-soncuxluya, şıllağ ata-ata, anqıra-anqıra düzəlir yola. Canavarın əli qalır üzündə. Deyir:

– Qibleyi-aləm, sən niyə o eşşəyin işinə həylə xətim verdin? Axı mən günahkar dəyiləm. Məəm sözüm hakdı.

Meşənin şahı deyir ki, sənin adın canavar, qurd, onun adı eşşəy. Sən gör gedib kiminən ağız-ağıza veribsən, çəniyə veribsən? Mən sənə ona görə o cəzanı verdim ki, onun adı eşşəydi. Sən canavar gedib gör kimə baş qoşubsan. İndi get üç ay meşədən uzax ol, sürgündə ol, bı qələti bir də təkrar eləmə. Nağılımız bırda bitdi. (Bı nağılı həmişə qanannan qanmıyannarın arasında danışarıx).

# VI. LƏTİFƏLƏR

## ALA ÖKÜZ, SƏN MƏNƏ OD QOYDUN

Bir kişi olur, bunun bir dənə öküzü olur. Bir yox da, adətən, iki öküz qoşullar cütə. İşdiyir, torpağı şumluyur, xarmanda buğdanı, nə bilim, noxudu döyür. Bu öküzü bir gün naxoşduyur, ölür da. Daha doğrusu, öküzün biri ölür, nə torpağ sürə bilmir, nə bir iş görə bilmir, nə buğda əkə bilmir. Gəlir qonşuya ki, bə mənim öküzüm ölübdü, verin birini. İsdiyənin bir üzü qara, vermiyənin iki üzü qara. Heş bu öküz tapa bilmir. O deyir, qoy işimi qurtarıb verərəm, bunun bütün əkini yığışır, xarmanı qalır, döyməyi qalır, yubanır. Çox əsəbləşir, gərginləşir, çıxır dağın başına. Deyir:

– Ay ala öküz, sən maa elə dağ qoydun, ölməyə vaxt tapdın?

O qapı qalmadı ki, o qapıya getmiyəm ki, maa öküz verin. Üzümə tüpürüllər, yola salıllar. Deyinir da öz-özünə. Deyinir, deyir, hə, ala öküz, sən də maa çox od qoydun. Maa belə zulum elədin. İndi bax bunun vaxdıdı e, dəfələrnən mozalan vurdu, düşdün çöllərə. Qızdın getdin, nə bilim, düyənin dalınca. Dalınca nə qədər oranı, buranı gəzmişəm. Hər dəfə çarığıma baxanda az qalıram çarığı hirsimnən çıxardam, tulluyam. Hər dəfə deyir, çarığıma baxanda bu ala öküzün işdəhləri yadıma düşür.

## NƏNƏ İLƏ NƏVƏNİN BƏHSİ

Bir qız olur, bir nənə olur. Qız tənbəl olur. Nənə də deyir, neynirəm axı, mən də ölüb, gedəcəm. Qışa heç bir yığım yığmır.

Bax, bu çilədən başdıyır. Çiliyə qədər hamı çöl-bayırı yığır evə ki, mən rahat yeyim.

Qız deyir:

– Mən ərə gedəcəm, nənə, neynirəm mən yığıb?

Nənə deyir:

– Ay bala, mən də ölüb gedəcəm, mən də heş əlimi vırmıyacam.

Nənə-bala bir iş görmüllər. Elə ki, qış yarı olur, o, bu verdiyini yeyib, qurtarıllar. Nə qız ərə getmir, nə də qoca ölmür. Başdıyıllar, bir gün onun qapısında, bir gün buun qapısında... Ahıl kişilər, görüb-götürmüşdər deyir:

– Bəə, bə sən bilmirsən ki, Allahın hökmü olmadan, nə olum, nə ölüm olar? Allahın hökmü olmadan sən ərə gedəmməssən, ay bala. Sən başı sal aşağı, qış uruzuu yığ da. Gedəndə də gedəssən da, yeməyı da aparassan. Bu deyim var, bu ən çox boz aynan, çilə arasında bizə deyilən deyimnərdi. Kim ki iş görmür, deyir, qalassan nənəynən nəvəən yerinə.

## QARIN-QARTA DARTIŞDIRAN KİŞİ

O vaxı qızdarmızı, yəni bunu anam nağıllıyardı, deyirdi, bizim bu qaragünə, bədbəx qızdarmızı dokquz-səkgiz yaşında bu kaftar köpəy uşağı papaxnan vurardılar. Papağa yıxılan qıza deyərmişdər, bu uşaxdı. Kim ki papağa yıxılmadı, deməh, bunun ərrih vaxıdı. Dokquz yaşında qızı bir atmış-atmış beş yaşında, əlli beş yaşında buxara papaxlı, nə bilim, çuxalı, ortası kəmərri, şallı qoca kişilər alarmışdar.

Bu qızı da bir gün, nə bilim, nənəsiin evinnən, hardansa gedəndə (Qızdar o vax üzü birəhli olardı, çarşablı-zaddı) papağı atır, qız yıxılmır. Qız da heş bilmir, kim papağı atdı, uşaxdı da.

Gedir evə, axşamı buna elçi gəlir. Alıb aparıllar. Qız hələ bilmir kimə gedir, neyniyir. Əv damı deyilən damda gərdəh qurulub, uşağ oturup orda, bilmir nədi. Görür, elə əv sakitdəşdi. Ancağ onu deyim ki, çıntırqəyiş[235] qızıymış, ağıllı, nə bilim, bir yerdə durmuyan, hər şeyə baş qatan, hər şeynən maraxlanan bir qızdı. Yəni gələcəyin bir ağıllı qadını olacaxdı, belə. Durur, əv damın qapısın açır, cırrr... belə bir səs çıxır. Qapını açır, baxır. Deer, baxır ki, ocağın başında işıx düşür, işığın başında yekə papax qazana girib, nəysə dartışdırır. Qız çarşabın tez başınnan açır, sarıyır ortasına, bir az da yaxına gəlir. Kişi hələ hiss eləmir. Dayanır, baxır ki, qoca kişidi, qazanda qarın-qarta dartışdırır.

Deer:

– Ay qarın-qarta dartışdıran qoca, sən də bu əvin adamısan?

Qoca eşitmir. Bir də deyir:

– Ay qarın-qarta dartışdıran qoca, sən də bu əvin adamısan?

Qoca başını qaldırır. Heş qoca da bu qızın üzünü görmüyüb də. Yəni səsinnən hiss eliyir ki, bu, elə aldığı qızdı. Qayıdır:

– Hə, qarın-qarta dartışdıran qoca bu əvin saabıdı. Qarın-qarta dartışdıran qoca sənciyəzin gülü, sənciyəzin çiçəyi, sənciyəzin ömrü, günü, əri, paşası...

Qız deyir:

– Nə? Məni saa veriblər? Deer, ay qoca, mənciyəzdən sənə yar olmaz, mənciyəzdən sənə gül olmaz. Mənciyəzdən sənə ömür-gün yoldaşı olmaz.

Deyib çarşabın ətəyin qaldırdı yuxarı, tumanını vurdu balağına. Qız dedi, indi mən burdan uçaram, sən qalargı olarsan,[236] ay qarın-qarta dartışdıran qoca, sən qal burda qarınıı dartışdır. Qız güllə kimi qaşdı getdi, qız tapılmadı.

---

[235] çıntırqəyiş – cəld, hərəkətli

[236] qalargı olmaq – qalmaq

## AĞZINA DA GƏRMƏ QOY

Qədim zamannarda iki qonşu varmış, yaxşı yola gedib dolanarmışdar. Bir gün bı əvin gəlininə axşamnan qaynana dedi ki, sabaha umac aşı bişirərsən. Gəlnin  də səhərə qədər qarnına sancı doldu. Bı xörəyi yaxşı bacarmırmış. Deyib, sabaha kimi ya qismət, kim ölər, kim qalar. Yatıb durub, səhər açılıb. Hərə çəkilib gedib bir işin dalıca. Gəlin fikirrəşib ki, durum qaçım qonşu Zəhra bacıın üsdünə, görüm bəlkə, o maa öyrədər. Gedir deyir ki, qonşu, saa bir işim düşüb, ancax qaynanam bilməsin.

Deyir:

– Hə, buyur, balam, nolacaxdı?

Deyir:

– Mən umac aşı bişirməy isdiyirəm.

(Şərurda umac aşının içinə dokquz dənə ərzax gedir. Anam deyərdi). Qonşu arvad deyir:

– Hə, belə eliyərsən, belə eliyərsən.

Deyir:

– Bilirəm.

Deyir:

– Əvvəlcə yağ-soğan elə, qavırmaan tök. Maşı get tez yu, isdad. Ay nə bilim, əriştəən belə kəs...

Nə deyir, gəlin deyir ki, bilirəm, bilirəm, bilirəm. Axırı qonşu deyir ki, bala, bilirdin, bə bıra nə gəlibsən soruşmağa?

Bilmir, ancax özün də sındırıb demir ki, bacarmıram. Deyir:

– Yanı yadımnan çıxıb da.

Guya qonşu arvad sadaladıxca bıın yadına düşür. Nəysə, uzun sözün qısası, arvad dildə umac bişirib qutarır, öyrədir da bına. Belə elə, belə elə. Deyir:

– Bilirəm, bilirəm.

Deyir:

– Bilirsən, bala?

Deyir:

– Hə.

Deyir:

– Onda axırda da, hər şeyi tökənnən sora qazaan ağzına bir sal gərmə qoy, üsdünnən də qapağın qoy, qəşəy olacaxdı.

Gəlin deyir:

– Hə, yaxşı, baş üsdə.

Qonşu deyir ki, bını belə eləmiyəcəydim. İndi axşama bıın meyidini qoyacaxlar yerə, qaynana, qaynata, əri. Ancax ta bı özünü sındırmır axı. Pişiy kimin arxasın yerə vırmır.

Gəlin gəldi, arvad dedihlərini elədi. Ocaxda qəşəy bir xörəy bişirdi. Axırda da bir sal gərməni getdi gətdi qoydu qaynıyan qazaan ağzına. Üsdünnən də qapağını qoydu. Axşam yeməy vaxdı gələndə hamı burnun tutdu ki, bı nədi əvdən qoxur? Yeməyi gətirdi gəlin ortuya. Sırfaları aşdılar. Qaynana oturdu qazanın başında, xörəyi çəkə. Bıy, qapağı götürdü ki, altdan bir sal gərmə. Gərməən də isdi vırıb, qaynıyıb bütün o ərzağı korruyub, gözəl nemətdərin iyi qarışıb gərmiyə. Tay iydən evdə oturmax olmur. Qaynana gəlinə deyib:

– Tfu, sənin dədəən kəlləsinə nəhlət! Aaz, bı nədi bişiribsən? Gərməən niyə qoyubsan onun ağzına?

Deyir:

– Zəhra xala dedi da.

Dedi:

– Zəhra xalaan da başına daş düşsün, səən də! Səən Zəhra xalaan əvində nə işin vardı? Sən evdə mənnən soruşanmırsan?

Deyir:

– Yadımnan çıxmışdı.

– Evdən soruşammırsan, gedib Zəhraan ağlına ağlıı verirsən?

Uzun sözün qısası, gəlini bir xub çırpıllar. Döyüllər ağlı başı gələnə qədər. Sabahı gün də Zəhra arvadı görür, deyir:

– O nə oyunuydu başımıza aşdın?

Dedi:

– Bə gəlinin eliyir da. İtin quyruğun alıb ağzına ki, hər şeyi bilirəm. Yaxşı, bala, bilirsən, mənim üsdümə niyə gəldin? Mən də ona tobalatma elədim.

Bizdə hansı gəlin iş bacarmır, tez ona eyham vırallar ki, aaz, ağzına da bir sal gərmə qoy.

## DUZLA, QOXMASIN

41-45 müharibəsi vaxında kəntdə-kəsəydə cavan, igit qalmadı, hamsı getdi müharibəyə. Deməh, bir oğlan varmış, Şahhüseyin. Deyirmiş, gedəcəm müharibiyə, o Hitlerin başını gətirəcəm Şərura. Burda onun başını əzərsiniz. Bir az delavoy oğlanmış, bir az, necə deyim, zarafatcılıymış. Nə isə, gün gəlir bu Şahhüseyini cağrıllar müharibiyə, çağrışa. Kəndin ortasında, hamı da çıxır, ana-bacı... Ağlaşa-ağlaşa evdən çıxardıllar. Bunun da sözü bir nəfərin – Məhəmmədin yadındaymış. Bir də baxıllar, əlində bir torba qaça-qaça gəlir:

– A Şahhüseyin, bunu da götür.

Deyir:

– Ə, nədi, Məhəmməd?

Deer:

– Duzdu dabə. Demirdin, Hitlerin başını gətirəcəm şərurrulara? Ordan bası gətirincə qoxar. Elə basin kəsən kimi duzda ki, qoxmasın.

# VII. BAYATILAR

Əzizim, nazdı gəlin,
İsdotdu, duzdu gəlin.
Hələ dünən gəlmisən,
Bu necə nazdı, gəlin?

Bağa girmiş olaydım,
Gülü dərmiş olaydım,
Bırdan keçən oğlana,
Könül vermiş olaydım.

Bı gəlin bizə gələr,
Hündürdən düzə gələr,
Allah, sən özün saxla,
Cavandı, gözə gələr.

Oğlan, sən yarıyıbsan,
Telin darayıbsan.
Özün bir şey deyilsən,
Könlümü yaralıyıbsan.

Novbaharı gəzərəm,
Bağlara gül düzərəm.
Yar yanıma gələndə,
Sevindiyimnən süzərəm.

Səvdiyin tanış olsun,
Yara sirdaş olsun.
Yara yaylıx demişəm,
Həşyəsi bir qarış olsun.

Əzizim için-için,
Doldur ver bir də içim.
Fələy maa dağ çəydi,
Yandım için-için.

Əzizim qar əridi,
Duz tökdüm, qar əridi.
Dərdimi dağa dedim,
Ahımnan dağ əridi.[237]

Əziziyəm sel gələr,
Yağış yağar, sel gələr
Gözəl qızın, *ağıllı qızın* qapısına,
Elçiliyə el gələr.

Eyvanımız yan-yana,
Yarım çıxıb eyvana.
Mən baxaram, o baxar,
Od düşüb şirin cana.

Susamışam, su yoxdu,
Su var, verən yoxdu.
Düşmüşəm qərib elə,
Qaydıma qalan yoxdu.

[237] Söyləyici bura qədərki bayatıları vaxtilə bibisi Yunusova Sürəyyadan eşidib yadında saxladığını qeyd etdi.

Qara-qara qazannar,
Könül əvin yazannar.
Cənnət üzün görməsin,
Aramızı pozannar.

Aşığ ellər ayrısı,
Şana tellər ayrısı.
Sənnən ayrı qalmazdım,
Oldum illər ayrısı.

O taydan furqon gəlir,
Atdarı yorqun gəlir.
Nənəmnən qorxan oğlan,
Gecələr oğrun gəlir.

Payız qışdan əzəldi,
Yarpax tökən xəzəldi.
Vətən viran da olsa,
O, cənnətdən gözəldi.

Dağların daşı sənsən,
Dibinin daşı sənsən.
Əvdə neçə iyid var,
Hamısının başı sənsən.

İyid gərək atdana,
Düşə, minə, atdana.
Mərd odur ki, döyüşdə
Hər qavğıya qatdana.

Əziziyəm aslandı,
Qılınc qınınnan asılandı.
Tülküdən aslan olmaz,
Aslan elə aslandı.

Sular gələr, göl olar,
Şaxda vurar, kül olar.
Mərd iyidin balası
Özü kimi mərd olar.

Əzizinəm, dalda gəzər,
Bülbüllər dalda gəzər.
Mərddər qabağı gözdər,
Namərddər dalda gəzər.

Bu gələn yar olaydı,
Əlində nar olaydı.
İkimiz bir köynəhdə
Yerimiz dar olaydı.

Almanı atdım xarala,
Qaldı sarala-sarala.
Yarı mənnən aldılar,
Qaldım yalvara-yalvara.

Akuşkadan daş gələr,
Xumar gözdən yaş gələr.
Səən maa versələr,
Hamıya da xoş gələr.

Əzizinəm, tüsdü dağlar,
Köylüm sana düşdü, dağlar.
Yar ürəyimi viranə qoydu,
Quş kimin uşdu, dağlar.

Əzizinəm, balabanı
Asda çal balabanı.
Hamıın balası gəldi,
Bə məəm balam hanı?

Mən getdim, anam qaldı,
Oduma yanan qaldı.
Nə dünyadan xeyir gördüm,
Nə bir nişanam qaldı.

Əzizinəm, yatan qarı,
Dağların yatan qarı.
Kişiin əvin yıxar
Axşamnan yatan qarı.

Dəvələr düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Balam baş aldı, getdi,
Balası bizdə qaldı.

Əzizinəm, anam ağlar,
Ellər qara bağlar.
Anam ölsə, mən ağlaram,
Mən ölsəm, kim ağlar?

Qızılgülü dərəllər,
Məxmər üsdə sərəllər.
Xoş sevənin halına
Sevdiyinə verələr.

Əvlərinin önü yonca,
Yonca qalxıb dam boyunca.
Boyu uzun, beli incə,
Əsmər yarım, qəmər yarım.

Əvlərinin önü lalə,
Şəhid oldum, ver piyalə.
Yoldaş olax, düşək yola,
Əsmər yarım, qəmər yarım.

Dam üsdədir damımız,
Qoşadır eyvanımız.
Sən ordan çıx, mən bırdan,
Kor olsun düşmanımız.

Əmim oğlu neynədi?
Köylümü qan eylədi.
Baxıb özgə sözünə,
Məni yazığ eylədi.

Endim bulax başına,
Yazı yazdım daşına.
Ay Allahım, bu nə müsibət idi?
Gəldi başıma.

Əzizim, a dağlar,
Yol gedir sana, dağlar.
Tutaydın əlimnən, vəfalı yar,
Gələydim sana sarı, dağlar.
=Başı qarlı dağlar,
Yol gedər hara, dağlar?
Tutsaydı əlimnən o vəfasız,
Gedərdim ona sarı, dağlar.

Ananı qızdar ağlar,
Gülü nərgizdər ağlar.
Ananın sirrin, sözün
Qızdarı deyib ağlar.

Bir gül əkdim ləyəndə,[238]
Gül boynunu əyəndə.
Qaynanam partdıyır, çatdıyır,
Oğlu məni sevəndə.

Baxçaların yarı gül,
Yarı qonça, yarı gül.
Gec açıldı, tez soldu,
Olmayaydı barı gül.

Gedəy İğdıra doğru,
Dönəy Sıldıra doğru.
Atımı tez çaparam,
Gedərəm yara doğru.

Dağlara duman gəldi,
Könlümə güman gəldi.
O yannan kölgə düşdü,
Elə bildim, yar gəldi.

Araz axar liliylən,
Dəsdə-dəsdə gülüylən.
Mən yarımı sevirəm,
Şirin-şirin diliylən.

[238] Söyləyicinin dediyinə görə, bu, daha çox xınayaxdılarda oxunan haxıştalarda deyilirmiş. Haxıştanın əvvəlki iki misrası olduğu kimi saxlanır, sonrakı misralar "Baldızım partdıyır, Qardaşı məni səvəndə", "Qızdar partdıyır, Yarım məni sevəndə" və yaxud "Qartımış qızdar partdıyır, yarım məən səvəndə" şəkillərində də oxunurmuş. Haxıştanın üçüncü və dördüncü misralarının necə oxunması onu oxuyanın kimə söz atmaq istəməsindən asılıdır.

# VIII. NƏĞMƏLƏR

## HAXIŞTALAR

Toy evidi. Divar boyu döşəhçələr, dik yastığlar, mütəkgələr düzülüb, oturublar. Gəlini oturdublar yasdığın üsdə, o vax stol-zad yoxuydu. Stola gəlin qoymazdılar, iki dik yastığı qoyub, gəlini oturdardılar ortada, isdər şirinnih mərasimində, isdər gəlin köç-düdə. Dövrə vurardı qızdar iki tərəfdən, yarı qız evi, yarı oğlan evi. Adətən, o vaxdı uzaxlardan qız almazdılar, el içi, öl içi. Qızı öz kəndinnən uzağa verməzdilər. Hamısı kimdi, həm oğlanın bibisi qızıdı, həm qızın dayısı qızıdı, baa belə. Ona görə də hər ikisi iş-dirak edərdi. Birinci gülmey deyilir, sora bayatılar bir-bir, mis-raynan deyilir. Birinci misra bayatı deyilir, sora ya haxışta deyilir, ya da nananay gedir. Haxıştada çəpiy çalınır ancağ. Çünki haxışta elə gurultulu olur ki. Gəlinin başında, şirinnih içiləndə ağbirçəhlər ordan deyirdi bayatıları, şeerləri, bunnar da hamısı birdən deyir.

Ayranın üzü olsun, haxışta,  
Duz töküm, duzdu olsun, haxışta.  
Gəlin qoşa qarısın, haxışta,  
Oğullu-qızdı olsun, haxışta.=  
Bizim bu təzə gəlin, haxışta,  
Oğullu-qızdı olsun, haxışta.

Naxçıvanın sal duzu, haxışta,  
Xörəyə az sal duzu, haxışta,  
Əmqızının kefidi, haxışta,  
Ərə gedir baldızı, haxışta.

Gəlin oturub daş üsdə, haxışta,
Telin töküb qaş üsdə, haxışta,
Oğlan deyir, dur gedəy, haxışta,
Qız da deyir, baş üsdə, haxışta.

Gəlin gəlir, bəm gəlir, haxışta,
Əv-eşiyə tən gəlir, haxışta,
Baldıza, qaynanıya, haxışta,
Qaynatıya düşmən gəlir, haxışta.

Bu gün bağa gəlmişiy, haxışta,
Baxa-baxa gəlmişiy, haxışta,
Oğlan, sənin toyundu, haxışta,
Oynamağa gəlmişiy, haxışta.

Kəmər bağla belinə, haxışta,
Şirni verin əlinə, haxışta,
Gəl, bizim, əziz gəlin, haxışta,
Xına qoyax əlinə, haxışta.

Su gəlir bı arxınan, haxışta,
Doldur ver bardaxnan, haxışta,
Yarın yaxasın aşdın, haxışta,
Xınalı barmağınnan, haxışta.

Bı gəlin bizə gələr, haxışta,
Hündürdən düzə gələr, haxışta,
Allah, sən özün saxla, haxışta,
Cavandı, gözə gələr, haxışta.

Ələnsin ay ələnnər, haxışta,
Sevinsin ay gülənnər, haxışta,
Dosdara xəbər getsin, haxışta,
Hasil oldu diləylər, haxışta.

İncidən incimişəm, haxışta,
Mərcana düzülmüşəm, haxışta,
Ala papax, gül oğlan, haxışta,
Sevdiyinə vırılmışam, haxışta,

Narınca bax, narınca, haxışta,
Saxladım saralınca, haxışta,
Məndə ürəy qalmadı, haxışta,
Sənnən söz alınca, haxışta.

Bağa girmiş olaydım, haxışta,
Gülün dərmiş olaydım, haxışta,
Bırdan keçmiş oğlana, haxışta,
Könül vermiş olaydım, haxışta.

Üzün ağ olsun, gəlin, haxışta,
Canın sağ olsun, gəlin, haxışta,
Sənə süd verən ana, haxışta,
Sərfinaz olsun, gəlin, haxışta.

Oğlan adın Talıbdı, haxışta,
Gün dağları alıbdı, haxışta,
Verdiyin qızıl üzüy, haxışta,
Barmağımda qalıbdı, haxışta,

Gəlin, Salatın gəlin, haxışta,
Geyib xalatın gəlin, haxışta,
Çatıb oğlan əvinə, haxışta,
Alıb muradın gəlin, haxışta.

Ay dönüb ulduz olsun, haxışta,
Sular dönüb buz olsun, haxışta,
Gəlin, gəldiyin əvdə, haxışta,
Oğul olsun, qız olsun, haxışta.

Ay bı dərə, uzun dərə, haxışta,
Suları sərin dərə, haxışta,
İsdərəm baxça salam, haxışta,
Yar gəlib gülün dərə, haxışta.

Səvdiyin tanış olsun, haxışta,
Yara sirdaş olsun, haxışta,
Yara yaylıx demişəm, haxışta,
Zəri bir qarış olsun, haxışta.

## GÜLÜMEYLƏR[239]

Gülmeydə həm çırtmıx çalınır, həm də çəpiy çalınır. Hər ikisin də... ürəyin nə isdiyir, eliyə bilərsən. Qol götürüb süzən qızdarımız da olur, oynıyannar da olur. Birinci misrada gülmeylər deyilir xornan. Hər iki dəsdənin qızdarı, qadınnarı, gəlinnəri cərgəynən, növbəynən gülmeyi deyillər. Gülmeyi elə bil birinci misraynan deyirsən. Bayatının birinci misrasına, ikinci də gənə gülmeyi deyilib, ikinci misrıya başdıyıllar:

[239] Söyləyici bu mətnləri anası Həsənova Rübabə Vəli qızından eşitdiyini dedi.

Tut ağacı boyunca, a gülüm eyy, gülüm eyy...
Tut yemədim doyunca, a gülüm eyy, gülüm eyy...
Yarı xəlvətdə gördüm, a gülüm eyy, gülüm eyy...
Danışmadım doyunca, a gülüm eyy, gülüm eyy....

Növbaharam, gəzərəm, a gülüm eyy, gülüm eyy...
Bağlara gül düzərəm, a gülüm eyy, gülüm eyy...
Yar yanıma gələndə, a gülüm eyy, gülüm eyy...
Sevindiyimdən süzərəm, a gülüm eyy, gülüm eyy...

O toyda quzu gördüm, a gülüm eyy, gülüm eyy...
Tükü qırmızı gördüm, a gülüm eyy, gülüm eyy...
Aşdım cənnət qapısın, a gülüm eyy, gülüm eyy...
Səvdiyim qızı gördüm, a gülüm eyy, gülüm eyy...

Ayağım yalınıydı, a gülüm eyy, gülüm eyy...
Tikanın qalınıydı, a gülüm eyy, gülüm eyy...
Mən ölməy istəmirdim, a gülüm eyy, gülüm eyy...
Düşmanım zalımıydı, a gülüm eyy, gülüm eyy...

A gülüm eyy, gülüm eyy..., o tayda qoç yatıbdı.
A gülüm eyy, gülüm eyy..., boynuzunu çatıbdı.
Hayıf  o qoçun zəhmətinə, a gülüm eyy, gülüm eyy...
Quruca yurtda yatıbdı, a gülüm eyy, gülüm eyy...
A gülüm eyy, gülüm eyy..., quruca yurtda yatıbdı.

A gülüm eyy, gülüm eyy..., qara-qara, qazannar,[240]
A gülüm eyy, gülüm eyy..., könül əvin yazannar.
A gülüm eyy, gülüm eyy..., cənnət üzün görməsin
A gülüm eyy, gülüm eyy..., aramızı pozannar.

A gülüm eyy, gülüm eyy..., eyvanımız yan-yana,
A gülüm eyy, gülüm eyy..., yarım çıxıb eyvana.
A gülüm eyy, gülüm eyy..., mən baxıram, o baxmır,
A gülüm eyy, gülüm eyy..., od düşübdü şirin cana.

A gülüm eyy, gülüm eyy..., aşıq ellər ayrısı,
A gülüm eyy, gülüm eyy..., şana tellər ayrısı.
A gülüm eyy, gülüm eyy..., sənnən ayrı qalmazdım,
A gülüm eyy, gülüm eyy..., oldum illər ayrısı.

## YALLIBAŞILAR[241]

Yallıbaşılara nananay da deyirih, yallıbaşılar da deyirih. Yallıbaşında orda nananay deyirih, burda gülmeyi deyirih, orda haxışta deyirih. El birriyi olan sözdərdi bunnar, eyni bayatılardandı. Ən yüngül, xoş, dilə yatan, ruhu oxşıyan bayatılar, ağır bayatılar getmir bunnarda. Həm bir az gülməy, həm də kef qaldırmağ üçün deyilir də. Eşqli adamlar, ən çox cavannar deyir də. Qoca arvatdar bunu demir ki, qoca arvatdar yaddaşında saxlıyır, kiməsə ötürür. Ancağ oynıyan, çalan, ürəyin, eşqin, məhəbbətin kiməsə çatdırır. Görür, oğlanın bacısıdı, ona çatdıra-çatdıra, əlin

[240] Söyləyici bunu avazla oxumağa çalışdı, amma mətnin gülümey avazına uyğunlaşmadığını dedi. Onun fikrincə, bu mətn yallıbaşı, yaxud da haxışta avazına uyğun gəlir.
[241] Söyləyici bu mətnləri anası Həsənova Rübabə Vəli qızından eşitdiyini dedi.

çala-çala, haxışta deyə-deyə oxuyur, baldızına işarə vurur qız axdarışına çıxanda. Kəntdə belə şeylərin şahidi olmuşuğ. Ona görə belə bayatılar gedir yüngül bayatılar.[242] Ağır bayatılar nə gülməyə, nə yallıbaşına, nə də haxıştıya getmir. Yurd yeriynən bağlı bayatılar deyəndə, sən yurdun həsrətinnən danışarsan, dağlara, məkana, bu getmir. Ağlamağ mənasında dağlara müraciyət eliyillər analar.

Adətən, bizdə dağda, çoxlu ölənnər olurdu, qara sancı deyirdilər. Atamın çobanının biri qara sancı, apensitdən, kor bağırsağdan öldü. Bunu heç yerə çatdıra bilmədilər, elə orda tutdu, orda da öldü. Gələn ili onun bacısı, anası yaylağa, dağa gələndə o dağı gördühcə ağlıyırdı ki, balam bu dağda öldü.

Dağlar marala qaldı,
Nanay-nanay, nayna-nanay.
Otu sarala qaldı.
Nanay-nanay, nayna-nanay.
Yaşıl yarpax, göy çəmən,
Nanay-nanay, nayna-nanay.
O da marala qaldı.
Nanay-nanay, nayna-nanay.
Sərin bılax, göy çəmən,
Nanay-nanay, nayna-nanay.
Genə marala qaldı.
Nanay-nanay, nayna-nanay.

Oğlan adın Əlidi,
Nanay-nanay, nayna-nanay.

[242] Söyləyici yüngül bayatılar deyəndə şən, yumoristik məzmunlu bayatıları nəzərdə tutur.

Qolların düyməlidi.
Nanay-nanay, nayna-nanay.
Özün yaxşı oğlansan,
Nanay-nanay, nayna-nanay.
Hayıf anan dəlidi.
Nanay-nanay, nayna-nanay.

Eləmi sarı qaldı,
Nanay-nanay, nayna-nanay.
Günü ağ, sarı qaldı.
Nanay-nanay, nayna-nanay.
Yolunu gözləməydən
Nanay-nanay, nayna-nanay.
Gözümdə sarı qaldı,
Nanay-nanay, nayna-nanay.

O taydan furqon gəlir,
Nanay-nanay, nayna-nanay.
Atdarı yorğun gəlir.
Nanay-nanay, nayna-nanay.
Dədəm əvdə olanda
Nanay-nanay, nayna-nanay.
Yarım oğrun gəlir.
Nanay-nanay, nayna-nanay.

Yaylığın həşdi-hüşdü,
Nanay-nanay, nayna-nanay.
Həşyəsi yerə düşdü.
Nanay-nanay, nayna-nanay.
Min bir iyid içində

Nanay-nanay, nayna-nanay.
Gözüm Cəfərə düşdü.
Nanay-nanay, nayna-nanay.

Tut ağacı dəyiləm,
Nanay-nanay, nayna-nanay.
Hər yetənə əyiləm.
Nanay-nanay, nayna-nanay.
Əyil, üzünnən öpüm,
Nanay-nanay, nayna-nanay.
Mən özgəsi dəyiləm.
Nanay-nanay, nayna-nanay.

Qaşın əyər, amandı,
Nanay-nanay, nayna-nanay.
Gözün əyər, amandı.
Nanay-nanay, nayna-nanay.
Sazaxdan bir ox çıxar,
Nanay-nanay, nayna-nanay.
Saa dəyər, amandı.
Nanay-nanay, nayna-nanay.

Bağdan alma, nar üzəy,
Nanay-nanay, nayna-nanay.
Sırfıya noğul düzəy.
Nanay-nanay, nayna-nanay.
Bacıın Şərildə toyudu,
Nanay-nanay, nayna-nanay.
Oynuyax yallı gedəy.
Nanay-nanay, nayna-nanay.

Həsəni, ay Həsəni,
Nanay-nanay, nayna-nanay.
Allax saxlasın Həsəni.
Nanay-nanay, nayna-nanay.
Xəsdə canı nar isdər,
Nanay-nanay, nayna-nanay.
Mənim də canım səni.
Nanay-nanay, nayna-nanay.

## GƏLİN, XOŞ GƏLDİN, XOŞ GƏLDİN[243]

Gəlin gəldi yarıynan,
Gəlin, xoş gəldin, xoş gəldin.
Həm dövlətiynən, varıynan.
Gəlin, xoş gəldin, xoş gəldin.
Yanındakı qullarıynan,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər, yoxdu atam,
Gəlin, xoş gəldin, xoş gəldin.
Qoyunu quzuya qatam.
Gəlin, xoş gəldin, xoş gəldin.
Qaynatam olsun qoy atam.
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər, yoxdu anam,
Gəlin, xoş gəldin, xoş gəldin.
Başımnan aldılar şanam.
Gəlin, xoş gəldin, xoş gəldin.

[243] Gəlin oğlan evinə girəndə oxunur.

Qaynanam olsun qoy anam,
Gəlin, xoş gəldin, xoş gəldin.

Gəlin deyər, yoxdu bacım,
Gəlin, xoş gəldin, xoş gəldin.
Başımnan aldılar tacım.
Gəlin, xoş gəldin, xoş gəldin.
Baldızım olsun qoy bacım,
Gəlin, xoş gəldin, xoş gəldin.

O əvdən gəldim bı əvə,
Gəlin, xoş gəldin, xoş gəldin.
Göz yaşım dönübdü selə.
Gəlin, xoş gəldin, xoş gəldin.
Xalasın demirəm hələ.
Gəlin, xoş gəldin, xoş gəldin.

Heç kimə söyləmə sözün,
Gəlin, xoş gəldin, xoş gəldin.
Sirrini saxla sən özün.
Gəlin, xoş gəldin, xoş gəldin.
Ağ olar onda üzün,
Gəlin, xoş gəldin, xoş gəldin.

Olsun qoy dövlətin, varın,
Gəlin, xoş gəldin, xoş gəldin.
Dolu olsun çuvalların.
Gəlin, xoş gəldin, xoş gəldin.
Bizim oğlan olsun yarın,
Gəlin xoş gəldin, xoş gəldin.

## MÜXTƏLİF PARÇALAR

Ayranım üzdü olsun,[244]
Çörəyim duzdu olsun.
Gəlinim gələn evim
Oğullu-qızdı olsun.

***

Gəlin deyər:

– Tapbışam öz tayımı,
Xoş keçirmişəm həftə-ayımı.
İlahidən isdərəm övlad payımı,
Yarəbb, mənim qız-oğlanım var olsun!

***

Gəlin deyər:

– Danışaram mən düzü,
Atadan almışam çörəyi-duzu.
Yaşımı isdərəm doxsanı, yüzü,
Yarəbb, mənim uzun ömrüm var olsun!

***

Gəlin deyər:

– Gəldi qaynana qəzəbə,
Dartdı saçımnan mənim,
Dedi:
– Duzunu çox saldın ətin,
Dağıtdın malım, dövlətim.

---

[244] Bu bəndi duvax qapmada oxuyurdular.

***

Dolça qırar bulağların buzunu,
Yedizdirər sənə əmlik quzunu.
Kəm eyləmə bozartmanın duzunu,
Baxan varmı heç qaşığa, çəngələ?

***

Ağrı dağın ətəyində
Uçan göyərçin olaram.
Məcnun olaram bu diyarda
Yar-yar deyib dilənərəm = dolanaram.

***

Cadı doğradım südə,
Ağlamağım gəldi.
Qaşığı vırdım dibə
Oynamağım gəldi.[245]

***

Dərman gəldi, dərd qaç,
Dağlara, daşdara uç, qaç.
Ermənin canına çöh, qaç,
Bir, iki, üç, heç, puç.

***

Arpa, sənnən davamdır, davam.
İsdərəm səən mahaldan qavam.
Qırmızı fətrin, sarı piloyun,
Doğramazdar sən bozbaşa, arpa.

---

[245] Bunu deyəndən sonra söyləyici belə bir izah verdi: "Qaşığ axı qazaan dibinə vıranda daqqıldıyır. Bu dəfə də arvad durub oynamax isdiyir". İzahdan sonra söyləyicini gülmək tutdu.

# IX. OXŞAMALAR

Uşağ qırxınnan sora başdıyır popullamağa.[246] Nənə-baba, hamı bunu səvəliyir.[247] Nənə alır bunu qucağına:

Ay tanrı, bunnan beş dənə ver,
Göydə uçan quşdara ver.
Evdə qalmışdara ver.
Qarıyıb, qocalmışdara ver.
Həsrətin çəkənnərə ver.

***

Balama qurban inəhlər,
Balam nə vax iməhlər?

***

Balama qurban ilannar,
Balam nə vax dil annar?

---

[246] popullamaq – dirçəlmək, gözəlləşmək
[247] səvələmək – əzizləmək

# X. SATAŞMALAR, ÖCƏŞMƏLƏR

Belə-belə işdər.
Qırılsın keşişdər.
Olmasın pis işdər.

***

Bəşir, Bəşir, ay Bəşir,
Qarnında bala dərbəşir.[248]
Gecə yatıb dincəlir,
Gündüz durub dərbəşir.

***

Gedirdi Səhnə,
Əlində təhnə.
Səhnə yıxıldı,
Təhnə qırıldı.

***

– Deyinən, buz.
– Buz.
– Ağzına doldurum duz.

***

Taroy kişi vardı. Ağacı verirdilər, yerdən istənilən bir şeyi verirdilər kişinin əlinə, bunun da gözü görmürdü. "Taroy baba, yapış”. Yapışırdı. “Hara gedirsən? Gedək bizə, çörəy yeməyə”. Evləri də belə yanaşıdı. Onda onu oxuya-oxuya aparırdılar çölə:

Taroy, Taroy,
Çalına qaroy.
Ölsün Taroy,
Çalma qaroy.
Ölsün namərtlər,
Yaşasın geroylar.

---

[248] dərbəşir – tərpəşir, hərəkət edir

# XI. SANAMA

## BƏLDƏRƏN GÖZ

Bacadan baxan bəldərən göz,
Birisi kərə, birisi boz.
Mindim bozun boynuna,
Sürdüm ilan yoluna.
İlan yolu dərbədər,
İçində meymun gəzər.
Meymunun balaları,
Məni görçək ağladı.
Tumanına qığladı. (Məni bağışdıyın).

# XII. TAPMACALAR

Məni tək yeməzdər, mənsiz də yeməy olmaz. (duz)

***

Heş yerdə yoxdur, Naxçıvanda çoxdur. (duz)

***

Atılıb düşər duzsuz,
Qırmızı bişər susuz. (qovurğa)

Əziziyəm, duz bəndi,
Duz bərəsi, duz bəndi.
Bir bağa bağban oldum,
Yüz arxı var, yüz bəndi. (bulaq)

Bulamacı buladım,
Buladıxca yaladım. (əriştə)

Qaşığa minər hötötnən,
Ayağ sallar hürmətnən. (əriştə)

Bacadan düşdü, şapp elədi,
Gülsənəm onu happ elədi. (siçan və pişik)

# XIII. ATALAR SÖZLƏRİ

Abırrı abrınnan qorxar, abırsız nədən qorxar?
Aca dokquz yorğan örtüblər, genə yuxulaya bilməyib.

Acı ayran nehrə dibində,
Qara kişmiş bəylər cibində.

Acın nəyi var ki, gicə də nə verə?
Açığ yarıya duz töhməzdər.
Adam rəhmanı da adamdı, adam şeytanı da adam.
Adam dəlidən utanmasa da, dəlinin yiyəsinnən utanar.
Adam ölüyə hörmət qoymaz, ölü sahibinə hörmət qoyar.
Ağac nə qədər bar gətirsə, bir o qədər başını əyər.

Ağa nəzərəm, belə gəzərəm,
Bir vuranda qırxını əzərəm.
=Ağa nəzərəm, belə gəzərəm,
Şahdan gəlmiş nökərəm,
Dinmə, qabırğaların sökərəm.

Ağlar gözdən, bir də saxda sözdən özünü gözdə.

Ağlıyanın bir dərdi varmış, güləyənin min dərdi varmış.

Ağız quzu gözünə bənzəyir, söz ki ağızdan çıxdı, orduya yayılar.

Ağzınnan sifdə çıxardanda gümüş çıxar, əmə heş dimməsən, qızıldı.

Allah dəvəyə qanad versəydi, ucurmamış dam qoymazdı.

Anasına baxıb qızını alallar,
Torbasına baxıb duzunu alallar.

Ananın duz-çörəyi qızının yavannığıdı.
Axşamnan duza gedən çox olar.
Arvad tutan yolun axırı yoxuşa qalxar.

Arvad dedin fələydi,
Bütün işdəri kələydi.

Arvad alanda ürəyiin sözünə bax, gözüün sözünə baxma.
Arpa verilməyən at qamçı gücüylə yeriməz.
Atası düz yerdə gəzənin, balası şumda şıllağ atır.
Atan soğan, anan sarımsax, sən hardan olmusan gülməşəkər.
Atı atın yanına bağlasan, hayınnan-huyunnan, xəsyətinnən götürəcəy.
Aşığı dastanda, bostancını bostanda.

Aşın dadı duzdadır,
Duzun dadı ölçüsündə.

Ayazda yatmıyan eşşəy tavlaan qədrin bilməz.
Bağı bağban, qoyunu çoban.

Bağa bax üzüm olsun,
Yeməyə üzün olsun.

Bağa baxarsan, bağ olar,
Baxmazsan, dağ olar.

Bala dəniz suyu kimi duzdudu,
Nə içilər, nə keçilər.

Bal olma ki, hamı səni yeyə, zəhər olma ki, hamı sənə tüpürə.
Bazarın başınnan papağ al, ayağınnan ayakqabı.

Bez alırsan, Mosuldan al,
Qız alırsan, əsildən al.

Bəndə bəndəyə neylər, Xuda gözdən salmasa.
Bir ağacın altında min qoyun yerrəşər.
Bir çırağın işığına qırx adam əyləşər.
Bir yalançı dos min düşmannan qorxuludu.
Bir gün duz yediyin yerə qırx gün salam ver.
Bizə çatdı, dəyirman yatdı.
Bişincə gözdiyən, düşüncə də gözduyər.
Bitə acıx eliyip, köynəyi yandırmazdar.= Bir birədən ötrü yorğanı yandırmazdar.

Bilən bir dadımlığ duzu da bilər,
Bilmiyənə dərya da versən, bilməz.

Bir mehriban söz bir stəkan şirin çaydan yaxşıdı.
Boş qabını vur, dolu qabını sındır, bu zülmü kim götürər.
Böyüy sözünə baxmayan böyürə-böyürə qalar.
Böyüh sözünə baxmayan zərər çəkər, baxan xeyir tapar.
Bulud altından çıxan gün, yaşmağ altınnan çıxan dil.
Bülbül viranədə ötməz, bayquş viranədən getməz.
Bülbül bağda oxuyar, bayquş xarabada.

Çobanı özünnən olanın qoyunu əkiz doğar, quzusu da dişi olar.
Çox da məçitin qapısı açığdı, itdə də həya olsun gərəy.
Çox yaşıyan çox bilməz, çox gəzən çox bilər.
Canavarın üzü ağ olsa, kəndə gündüz gələr.

Cavannıxda qocalığa güc saxla,
Pullu gündə pulsuz günə pul saxla.

Dadsız aşa duz neyləsin?
Ağılsız başa söz neyləsin?

Dağ başına qar gələr,
İnsan başına vay gələr.

Dana mıxı çıxardanda bir yerə dəysə, iki də özünə dəyər.
Dadanıbsan dolmuya, o da bir gün olmuya.

Dədəm bijdi, kündəni sayır,
Çiçəm[249] ki bijdi, kündədən kəsir.

Dəli dəlidən xoşdanır, molla ölüdən.
Dəvəçi ilə dostluğ eliyənin darvazası gen gərəy.
Dəmir nəmnən cürüyər, insan qəmnən cürüyər.
Dəli quyuya bir daş atar, yüz ağıllı fikirrəşib çıxarda bilməz.
Dəvə başını soxar qanqala, diyər, məni heş kim görmür.
Dərdi danışmasan içində yara bağlar, danışsan dərmanı tapılar.
Dəvə ölsə, bir batman yükdü, sərçə ölsə, bir çəngə tükdü.

[249] çiçə – ana

Dəliyə dedilər, niyə dəlisən?
Dedi, ağıllının dərdini çəkməhdən dəliyəm.

Dəvəni toya çağırıllar. O da ağladı ki, məni ya Naxçıvana – duza göndərillər, ya da Bərgüşada – düyüyə.

Dos odu, yaman gündə tanınsın.
Duz çörəh, düz çörəh.

Duzdu söz can arzusu,
Duzsuz söz baş ağrısı.

Duzsuz adam üzsüz olar.
Duzsuz adamnan düzdüh gözdəməzdər.
Duzdan ləziz, sudan əziz heç nə yoxdur.
Duzun üzünə gülümsəllər.
Duz-çörəy hakqını bilməyən kor olar.
Düyümüz olsaydı, qonşudan yağ da alıb aş bişirərdiy.
Düzə inanan duza da inanar.

El üçün ağlıyan gözdən olar,
Yar üçün ağlıyan gözəl olar.

El eybini sənə deyən, sənin də eybini elə deyər.
El elə sığışar, ev evə sığışmaz.
Elnən gələn qara günnər toy-bayram olar.
Elə adam var ki, atdını atdan salar, piyadanı ata mindirər.
Eşşəyə yəhər qoymaxnan at olmaz.

Eşşəy zəfərannan pay umar.
İt qaysavadan pay umar.

Evində yox urvalıx,
Könlünnən keçir koxalıx.

Evini təmiz saxla, qəfil qonağ gələr,
Canıı təmiz saxla, qəfil ölüm gələr.

Ərinə görə bağla başını,
Qazanına görə qaynat aşını.

Ər eldən gələr, oğul beldən,
Qardaşıma canım qurban.

Əri döymüş arvadı it də tutdu bi yannan.

Əsilsiz qızı almax çox asandı, amma saxlamax çətindi.
Əsilli qızı almax çox çətindi, amma saxlamax da çox asandı.

Əsilli əslin itirməz,
Bədəsil mərfət başa yetirməz.

Ətin çiyi ət gətirər, xəmirin çiyi dərt!

Əvvəli meydan olanın axırı zindan olar.

Əvvəl danışan bilsə ki, sora danışan nə deyəcəh, əvvəldən ağzın mumlayar.

Əv-eşiyini isdəmiyən adam, heş el-obasını isdəməz.

Fağırraraın üzgünü,
Bez geyinər qış günü.

Fərzəli dayının qor halvası,
Öz pulu, öz halvası.

Gedər bostanın qorası,
Qalar üzün qarası.

Gec tutar, karrı tutar,
Bir məzlumun ahı tutar.

Gəlibsən ayran işməyə, gəlmiyibsən ara acmağa.
Gəmidə oturub gəmiçiynən vuruşmağ olmaz.
Gəlin-gəlin olmaz, gəlin düşən ev gəlin olmalıdır.

Gəda qızınnan gəlin,
Danalı inəydən yelin olmaz.

Gəzəyən gəzə bilməz,
Gəzməsə, dözə bilməz.

Gəzdim İranı, Turanı,
Cənnət gördüm buranı = Aranı.

Gözəlliydə tayı yox,
Adamnıxda payı yox.

Guruldamağına baxma, yağası deyil.
Gülü gülüydən götü, bir ovuc da pay artığ.

Gündüz gəzər obanı,
Gecə sızlar dabanı.

Günsüzə gün olmaz,
Ərdəbildə yer olmaz.

Gül xarsız, gözəl nazsız, çörəy duzsuz olmaz.

Hacıhüseyn bəyin tavlasında yatıb, Nəsrəddin şahlığını yuxuda görür.

Haynan gələn haynan gedər, selnən gələn suynan gedər.

Hay versən, hayına gələr qonşular.

Heyvan kəsilməyincə yağı görünməz, insan danışmayınca ağlı.

Həccə gedən gəldi, duza gedən gəlmədi.

Hətiş koxa, mətiş koxa,
Bir evdə otuz koxa.

Həmişə dosduna sirrini elə de ki, elə bil, qarşında ən qəddar düşmanın var.

Hər vızıldayan bal yığsaydı, dozanqurdu çoxdan şam qayırmışdı.

Xalxlar yedi xan oldu,
Yetim yedi qan oldu.

Xəncərin ala bilmədiyini xoş söznən alarsan.

Xəncər nə qədər iti olursa olsun, insan dili onnan da kəsərridi.

Xəncər yarası gedər, dil yarası getməz.

Xəsisə dedilər, xəsdiyə yardım elə, özü başladı zarımağa.

Xəsdə yat xətir üçün.
Nanəcibə əl uzatma,
Bir tikə fətir üçün.

Xörəyi bişirən yağ olar,
Gəlinin üzü də ağ olar.

İçməmisən düzdü ayran,
İçərsən, olarsan heyran.

İki ölünü bir qəbrə qoymağ olar, ancağ iki arvadı bir evdə saxlamağ olmaz.

İki qulax iki eşitməy üçündü, bir ağız bir deməy üçündü.

İmam üçün ağlayanda yezid üçün də ağlayasan gərəh.

İnsan qulağınnan, heyvan dırnağınnan.

İsdiyənin bir üzü qara,
Verməyənin iki üzü qara.

İtdən çox çarıx daşıyan yoxdu, həmişə də ayağı yalındı.

İtin acığı quyruğunnan, atın hirsi qulağınnan bilinər.

İt-itnən boğuşdu, yolcunun işi rast düşdü.= Qonşu qonşuynan boğuşdu, qaracıya fürsət düşdü.

İti vurdum sinsidi,
O it də o itin cinsidi.

İt qızı ol, kişi arvadı ol.
Kişi qızı olub it arvadı olma.

İt də duz-çörəyi yadında saxlayar.
İynənin kiciy ucunu özə batır, böyüy ucunu özgəyə.

İyidim iyid olsun,
Kol dibi mənzilim olsun.=
Yarım yar olsun,
Kol dibi əvim olsun.

İyid ölər adı qalar,
Müxənnətin nəyi qalar?

Kasıblığ ayıb deyil ki, abırsızdığ ayıbdı.

Keçinin qoturu bulağın gözünnən su içər.
Ceyran isə bulanıx suyunnan içər.

Keçinin ölümü gələndə başını sürtər çobanın çomağına.

Kişinin özünə baxma, sözünə bax.
Arvadın dizinə baxma, gözünə bax.
Uşağın tozuna baxma, özünə bax.

Kosuya gülən adamın top qara sakqalı ola gərəy.
Kor keçəli bitdiyər ay qarannıx gecədə.

Könül var, gülə qonar,
Könül var, külə qonar.

Köpəyin duası yerinə yetsə, göydən gündə sümüh yağar.
Könlü balığ isdiyən, ayağını buzdu suya qoyar.

Qarğa da özünü quş bilir,
Dovğa da özünü aş bilir.

Qardaşımın əpbəyi baldı, xanımı güvənsin.
Tuman gendi, özü güvənsin.

Qardaş qardaşı pıcaxlıyar, dönüb yenə qucaxlıyar.

Qaranquş gəldi-gedərdi,
Bizə qalan boz sərçədi.

Qəribin çarəsi ağlamax, yetimin çarəsi sızdamax.

Qədirbilməzin başmaxlarını cütdədilər,
Dedi: – O tərəfə dur, gözümü çıxartmışdın.

Qız ki, kəkül çıxartdı, ver getsin,
Yoxsa papağıı yerə vurar.

Qızıldan taxdım olunca,
Bir quruca baxdım olaydı, nolardı.

Qız ağacı, qoz ağacı,
Hər gələn bir daş atar, gedər,
Kimsiyə düşər, kimsiyə düşməz.

Qızsız ana, duzsuz çörəh.

Qızım qız oturar, qiymət gətirər.
Dulum dul oturar, töhmət gətirər.

Qız ki, kəkil çıxartdı ver getsin ərə, çuvala qulp qoymayacaxsan ki.[250]

Qız yükü, duz yükü.

Qismətin olsa, gələr cahannan,
Qismətin olmasa, gedər cahannan.

Qorxa-qorxa cənnətə gedincə, oynuya-oynuya cəhənnəmə getməy yaxşıdı.

Qonşudan aş gəldi, gözümnən yaş gəldi.

Qonax əvə girənəcən utanar, əv yiyəsi soradan utanar.

Qonşunu iki inəyli isdə, özüü bir inəyli,
İsdə ki, Allah saa bir inəy versin.

Qonşunun duzu qonşuya borcdu.

Qovurğa qarın doyurmaz, qar susuzdux yatırmaz.

Qoyunu köpəyə tapşıran kababı qurda yedizdirər.

Qoyun deyər: – Qarnımı doydur, qora basdır.
Keçi deyər: – Qarnımı doyur, qara basdır.

Qoyun görməyən qoyun görsə, qova-qova otarar.

Lazım gəlsə, qurdun da tərəfini saxlamax olar.

Məni sayanın quluyam,
Saymayanın heş ağası da dəyiləm.

---

[250] "Un çuvalına tay etməmək" ifadəsinin ekvivalenti

Mərdimazara Allah nələt eləsin, axtarmağınan dəyil ki, gəlib özü səni tapacax.
Mərd ilə duz-çörəh ye, namərd ilə bal yemə.

Min atın varsa enişdə min,
Bir atın varsa yoxuşda.

Min daş-qaşın olunca, bir dənə ağıllı başın olsun.
Nə varrıya borşdu ol, nə yoxsuldan alacaxlı.
Nə artsa çiydən artar, bişmişdən heş nə artmaz.
Nə qarı gördüm, nə saçın hördüm.

Nənəm bir kündəni beş eliyir ki, çox olsun,
Dədəm beşini bir eliyib yeyir ki, tox olsun.

Neynirəm qızıl teşdi, içinə qan qusam.

Oğlan doğum, öydü məni.
Qız doğdum, söydü məni.

Ot öz kökü üsdə bitər.
Oğlan əvi alınca, qız əvi ölüncə.
Ördəh qaz yerişi gessə, paçası aralı qalar.
Övlad turşudu, yeyənin dişi qamaşır, yeməyənin ağzı sulanır.
Övlat dərdi çəhmiyən heş el dərdi də çəhməz.
Özünə rəva bilmədiyini başqasına məsləhət görmə.
Özünə işdəməydən iyrənən özgəsinə işdəməyə məcbur olar.
Özgəsinin sözünü sənə deyən sənin də sözünü özgəyə deyər.

Özünü gözlə ağlar gözdən, saxta sözdən, əsən dizdən, gülən qızdan.

Paxıl eşşəy qaya qırağı ilə gedər ki, yıxılıb ölüm, yiyəmə ziyan dəysin.

Paltarın ləkəsi su ilə gedər, ürəyin ləkəsi sözlə.

Pay verəndə ya özünü adam hesab elə, ya da pay verdiyin adamı.

Piyadanı at almağa, subay oğlanı qız almağa göndərməzdər.

Şakqıldadası qozum da var, cırası bezim də var.

Salmanca,[251] səən saldım saca,
Salınca qarnım aca.

Savaşanda elə savaşın ki, barışmağa üz qoyun.

Savaşan savaşana söyüşü satın alıb deyər.

Seyid Əhməd əliynən ilan tutur, onu da yalan tutur.

Səhər tezdən duran, bir də tez evlənən kor-peşman olmaz.

Şirin dil min ev tikər, acı dil min ev sökər.

Söymə məəm nökər dədəmə, söymüyüm səən bəy dədənə.

Soruşan dağlar aşar,
Soruşmayan çöldə çaşar.

Sütdü aş dəmdə gərəy,
Həm səndə, həm məndə gərəy.

Təhnədə çörəy qurtaranda vay qaranın gününə,
Göyə bulud gələndə vay sarının gününə.

---

[251] salmanca – pencər, göyərti

Tənbəl yoldaşına deyər, mənim əvəzimə də əsnə.

Toyuğ toyuğluğuynan su içəndə bir Allaha baxar.

Tülküdən bic heyvan yoxdu, cəliyə düşəndə dört ayağınnan düşər.

Uzaxdan baxıram sandalı xoş,
Yaxına gedirəm quşqunu boş.

Vaxında qızını döyməyən ana, sora dizinə döyər.

Verib peşman olmaxdansa, verməyib düşman olmax yaxşıdı.

Yaxşı oğul ata bağıdı,
Pis oğul ürəy dağıdı.

Yaxşı arvat pis kişini ər eylər,
Ortababı şir ürəhli nər eylər,
Yaxşı əri dillərdə əzbər eylər.

Yaxşı gündə düşmən gəlib dosd olar.

Yatan öküzün başına duran öküz oturar.

Yayda başı qaynıyanın qışda qazanı qaynar.

Yayda kölgə axtaran, qışda ocax axtarar.

Yaz bitirir, yay yetirir,
Payız götürür, qış ötürür.

Yeməynən doymuyan, yalamağınnan doymaz.

Yeməyin dadı duzdadı,
Dünyanın dadı gözdə.

Yerişin bilməyən yolu korlar,
Danışığını bilməyən sözü.

Yetimin ağzı çörəyə çatanda, başı daşa çatar.

Yetənə yetir, yetməyənə bir dəyənəh vurur.

Yoğurmadı, yapmadı, hazırca kökə tapdı.

Yoxsul adamın yox deməsi, varrı adamın xəsis olmasınnan yaxşıdı.

Yırtıxlı, yamaxlı gündə təzə,
Yırtıxsız, yamaxsız ildə təzə.

Yüz dənə yaxşılığ eliyəsən, bir dəfə eliyə bilməsən, gənə də pis olassan.

Yüyrəh at özünə qamçı vurdurmaz.

Yuxarı baxıb fikir eləməydənsə, aşağı baxıb şükür elə.

# XIV. MƏSƏLLƏR VƏ DEYİMLƏR

Ağrımaz başına duz bağlamağ – Lazımsız problem axtarmaq.

***

Ay qaynana, heş gəlin olmamısan? – Zalım qaynanaları məzəmmət etmək üçün işlədilirdi.

***

Bacadan düşdü şappadaxlar,
Haam[252] oldu şuppadaxlar. – Pis qız yaxşı yerə gəlin düşəndə el arasında kinayə ilə belə deyilir.

***

Baxtavar oldum, nə gəlinnər cərgəsinə, nə qızdar cərgəsinə düzüldüm. – Bəxtindən yarımayan qadınların gileyidir.

***

Balam məni andı. – Söhbət əsnasında əzizlərinin adını tez-tez çəkəndə (qardaş, bacı, oğul, qız) deyəllər: "Allah işii varsın, balam mən andı". Yanı ki, həmin an anasını yadına salıb.

***

Balasını duz kimi yalamağ – Övladı ilə çox səmimi görüşmək.

***

Bazarda qıl bahalaşdı, qaraçı saçın kəsdi. – Bahalığnan bağlı deyilən el məsəlidi.

***

Bəşirə dedilər: – A Bəşir, gəl, atı sula.
Dedi: – Dodaxlarım yaradı.
Dedilər: – Buyur, xəşil yeməyə,
Dedi: – Hanı məəm böyüh qaşığım?

[252] Haam – xanım

(İş görməyə tənbəllik edən, amma süfrəyə cəld oturan adamlar haqqında işlədilir.)

***

Bının min sifəti varmış. – Tez-tez cilddən-cildə düşən adama deyilir.

***

Bizim də şorbada duzumuz olsun. – Bizim də bu yaxşılıqda payımız olsun.

***

Burnuna duzdu su qoymağ – Kiminsə xətrinə dəymək, onu ağlatmaq.

***

Cındırı qızam, məən, mənn.

Tumanı bezəm, məən, məən. – Kasıb ailənin qızı imkanlı yerə gəlin gedibsə, onu sancmaq üçün oxunan yumorstik nəğmə. Bunu çırtıq çala-çala oxuyarmışlar.

***

Dad yarımçığ əlinnən – Bir işi dərindən bilməyib yekə-yekə danışan adamlara qarşı işlədilir.

***

Dişimin-başımın ağrısı gessin erməniyə = Nübarlığa çıxax. – Təzə çıxmış meyvə-tərəvəz yeyiləndə deyilən ifadələrdir.

***

Dəngəsi savılmax və yaxud dəngəsi pozulmax – Evni idarə edə bilməyən, ailədə sözü keçməyən adamlara qarşı işlədilən ifadədir.

***

Dəvəyə dedilər:

– Səən toya çağırıblar. Zalxa arvadın nəvəsiin toyuna.

Dəvə başdadı hönkür-hönkür ağlamağa.

Dedilər:

– Niyə ağlayırsan? Get, ye-iç, şıllaxla, gə.

Dedi:

– Baxtavar başıma, məni odun daşımağa, su gətirməyə çağırıllar. Günümə ağlıyıram.

(Hörmət qoyulmayan adamlara bu misalı çəkirlər.)

***

Duzdan duzdu olma, baldan şirin. – Hər şey həddində gözəldir.

***

Duza getməy – Yalana inanmaq

***

Duz kimi hər aşa girmə. – Hər yerə burnunu soxma.

***

Duz yerinə buz yalamaq – Dəyərsiz adama qiymət vermək.

***

Duzu yeyib duz qabını sındırır. – Nankordur.

***

Duzu yiyib, Duzdağı bulıyan – nankor adamlara qarşı işlədilən ifadədir.

***

Elə bil, Ərdəbil bazarıdı. – Çox səs-küy olanda belə deyilir.

***

Erməni qan gördü? – Qorxaq adamlara qarşı işlədilən ifadədir.

***

Əlinin duzu olmamağ – Bişirdiyi xörəyin dadı, ləzzəti olmayanda deyərlər ki, onun əlinin duzu yoxdur.

***

Əli xəmir, qarnı aj – Bin-bərəkəti olmayan adamdır.

***

Əlli qapının duzunu dadıb. – Çox üz görüb.

***

Əvimdə soğanım, duzum yoxdursa, daha nəyim var? – Soğanla duz varsa, hər şey var anlamında işlədilir.

***

Əyri ağac düzəlməz. – İnsanın pis xasiyyəti dəyişməz.

***

Əzrayılın bala paylaması – Bir gün də kəndə deyir, xəbər yayılır ki, Azreel deyib ki, mən bala paylıyıram hamıya. Analar çıxıb üsyan eliyibdi. Deyib, lazım dəyil sənin payın maa, Azreel. Sən balalarıma dəymə, pay verəcəyin balalar da özüün olsun.

***

Güzarı tüşməy – Yolu düşmək

***

Xudru iş görmə – Əməlli-başdı işin qulupunnan yapış.

***

İşi tüşəndə məvulduyur, işi geçəndə nərildiyir. – İşini yoluna qoydurana qədər yaltaqlanır, işi düzəldikdən sonra yekə-yekə danışmağa başlayır.

***

İtnən boyuna-boyuna bağlandıx. – Bəyənmədikləri nəsildən qız alanların vaysınmağı

***

Çörəyinin duzu olmamağ – 1. Nə qədər yaxşılıq etsə də, xeyri yoxdur.2. Bu ifadə həm də məcazi mənada işlədilir. Etdiyi yaxşılıqlar qarşısındakının vecinə olmayanda da deyilir.

***

Filankəs əlli dübəkdən duz dadır. – 1.Filankəs aləmi bir-birinə qatır, araqarışdıranlıq edir. 2.Düz toxum deyil, yaxşı ailənin övladı deyil.

***

Heş bunnan soruşan olmadı ki, ayın necəsidi. – Lazım oldu olmadı hər işə qarışan adamlara deyilir.

***

İndi oon duza gedən vaxıdır, vay duzdan qayıdanda. – İndi yalana inanır, düzünü anlayanda başına-gözünə döyəcək.

***

Köhnə damın daşı deyilsən ha, başıma tez-tez dəyəsən. – Tez-tez baş qaxıncı etmək

***

Qaynanan səni çox isdiyir – Dəsdərxan başına gəlib çıxan adamnara belə deyəllər.

***

Qızılbaş köhnəsi – Köhnəlmiş, amma dəyərini itirməmş əşya

***

Quyruğu qapı arasında qalanda mən yadına düşürəm. – İşi düşəndə məni xatırlayır.

***

Özünü öyməy itə gəlip = Qoy el tərifləsin səni – Hər yerdə özünü tərifləyən, çox qürrələnən adamnara deyəllər.

***

Naxçıvanın duzu, qızı, qarpızı. – Hər üçü Naxçıvanda gözəl olur.

***

Nə xınalı xanım olubsan – Az-az görünən adamlara deyilir.

***

Noolub, bala, tərəziin başını əyib? – Həmişə yaxşılıq edib, bir dəfə edə bilməyəndə inciyən adamlara qarşı işlədilən ifadədir.

***

Pişik dəsdəmazı – Pişih oturur, əlini-üzünü yuyur, ağzına, tüpürcəynə sürtür, başına, gözünə, qoluna, qıçına hər yerinə. Buna pişih dəstəmazı deyirlər. Kim ki, elə yüngülvari əlni-ayağını elə alabaşına, alababat yudu, təmizdədi, çimdi, tez elədi.Yanı hamı bilir ki, o dərəcədə tez olmaz. Belə olanda deer, pişih dəstəmazı elədin, bala? Getmişdin, bir əlin, ayağın, qolun kirini yuyardın da.

***

Sümüy azarı – Nəslə pis gəlin gələndə buna deyirlər sümüy azarı. Gəlin pis çıxır, uşağı doğur-törüyür, qavammırsan, boşuyammırsan, olur ömürlüy sənin tayfanda, nəslində sümüy azarı, sümüy yarası olur. Qutarammırsan, qaçammırsan, boşuyursan, uşağ qalır ortada.

***

Tikan olub ayağa batınca gül olub yaxaya sancıl. – Ətiacı, diliacı adamnara deyirlər. İrəhmətdiy anam bı sözü hey deyərdi, nəsiyət eliyərdi.

***

Tülküdən beş gün qabax doğulub. – Hiyləgər adamlara qarşı işlədilən ifadədir.

***

Yağışdar yağdı, catdaxlar doldu. – Filankəsə elə gəlir ki, aradan zaman keçib, etdiyi əməllər unudulub.

***

Yüyürməyin, qaçmayın, kəndə darğa gəlibdi. – Hər işə bir qulp qoyan adamlara işarə edilir.

***

Yuyulmamış çömçə kimi nə düşübsən ortalığa. – Özünə aid olmayan işlərə qarışan adamlara qarşı işlədilir.

# XV. ALQIŞLAR

## SUBAY QIZLAR ÜÇÜN EDİLƏN ALQIŞLAR

Ayağın ruzili olsun!
Adam balası çıxsın qabağına!
Ərin qazansın, bala, sən yeyəsən.
Ər çörəyi yeyəsən!
Elə hazır eləsinnər, sən yeyəsən!
Getdiyin ocağa ruzi, xeyir-dua aparasan!
Həmişə taxdın uca olsun!
Həmişə dövlətnən, övladnan olasan!

## XƏSTƏLƏRƏ ŞƏFA DİLƏMƏK ÜÇÜN EDİLƏN DUALAR

Allah elimizin üsdünə aydınnıx suyu səpsin!
Allah xəsdəliyi ortalıxdan götürsün![253]
Allah köməyin olsun!
Allah şəfanı versin!

## QONAĞIN VƏ EV SAHİBİNİN XEYİR-DUASI

Allah sırfanda duz-çörəyi həmmişə bol eləsin!
Duz-çörəy üsdə gəlmisiz. Həmmişə urzu üsdə gedəsiz.
Hər vaxtınız, sabahınız, günortanız, axşamınız xeyirli olsun!

[253] Söyləyici bu duanı covid üçün eləmişdi.

## MÜXTƏLİF ALQIŞLAR

Allah köməyin olsun, bı yetim-yesirin başını güneyə gətirəsən![254]

Duzdağı kimi durasan!

Hamısına Allah xeyir versin!

Qazanın heş qaynardan tüşməsin.[255]

Ömrün Duz dağına dönsün!

Səni görüm Duz dağına dönəsən!

---

[254] Allah sənə kömək olsun, uşaqlarını böyüdüb yerbəyər edəsən!

[255] Həm alqış, həm də qarğış kimi işlədilir. Qarğış kimi həmişə yas qazanının qaynaması, üzünün heç gülməməsi mənasına gəlir.

# XVI. HAVUŞ KƏNDİNİN TOPONİMLƏRİ

## YER ADLARI

Ağ yol
Baş Güney
Çatırrıx
Piçənəy
Xəşdi yer
Kələyli yer
Orta Güney
Şırrannı bulax

## YURD ADLARI

Alçalı bulağ
Baş Kəvşən
Çıraxana
Xırda xanım yurdu
Kom Armud
Qazan yaylağı
Mayıl xan
Orta Kəvşən
Püşgəyli
Sarı bulağ
Tamaşalığ
Tək Armud

## QAYALAR

Ağ qaya
Gəlin qayası
Göy daş
Qırmızı qaya
Sarı qaya

## DAĞLAR

Böyüy Cəvizdiy
Kiçiy Cəvizdiy

## DƏRƏLƏR

Boğaz
Böyüy Cəvizdiy
Çatırrığ
Kiçiy Cəvizdiy
Umkülsümün dərəsi

# FOTO-ŞƏKİLLƏR



**Havuş kəndi**



**Üzərlik toxumundan hazırlanmış gül**



**Üzərlikdən toxunmuş bəzək əşyası**



**Sübadə Həsənova ilə birlikdə**



**Klas yaylıq**



**Gülü şal**



**Şal yaylıq**



**Şal yaylıq**



**Su rəngi yaylıq, 1952-ci ildə toy üçün alınıb.**



**Klas yaylıq**



**Krepdeşin yaylıq**



**Kəlağayı**



**Heydəri sırğa**
**(Sırğa vaxtilə üç ətəkli olub, sonradan ətəkləri kəsilib)**



**Havuş kökələri: maş çöçəsi (lobyalı kökə) və qalın**



**Məməli çöçə (məməli kökə)**



**Maş çöçəsi (lobyalı kökə)**



**Göz qaytarmaq üçün vasitə,**
**dağdağan ağacından hazırlanıb.**



**Üzərlik**

# MÜNDƏRİCAT


**ÖN SÖZ**.......................................................................3
**I. MİFOLOJİ MƏTNLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR.**14
Allahın ömür paylaması .....................................................14
Allahın iş bölgüsü...............................................................16
Yerin, göyün tabaxları ........................................................17
Cəhənnəm...........................................................................20
Hərənin bir ulduzu...............................................................21
Ülkər ulduzu .......................................................................21
Niyə üzü üstə yatmazlar? ...................................................23
Ayla Günəş .........................................................................24
Cin .......................................................................................24
Bəroot düzü .........................................................................31
İtin urzası .............................................................................32
İtlə pişiyin duası ..................................................................33
İnsanların bəxti ....................................................................33
Qızılgülün yaranması ..........................................................34
Duzdağ necə yaranıb? .........................................................34
Duz ehsanı ............................................................................35
Gəlin qayası .........................................................................36
Murad quşu ..........................................................................36
Dünya daşqını ......................................................................37
İsmayıl qurbanı ....................................................................39
Kəkliyin ayaqları niyə qırmızıdır? ......................................41
Qurbağanın ovurdu niyə şişkindir? .....................................42
Gəlinə niyə cehiz verilir? ....................................................43
Ər murrov .............................................................................43
Göy daş ................................................................................45
Qazan xanın yurdu ...............................................................45
İki bacı .................................................................................46
Əhməd və Gülgəz .................................................................47
Namazım qəza qaldı ............................................................50
Təbibin nağılı .......................................................................52
On çertlik ağlı olan kişi .......................................................53

**II. İNANCLAR** .......... 55
**III. TÜRKƏÇARƏLƏR** .......... 74
**IV. ETNOQRAFİK MƏTNLƏR** .......... 79
Havuşun toy adətləri .......... 79
Havuşun yas adətləri .......... 93
Havuş kəndinin etnoqrafik həyatında təndir .......... 110
Dürməklər .......... 140
Ovçuluq adətləri .......... 141
Orucluq .......... 144
Qurban ətinin paylanması .......... 147
Məhərrəmlik .......... 149
Seyidlər .......... 154
Buğda boyda, arpa boyda .......... 157
Ummaq .......... 158
Kirvəlik və sünnət toyu .......... 159
Dalınca qırmızı alma göndərmişəm? .......... 162
Ölçü vahidləri .......... 164
Uşağın onunu və qırxını tökmək .......... 165
Əmgək .......... 167
Diş hədiyi .......... 167
Siçan qağam diş gətirdi .......... 168
İtiyin tapılması .......... 169
Dübək, dəstər, qovurğa, qovut .......... 169
Vaxtın saatsız təyin edilməsi .......... 178
Yarma .......... 179
Ləpə .......... 180
Südaşı .......... 181
İçalat .......... 184
Sac qovurması .......... 185
**V. NAĞILLAR** .......... 186
Tamahkar kişi .......... 186
İlan oğlan .......... 189
Ağ qoyun, qara qoyun, başımı hara qoyum? .......... 191
İki tacir .......... 193
Allahın işinə qarışmaq olmaz .......... 196
Dozanqurdu yeyən kişi .......... 200

Ruzumu Allah bacadan tökəcək ........................................203
Allahın dostu ........................................205
Dəmirçiyə qismət olan var-dövlət ........................................207
Ağıllı kişinin söhbəti ........................................210
Ata və oğul ........................................212
Duz məhəbbəti ........................................215
Dağdan ağır höt-höt bacının nağılı ........................................218
Ağıldankəm ər-arvadın nağılı ........................................223
Ağıllı çoban ilə səqqət arvadı ........................................229
Eşşəklə canavarın nağılı ........................................233
**VI. LƏTİFƏLƏR** ........................................236
Ala öküz, sən mənə od qoydun ........................................236
Nənə ilə nəvənin bəhsi ........................................236
Qarın-qarta dartışdıran kişi ........................................237
Ağzına da gərmə qoy ........................................239
Duzla, qoxmasın ........................................241
**VII. BAYATILAR** ........................................242
**VIII. NƏĞMƏLƏR** ........................................246
Haxıştalar ........................................246
Gülümeylər ........................................249
Yallıbaşılar ........................................251
Gəlin, xoş gəldin, xoş gəldin ........................................255
Müxtəlif parçalar ........................................257
**IX. OXŞAMALAR** ........................................259
**X. SATAŞMALAR, ÖCƏŞMƏLƏR** ........................................260
**XI. SANAMA** ........................................261
Bəldərən göz ........................................261
**XII. TAPMACALAR** ........................................262
**XIII. ATALAR SÖZLƏRİ** ........................................263
**XIV. MƏSƏLLƏR VƏ DEYİMLƏR** ........................................279
**XV. ALQIŞLAR** ........................................285
Subay qızlar üçün edilən alqışlar ........................................285
Xəstələrə şəfa diləmək üçün edilən dualar ........................................285
Qonağın və ev sahibinin xeyir-duası ........................................285
Müxtəlif alqışlar ........................................286
**XVI. HAVUŞ KƏNDİNİN TOPONİMLƏRİ** ........................................287

Yer adları ........................................................................ 287
Yurd adları ........................................................................ 287
Qayalar ........................................................................ 288
Dağlar ........................................................................ 288
Dərələr ........................................................................ 288
**FOTO-ŞƏKİLLƏR** ........................................................................ 289

**Şərur folklor örnəkləri, II kitab**
**(Havuş kənd sakinindən**
**toplanmış nümunələr).**
Bakı, Elm və təhsil, 2023

**Korrektorlar:**
Məhsəti Süleymanova
Vildan Məmmədova

**Kompyuterdə yığdılar:**
Ruhəngiz Əlihüseynova
Cəmilə Novruzova

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 304 səh.
Tirajı: 300

"Elm və təhsil" nəşriyyatının direktoru:
**İnal MƏMMƏDLİ**
Çapa imzalanmış 09.10.2023
Şərti çap vərəqi 19. Sifariş № 498
Kağız formatı: 60x84 1/16 Tirajı: 300

Kitab **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8/4